Bəhs etdiyimiz dövrdə Xankəndi elektrotexnika zavodu şəhərin sənayesində mühüm yer tuturdu. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə zavodun beş min kvadrat metrlik daha bir istehsalat korpusu tikilib istifadəyə verildi.[8] Zavodda əvvəllər yalnız stolüstü ventilyatorlar və məişət kaloriferləri istehsal olunmuşdursa, 1970-ci illərin sonlarında burada istehsalın çeşidində xeyli irəliləyiş əmələ gəldi. Artıq 1970-ci illərin ortalarında zavodda ictimai binaları, məişət və müalicə binalarını işıqlandırmaq üçün müasir tipli elektrik çıraqları buraxmağa başlandı. 1980-ci illərin əvvəllərində müəssisədə 14 növ məhsul istehsal olunurdu. 1970-1980-ci illərdə məhsul istehsalı 32 dəfədən çox artmışdı.[9]

XX yüzilliyin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə Xankəndidə yaradılmış sənaye müəssisələrindən biri də lüminessent lampaları üçün işıq armaturları istehsal edən kombinatın inşa edilməsi idi. Bu kombinat Xankəndi Elektrotexnika Zavodunun nəzdində fəaliyyət göstərirdi.

1970-1985-ci illərdə Azərbaycan SSR-in Xankəndi şəhərində dinamik inkişaf etmiş sənaye sahələrindən biri də Şərabçılıq sənayesidir. Bəhs etdiyimiz illərdə Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına ümumilikdə Dağlıq Qarabağda 5 yeni şərabçılıq zavodları tikilib istifadəyə verildi.[10]

1960-cı illərin sonlarında Xankəndinin müasir avadanlıqlarla təchiz olunmuş iri Mebel Fabriki işə düşmüşdü. 1970-ci illərdə isə həmin fabrikin bir neçə filialları yaradıldı. Xankəndi mebel fabriki keçmiş İttifaq miqyasında ixtisaslaşmış böyük müəssisə kimi tanınırdı. Burada istehsal olunan məhsullar – mebel, masa, kürsü, kreslo, çarpayı, dolab, bufet, altlıq, məişət əşyaları və başqa məmulatlar keçmiş ittifaq məkanında satılır və müəssisəyə yüksək gəlir gətirdi. Müəssisənin istehsal

---

[6] **ARDA**, F. 89, s.1, i.9, v.10.

[7] **ARDA**, F. 17, s.1, i.701, v.29.

[8] Leyla Hüseynova. **Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri**. Bakı, "Təhsil", 2011, 216 s., s.86.

[9] **ARDA**, F.411, s.7, i.12, v.5.

[10] Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (**ARDSPİHA)**, F.1, s.200, i.19, v.21, 74, 331, 55, 169, 7, 85, 206, 233.

həcmi ilbəil yüksək templə artırdı. 1960-cı illə müqayisədə fabrikin istehsal həcmi 1985-ci ildə 5,9 dəfə artmışdır.[11]

Heydər Əliyevin göstərişləri əsasında Xankəndidə yaradılmış və inkişaf edən sənaye sahələrinin biri də "Xankəndi tikiş fabriki" idi. 1970-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına tikiş fabrikində əlavə korpuslar inşa edildi. Keçmiş dəzgahlar yeniləri ilə əvəzləndirildi. Belə bir fabrikin Xankəndidə fəaliyyəti və onun lazım olan şəraitlə təmin edilməsi Ulu öndər Heydər Əliyevin bölgəyə göstərdiyi çox böyük qayğının nəticəsi idi. Çünki həmin müəssisədə yüzlərlə əhali işləyir və lazımi əmək haqqı ilə təmin olunurdular. Fabrikin istehsal etdiyi məhsullar nəinki respublikamızda, keçmiş SSRİ məkanında hətta ittifaqın hüdudlarından kənarda da olduqca məşhur idi.

1970-1985-ci illərdə bölgədə inşa edilmiş sənaye sahələrindən biri də, Xankəndi süd kombinatının yeni pendir sexi idi. Bəhs etdiyimiz dövrdə Xankəndi şəhərində fəaliyyət göstərən süd kombinatının bütün sexləri Azərbaycan hökumətinin göndərdiyi yeni avtomat qurğularla təmin edildi və sexlər mexanikləşdirildi.

Xankəndi şəhərindəki süd kombinatında respublikada quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Dövlətimizin xaricdən aldığı avadanlıqlar həmin sexdə quraşdırılmışdı. Süd və süd məhsullarının adam başına düşən istehsal səviyyəsinə görə Xankəndi şəhəri Azərbaycan SSR-in şəhərləri arasında ilk yerlərdən birini tuturdu. Burada istehsal olunan məhsullar nəinki yerli əhalinin tələbatını ödəyir, hətta Ermənistana və İttifaqın digər regionlarına da göndərilirdi.[12]

Azərbaycanın Yuxarı Qarabağ ərazisi tikinti-xammal materialları ilə zəngindir. Ona görə də burada yerli xammala əsaslanan inşaat materialları sənayesinin müxtəlif sahələri yaranmış və inkişaf etmişdi. 1975-1980-ci illərdə Xankəndi ərazisində yeni əhəng, taxta-şalban, kərpic, keramit sexləri yaradılmışdı.[13]

1970-1985-ci illərdə Azərbaycan hökuməti Xankəndi şəhərində un və un məhsulları, şirniyyat sexləri, ət kombinatları, kolbasa sexi və başqa müəssisələr tikib əhalinin istifadəsinə verilmişdir.

Azərbaycan hökuməti vilayətdə energetika təsərrüfatının inkişafı üçün xüsusi tədbirlər həyata keçirərək 1970-1985-ci illərdə 1300 kilometrlik yüksək voltlu elektrik xətti çəkmişdir. Dağlıq Qarabağ Azərbaycanda üçtərəfli elektrik təchizatı olan yeganə regiondur. Belə təchizat vilayətin elektrik enerjisi ilə daha yüksək dərəcədə etibarlı olmasını təmin edir.[14]

Beləliklə, 1970-1985-ci illərdə Respublikamızın rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü, inadlı fəaliyyəti nəticəsində Azərbaycan SSR-in Xankəndi şəhərində sənaye üstün, sürətlə və dinamik inkişaf etdi. Xankəndi sənayesi 1970-ci illə müqayisədə 1980-ci ildə 249 faiz, 1985-ci ildə isə 300 faiz artdı.[15]

Aparılan tədqiqatlar nəticəsində müəyyən olunur ki, bəhs etdiyimiz illərdə Xankəndi sənayesindəki göstəricilər Respublikamızın şəhərləri ilə müqayisədə üstün

---

[11] **ARDA**, F.27, s.1, i.2, v.4.
[12] **ARDA**, F.456, s.16, i.2, v.5.
[13] **ARDA**, F.411, s.7, i.5, v.8.
[14] **ARDA**, F.13, s.4, i. 20, v.2.
[15] **ARDSPİHA**, F.27, s.2, i.54, v.43.

olmuşdur. 15 il ərzində Xankəndi sənayesi istehsal artım göstəricisinə görə ümumrespublika səviyyəsini 3 dəfə ötüb keçmişdir.[16] 1985-ci ilin sonralarında Xankəndi sənayesi istehsal fondlarının dəyəri 1980-ci illə müqayisədə 55,6 faiz artmışdır ki, bu da bütövlükdə respublika üzrə olan göstəricilərdən 46,5 faiz çoxdur. 1985-ci ildə Xankəndi sənayesində 1923-cü illə müqayisədə 50 dəfədən çox adam çalışırdı ki, bundan 52 faizi qadın idi. Əhalinin hər 10 min nəfərinə düşən sənaye işçilərinin sayına görə Xankəndi şəhəri Naxçıvan, Bərdə, Ağdam, Şamaxı, Fizuli və digər şəhərlərdən təxminən 2 dəfə artıq idi. Sənayedə məşğulluq göstəricilərinə görə Xankəndi şəhəri yalnız Bakı-Sumqayıt şəhərlərindən geri qalırdı. 1970-1985-ci illərdə Xankəndi şəhərində sənaye kompleksinin əsasını elektrotexnika, ipəkçilik, maşınqayırma, elektroenergetika, tikinti materialları, toxuculuq, mebel, ayaqqabı, ət-süd sənayesi və başqaları müvəffəqiyyətlə inkişaf etmişdi.[17]

Dünya siyasətçisi Heydər Əliyev çıxışlarından birində 1970-1985-ci illərdə sənayenin inkişafına münasibət bildirərkən qeyd etmişdir ki, bu illərdə Azərbaycanda sənaye dinamik inkişaf etmiş, 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, 250-dən çox iri zavod, fabrik və istehsalat sexləri tikilmiş, sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, məhsul istehsalı 3,3 dəfə, mənfəət 3,2 dəfə, sənayeməhsuldar personalın fondlarla təchizatı 1,4 dəfə artmış, 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdir. Ölkəmizdə buraxılan sənaye məhsulları dünyanın 65 ölkəsinə ixrac olunmuş və xalqımızın maddi rifah halı xeyli yaxşılaşmışdır.[18]

***Əhalinin rifah və məişətində dinamika***

Apardığımız araşdırmalardan məlum olur ki, 1970-ci illərdə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Xankəndi şəhərində 250 faiz artmışdır. Həmçinin sənaye məhsulları istehlakçının həcmi ümumrespublika üzrə 229 faiz, Xankəndi şəhərində 281 faiz, kapital xərcinin artım həcmi ümumrespublika üzrə 219 faiz, Xankəndi şəhərində 417 faiz, ticarət mal dövriyyəsinin həcmi ümumrespublika üzrə 240 faiz, Xankəndi şəhərində 279 faiz, məişət xidməti işi ümumrespublika üzrə 540 faiz, Xankəndi şəhərində 550 faiz artım olmuşdur.[19]

1970-1985-ci illərdə Xankəndi şəhərində ictimai istehlak fondlarında əhaliyə verilən ödənc və güzəştlərin məbləği üç dəfə çoxalmışdır.[20] Həmin illərdə qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına, başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artmışdır. Aparılan araşdırmalardan məlum olur ki, 1980-ci ildə əhalinin hər 10 min nəfərinə düşən təqaüdçülərin sayı Xankəndi şəhəri istər ümumrespublika səviyyəsindən (14 faiz), istərsə də Naxçıvan MR ilə müqayisədə (12 faiz) üstün olmuşdur. Ayrılan təqaüdlərin həcmində də bu fərqlər müşahidə edilmişdir. Lakin DQMV XDS "sosial

---

[16] **ARDA**, F.24, s.1, i.137, v.18.
[17] **ARDA**, F.411, s.7, i.2, v.6.
[18] Heydər Əlirza oğlu Əliyev. **Minilliklərin qovuşuğunda**. Bakı, "YNE", 2001, 184 s., s.20-23.
[19] **ARDA**, F.17, s.1, i.7, v.21.
[20] **ARDA**, F.2502, s.1, i.55, v.2.

təminat sahəsində səlahiyyətləri”ndən çox məharətlə istifadə etmişdilər.[21] Belə ki, yerli və ittifaq əhəmiyyətli pensiyalar təyin edilərkən Vilayət Sosial Təminat Şöbəsi ikili mövqe tutmuş, faktiki xəstə olan azərbaycanlılar haqqında Tibbi Əmək Ekspertizasının rəyi həmişə mənfi olurdu.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin Xankəndi şəhərində həyata keçirdiyi mühüm tədbirlərdən biri də, burada yaşayan əhalinin istehlak tələbatı ilə təklif arasında uyğunluq yaratmaq, əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödəməkdən ibarət olmuşdur. Xankəndi şəhərində əhalinin alıcılıq qabiliyyətinin artması istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi şəhərdə mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdur. 1971-1981-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Xankəndi ərazisində 166 yeni ticarət və ictimai iaşə müəssisəsi tikilib əhalinin istifadəsinə verilmişdi.[22] Həmin illərdə Xankəndi şəhərində dövlət və kooperativ ticarətində, ictimai iaşə daxil olmaqla, pərakəndə mal dövriyyəsi 2 dəfə çoxalmışdır.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1980-ci illərdə istər adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcminə, istər ticarət müəssisələrinin miqdarına, istərsə də adambaşına düşən ticarət mağazalarının sahəsinə görə Xankəndi şəhərindəki ümumi göstəricilər həm ümumrespublika səviyyəsində, həm də Azərbaycanın digər şəhərləri ilə müqayisədə üstün olmuşdur. Məsələn, təkcə 1981-ci ildə 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı ümumrespublika üzrə 28, Naxçıvan MR-da 24, Xankəndi şəhərində 42 idi. 10 min nəfər hesabı ilə mağazaların ticarət sahəsi (kvadrat kilometrlə), ümumrespublika üzrə 1127, Naxçıvan MR 1319, Xankəndi şəhərində 1743 kvadrat kilometr olmuşdur. Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi ümumrespublika üzrə 617 manat, Naxçıvan MR 420 manat, Xankəndi şəhərində 642 manat məbləğində idi.[23]

Xankəndi əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşmasında ictimai-iaşə müəssisələri böyük əhəmiyyət kəsb edirdi. 1970-1980-cı illərdə Xankəndi şəhərində yeni yeməkxana, restoran, mətbəx-fabrik, qəlyanaltı və bufetlər yaradılmasına xüsusi diqqət yetirilmişdir.[24] Bu dövrdə mövcud obyektlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. İctimai-iaşə müəssisələrinin yerləşdirilməsi prosesi nəzərdən keçirilərkən məlum olur ki, burada da, erməni rəhbərliyi qərəzli mövqe tutmuşlar. Məsələn, 1970-1985-ci illərdə Xankəndi, Xocavənd, Hadrut, Ağdərə rayonlarında ictimai-iaşə xidməti müəssisələrinin yerləşdirilməsi və xidmət həcmi 2,5 dəfədən çox artmış, Şuşa rayonunda bu artım 1,9 dəfəyə çatmışdır.[25] Ən böyük ictimai-iaşə müəssisələri Xankəndi şəhərində yaradılmışdır.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin və dövlət başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Xankəndi şəhərində əhaliyə ictimai iaşə və mədəni məişət xidməti dinamik inkişaf etmişdir. Aparılan tədqiqatlara əsasən

---

[21] **ARDA**, F.13, s.4, i.20, v.2.
[22] **ARDA**, F.27, s.1, i. 649, v.190.
[23] **ARDA**, F.271, s.1, i.6, v.4.
[24] **ARDSPİHA**, F.461, s.1, i.4582, v.4.
[25] **ARDSPİHA**, F.420, s.1, i.43, v.42.

müəyyən edilmişdir ki, Xankəndi şəhərində hər sakinə düşən məişət xidmətlərinin həcmi 1966-1970-ci illərdə 13 manat olmuşdursa, 1971-1975-ci illərdə bu göstərici artaraq 18 manata, 1976-1980-ci illərdə 25 manata çatmışdır. Bu göstəricilər ümumrespublika səviyyəsindən xeyli üstündür. Belə ki, hər bir sakinə düşən məişət xidmətinin həcmi 1980-1985-ci illərdə ümumrespublika üzrə 20-30 manat olmuşdursa, Naxçıvan MR-da 15-21 manat, Xankəndi şəhərində isə 31-41 manata çatmışdır. 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının miqdarına gəldikdə isə ümumrespublika üzrə bu göstərici 1981-1986-cı illərdə 15-17 emalatxana, Naxçıvan MR-da 21 emalatxana, Xankəndi şəhərində isə 29-32 emalatxana düşürdü.[26]

Apardığımız araşdırmalara görə Xankəndi ticarət müəssisələrində çalışanların təxminən 60 faizini qadınlar təşkil edirdi. İctimai iaşə və ticarət müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 1965-ci ildəki 67 manata qarşı, 1975-ci ildə 87 manata qalxmışdır.[27] Vilayət rəhbərliyinin ayrı-seçkilik siyasəti burada da özünü göstərmişdir. Aparılan araşdırmalardan aydın olmuşdur ki, Xankəndi şəhərində ticarət müəssisələrində çalışanların demək olar ki, 95 faizini ermənilər təşkil etmişlər.[28]

Bölgənin inkişafını daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Xankəndi şəhər əhalisinin həyat səviyyəsini yüksəltmək üçün, onların artan tələbatını ödəmək baxımından bazarları müxtəlif məhsullarla doldururdu. Hətta 1985-ci ildə Xankəndidə mal dövriyyəsinin həcmi 1966-cı illə müqayisədə 5,1 dəfə artmışdır. Halbuki bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə bərabər idi. Göstərilən dövr ərzində adambaşına düşən mal dövriyyəsinin inkişaf surəti ümumrespublika üzrə 2,7 dəfə, Azərbaycanın Xankəndi şəhərində 3,7 dəfə təşkil etmişdir.[29] Həmin illərdə mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi Azərbaycan üzrə 1,9 dəfə, onun tərkib hissəsi olan Xankəndi şəhəri üzrə 2,6 dəfə artmışdır. Həmçinin 1979-cu ildə ictimai iaşə müəssisələrində hər 10 min nəfərə düşən yerlərin sayı respublikamızda 731-ə düşdüyü halda, Xankəndidə 805-ə çatmışdır.[30]

Dövlət başçısı Heydər Əliyevin qayğısı nəticəsində 1970-1985-ci illərdə Xankəndi şəhərində yeni mikrorayonlar, qəsəbələr salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə Xankəndi şəhərində mənzil tikintisi sahəsində əldə edilən nailiyyətlər respublikamızın bütün şəhərlərindən yüksəkdə dayanmışdır.

Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs etdiyimiz dövrdə bir sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,9 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MR-da 9,5 kvadrat metr olmuşdursa,[31] Azərbaycanın Yuxarı Qarabağ bölgəsində (o cümlədən Xankəndidə) bu göstərici 14,6 kvadrat metrə

---

[26] **ARDSPİHA**, F.89, s.1, i.9, v.4.
[27] **ARDA**, F.271, s.1, i.2, v.9.
[28] **ARDA**, F.894, s.4, i.65, v.131.
[29] **Народное хозяйство Азербайджанской ССР к 70 летю Великого Октября.** Баку, 1987, 272 с.
[30] **ARDSPİHA**, F.89, s.1, i.6, v.27.
[31] Ədalət Qasımov. **Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri)**. Bakı, "Təhsil", 2009.

çatmışdır.[32] Fərdi mənzil tikintisi üzərində qoyulan məhdudlaşmalar aradan götürülmüş, kreditləşmə üçün əlverişli şərait yaradılmış və tikinti işi sürətlənmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərində əhalinin mədəni-məişət şəraitinin yaxşılaşmasını burada qazlaşdırma işinin həyata keçirilməsində də görmək olar. Keçən əsrin 70-ci illərində bölgəyə qaz çəkilişinə başlanmış 1978-ci il dekabrın 30-da isə Yevlax-Xankəndi qaz kəmərinin açılışı keçirilmişdi. 107 km uzunluğunda olan bu kəmərin bir hissəsi dağlarda, çətin şəraitdə çəkilmişdi. Artıq 1986-cı ildə Xankəndi şəhəri 100 faiz qazla təmin edilmişdi. Halbuki, ümumrespublikamız üzrə bu göstərici 96,2 faizə bərabər idi.[33]

Bəhs etdiyimiz dövrdə Xankəndi şəhərinin su təchizatı sahəsində də Azərbaycan rəhbərliyi xüsusi diqqət yetirmişdir. Təsadüfi deyildir ki, Xankəndi şəhərinin içməli su ilə təchizatı məsələsi 1970-ci illərdə tamamilə həyata keçirilmişdir.[34] Bəhs olunan dövrdə Xankəndi şəhər əhalisinin mənzillərinin su kəməri ilə təchizi ümumrespublika səviyyəsindən 2 dəfə yüksəkdə dayanmışdır.

XX yüzilliyin 70-ci illərində Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakını Xankəndi ilə birləşdirən Ağdam-Xankəndi dəmir yolunun çəkilişinə başlanmışdı. 12 yanvar 1979-cu ildə 26 kilometrlik həmin dəmiryolu istifadəyə verildi [20]. Bəhs etdiyimiz illərdə Xankəndi şəhərində avtomobil nəqliyyatı vasitəsilə yük daşınmasının həcmi ilbəil artmışdı.

Yeri gəlmişkən onu da qeyd edək ki, 1985-ci illərdə Xankəndi şəhərində yük avtomobilləri parkı iki dəfə artmışdır. Ümumrespublika səviyyəsində isə bu göstərici 1,7 dəfəyə bərabər idi. Xalq təsərrüfatının ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində şəhərdə avtomobil nəqliyyatı daha da inkişaf edirdi. Xankəndi şəhərində avtomobil nəqliyyatının inkişaf etməsini onda görmək olar ki Azərbaycanın hər 1000 sakininə 17,5 avtomobil düşdüyü halda Xankəndi şəhərində 26,5 avtomobil, Naxçıvan MR-da isə 17 avtomobil düşürdü.[35] 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda, Xankəndi şəhərində 4,8 dəfə artmışdır. Bundan əlavə sərnişinlərin avtomobildə daşınması həcmi respublikamızda 2,2 dəfə, Xankəndi şəhərində 2,6 dəfə, taksilərlə daşınma respublikamızda 2,4 dəfə, Azərbaycanın Xankəndi şəhərində 4,2 dəfə artmışdır.[36] Aparılan araşdırmalardan məlum olur ki, Xankəndi şəhərində avtobus marşrutları sıxlığı orta respublika səviyyəsindən 2,6 dəfə çox olmuşdur.[37]

Xankəndi şəhərində rabitənin də inkişafı bəhs olunan dövrdə dövlət başçısının diqqətində saxladığı əsas məsələlərdən biri idi. 1980-ci illərin ortalarında adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Azərbaycanın Xankəndi şəhərində 29,5 manat təşkil etmişdir. Bu dövrdə telefon aparatlarının sayı təxminən iki dəfə artdı. Aparılan hesablamalara görə 1985-ci ildə

---

[32] **ARDA**, F.895, s.1, i.34, v.7.
[33] **ARDA**, F. 895, s.1, i.34, v.7.
[34] **ARDSPİHA**, F.410, s.1, i.70, v.96.
[35] **ARDA**, F. 89, s.1, i.9, v.26.
[36] **ARDA**, F.2502, s.1, i.702, v.28.
[37] **ARDA**, F.894, s.4, i.65, v.131.

Xankəndi şəhərində əhalinin hər 100 nəfərinə 12,4 telefon düşürdü. Ümumrespublika səviyyəsində bu göstərici 7,9 bərabər idi. Həmçinin Xankəndi şəhərində ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə.[38] ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. 1970-1985-ci illərdə Xankəndi şəhərində şəhərlərarası telefon danışıqlarının sayı 2 dəfə artmışdı. Xankəndi şəhərində şəhərlərarası telefon rabitələrinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə 4,15 faiz, Azərbaycanın Xankəndi şəhəri üzrə 7,69 faiz təşkil etmişdir.[39]

1970-1985-ci illərdə Xankəndi şəhərində radio-tele xəttinin çəkilişi ilbəil genişləndirilmişdi. Bakı-Şuşa və Şuşa-Naxçıvan radio-tele xəttinin çəkilişi Xankəndi şəhərində radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndidə televiziya studiyasının istifadəyə verilməsi Dağlıq Qarabağ əhalisinin Moskva və Respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı.

1970-1985-ci illərdə Heydər Əliyevin göstərişləri əsasında Azərbaycan hökuməti Xankəndi əhalisinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirmişdi. 1970-1985-ci illərdə şəhərdə hər cür tibb avadanlıqları ilə təchiz edilmiş, yeni qadın və uşaq məsləhətxana və poliklinikaları tikilmişdi. Bu dövrdə Azərbaycan hökuməti tərəfindən Xankəndi səhiyyə idarələri dərman, tibbi məmulatları və avadanlıqlarla təmin edildi.[40]

1984-cü il yanvar məlumatına görə Xankəndi şəhərində 900 çarpayılıq 9 xəstəxana, 2 dispanser, sanitariya epidemioloji stansiya, 250 həkim, 600 orta ixtisaslı tibb işçisi var idi.[41] Tədqiqatlardan məlum olur ki, bütün Dağlıq Qarabağdakı xəstəxanaların təxminən üçdən biri, çarpayıların ikidən biri, həkimlərin ikidən biri, orta ixtisaslı tibb işçilərinin üçdə biri Xankəndi şəhərində fəaliyyət göstərirdi. 1970-1985-ci illərdə Xankəndi şəhərində əhalinin xəstəxana çarpayıları ilə təminatı, bütün ixtisaslardan olan tibb işçiləri ilə təminat və başqa sahələrdə də istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə hər 10 min nəfərə düşən çarpayıların sayı Azərbaycan Respublikası üzrə 97,8 ədəd, Naxçıvan MR-da 94,6 ədəd,[42] Xankəndi şəhərində 104,6 ədəd olmuşdur. On min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8, Naxçıvan MR-da 80,1, Xankəndi şəhərində 126,3 nəfər düşürdü. On min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MR-da 26,2 nəfər, Xankəndi şəhərində 28,9 nəfər düşmüşdü.[43]

1970-1985-ci illərdə Azərbaycan hökuməti Xankəndi şəhərində bədən tərbiyə və idmanın maddi-texniki bazasını möhkəmləndirilməsi və inkişafı üçün böyük həcmdə vəsait ayırdı. Şəhərdə idman müəssisələrinin sayı 1970-ci illə müqayisədə 1985-ci ildə 5,5 dəfə artdı.[44]

---

[38] Ədalət Qasımov. **A.g.k.**
[39] **ARDA**, F.27, s.1, v.190; s.1, i.648, v.189.
[40] **ARDA**, F.17, s.1, i.700, v.28.
[41] **ARDSPİHA**, F.461, s.1, i.458, v.3.
[42] Ədalət Qasımov. **A.g.k.,** s.19.
[43] **ARDA**, F.24, s.1, i.136, v.17.
[44] **ARDA**, F.1114, s.9, i.10, v.16.

Bəhs etdiyimiz illərdə Xankəndi şəhərində yeni stadion, idman meydançaları, voleybol-basketbol, tennis meydançaları, iki üzgüçülük hovuzu tikilib idmançıların ixtiyarına verildi.[45] Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adambaşına düşən stadionların və meydançaların sayına görə Xankəndi şəhəri istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksəkdə dayanmışdır.[46]

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycanın Xankəndi şəhərində əhalinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin bəhs etdiyimiz dövrdə bölgənin erməni rəhbərliyi məqsədli şəkildə bir strateji xətt kimi burada yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə etməklə mane olmaq siyasəti yeritmişlər.

***Mədəniyyətin dinamik inkişafı***

Ümummilli liderimiz Heydər Əliyev 1979-cu il yanvarın 12-də Ağdam-Xankəndi dəmir yolunun açılışındakı nitqində demişdir: "Xankəndi Azərbaycanın dinamik inkişaf edən şəhərlərindən biridir…. Qısa bir müddətdə şəhərin görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət abidələri ucaldılmışdır…. Xankəndi şəhərinin iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmiş, dünyəvi teatr, müasir məktəb və demokratik mətbuat yaranmış, savadsızlıq ləğv olunmuş tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin inkişaf etmiş şəbəkəsi yaradılmışdır…. Tam əminliklə deyə bilərəm ki, Ağdam-Xankəndi dəmir yolunun istifadəyə verilməsi, bölgədə məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsinə, burada yaşayan sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edəcəkdir.[47]

XX yüzilliyin 70-85-ci illəri Azərbaycanın Xankəndi şəhərinin mədəniyyətinin inkişafında mühüm dövr olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında və dövləimizin dərin qayğısı nəticəsində şəhərdə təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənət tərəqqi etmiş, kadr potensialı artmış, ali və orta ixtisas təhsili şəbəkəsi genişlənmiş, uşaq müəssisələrinin, məktəblərin maddi-texniki təhsil bazası möhkəmlənmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərinin ictimai-iqtisadi həyatında olduğu kimi mədəni həyatında da mühüm irəliləyişlər olmuşdur. Bu dövr ərzində Xankəndi şəhərində uşaq müəssisələrinin, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Aparılan araşdırmalardan məlum olur ki, əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatında Xankəndi şəhəri

---

[45] Günel Aslanova. **Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti**. T.ü.f.d. dissertasiyanın avtoreferatı. Bakı, "AMEA", 2018, 26 s.
[46] **ARDA**, F.411, s.7, i.2, v.4.
[47] **ARDA**, F.894, s.4, i.64, v.130.

istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatı ümumrespublika səviyyəsində 20 faiz, Naxçıvan MR-da 12 faiz təşkil etmişdirsə, Xankəndi şəhərində bu göstərici 35 faizə çatmışdır.[48]

Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Xankəndi şəhərində 1970-1985-ci illərdə məktəb tikintisi sürətlə getmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, Naxçıvan MR-da hər məktəbə 296 şagird düşdüyü halda, Xankəndidə 177 şagird düşmüşdür. Eyni zamanda, Naxçıvan MR-da hər müəllimə 10 uşaq düşürdüsə, Xankəndidə 8,5 uşaq düşürdü.[49]

1970-1985-ci illərdə Xankəndi şəhərində sənaye, nəqliyyat, tikinti və digər işlərdə işləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olundu. Bundan əlavə Xankəndi şəhərində məktəbdənkənar uşaq müəssisələri, pioner və məktəblilər sarayı, 50 pioner düşərgəsi, uşaq idman məktəbi, musiqi və bədii özfəaliyyət məktəbi, uşaq parkları, gənc texniklər və turistlər stansiyası, uşaq kitabxanaları fəaliyyət göstərirdi.[50]

Dağlıq Qarabağın 42 məktəbində o cümlədən Xankəndi şəhərinin 8 məktəbində dövlətimizin ayırdığı xüsusi vəsait hesabına yemək verilirdi. Şagirdlərə isti yemək verilməsi sahəsində Dağlıq Qarabağ məktəblərinin təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyası tərəfindən bəyənilmişdir. Çox təəssüflər olsun ki, bu təcrübə Şuşa şəhərində yalnız bir məktəbə tətbiq olunmuş, bölgənin azərbaycanlılar yaşayan kəndlərində isə tətbiq edilməmişdir.

1970-1985-ci illərdə Xankəndi şəhərində peşə təhsili sistemi də sürətlə inkişaf edirdi. Şəhərin 8 orta məktəbində şagirdlərə müxtəlif peşələr öyrədilirdi. 1970-ci illərdə Xankəndi şəhərində təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisas kadrları hazırlayan məktəblər fəaliyyət göstərirdi. Həmin texnikumlarda mindən çox tələbə təhsil alırdı.

Heydər Əliyevin təşəbbüsü və Azərbaycan SSR Nazirlər Sovetinin 23 noyabr 1973-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı əsasında Xankəndi Pedaqoji İnstitutu təşkil edildi. İnstituta hər il 500-ə yaxın tələbə qəbul olurdu ki, bundan 300-ü əyani təhsil alırdı. 1980-ci Xankəndi Pedaqoji İnstitutunda 2 min tələbə oxuyurdu. Burada tədris Azərbaycan, rus və erməni dillərində aparılırdı.[51]

1970-1975-ci illərdə Xankəndi şəhərində yeni tipli kitabxana binası tikilib istifadəyə verildi.[52] 1975-ci ildə Xankəndi şəhərində kütləvi kitabxanaların sayı artdı, onların kitab fondu isə 440 minə çatdı.[53] Kitabxanalarda oxucuların sayı isə əvvəlki dövrlə müqayisədə xeyli çoxaldı. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Xankəndi şəhərinin kitabxana ilə təminatı, adambaşına düşən kitablar və kitabxanaların sayı həm ümumrespublika səviyyəsində, həm də Ermənistanla və

[48] **ARDA**, F.411, s.7, i.6, v.8.
[49] **A.g.s.**, v.9.
[50] **ARDA**, F.379, s.3, i.16, v.7.
[51] **ARDA**, F. 13, s.4, i.19, v.1.
[52] Ziyad Səmədzadə. **Dağlıq Qarabağ. Naməlum həqiqətlər**. Bakı, 1995, s.16.
[53] **ARDA**, F.13, s.4, i.2, v.4.

keçmiş SSRİ ilə müqayisədə üstün olmuşdur. 1980-ci illərin sonlarında Xankəndinin kütləvi kitabxanalarla təmin edilməsi 100 faiz olduğu halda, ümumrespublika üzrə bu göstərici 94,4 faiz, Naxçıvanda 98,4 faiz idi. Bundan əlavə əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistan SSR-də 4,1, Azərbaycanda 6 olduğu halda, Xankəndi şəhərində bu göstərici 13-ə çatmışdı. Faktlardan göründüyü kimi hər adama düşən kitabxanaların sayı Xankəndi şəhərində ümumrespublika səviyyəsini 2 dəfədən də artıq üstələmişdir.[54] Bütün bunlarla yanaşı Xankəndi şəhərində azərbaycanlılar Azərbaycandilli ədəbiyyatla tam təmin edilmirdi. Aparılan tədqiqatlardan məlum olur ki, kitabxanalardakı kitabların təxmini 80 faizi erməni dilində, 10 faizi Azərbaycan və 10 faizi rus dillərində idi.[55]

Bəhs etdiyimiz dövrdə Azərbaycan hökuməti Xankəndi şəhərində mədəni-maarif müəssisələri içərisində klubların inkişafına xüsusi diqqət yetirmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, əhalinin sayına görə klubların sayı Xankəndi şəhərində ümumrespublika səviyyəsindən 3 dəfə, Ermənistanla müqayisədə təxminən 4,5 dəfə artıq olmuşdur. Belə ki, 1985-ci ildə əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8-ə, Azərbaycan Respublikasında 5-ə, Ermənistanda 3,8-ə çatırdısa, Azərbaycanın Xankəndi şəhərində bu göstərici 15-ə bərabər idi.[56]

Bəhs olunan dövrdə Xankəndi şəhərində 30 kinoqurğu fəaliyyət göstərirdi. Qonşu şəhərlərlə (Ağdam, Tərtər, Şuşa və sair) müqayisədə bu göstərici 2 dəfə artıq demək idi. 10 min nəfər hesabı ilə əhaliyə düşən kino qurğuların sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycan Respublikasında 3-ə, Ermənistanda 2,9-a, ümumilikdə Dağlıq Qarabağda 11,2-yə, Xankəndi şəhərində isə 12,5-ə çatmışdır.[57] Həmçinin kinoya baxış səviyyəsində də, Xankəndi şəhər birinciliyi saxlanılmışdır.

1970-1985-ci illərdə Xankəndi şəhərində əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində Xankəndi şəhərində 2 yeni muzey açıldı. Şəhərdə muzeylərin sayı 2-dən 4-ə çatdı. Xankəndi şəhərində şəkil qalereyası və Bakı muzeylərinin filialı açılmışdı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə Xankəndi şəhərində muzeyə gələnlərin sayı 15 min nəfər idisə, 1980-ci ildə 45 min nəfərə, 1985-ci ildə isə 60 min nəfərə çatmışdı.[58]

XX yüzilliyin 70-80-ci illərində Ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda xalqın milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır. Heydər Əliyev dövlətimizə rəhbərlik etdiyi illərdə Xankəndi şəhərinin mədəni tərəqqisinə diqqəti daha da artırdı.[59]

1970-1980-ci illərdə Xankəndi şəhərində mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri teatr idi. Bəhs etdiyimiz dövrdə şəhərdə M.Qorki adına Xankəndi

---

[54] Ziyad Səmədzadə. **A.g.k.**
[55] **ARDA**, F.456, s.16, i.128, v.31.
[56] **ARDA**, F.411, s.7, i.3, v.16.
[57] **ARDSPİHA**, F.27, s.2, i.53, v.42.
[58] **ARDA**, F.271, s.1, i.4, v.6.
[59] Leyla Hüseynova. **A.g.k.,** 216 s., s.86.

Dram Teatrı fəaliyyət göstərirdi. 1970-1985-ci illərdə Xankəndi şəhərində kütləvi informasiya şəbəkəsi inkişaf etməkdə idi. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat mühüm rol oynayırdı. Bəhs etdiyimiz dövrdə, Xankəndi şəhərində 6 qəzet erməni dilində, 1-i Azərbaycan dilində və 1-i rus dilində buraxılırdı.[60]

Bəhs etdiyimiz dövrdə Azərbaycan Yazıçılar İttifaqının Xankəndi birliyi fəaliyyət göstərirdi. Burada nasirlər, şairlər dramaturqlar elmi yaradıcılıqla məşğul olurdular. Xankəndi şəhərində Azərbaycan hökuməti tərəfindən yaradılmış poliqrafiya idarəsi əsərlərin, müxtəlif ədəbiyyatların nəşr olunmasında mühüm rol oynayırdı. 1971-1980-ci illərdə Xankəndi şəhərində ümumi tirajı 500 min nüsxə olan 84 adda kitab buraxılmışdır ki, bundan 366 min nüsxə (66 adda) erməni dilində olmuşdur. Buraxılan əsərlərin xeyli hissəsi də rus dilində, cüzi nəşr Azərbaycan dilində idi.[61]

1970-1985-ci illərdə Xankəndi şəhərində Dövlət Mahnı və Rəqs ansamblının və “Qarabağ” Dövlət estrada orkestrinin repertuarı daha da zənginləşmişdi.

XX yüzilliyin 70-80-ci illərində Xankəndi şəhərinin arxitektura siması genişləndirilmişdi. Bəhs olunan dövrdə məşhur arxitektor Q.Məcidovun layihəsi əsasında şəhərin mərkəzi meydanı olmaqla Vilayət Partiya Komitəsinin binası istifadəyə verilmişdir. 1972-ci ildə isə arxitektor N.Kəngərlinin layihəsi əsasında Vilayət İcraiyyə Komitəsinin binası tikilmişdir.[62] Çox təəssüflər olsun ki, xalqımızın zəhməti bahasına tikilmiş bu gözəl binalarda, bu gün separatçı rejimin administrasiyası yerləşir.

1970-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları M.Hüseynovun rəhbərliyi altında Xankəndi ərazisində arxeoloji qazıntı tədqiqat işlərini davam etdirmiş və ərazidə tapılan qədim maddi-mədəniyyət izləri, əşyalar ibtidai insanların burada yaşamasını sübut etmişdilər.

1970-1985-ci illərdə Xankəndi şəhərində fəaliyyət göstərən elmi idarələr – Xankəndi Zona Təcrübə Stansiyası, Qarabağ Elmi Təcrübə bazası, AMEA-nın Dağlıq Qarabağ filialı, Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin Dağlıq Qarabağ filialı, Xankəndi Aqrar Sənaye Birliyi və başqa idarələr bölgədə xalq təsərrüfatı sahəsində yüksək məhsuldarlıq əldə etmək üçün yeni ixtiralar edir, səmərələşdirici təkliflər irəli sürürdülər.[63]

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycanın Xankəndi şəhərində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Xankəndi şəhərində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Şəhərin mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhərində mədəniyyət dinamik inkişaf etdi. Artıq, XX əsrin 80-ci illərinin ortalarında Xankəndi şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyətə malik şəhərlərindən birinə çevrilmişdi.

---

[60] **ARDA**, F.895, s.1, i.33, v.6.
[61] **ARDA**, F.27, s.1, i.2, v.5.
[62] Ziyad Səmədzadə. **A.g.k.**
[63] **ARDA**, F.271, s.1, i.2, v.6.

***Nəticə***

Nəhayət, 2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri anti-terror tədbirləri keçirərək erməni separatçılarını 23 saat ərzində məhv etdi. Bu-nun ardınca qondarma qurum ləğv edildi və oktyabrın 15-də tariximiz¬də daha bir şanlı səhifə açıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyev 20 il öncə Prezident seçdiyi gün – oktyabrın 15-də üçrəngli Azərbaycan bayrağını Xankəndi, Xocalı, Xoca¬vənd şəhərlərində dalğalandırdı. Bununla da Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam təmin edildi. Azərbaycan qədim yaşayış məskəni olan Xankəndidə bayrağımızı ucal¬dan Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində dedi: "İyirmi il bundan əvvəl Prezi¬dent kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuş¬dum ki, Azər¬baycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaq¬larda, bütün şəhər və kəndlərdə qal¬dırılsın. Bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldır¬mışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbə¬ni öz qanı, canı bahasına əldə etmiş¬dir. Bu gün burada qaldırdığım bay¬raq burada əbədi dalğa¬la¬na¬caq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bu gün bütün Azərbaycan ərazi¬lərində üçrəngli bayrağımız qürurla dalğa-lanmaqdadır. Suverenliyini tam təmin etmiş Azərbaycan Respublikasının Preziden¬ti İlham Əli¬yevin rəhbərliyi altında daha möhtəşəm zəfərlərə doğ¬ru inamla addımlayır.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Azərbaycan Respublikasının Dövlət Arxivi (**ARDA**), F.89, s.1
2. **ARDA**, F.411, s.7.
3. **ARDA**, F.27, s.1.
4. **ARDSPİHA**, F.1, s.200, 74, 331, 55, 169, 7, 85, 206, 233.
5. **ARDA**, F.17, s.1, i.701, v.29.
6. **ARDA**, F.2502, s.1, i. 55, v.2.
7. **ARDA**, F.456, s.16, i. 129, v.32.
8. **ARDA**, F.27, s.1, i. 649, v.190.
9. **ARDA**, F.24, s.1, i. 137, v.18.
10. **ARDA**, F.410, s.1, i. 11, v.45.
11. **ARDA**, F.411, s.7.
12. **ARDA**, F.271, s.1.
13. **ARDA**, F.13, s.4, i. 20, v.2.
14. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (**ARDSPİHA)**, F.461, s.1, i.4582, v.4.
15. **ARDSPİHA**, F.410, s.1, i.70, v.96.
16. **ARDSPİHA**, F.89, s.1.
17. **ARDSPİHA**, F.27, s.2, i.54, v.43.
18. **ARDSPİHA**, F.420, s.1, i.43, v.42.
19. **ARDSPİHA**, F.1, s.2, i.105, v.24.

20. **ARDA**, F. 895, s.1, i.34, v.7.
21. **ARDA**, F. 379, s.3.
22. **ARDA**, F. 410, s.1.
23. **ARDA**, F. 411, s.7.
24. **ARDA**, F. 17, s.1.
25. **ARDA**, F. 271, s.1.
26. **ARDA**, F. 1114, s.9.
27. **ARDA**, F. 13, s.4, i.20, v.2.
28. **ARDA**, F. 894, s.4, i.65, v.131.
29. DQMV-nin **İpək Kombinatının illik hesabatı**. Bakı, 1987, 260 s.
30. Ədalət Qasımov. **Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri)**. Bakı, "Təhsil", 2009.
31. Günel Aslanova. **Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti**. T.ü.f.d. dissertasiyanın avtoreferatı. Bakı, "AMEA", 2018, 26 s.
32. Heydər Əliyev. **Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında**. Bakı, "YNE", 2001.
33. Heydər Əliyev. **Minilliklərin qovuşuğunda**. Bakı, "YNE", 2001. 184 s.
34. Heydər Əliyev. **Müstəqilliyimiz əbədidir**. I-IV cildlər. Bakı, 1997-1998.
35. Leyla Hüseynova. **Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri**. Bakı, "Təhsil", 2011, 216 s., s.86.
36. Nazim Məmmədov. **Azərbaycanın Xankəndi şəhərinin tarixi**. Bakı, 1995.
37. Yaqub Mahmudov, Kərim Şükürov. **Qarabağ tarixi. "Qarabağ suallar və faktlar**". Bakı, 2001, s.39.
38. Yaqub Mahmudov, Kərim Şükürov. **Qarabağ: Real tarix, faktlar, sənədlər**. Bakı, "Təhsil", 2005, 380 s.
39. Ziyad Səmədzadə. **Dağlıq Qarabağ**. **Naməlum həqiqətlər**. Bakı, 1995.
40. **Народное хозяйство Азерб. ССР в 1988 году**. Баку, 1989, 376 с.
41. **Народное хозяйство Азербайджанской ССР к 70 летю Великого Октября**. Баку, 1987, 272 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Məmmədov Nazim Rəhbər oğlu – tarix elmləri doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Mammadov Nazim Raxbar – Doctor of History, Associate Professor, A.A.Bakikhanov Institute of History of ANAS. Azerbaijan, Baku.

**TÜRKİYƏ CÜMHURİYYƏTİ 100 – THE REPUBLIC OF TURKIYE 100**

**UOT 94.**

# OSMANLI İMPERİYASINDAN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ GEDƏN UZUN YOL (TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ)

©2023
TOFİQ MƏLİKLİ*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0009-0009-7297-094X; e-mail: tofiqmelikli5@gmail.com
https://doi.org/10.59849/2523-4765.2023.2.36

***Xülasə:*** *Məqalədə XIX-XX əsrin əvvəllərində Osmanlı İmperatorluğu ərazisində baş vermiş, onun zəifləməsinə, türkçülüyün və digər ideoloji cərəyanların təsiri altında müxalif təşkilatların formalaşmasına səbəb olan siyasi proseslər xronoloji ardıcıllıqla araşdırılır, Türkiyədəki despotik rejimi aradan qaldırmaq məqsədi daşıyırdı. Ayrı-ayrılıqda məqalədə Osmanlı İmperiyasının süqutuna səbəb olan Birinci dünya müharibəsinin ağır nəticələri və Türkiyənin ərazi bütövlüyünün və torpaqlarının Antantanın təcavüzündən qorunması uğrunda Mustafa Kamalın başçılıq etdiyi milli-azadlıq hərəkatının başlaması araşdırılır. Bu mübarizənin əsas nəticəsi 1923-cü il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranması oldu.*

***Açar sözlər:*** *Osmanlı, despotik rejim, Antanta, Mustafa Kamal, Türkiyə Cümhuriyyəti*

# A LONG JOURNEY FROM THE OTTOMAN EMPIRE TO THE REPUBLIC OF TURKIYE (TO THE 100th ANNIVERSARY OF THE REPUBLIC OF TURKIYE)

©2023
TOFIK MELIKLI*

*A.A.Bakikhanov Institute of History, ANAS
ORCID:: 0009-0009-7297-094X; e-mail: tofiqmelikli5@gmail.com

***Abstract:*** *This article examines in chronological order the political processes that took place on the territory of the Ottoman Empire in the 19th – early 20th centuries, which led to its weakening and the formation, under the influence of Turkism and other ideological movements, of oppositional organizations that aimed to eliminate the despotic regime in Turkey. Separately, the article examines the difficult results of the First World War for the Ottoman Empire, which led to its collapse and the beginning of the national liberation movement led by Mustafa*

*Kemal for the preservation of the territorial integrity of Turkiye and the protection of its lands from aggression of the Entente. The main result of this struggle was the formation of the Republic of Turkiye on October 29, 1923.*

***Keywords:*** *Ottoman, despotic regime, Entente, Mustafa Kemal, Republic of Turkiye*

# ДОЛГИЙ ПУТЬ ОТ ОСМАНСКОЙ ИМПЕРИИ К ТУРЕЦКОЙ РЕСПУБЛИКЕ (К 100 – ЛЕТИЮ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ)

©2023

ТОФИК МЕЛИКЛИ*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0009-0009-7297-094X; e-mail: tofiqmelikli5@gmail.com

***Резюме:*** *В данной статье в хронологической последовательности рассматриваются политические процессы происходившие на территории Османской империи в XIX – начале XX века, которые привели к её ослаблению и формированию под влиянием тюркизма и других идеологических течений оппозиционных организаций, ставивших своей целью ликвидацию деспотического режима в Турции. Отдельно в статье рассматриваются тяжелые итоги Первой мировой войны для Османской империи, приведшие к ее развалу и началу национально-освободительного движения во главе с Мустафа Кемалем за сохранение территориальной целостности Турции и защите ее земель от агрессии со стороны Антанты. Основным итогом этой борьбы стало образование 29 октября 1923 года Турецкой Республики.*

***Ключевые слова:*** *Османской, деспотического режим, Антанта, Мустафа Кемаль, Турецкая Республика*

### *Введение*

1299 году тюрки-Огузы во главе с Осман Гази в Анатолии создали новое государство, получившее по имени его основателя «Мемалик-и Османийе» – «Страна Османов», которое в короткий срок подчинили себе многие страны Азии, Северной Африки, Европы и превратилось в одну из мощнейших империй мира. Шесть веков существовала Османская империя и за это время она было одним из важнейших игроков мировой политики.

К началу XIX в. Османская империя постепенно утрачивала свое былое могущество. Правящие круги осознавали, что сохранить и укрепить империю можно только с помощью радикальных реформ, «европеизации» государственного устройства, экономической, политической и культурной жизни страны. Первая половина XIX в. ознаменовалась в Османской империи проведением широкомасштабной программы реформ – Танзимат (от арабск. танзим – упорядочение, реформа). Реформы, подготовленные виднейшим политиком, дипломатом и реформатором Мустафой Решид пашой (1800-1858) и утверж-

денные султаном Абдул-Меджидом в 1839 году были призваны способствовать ускорению экономического развития Турции, оздоровлению финансовой системы, созданию условий для буржуазного развития, а также развития науки, культуры и формированию турецкой интеллигенции. На первом этапе реформы касались устройства военной, налоговой, финансовой систем. В духовной сфере это предполагало развитие системы светского образования, более глубокое знакомство с западноевропейской культурой, создание условий для взаимодействия с западными государствами не только в экономической, но и в культурной сфере. Именно в это время начинает складываться и типологически новая литература – Танзимат эдебийаты («литература Танзимата»), которая по своей сути была просветительской.

В распространении просветительской идеологии активно участвовали и первые турецкие газеты – «Терджюман-и ахваль» («Толкователь событий», начала выходить с 1860 г.), издававшаяся Агяхом-эфенди, и «Тасвир-и эфкяр» («Толкование идей», начала выходить с 1862 г.), которого редактировал известный турецкий просветитель и писатель Ибрагимом Шинаси. Эти газеты сыграли огромную роль в развитии общественной мысли страны.

В 1865 году прогрессивно настроенная интеллигенция, в том числе Намык Кемаль, Ибрагим Шинаси и другие, а также представители высшей гражданской и военной бюрократии создали «Общество Молодых Османов» («Genç Osmanlılar Cemiyeti”), которое выступало против феодального абсолютизма и отстаивало идеи конституционной монархии. По мнению «молодых османов», только конституционная монархия могла преобразовать страну и обществу. Однако «Общество Молодых Османов» просуществовало не долго. После неудачного заговор против султана Абдулазиза, организация была разгромлена, а его участники подверглись суровым преследованиям.

В 1876 году придя к власти, султан Абдул Хамид и его окружение отказались от политики реформ, было приостановлено действие конституции 1876 г., разогнан парламент. В стране не было никаких гарантий сохранения жизни и имущества. Аресты и ссылки производились по доносам. Жертвами оказались многие крупные государственные деятели, представители передовой интеллигенции, в том числе и первые турецкие просветители. Но, несмотря на это только что пришедшие в политику молодые люди, писатели успешно продолжали развивать просветительские идеи своих предшественников. Под влиянием Ибрагима Шинаси и других танзиматцев в стране формируется новая идеологическое течение “Türkçecilik” («Тюрджеджилик») – движение за национальный язык, его очищение от арабо-персидской лексики.

Дело в том, что после образования Османской империи в стране формировалась два языка – османский и турецкий, которые развивалась в двух параллельных плоскостях. Османский язык, представляющий собой своеобразную смесь персидского, арабского и турецского языков, был языком государственным и классической литературы – Литературы дивана (Дворцовая литература). А на турецком – языке народа создавался Halk edebiyatı – Народная литератур. Примечательно, что эти языки опирались на существенно различающиеся идеологические установки.

После издания стихов Мехмеда Эмина (1869-1944), который в конце X1X века полностью отказался от османского и обратился к разговорному турецкому языку, языковед Неджип Тюркчю (1871-1951) в 1900-1901 годах опубликовал 16 статей под заголовком «Наш турецкий язык». В них впервые была сформулирована необходимость языковой реформы, отказ от арабо-персидской лексики и грамматических форм, сближения разговорного и литературного языков, создания новых терминов и т.д. В то время проблемы национального языка находились в центре внимания многих газет и журналов, выходивших в предреволюционный период. Однако только после революции 1908 года «тюркчеджилик» начал настойчиво и широко пропагандироваться.

В борьбе за новый литературный язык важную роль сыграли журналы "Türk Derneği" («Турецкое общество»), "Türk Yurdu" («Турецкая отчизна»), "Türk sözü» («Турецкое слово») и особенно журнал "Genç kalemler" («Молодые перья»), который издавали прозаики Омер Сейфеддин и Али Джаниб. В этой борьбе особое место принадлежит Омару Сейфеддину (1884-1920). В опубликованной в 1912 году в майском номере журнала «Молодые перья» в статье "Yeni Lisan" («Новый язык») он начал дискуссию о литературном языке, которая выявила несколько течений в движении «тюркчеджилик». Литераторы, объединившиеся вокруг журнала "Genç Kalemler", предлагали освободить литературный язык от арабо-персидских грамматических форм, терминологию создавать по правилам турецкого языка, отдавать предпочтение турецкой лексике и оставлять только те иноязычные слова, которые вошли в язык народа.

Таким образом в начале XX века, когда в империи происходили важные общественно-политические процессы, проблемы национального языка превратились в средство политической борьбы.

### *"Türkçülük" («туркизм») – идеология возрождения турецкого национального самосознания*

В это время большое распространение получает и "Türkçülük" («туркизм») – идеология возрождения турецкого национального самосознания. Нет сомнения, что Туркизм формировался под сильным влиянием тюркджеджилик.

Первые ростки «Туркизм» появились на стыке XIX и XX веков, когда под влиянием интенсивного роста национального самосознания турецкая интеллигенция начала выпускать журнал "Milli Talim ve Terbiye" («Национальное обучение и воспитание»), призванный пробудить у турок интерес к этнокультуре. Появление книги Зии Гекалпа "Türkçülüğün esasları" – «Основы тюркизма», это движение приняло характер идеологического течения, которое имело последователей не только в Турции, но и в Азербайджане. Работы таких Азербайджанских идеологов тюркизма, как Али бей Гусейнзаде, Ахмед бей Агаева широко распространялись как в Азербайджане, так и в Турции.

В XX век Турция вступила, находясь в глубоком экономическом, политическом и духовном кризисе. Страна переживала самую тяжелую и унизительную пору своей истории. После того, как турецкое правительство объявило страну банкротом, над ней в 1881 г. был установлен финансовый кон-

троль западных государств. Была создана Администрация оттоманского публичного долга, состоявшая из представителей английских и французских банков.

Молодая национальная буржуазия, которая оказалась в своей стране в неравном с иностранными капиталистами положении, виновником такого состояния дел считала феодально-султанскую деспотию и иностранный капитал.

***Abstract:*** *The Orthodox Church also took an active part in the occupation policy of tsarist Russia in the Caucasus since the end of the 18th century. Tsarism, which successfully carried out military occupation of this region, encountered very serious difficulties in the religious-ideological field. At first, this policy of tsarism, which began to act in the name of restoring Orthodoxy among Caucasian peoples who had converted to Islam, began to take violent forms over time. Legislative acts issued in this area in the first half of the 19th century also give grounds to say so. This article analyzes the information provided by primary sources and explores these problems.*

***Keywords:*** *North Azerbaijan, Caucasus, legislative acts, Muslims, Christianity, church*

# О ЗАКОНОДАТЕЛЬНЫХ АКТАХ ЦАРСКОЙ РОССИИ, ПРИНЯТЫХ С ЦЕЛЬЮ РАСПРОСТРАНЕНИЯ ХРИСТИАНСТВА СРЕДИ МУСУЛЬМАН КАВКАЗА (1801-1860-е годы)

©2023

ИРАДА АЛИЕВА*

*Институт Истории им.А.А.Бакиханова НАНА
ORCID: 0009-0006-1524-726X; e-mail: aliyevairada72@gmail.com

***Резюме:*** *Православная церковь также принимала активное участие в оккупационной политике царской России на Кавказе с конца XVIII века. Царизм, успешно осуществивший военную оккупацию этого региона, столкнулся с очень серьезными трудностями в религиозно-идеологической сфере. Вначале эта политика царизма, начавшего действовать во имя восстановления православия среди кавказских народов, принявших ислам, со временем стала принимать насильственные формы. Основания для этого дают и законодательные акты, изданные в этой области в первой половине XIX века. В данной статье проанализирована информация, предоставленная первоисточниками, и исследованы эти проблемы.*

***Ключевые слова:*** Северный Азербайджан, Кавказ, законодательные акты, мусульмане, христианство, церковь

## ***Giriş***

XVIII-XIX əsrlər Qafqaz xalqlarının tarixində xüsusi yer tutan bir dövrdür. XVIII əsrin əvvəllərindən başlayaraq Qafqaz Rusiya, İran və Osmanlı Türkiyəsinin arasındakı ziddiyyətlərin və maraqların toqquşduğu bölgəyə çevrilir. Məhz həmin vaxtdan etibarən öz sərhədlərini və təsir dairəsini genişləndirməyə, cənub sərhədlərindəki strateji mövqelərini möhkəmləndirməyə, Mərkəsi Asiya və Yaxın Şərqə gedən ticarət yollarını tutmağa çalışan çar Rusiyası işğalçılıq siyasətini genişləndirir. Bu dövrdə onun xarici siyasətinin başlıca istiqamətlərindən biri Qafqaz idi. Çar Rusiyası bölgənin hərbi işğalı ilə paralel şəkildə ideoloji sahədə də bu bölgəyə nüfuz etməyə başlayır.

## ***Cənubi Qafqazda yeparxial idarənin təşkil olunması istiqamətində həyata keçirilmiş tədbirlər***

Bu istiqamətdə həyata keçirilmiş tədbirlər hələ Qafqazın işğalının başlanğıcından burada yeparxial idarə sisteminin təşkil olunmasına başlaması olur. Bu məqsədlə ilk olaraq dağlılar arasında xristianlığın yayılmasını təşviq etmək məqsədilə Osetin Ruhani Komissiyası təşkil olunur.

1745-ci ildə yaradılmış Osetin Ruhani Komissiyasının qarşısında məktəb və maarifçilik mərkəzlərinin təşkil olunması; osetin dilində kitab və dərsliklərin nəşri; yerli əhalidə rus mədəni dəyərlərini aşılamaq; pravoslavlığı islam təsirlərinə qarşı qoymaq vəzifəsi qoyulmuşdu. Komissiya eksperiment kimi 1764-cü ildə Mozdokda ilk dəfə uşaqlara xristian dininin əsaslarını öyrədən məktəb açır. Bu məktəbdə oxuyan kasıb uşaqlara təqaüd verilirdi.[1]

Xristianlığın müsəlmanlar arasında yayılmasını təşviq etmək məqsədi ilə müxtəlif şirnikləndirici yollara əl atılırdı. Osetin Ruhani Komissiyası tərəfindən pravoslavlığı qəbul edən azad kəndliyə 10 rubl, sadə adamlara 5 rubl, subaylara isə bu məbləğin yarısı miqdarında mükafat verilirdi. Artıq iki ildən sonra xristianlığı qəbul etmiş dağlıların sayı hər iki cinsdən olmaqla 200 nəfərə çatırdı.[2]

Bu komissiya dövlət tərəfindən bağlanmamış, 1793-cü ildə fəaliyyətini dayandırmışdı. Komissiyanın fəaliyyətinin birinci mərhələsi müəyyən qədər osetinlər arasında uğurlu alınır. Çünki qeyd olunur ki, 1771-ci ildə 2909 nəfər xaç suyuna çəkilən var idisə, 1792-ci ildə xaç suyuna çəkilənlərin sayı artaraq 8199 nəfərə çatmışdı. Yerli müsəlmanlar arasında isə onun fəaliyyəti uğursuzluğa uğramışdı.[3]

Çar I Aleksandrın hakimiyyəti illərində (1801-1825) Rusiya hökumətinin Qafqazda həyata keçirdiyi siyasəti daha da işğalçı şəkil alır. Bu, ideoloji sahəni də əhatə edirdi. Qafqazda bu siyasətin təşəbbüskarları və təşkilatçıları hesab olunan baş komandanlar P.D.Sisianov (1802-1806) və onu əvəz etmiş İ.Qudoviçin (1806-1809) zamanında yenidən xristianlaşdırma məsələsi gündəmə gəlir. Qafqazda mövcud olan bir çox problemlərin səbəbini xristianlığın yayılmasının dayandırılmasında görən İ.Qudoviç missionerlik fəaliyyətinin bərpa edilməsi üçün xeyli səy göstərmişdi. Həştərxan və Qafqaz arxiyepiskopu Anastasinin Qudoviçə yazdığı 27 avqust 1806-cı il tarixli məktubunda o, baş komandana fəaliyyətini dayandırmış Osetin Ruhani Komissiyasının fəaliyyətinin yenidən bərpa edilməsinin zəruriliyini bildirirdi. Həmin vaxtı dağlarda baş alıb gedən yoluxucu xəstəliklə bağlı karantin rejiminin tətbiq olunması səbəbindən Qudoviç arxiyepiskop Anastasinin xahişinə əməl edə bilməmişdi.[4]

Bu zaman Qafqazdakı yeparxial hakimiyyətin Rusiya mərkəzi ruhani idarəsinə tabe edilməsi istiqamətində görülmüş işləri də xüsusi olaraq qeyd etmək lazımdır. Çar I Aleksandrın 1811-ci il 30 iyul tarixli qərarı ilə Gürcüstan katolikosluğu ləğv edilir və Müqəddəs Sinodun tərkibinə daxil olmaqla Gürcüstan ekzarxlığı yaradılır. Onun ilk ekzarxı mitropolit Varlaam olur. Müqəddəs Sinodda işləmək adı ilə Sankt-Peterburqa çağırılan Gürcüstan pravoslav kilsəsinin başçısı, katolikos Antoniy isə bir daha Gürcüstana qayıtmır. Varlaam isə 1811-ci ildən 1917-ci ilə kimi mövcud olmuş Gürcüstan ekzarxlığının ilk və son gürcü mənşəli ekzarxı

---

[1] Выписка из кабардинских дел, в коллегии иностранных дел находящихся, от 1762-го по 1779-й год. **АКАК**. Т.I. Тифлис, 1866, 83 с.

[2] Семён Миха́йлович Броневский. **Описание Донской земли и Кавказских минеральных вод**. СПб. Ч.4, 1834, 120 с.

[3] Выписка из кабардинских дел, в коллегии иностранных дел находящихся, от 1762-го по 1779-й год. **АКАК**. Т.I. Тифлис, 1866, 83 с.

[4] Духовная часть: православное духовенство. **АКАК**. Т.III. Тифлис, 1869, с.75-76.

olur və yalnız 1817-ci ilə kimi ekzarx işləyə bilir. Gürcüstan ekzarxlığının 106 illik (1811-1917-ci illər) mövcudluğu ərzindəki 17 ekzarxın 16-ı rus olmuşdur.[5]

Ardınca 1814-cü ildən Osetin Ruhani Komissiyasının fəaliyyəti yenidən bərpa olunur. Bu komissiyanın fəaliyyətinin ikinci mərhələsində (1814-1860-cı illər) Qafqazda 40 kilsə tikilmişdi. Əgər Osetin Ruhani Komissiyasının fəaliyyətinin birinci dövründə onun fəaliyyət dairəsi əsasən Şimali Qafqazı əhatə edirdisə, ikinci mərhələdə isə başlıca olaraq Cənubi Qafqazı əhatə etmişdi. Bu komissiyanın dəftərxanası Gürcüstan ekzarxlığının nəzdində fəaliyyət göstərirdi. 1852-ci ildə komissiyanın idarəsində 90 kilsə, 93 keşiş, 88 kilsə din xadimi var idi. Osetin Ruhani Komissiyasının fəaliyyəti 1860-cı ilə kimi davam etmiş, həmin ildən etibarən isə onun xəzinəsi yeni yaradılmış Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyətinə verilməklə komissiya Gürcüstan ekzarxlığının tərkibinə daxil edilmiş, bundan sonra onun fəaliyyət dairəsi yalnız Osetiya ilə məhdudlaşmışdır.[6]

### *Xristianlığın yayılmasını təşviq etmək məqsədilə qəbul edilmiş qanunvericilik aktları*

XIX əsrin birinci yarısı ərzində çarizm tərəfindən xristianlığı qəbul edən müsəlmanların hüquqi statusunu və imtiyazlarını müəyyən edən bir sıra fərmanlar verilmişdir ki, bu da faktiki olaraq hakimiyyətin islama qarşı mübarizəsi və bu dinin tamamilə inkar edilməsi demək idi. Rusiya Nazirlər Komitəsinin təsdiq etdiyi 15 oktyabr 1835-ci il tarixli "Xristian dininin Roma-katolik təriqətini (katolik) qəbul etmək arzusunda olan müsəlmanlar haqqında qaydalar"a görə Daxili İşlər Nazirliyi gələcək dövr üçün müsəlmanların roma-katolik dininə dönmələrinə icazənin verilməsi barədəki xahişləri zamanı cinayətlərin qarşısının alınması barədə əsasnamənin tələblərini əsas tutmalı idi.[7]

Senatın 28 oktyabr 1835-ci il tarixli "Hər yerdə taxta kilsələrin inşasına icazənin verilməsi barədə" qanunla daş kilsələrin tikintisi üçün zəruri materialın olmadığı, eləcə də buna maddi imkanları çatmayan icmalarda xristianlığın daha da sürətlə yayılması naminə taxta kilsələrin tikintisinə icazə verilirdi. Lakin bu zaman şərt kimi taxta kilsələrin daşdan olan təməlin üzərində tikilməsi qoyulmuşdu.[8] Bu fərmanın məqsədi adından da göründüyü kimi pravoslavlığın daha da sürətlə yayılmasını təmin etmək idi. Çünki daş kilsələrin tikintisi həm müəyyən qədər zaman, eyni zamanda da kifayət qədər böyük vəsait tələb edirdi. Buna görə də həm

---

[5] Ия Евгеньевна Мельникова. **К истории восстановления автокефалии грузинской церкви 12 марта 1917 г**., с.398-404. https://pstgu.ru/download/1282735117.melnikova.pdf

[6] Павел Немашкалов. **Становление и функционирование епархиальной системы управления Русской Православной церкви на Северном Кавказе (конец XVIII – 60-е годы XIX века).** Диссертация на соискание ученей степени доктора ист. наук. Ставрополь, 2020, 151 с.

[7] О магометанах, желающих принять христианскую веру римско-католического исповедания (15 октября 1836 г.). **ПСЗРИ** (1825-1881). Т.10: Ч.2. №8480, с.1029-1030.

[8] О разрешении впредь строить деревянные церкви повсеместно (28 октября 1835 г.**). ПСЗРИ** (1825-1881). Т.10: Ч.2. №8517, с.1054-1055.

yerlərdəki yeparxial rəhbərlik, həm də çar idarə orqanları bu fərmana uyğun olaraq çoxsaylı taxta kilsələrin tikintisini həyata keçirmişdi. 1860-cı ildə Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin yaranmasına kimi Qafqazda tikilmiş 87 kilsədən 31-i taxta, 56-sı isə daş kilsə idi.[9]

Qeyd etmək lazımdır ki, yerlərdəki xristian missionerlər, ruhanilər bu işə o qədər aludə olmuşdular ki, onlar taxta kilsələrlə yanaşı dini ayinlərin icrası, əhalinin xristianlaşdırılması zamanı daşınan, səhra kilsələrindən də istifadə edirdilər. Şəki vilayətindəki müsəlman udinlərin zorla xristianlaşdırılması məqsədilə Gürcüstan ekzarxı tərəfindən Vartaşenə göndərilmiş protoierey İosif Tsinamzqvarov ekzarxa yazdığı məktubunda bu səfəri zamanı özü ilə götürdüyü səhra kilsəsində dini ibadətə, kənd sakinlərinə xristianlığın zəruri şərtlərini təbliğ etməyə başladığı, 12 cütü xristian qaydası ilə evləndirdiyi, 4 körpəni və Baba Oğuz oğlu adlı 20 yaşlı tatarı xaç suyuna çəkdiyi (o, xaç suyuna çəkildikdən sonra Dmitri adlandırıb), 2 ölünü dəfn etdiyi barədə məlumat verilirdi.[10]

Bu istiqamətdə həyata keçirilmiş növbəti tədbir 24 yanvar 1836-cı il tarixli "Xristian inancını qəbul etmiş müsəlman və ya bütpərəst kantonistlərinə pul mükafatlarının verilməsi haqqında" qərar olur. Həmin qərarla aşağı rütbədən olan hərbiçi müsəlmanların uşaqlarına – kantonistlərə xristianlığı qəbul etməyin müqabilində dövlət xəzinəsindən 25 rubl vəsait vermək nəzərdə tutulmuşdu. Qərarda deyilirdi ki, xristian inancını qəbul etmiş yəhudi kontonistlərinə dövlət xəzinəsindən 25 rubl pul mükafatının verilməsi barədəki 1829-cu il tarixli imperator fərmanı pravoslavlığı qəbul edən müsəlman, yaxud bütpərəstlərin aşağı rütbədən olan hərbçilərin uşaqlarına – kantonistlərə də şamil edilsin. Qeyd etmək lazımdır ki, Rusiyada 1805-ci ildən etibarən aşağı rütbədən olan hərbiçilərin ailələrinin həddi-buluğa çatmayan uşaqları kantonistlər adlanırdı. Kantonistlər anadan olduğu andan hərbi mükəlləfiyyətli hesab olunurdular və hərbi idarənin tabeçiliyinə keçirdilər. Bu, bütün hərbiçi uşaqlarına aid idi. Onlar 14 yaşa kimi kantonist məktəbinə daxil olmalı idilər, digər məktəblərdə oxumaq onlara yasaq idi. 1827-ci ildən etibarən kantonist məktəblərinə hərbiçilərin uşaqları ilə yanaşı qaraçı uşaqlar, kimsəsiz uşaqlar, polyak üsyançılarının uşaqları, eləcə də gənc yəhudilər də daxil ola bilərdilər. Bu sistem Rusiyada 1856-cı ilə kimi davam etmiş, həmin ildə imperator II Aleksandrın fərmanı ilə aşağı rütbədən olan hərbiçilərin uşaqlarının təhkimli halına salınması praktikası ləğv edilir.[11]

Senatın 30 mart 1848-ci il tarixli fərmanında xristianlığı qəbul edən müsəlmanlar üçün geniş güzəştlər nəzərdə tutulmuşdu. Bu kateqoriyadan olanlar bütün vergi və mükəlləfiyyətlərdən 6 illiyə azad olunurdular. Fərmanla prozelitlərin (prozelitlər yeni dini qəbul edənlərə deyilirdi – Ə.İ.) "bol torpaqlarla" təmin edilməsi

---

[9] **О действиях высочайше учрежденного общества восстановления православного христианства на Кавказе.** СПб., типография императорской Академии Наук, 1862. 36 с.

[10] Подробная записка протоиерея Иосифа Цинамзгварова**.** **АКАК**. Т.6, часть 1-я, Тифлис, 1874, с.401.

[11] О выдаче денежного награждения кантонистам магометанского или языческого исповеданий, принявших христианскую веру (24 января 1836 г.). **ПСЗРИ** (1825-1881). Т.11. Ч.1. №8812, с.82.

ilə onların kənd cəmiyyətlərinə aid edilməsi nəzərdə tutulmuşdu. Əgər yeni xaç suyuna çəkilənlər dövlət torpaqlarında məskunlaşardılarsa ilk vaxtlarda öz təsərrüfatlarını qurmaq üçün onlara adambaşına 15-30 gümüş rubl, hər ailəyə isə 30 gümüş rubl miqdarında pul verilirdi.

Senat özünün 30 mart 1848-ci il tarixli iclasında ədliyyə nazirinin hərbi nazir, general adyutant, knyaz Çernışevin 8 mart 1848-ci il tarixli məktubunun əsasında hazırladığı təkliflərini müzakirə edərək qərara alır:

1) Cənubi Qafqaz diyarında yaşayan və yaxud xaricdən ora gələn müsəlmanların xristianlığı qəbul edənləri kənd icmalarına aid edilməklə onlara torpaq sahəsi verilsin;

2) Bu müsəlmanların hamısı xristianlığı qəbul etməsi ilə, onların xristianlığı qəbul etmiş uşaqları ilə birlikdə adambaşına, yaxud tüstübaşına xəzinəyə ödəniləcək şəxsi vergilərdən ömürlük azad olunsunlar;

3) Bundan asılı olmayaraq bu şəxslər digər vergi və mükəlləfiyyətlərdən 6 illiyə azad olunsunlar. Onların dövlət torpaqlarında məskunlaşmasından sonra həmin yerlərdə təsərrüfatlarını qurmaq üçün adambaşına 15-30 gümüş rubl, bütün ailələrə isə 30 gümüş rubl miqdarında vəsait verilsin;

4) Cənubi Qafqaz diyarındakı sahibkarlara xristianlığı qəbul edən kəndliləri öz torpaqlarında qəbul etməklə, onların təsərrüfatlarını təşkil etmək və onlar üçün ayrılmış torpaq sahəsinə görə ödəyəcəkləri mükəlləfiyyətlərin həcmi barədə uzunmüddətli dövr üçün razılıq bağlamaq tələb olunurdu. Belə bir vəziyyətdə xristianlığı qəbul edənlər tüstübaşına xəzinəyə ödəniləcək şəxsi vergilərdən ömürlük və digər vergi və mükəlləfiyyətlərdən isə 6 illiyə azad olunmaq hüququnu saxlayırlar;

5) Xristianlığı qəbul etməyi arzu etdiyini bildirmiş müsəlmanların xaricdən Cənubi Qafqaz diyarına gəlişi ilə ən yaxın qəza idarəçiliyində onlara xristianlığı qəbul etdikdən sonra Rusiya imperiyasının ərazisində əldə edəcəkləri yuxarıda qeyd olunan hüquqları elan olunmalı və bu hüquqların onlara izah olunması barədə hər birindən xüsusi imzalı iltizam alınmalıdır.[12]

“Xristianlığı qəbul etmiş ingiloyların məskun olduğu sahibkar torpaqlarının xəzinə torpaqları və mülkləri ilə dəyişdirilməsi, onların dövlət xəzinəsinə ödəyəcəyi vergi və mükəlləfiyyətlərdən azad edilməsinə icazə verilməsi” barədə 1859-cu il 6 dekabr tarixli imperator fərmanı ilə xristianlığı qəbul etmiş ingiloyların məskun olduğu sahibkar torpaqlarının xüsusi xəzinə torpaqları və mülkləri ilə dəyişdirilməsi, onların istifadəsində olan torpaqlara görə dövlətə ödədiyi torpaq vergisindən azad edilməsi, eləcə də tüstü vergisindən ömürlük, digər vergi və mükəlləfiyyətlərdən 1860-cı ildən etibarən 6 illiyə azad olunmaları nəzərdə tutulmuşdu.[13]

1857-ci ildə qəbul olunmuş qaydalara görə Rusiyada qəbul olunan bütün xarici xristian məzhəblərin din xadimləri hər dəfə Daxili İşlər Nazirliyi və Qafqaz

---

[12] О правилах поселения в Закавказском краю Магометан, воспринявших Св. Крещение (30 марта 1848 г.). **ПСЗРИ** (1825-1881). Т.23. Ч.1. №22149, с.222-223.

[13] Об утверждении сделанного Наместником Кавказским распоряжения об освобождении ингелойцев принявших православную веру от платежа в казну поземельной, подымной и прочих податей и повинностей. Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, от 30-го сентября 1859 года. **Российский Государственный Исторический Архив** (**РГИА**), Ф.1268, оп.10, дело 221 (1859).

Canişinindən alınmış xüsusi icazə ilə Qafqaz və yaxud Cənubi Qafqaz diyarında xristianlığı qəbul etməyi arzu edən müsəlman və bütpərəstlərə öz kilsələrinin qaydalarını öyrətməyə başlaya bilərdilər. Bu qərarla müsəlmanlar arasında xristianlığın yayılması işinə pravoslavlıqla yanaşı xristianlığın Rusiyada dözümlü yanaşılan katoliklik, protestantlıq və sair bu kimi məzhəblərdən olan ruhani xadimlərə də icazə verilirdi.[14]

Bu qərarın verilməsindən bir müddət keçdikdən sonra xristianlığın digər məzhəblərindən olan din xadimlərinin müsəlmanların xristianlığa cəlb etmək sahəsindəki fəaliyyətlərini nizamlamaq məqsədilə yeni qanun verilir. Bu barədə Qafqaz canişini Qafqaz Komitəsinə göndərdiyi məktubunda qeyd edirdi ki, onun diyarının uzaqda yerləşməsi səbəbindən xristianlığı qəbul etmək istəyənlərin bu barədə ərizə verdiyi gündən cavabın alınmasına kimi bəzən bir ilə yaxın vaxt keçir. Bununla bərabər belə uzun zaman ərzində xristianlığı qəbul etməyi arzu edənlər hələ faktiki olaraq kilsəyə aid edilməyərək müsəlman olaraq qaldıqları üçün öz həmdinlilərinin, qohumlarının, icmaları və müsəlman ruhanilərin gizli təzyiqlərinə məruz qalırlar. Onlara olunan bu təzyiqlər nəticəsində bəziləri vaxt keçdikcə tərəddüd etməyə başlayırlar, xaraktercə zəif olanlar isə ümumiyyətlə xristianlığı qəbul etmək fikrindən daşınırlar. Canişinin sözlərinə görə xristianlığı qəbul etmək arzusunda olan müsəlmanlara qarşı qohumları, ailə və icma üzvləri tərəfindən gizli şəkildə olunur təzyiqlərdən yerli rəhbərlik onları qoruya bilmir. O qeyd edir ki, bir çoxları belə qəliz yazışma səbəbindən həmkənlilərinin təzyiqləri ilə üzləşə biləcəklərindən çəkinərək ümumiyyətlə xristianlığı qəbul etmək arzularını belə bildirmirlər. Asiyalılar ümumiyyətlə belə yazışmalardan uzaq olmağa çalışırlar. Canişin hesab edirdi ki, bu məsələlərdə daha qısa həll yolları faydalıdır. Buna görə də canişin "Cinayətlərin qarşısının alınması və xəbərdarlığın edilməsi haqqında nizamnamə" barədə Rusiya İmperiyasının qanunlar məcəlləsinin 110-cu maddəsinə uyğun olaraq yerli ruhani rəhbərliyinə müsəlman və bütpərəstlərin xristian dininə çevirməyə icazə vermək hüququnun ona verilməsinə razılıq verməyi Qafqaz Komitəsindən xahiş edirdi.[15]

Qafqaz Komitəsindən imperiyanın ədliyyə nazirinə göndərilmiş 9 iyun 1860-cı il tarixli məktubda göstərilirdi ki, imperator müvafiq fərmanla Qafqaz canişininə bu diyarın uzaqda yerləşməsini nəzərə alaraq tabeçiliyində olan yerli ruhani rəhbərliyinə müsəlman və bütpərəstləri xristian dininə çevirməyə icazə verməyə razılıq verir. Lakin bu zaman hər bir hal barədə canişinlik Daxili İşlər Nazirliyinin Ruhani İşlər Departamentinə məlumat verməlidir. Eyni zamanda xristianlığa döndərilənlərin pravoslav olmaması vacib şərt idi.[16]

Çar Rusiyasının Qafqazda həyata keçirdiyi maarifçilik və təhsil siyasətinin də başlıca məqsədlərindən biri yerli müsəlmanlar arasında xristianlığın yayılması idi. Qafqaz Komitəsinin Zaqatalada müsəlmanlar üçün 40 nəfərlik pansionu (pansion – yataqxanası və hər cür təminatı olan qapalı tipli tədris müəssisəsi – Ə.İ.) olan üçsinifli məktəbin açılması barədəki 1860-cı il 9 iyun tarixli qərarında göstərilirdi ki,

---

[14] Устав о предупреждении и пресечении преступлений. Свод законов Российской империи. **РГИА**, Ф.1268, оп. 10, дело 95 (1860), v.22.
[15] **A.g.s.**, v.22.
[16] **A.g.s.,** v.6-6 arxa.

"...bu cür təlim-tədris müəssisələrinin diyarda sabitliyin bərqərar olmasına göstərdiyi çox böyük təsirlə bərabər yerli əhali arasında, xüsusilə də xaç suyuna çəkilmiş və xaç suyuna çəkilməmiş ingiloylar arasında xristianlığın yayılması və bərqərar olmasında xüsusi rolu ola bilər".[17]

Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının 1859-cu ildə qan işində boğulmasından sonra çarizmin yerlərdəki dini siyasəti özünün yeni mərhələsinə qədəm qoyur. Baş komandan, knyaz A.İ.Baryatinskiy Gürcüstan ekzarxı İsidorla məsləhətləşdikdən sonra hələ 1857-ci ildə Peterburqa, Qafqaz Komitəsinə Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin yaradılması təklifi ilə məruzə etmişdi. Bu məruzə, yaradılacaq Cəmiyyətin məqsəd və vəzifələrini göstərən layihə ilə birlikdə qraf D.N.Bludov, Moskva mitropoliti Filaret, keçmiş Gürcüstan ekzarxları İsidor və Yevseviya, Müqəddəs Sinodun ober-prokurorunun iştirakı ilə Qafqaz Komitəsində müzakirə edilərək Cəmiyyətin yaradılması barədə qərar qəbul olunur.[18]

1860-cı ilin iyunun 9-da təsdiq olunmuş Cəmiyyətin nizamnaməsində yazılırdı: hal-hazırda xristianlığın bərpası üçün şəraitin mövcud olduğu yerlərdə kilsələrin və pritçaların tikilməsi və saxlanması, vaxt keçdikcə, imkanları və missionerlik fəaliyyətinin uğurlarından asılı olaraq (çərçivəsində) bu istiqamətdəki siyasətini digər ərazilərə də yaymaq; İlk növbədə kilsələrin və keşişlərin olduğu kəndlərdə dağlı ailələrin uşaqlarına pravoslav xristian təhsili vermək üçün məktəblər təşkil etmək; dağlarda təbliğat aparmaq məqsədi ilə ruhanilərin hazırlanması məqsədi ilə seminariyaların nəzdində xüsusi siniflər təşkil etmək; dağlarda xristianlığı yaymaq məqsədi ilə missionerləri göndərmək; liturgiya və dini kitabların yerli xalqların dillərinə tərcümə olunması. Cəmiyyətin təşkil olunması ilə 1814-cü ildə təşkil olunmuş Osetin Ruhani komissiyası onun tərkibinə daxil olur və faktiki olaraq fəaliyyətini dayandırır. Çünki bu cəmiyyətin yaradılması ilə onun da funksiyasına daxil olan işlər demək olar ki, ruhani komissiyası ilə eyni idi.[19]

Cəmiyyət ilk vaxtlarda Qafqaz Canişininin Baş İdarəsinin tərkibində Müvəqqəti Komitə tərəfindən idarə olunurdu. Komitə fəaliyyətində qarşısına məqsəd kimi aşağıdakıları qoymuşdu: 1) dağ prixodlarının kilsə xidmətçilərinin hamısının təminatını yaxşılaşdırmaq; 2) İncilin müxtəlif dağlı xalqlarının dillərinə tərcüməsinə başlamaq; 3) Car-Balakən vilayəti və Abxaziyada hərəsində 60 nəfərlik prixod məktəbi açmaq; 4) Tiflis ruhani məktəbində abxaz, kistin, dağıstanlı, svanet, xevsur, osetin və digər xalqların hərəsi üçün bir neçə şagirdin saxlanması üçün vəsait müəyyən etmək; 5) Zaqatala dairəsində ingiloylar üçün kilsə tikmək və sair.[20]

---

[17] Об учреждении в городе новых Закаталах трехклассного первоначального училища. (9 июня 1860 г.). **ПСЗРИ** (1860). Т.10: Ч.1. №35905, с.755-757.

[18] Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, генерал-адъютанту, князю Орлову, от 29-го февраля 1860 года. **РГИА**, Ф.1268, оп.10, дело 95 (1860), s.107-108.

[19] **О действиях высочайше учрежденного общества восстановления православного христианства на Кавказе.** Спб., типография императорской Академии Наук, 1862. 36 с.

[20] **Краткий очерк истории Грузинской церкви и экзархата за XIX столетие.** Тифлис, типография П.К.Козловского, 1901, 304 с.

***Nəticə***

XVIII əsrin sonlarından XIX əsrin 60-cı illərinə kimi çarizmin Qafqaz diyarında, o cümlədən də Şimali Azərbaycanda yerli əhali arasında xristianlığın yayılması ilə bağlı verdiyi qanunvericilik aktları ilə tanışlıq və onların təhlili bu siyasətin bir çox gizlin məqamlarına işıq salmağa, bu siyasətin əsl mahiyyətini üzə çıxarmağa imkan verir. Gətirilən faktlardan bəlli olur ki, bu bölgədə yaşayan müsəlman əhalinin xristianlaşdırması məsələsi hələ XVIII əsrin sonlarından başlayaraq çarizmin müstəmləkəçilik siyasətinin əsas istiqamətlərindən biri kimi gündəmə gəlmiş və sonrakı dövrlərdə də ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilmişdir. Bu səbəbdən də Rusiya ali hakimiyyət orqanlarının, pravoslav kilsəsinin, Gürcüstan ekzarxlığının bu illərdə Qafqazın müsəlman əhalisinə münasibətdəki dini siyasəti pravoslavlığın yerli müsəlmanlar arasında yayılması məqsədinə xidmət etmişdir.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Семён Миха́йлович Броневский. **Описание Донской земли и Кавказских минеральных вод**. СПб., 1834. Ч.4, с.328.
2. Выписка из кабардинских дел, в коллегии иностранных дел находящихся, от 1762-го по 1779-й год. **АКАК. Т.I. Тифлис**, 1866. 83 с.
3. Духовная часть: православное духовенство. **АКАК. Т.III. Тифлис**, 1869, с.75-76.
4. Елена Мельникова. **К истории восстановления автокефалии грузинской церкви** 12 марта 1917 г., с.398-404. https://pstgu.ru/download/1282735117.melnikova.pdf
5. **Краткий очерк истории Грузинской церкви и экзархата за XIX** столетие. Тифлис, типография П.К.Козловского, 1901, с.304.
6. О выдаче денежного награждения кантонистам магометанского или языческого исповеданий, принявших христианскую веру (24 января 1836 г.). **ПСЗРИ** (1825-1881). Т.11. Ч.1. №8812, с.82.
7. **О действиях высочайше учрежденного общества восстановления православного христианства на Кавказе**. СПб., типография императорской Академии Наук, 1862, с.36.
8. О магометанах, желающих принять христианскую веру римско-католического исповедания (15 октября 1836 г.). **ПСЗРИ** (1825-1881). Т.10: Ч.2. №8480, с.1029-1030.
9. О правилах поселения в Закавказском краю Магометан, воспринявших Св. Крещение (30 марта 1848 г.). **ПСЗРИ** (1825-1881). Т.23. Ч.1. №22149, с.222-223.
10. О разрешении впредь строить деревянные церкви повсеместно (28 октября 1835 г.). **ПСЗРИ** (1825-1881). Т.10: Ч.2. №8517, с.1054-1055.
11. Об утверждении сделанного Наместником Кавказским распоряжения об освобождении ингелойцев принявших православную веру от платежа в казну поземельной, подымной и прочих податей и повинностей. Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, от 30-го сентября

1859 года. **Российский Государственный Исторический Архив (РГИА)**, Ф.1268, оп. 10, дело 221 (1859).
12. Об учреждении в городе новых Закаталах трехклассного первоначального училища. (9 июня 1860 г.). **ПСЗРИ** (1860). Т.10: Ч.1. №35905, с.755-757.
13. Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, генерал-адъютанту, князю Орлову, от 29-го февраля 1860 года. **РГИА**, Ф. 1268, оп. 10, дело 95 (1860).
14. **Отчёт общества восстановления православного христианства на Кавказе за 1906-1907 гг**. Тифлис, элэктропечатное тов-тво Цискари, 1909, с.337.
15. Павел Немашкалов. **Становление и функционирование епархиальной системы управления Русской Православной церкви на Северном Кавказе (конец XVIII – 60-е годы XIX века)**. Диссертация на соискание ученей степени доктора ист. наук. Ставрополь, 2020, с.555.
16. Подробная записка протоиерея Иосифа Цинамзгварова. **АКАК**, т. 6, часть 1-я, Тифлис, 1874, с.401.
17. Устав о предупреждении и пресечении преступлений. Свод законов Российской империи. **РГИА**, Ф.1268, оп. 10, дело 95 (1860).

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Əliyeva İradə Hacəli qızı – tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Aliyeva Irada Hajali – Doctor of Philosophy in history, associate professor, A.A.Bakikhanov Institute of History of ANAS. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 67-75*

UOT **94(479.24)**

# QARABAĞ TARİXİ RUSİYA İMPERİYASININ TAM QANUNLAR KÜLLİYYATINDA (I VƏ II NƏŞRLƏR)

©2023

SAMİRƏ RƏHİMOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCİD-0009-0001-8557-6302; e-mail: samire.rahimova@gmail.com
*https://doi.org/10.59849/2523-4765.2023.2.67*

***Xülasə:*** *Məqalədə "Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatı"nın I və II nəşrləri Qarabağ tarixinə dair mənbə kimi qiymətləndirilməsi nəzərdən keçirilir. Məlumdur ki, bütün dövrlərin və xalqların qanunları ictimai quruluşu, dövlət mexanizmini və hüquq sahələrini öyrənmək üçün mükəmməl materialdır. Təhlil, qanunların bir-biri ilə müqayisəsi, digər tarixi mənbələr və real hadisələrlə müqayisəsi cəmiyyətin həqiqi mənzərəsini yüksək əminliklə bərpa etməyə imkan verir. Qanunların özü dövlətin həm daxili, həm də xarici həyatını təsvir edir. Onlarda mənəvi-siyasi əsasların necə formalaşması haqqında məlumatlar var. Dövlətin tarixi onun qanunlarını bilmədən etibarlı şəkildə başa düşülə bilməz. Çünki onlar təkcə indini deyil, həm də keçmişi ehtiva edir və bütün bunlar birlikdə gələcək qanunvericiliyə, dövlətin gələcəyinə zəmin yaradır. "Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatı" xronoloji ardıcıllıqla yerləşdirilmiş məcəllələr, nizamnamələr, manifestlər, fərmanlar, məktublar, traktatlar, əsasnamələr, reskriptlər, qərarlar və digər sənədlərdir. Yalnız kilsə administrasiyasının aktları, habelə imperator məhkəməsi və məhkəmə şöbələri ilə bağlı olan sənədlər buraya daxil edilməmişdir. Məqalədə "Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatı"nın Qarabağın tarixinə dair bəzi sənədləri tədqiqata cəlb edilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, Rusiya İmperiyası, Qarabağ, qanunlar külliyyatı*

# HISTORY OF KARABAKH IN THE COMPLETE COLLECTION OF LAWS OF THE RUSSIAN EMPIRE (EDITIONS I AND II)

©2023

SAMIRA RAHIMOVA*

*A.A.Bakikhanov Institute of History, ANAS
ORCİD-0009-0001-8557-6302; e-mail: samire.rahimova@gmail.com

***Abstract:*** *The article considers assessment I and II of the Complete Collection of Laws of the Russian Empire as a source on the history of Karabakh. As we know, the laws of all times and peoples are excellent material for studying the social system, the state mechanism and branches of law. Analysis, comparison of laws with each other, comparison with other historical sources and real events make it*

*possible to restore the true picture of society with a high degree of certainty. Laws already in themselves depict both the internal and external life of the state. They contain information about how the moral and political foundations were formed. The history of the state without knowledge of its laws cannot be understood reliably. Because they contain not only the present, but also the past, and all this together creates the basis for future legislation and the future state. "Complete collection of laws of the Russian Empire" these are codes, charters, manifestos, decrees, letters, treatises, regulations, rescripts, resolutions and other documents placed in chronological order. Only acts of church administration, as well as those relating to the imperial court and court departments, were not included. In the article, we studied some documents from "Complete collection of laws of the Russian Empire" about the history of Karabakh.*

***Keywords:*** *Azerbaijan, Russian Empire, Karabakh, Complete collection of laws*

# ИСТОРИЯ КАРАБАХА В ПОЛНОМ СОБРАНИИ ЗАКОНОВ РОССИЙСКОЙ ИМПЕРИИ (ИЗДАНИЯ I И II)

©2023 САМИРА РАГИМОВА[*]

[*]Институт Истории им. А.А.Бакиханова НАНА
ORCİD-0009-0001-8557-6302; e-mail: samire.rahimova@gmail.com

***Резюме:*** *В статье рассматривается I и II Полное собрание законов Российской империи» как источник по истории Карабаха. Как известно законы всех времён и народов – прекрасный материал для изучения общественного строя, государственного механизма и отраслей права. Анализ, сопоставление законов между собой, сравнение с иными историческими источниками и реальными событиями позволяют с высокой степенью достоверности восстановить истинную картину общества. Законы уже сами по себе изображают как внутреннюю, так и внешнюю жизнь государства. В них заложена информация о том, как складывались нравственные и политические устои. Историю государства без познания его законов нельзя понять достоверно. Потому что в них – не только настоящее, но и прошлое, а всё это вместе создаёт базу для будущего законодательства и будущего государства. «Полное собрание законов Российской империи» (ПСЗРИ) – это уложения, уставы, манифесты, указы, грамоты, трактаты, положения, рескрипты, резолюции и прочие документы, размещённые в хронологическом порядке. Не были включены только акты церковного управления, а также касающиеся императорского двора и придворного ведомства. В статье исследованы некоторые документы из ПСЗРИ об истории Карабаха.*

***Ключевые слова:*** *Азербайджан, Российская империя, Карабах, Полное собрание законов*

***Giriş***

Azərbaycanda ayrı-ayrı hüquq sahələri Rusiya qanunvericiliyi bazasında formalaşmaqda və inkişaf etməkdə idi. XIX əsrdə mühüm hüquqi mənbə qismində “Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatı” və “Rusiya imperiyasının qanunlar toplusu” çıxış edirdi. Xüsusilə də “Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatı (*bundan sonra* – Külliyyat)” tariximizin tədqiqi üçün son dərəcə mühüm sənədləri özündə ehtiva edir. Bu sənədlərin Qarabağla bağlı olan hissəsi bir o qədər zəngin olmasa da apardığımız araşdırmalar zamanı, xüsusilə Külliyyatın I və II nəşri vaxtı çap edilən çoxsaylı cildlərdə müəyyən məlumatlar əldə etmək olur. Bu mənbənin, yəni Külliyyatın yaradılma tarixinə nəzər saldıqda necə böyük bir işin görülməsinin bir daha şahidi oluruq. Xüsusilə də bu işdə Mixail Mixayloviç Speranskinin əməyini qeyd etmək lazımdır. Qeyd edək ki, I Nikolay (1825-1855) Rusiya İmperiyasının həyatını qanunlarla idarə etmək məqsədilə qanunvericilik sənədlərinin sistemləşdirilməsi məsələsinin həllini məhz Mixail Mixayloviç Speranskiyə (1772-1839) tapşırmışdı. O, hələ 1809-cu ildə “Dövlət qanunları külliyyatına giriş” adlı geniş dövlət islahatları layihəsini hazırlayıb imperatora təqdim etmişdi. M.Speranski həmçinin Rusiya qanunvericiliyinin kodifikasiyası ilə bağlı bir sıra hazırlıq işləri görmüşdü.[1] Bu səbəbdən I Nikolayın bu işi məhz ona tapşırması heç də təsadüfi deyildi. I qanunların külliyyatının 1826-cı il 25 aprel (7 may) tarixindən başlanan hazırlanması prosesi 1830-cu il 1 (13) aprel tarixində başa çatdırıldı. Köməkçiləri ilə işi yekunlaşdıran M.Speranski I Ptyotrun atası Aleksey Mixayloviçin çarlığı zamanından, daha dəqiq 1649-cu ildə verilən ümumi qanunnamədən başlayaraq, 30.920 aktı 45 cilddə toplayaraq “Rusiya imperiyasının Tam Qanunlar Külliyyatı”nı hazırladı. Bu külliyyata həm qüvvədə olan, həm də ləğv olunmuş qanunlar daxil idi. Bu işlərin təşkilindəki xidmətlərinə görə Mixail Speranski 1839-cu ildə qraf tituluna layiq görüldü.[2][3] Külliyyatın geniş xronoloji və predmet göstəriciləri var idi.

Qanunların I külliyyatından sonra, II və III külliyyatı da hazırlandı. II külliyyat illik olaraq 1830-1884-cü illər üzrə 60.000 qanunvericilik aktını özündə ehtiva edirdi. 12 dekabr 1825-ci ildən 28 fevral 1881-ci ilə qədər olan dövrü – yəni I Nikolayın hakimiyyəti dövründən II Aleksandrın (1855-1881) hakimiyyəti dövrünə qədər. 55 cilddə və göstəricilərlə çap olumuşdur.[4] III külliyyat da illik olaraq 1881-ci ildən 1916-cı ilə qədər nəşr olundu. 33 cilddən ibarət bu külliyyatda isə 40.000 qanunvericilik aktı, 1 mart 1881-ci il tarixindən 1913-cü ilin sonlarına qədər olan dövrü – yəni III Aleksandrın (1881-1894) və II Nikolayın (1894-1917) hakimiyyəti dövrünü əhatə edirdi. 1830-cu ildən 1913-cü ilə qədər cəmi 133 cild nəşr edilmişdir.[5]

---

[1] Виктория Романенко. Сперанский о системе разделения властей в России. **Международный журнал экспериментального образования**, №10, 2016, с.240-241.
[2] **Полное собрание законов Российской Империи (ПСЗРИ)**. Собрание Первое. 1649-1825 гг. https://nlr.ru/e-res/law_r/coll.php?part=1
[3] Tahir Baxşəliyev. **Rusiya tarixi ən qədim zamanlardan günümüzədək**. Təhsil, Bakı, 2021, s.263.
[4] **ПСЗРИ.** Второе собрание (1825-1881). https://nlr.ru/e-res/law_r/coll.php?part=263
[5] **ПСЗРИ.** Третье собрание (1881-1913). https://nlr.ru/e-res/law_r/coll.php?part=1423

Hər külliyyatın sonunda predmet göstəriciləri olurdu. Məsələn I qanunların külliyyatının 40 cildi 1649-cu ildən 1825-ci ilə qədər olan dövrə işıq tutur. 41-ci cild illər üzrə xronoloji göstərici, 2 hissəli 42-ci cild əlifba göstəricilərindən, 43-44-cü cildlər ştatlar kitabı adlanır. 43-cü cild iki hissədən ibarətdir. Həmin hissələr 1-ci şöbə və 1-ci şöbənin davamı adlanır. 44-cü cild də 2 hissədən ibarətdir. Birinci hissəsi 2-ci şöbə, 2-ci hissə isə 3 və 4-cü şöbə adlanır. 45-ci cild tariflər kitabı adlanır. 45 cilddən əlavə daha iki cild də var, lakin onlar əlavə sayılır. Bu cildlərdən biri "1-ci qanunlar külliyyatına aid çertyoj və şəkillər", digəri isə "çertyojlar və şəkillər (şəhərlərin planı)" adlanır.

Bütövlükdə, sadəcə Rusiya İmperiyasının qanunvericilik tarixinə dair, bu imperiyanın işğal etdiyi ərazilərə dair də qəbul edilmiş mühüm sənədləri özündə ehtiva edən bu külliyyatlarda Azərbaycan tarixinə, o cümlədən də Qarabağ tarixinə dair maraqlı sənədlər yer almışdır. Bu sənədlərin toplanaraq tədqiqata cəlb edilməsi vətən tarixşünaslığı üçün mühüm önəm kəsb edir.

***Qarabağ tarixi Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatının I buraxılışında***

Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatınının I buraxılışında az da olsa Qarabağ tarixinə dair məlumatlara rast gəlirik. Belə ki, I Külliyatın 42-ci cildinin I hissəsində Azərbaycan torpaqları – Bakı, Qarabağ, Dərbənd, Şəki və Şirvan əyalətləri Gürcüstana dair göstərici daxilində[6] qeyd olunub. Həmin hissədə verilən məlumatlardan məlum olur ki, I külliyyatın 25-ci cildində (1798-1799-cu illər üzrə) 18990 nömrəli 1799-cu il, 2 iyun tarixli sənəddə[7] və 18991 nömrəli 1799-cu il, 3 iyun tarixli sənəddə[8] Qarabağın xristian əhalisinin (mənbədə yanlış olaraq erməni kimi qeyd olunur – müəl.) Rusiya təbəəliyini qəbul etməsi, onlara hüquq və imtiyazların bəxş edilməsi, onlara torpaq ayrılması barədə məlumatlar verilir. 32-ci cilddə 25466 nömrəli sənəddə[9] Qarabağın da Rusiya tərəfindən işğalını rəsmiləşdirən Gülüstan müqaviləsi öz əksini tapmışdır. 39-cu cilddə (1824) 22 yanvar tarixli 29735 nömrəli sənəddə isə Şəki, Şirvan əyalətləri ilə yanaşı Qarabağ əyalətinin də idarəçiliyi və həmin əyalətlərin hərbi dairə rəisliyi üçün heyətlərin təsdiqi (ştat) barədə məlumat öz əksini tapmışdır.[10]

İlk olaraq I külliyyatın 25-ci cildində 18990 nömrəli 1799-cu il, 2 iyun tarixli sənədə diqqət edək. Bu sənəddə[11] Qarabağ məliklərindən Vərəndə hakimi Məlik Cümşüd Şahnəzərov və Gülüstan məliyi Firidon Beçlyarovun (Bəylərov – *S.R.*), bütün digər varlı vilayətlərin hakimi olan məliklərin və yüzbaşıların, onların bütün əhalisinin *"Rusiya imperatorunun mərhəmət və lütfünə sığınması"*, yəni Rusiya

---

[6] **ПСЗРИ**. Собрание Первое. Том XLII. Часть 1. Указатель алфавитный. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии, Санкт-Петербург, 1830, с.541.

[7] **Полное собрание ..... A.g.s.**, с.542.

[8] **A.g.s.**, (1140 с.) с.542.

[9] **A.g.s.**, с.544.

[10] **A.g.s.**, с.546.

[11] **ПСЗРИ.** Собрание Первое. Том XXV: 1798-1799 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830, с.674-675.

təbəliyini qəbul etməsi barədə məlumat verilir. Əlavə olaraq həmin məliklərə bəxş edilən hüquq və imtiyazlar, onlara torpaq sahəsi ayrılması məsələsinə toxunulur. Öz yurdların tərk edən məlikliklərə, onların əhalisinə Kartli-Kaxet məskunlaşmaq da təklif olunur. Məliklərin Qazaxda məskunlaşmaq istəyi də Rusiya İmperiyası mənsubları tərəfindən müsbət qarşılanır. Hətta bu barədə 3 iyun tarixinə aid növbəti – 18.991 nömrəli sənəddə Kartli-Kaxet çarı Georginin adına verilən ali fərmanda bu məsələyə xüsusi olaraq toxunulur.[12] Bu fərman Qarabağın alban məliklərinin təbəəliklərindəki əhali ilə Qazaxda məskunlaşmaq istəyindən məhrum edilməməsi barədə də idi. Təbii ki, fərmanda alban məlikliyi kimi deyil, erməni məlikliyi kimi Qarabağın xristian məlikləri xatırlanır. Bu fərmanda Vərəndə məliyi Məlik Cəmşid Şahnəzərovun, Gülüstan məliyi Firidun Bəylərovun adları çəkilir və onların yüzbaşı matros Madato ilə birgə Kartli-Kaxet çarı Georginin yanına göndərilməsi, əlahəzrət imperatorun adından həmin məlikləri himayəyə götürülməsi və hər cür ehtiyaclarını qarşılanması qeyd olunur. Xüsusilə də fərmanda Vərəndə məliyi Məlik Cəmşidin adı fərmanda fərqləndirilirdi.[13]

32-ci cilddə 25466 nömrəli sənəddə[14] isə Azərbaycanın tarixi torpaqlarının ikiyə bölünməsini rəsmiləşdirən, 15 sentyabr 1814-cü ildə Tiflisdə ratifikasiya edilən 1813-cü il 12 oktyabr tarixli Gülüstan müqaviləsinin tam mətni öz əksini tapmışdır.[15] Qacarlar İranı ilə Rusiya İmperiyası arasında 12 oktyabr tarixində imzalanan bu müqavilə Qarabağ xanlığının gələcək taleyini də həll edən mühüm sənəddir. Müqavilənin Səfəvilər dövründə Qacarların əsas yurd yeri olan Qarabağda imzalanması da məhz buna işarə idi. On bir maddədən ibarət olan Gülüstan müqaviləsinin müqəddiməsində belə qeyd olunurdu:

> *“Biz, yuxarıda adları çəkilmiş səlahiyyətli müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimiz öz tərəfindən bizim Böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik”.*[16]

II Maddəyə görə Bütün Rusiya İmperiyası və Qacarlar İranı arasında sərhəd aşağıdakı kimi müəyyən olunurdu:

> *“Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzündən Araz çayında Yeddibulaq keçidinədək, oradan üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərək. Alagöz dağları silsiləsilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol*

---

[12] **A.g.s.**, c.675.
[13] **A.g.s.**, c.675-676.
[14] **ПСЗРИ**. Собрание Первое. Том XXXII: 1812-1815 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830, c.641-645.
[15] **A.g.s.**, c.641.
[16] **A.g.s.**, c.642.

> *dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı yönündə, Həmzəçi-mən yolu ilə, Pənbək dağları silsiləsi ilə Şurakel mərzinin küncünədək, bu güncdən də qarlı Alagöz dağının başınadək, buradan da Şurakel ilə, dağlar silsiləsi ilə, Mastaras və Artkin arası ilə Arpaçayadək".*[17]

Gülüstan müqaviləsinin 3-cü maddəsi ilə Qarabağ xanlığının Rusiya İmperiyasının nəzarəti altına düşməsi təsdiqlənirdi. Həmin maddəyə görə, Qacarlar İranı Qarabağ xanlığının da Rusiya İmperatorluğu mülkiyyətinə mənsub olduğunu qəbul edirdi.[18]

I Qanunlar Külliyyatının 39-cu cildində 29735 nömrəli sənəddən isə Qarabağ əyalətinin idarəçiliyinə dair sənəd yer alıb.[19] Bu sənədin sonunda daha təfsilatlı şəkildə sənədlə tanış olmaq üçün I Qanunlar Külliyyatında ştatlarla bağlı 2 hissədən ibarət 44-cü cildinə müraciət etmək mümkündür. Təəssüf ki, bu cildin heç bir hissəsində həmin cədvələ təsadüf etmədik. Bütövlükdə, Qarabağla bağlı I Qanunlar Külliyatında müəyyən edə bildiyimiz sənədlər əsasən Qarabağ tarixinə dair bəzi məlum məqamları dəqiqləşdirib genişləndirməyə şərait yaradır.

***Qarabağ tarixi Rusiya İmperiyasının Tam Qanunlar Külliyyatının II buraxılışında***

İkinci qanunlar külliyyatı 55 cilddən ibarətdir. 12 dekabr 1825-ci ildən 28 fevral 1881-ci ilə qədər olan dövrü əhatə edir. Bu külliyyatın 55 cilddən əlavə 1885-ci ildə çap edilmiş daha 4 cild – Ümumi əlifba göstəricisi var. I cild A hərfindən J hərfinə, II cild Z hərfindən O hərfinə, III cild O hərfindən P hərfinə, IV cild T hərfindən Ya hərfinə qədərdir. I cilddə şəhərlərlə bağlı bölmədə səhifə 301-də Şuşa şəhəri barədə məlumat alırıq. Orada Şuşa şəhərində poçt kontorunun təsisi ilə bağlı II külliyyatın 5-ci cildində (1830) 3793 nömrəli 15 iyul tarixli sənədin olması barədə məlumat qeyd olunub. Məlumata görə Şuşa qalasında poçtun təsisi ilə bağlı qərar 19 iyunda təklif edilib 24 iyunda iclasda dinlənilib. Bu qərarda maraqlı cəhət Şuşa qalasında Qarabağ, Köhnə Şamaxıda isə Şirvan adlı poçt yerlərinin təsisi nəzərdə tutulurdu.[20] Ümumi əlifba göstəricisinin II cildində Zaqafqaziya diyarı bölməsində Şuşanın da adının qeyd olunduğu məlumatlar var. Belə ki, həmin cilddəki bölmədə səhifə 15-də verilən məlumatdan aydın olur ki, II külliyyatın 25-ci cildində (1850) 24619 nömrəli sənəddə çaparın sərhəddən Şuşa xətti xidmətinə göndərilməsi barədə

---

[17] **A.g.s.**, c.642-643.
[18] **A.g.s.**, c.641-645.
[19] **ПСЗРИ**. Собрание Первое. Том XXXIX. 1824 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии, 1830. Санкт-Петербург, c.10-11.
[20] **ПСЗРИ.** Том V. Отделение 1. 1830 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1831, c.716-717.

məlumat öz əksini tapıb.[21] Bu sənəd 9 noyabr tarixində verilib. Həmin sənəddə məsələ ilə bağlı hələ 1850-ci il fevral ayının 24-də Qafqaz Canişinin, martı 17-də Daxili işlər Nazirinin, 6 may tarixində isə Maliyyə Nazirinin çaparların sərhəd xidmətindən azad edilməsi və onların Don kazakları ilə əvəzlənməsi barədə mövqeyinin dinlənilməsi qeyd olunur. Noyabr ayının 9-da isə *"əlahəzrət imperator əl yazısı ilə Komitə jurnalında "icra olunsun" yazmaqla bu qərarı təsdiqlədi".* [22] Külliyatda təqdim edilən sənəddə Qafqaz Canişinin bu məsələ ilə bağlı 24 fevralda mövqeyini əks etdirən məlumatda qeyd olunur:

> *"Qarabağ əyalətində, hazırki Şuşa qəzasında sərhəd xəttinin qorunması məqsədi ilə 1839-cu ilə kazaklar üçün sakinlərdən dəstək alınırdı. 1839-cu ildə Araz sahilində köçərilərin icmalarından – Çelobiyan (Çələbilər – müəl.), Pesiyan (Püsyan mahalı – müəl.) və Dizax-Cavanşir (Cavanşir-Dizaq mahalı – müəl.) icmalarından – daimi sərhəd xidmətinə təyinatların edilməsi ilə bağlı bir ehtimal var idi, belə ki, bu tayfalar hər cür öhdəlikdən azad edilir, bundan savayı onlara pul bəxşişi müəyyən edilməsi üçün onlar hər 3 ailədən bir nəfəri sərhəd xidmətinə göndərməli idilər".*[23]

Ümumiyyətlə, Qafqaz Canişinin qərarına görə aşağıdakı qaydalar müəyyən edilirdi:

*1. İcmalar: Çələbilər, Cavanşir-Dizaq və Püsyan sərhəd çaparları xidmətinə daxil olur;*

*2. Çaparlar xəzinəyə ödəniləcək vergilərdən və torpaq sahibləri qarşısındakı öhdəliklərdən azad edilir. Bundan başqa hər bir ailə 7 rubl 50 qəpik gümüş pul alacaq;*

*3. Çapar tərkibinə daxil olan bəylər və ağsaqqallar nökərlərinə görə ödənişdən azad edilirdilər;*

*4. Çapara daxil olan kasıb kəndlilərə hər ailəyə görə mükafat olaraq 7 rubl ödəniş ediləcəkdi;*

*5. Sərhəd xidməti üçün xərcləri qarşılamaqdan ötrü qarabağlılardan tüstüyə görə 1 gümüş rubl alınacaq. Qalan pul çapar xidmətinə daxil olan icmaların pul və digər öhdəliklərdən azad olunmasının qarşılığı olaraq xəzinəyə daxil olacaqdır. Qalan məbləğdən çaparları etdikləri qarətlərə görə mükafatlandırmaq, öldürülən çaparların ailələrini təmin etmək, sərhəd xətlərindəki məntəqələrdə xidmətdə fərqlənənləri mükafatlandırmaq üçün də istifadə ediləcəkdir".* [24]

Nəticədə il ərzində Şuşa qəzasından 22647 rubl 9601 r. 50 qəp. toplandı. Həmin məbləğdən 2558 r. 20 qəp. onların vergi ödənişlərini qarşılamaq üçün xəzinəyə daxil oldu. Toplanılan ümumi məbləğdən Şuşa qəzası idarəçiliyinin katib köməkçisinə, karantin mühafizəsi üzrə işlər müdirinə 448 rubl, Molla Cavanşir – Dizaq icmasına 145 rubl pul ayrılırdı. Cəmi 14159 rubl 58 qəpik qəzadakı işlərə

---

[21] **ПСЗРИ**. Том XXV. Отделение 2. 1850 г. СПб. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1851, с. 194-195
[22] **A.g.s.**, c.194.
[23] **A.g.s.**, c.194.
[24] **A.g.s.**, c.194.

xərclənirdi. Qalan məbləğ isə müxtəlif məqsədlər üçün sərf edilirdi.[25] Ümumiyyətlə, 1850-ci ilə aid bu sənəd Qarabağın tarixi ilə bağlı çox mühüm mənbədir. Çünki çar Rusiyasının vergi siyasətini, Qarabağın tərəkəmə əhalisinə qarşı münasibətini də özündə ifadə edir.

Türkmənçay müqaviləsi də II Qanunlar Külliyyatına daxildir. Məlum olduğu kimi Çarizmin Şimali Azərbaycan torpaqlarını işğalı onun erməniləşdirilməsi ilə bərabər gedirdi. 10 fevral 1828-ci ildə Təbriz yaxınlığındakı Türkmənçay kəndində imzalanmış Türkmənçay müqaviləsindən sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter aldı. Qanunlar külliyyatına daxil edilən Türkmənçay müqaviləsinin XV maddəsi Qacarlar İranından Şimali Azərbaycana, o cümlədən də Qarabağa ermənilərin köçürülməsini bir daha təsdiq etdi.[26] Bütövlükdə, II Qanunlar külliyatından Qarabağ tarixi ilə bağlı başqa maraqlı faktların da müəyyən edilərək tədqiqata cəlb edilməsi tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Biz sadəcə bu faktlardan bəzilərinə təhlil edib bu sənədlərin əhəmiyyəti barədə müəyyən təsəvvür yaratmağa çalışdıq.

***Nəticə***

Beləliklə, yuxarıda gətirilən materiallar da bir daha göstərir ki, "Rusiya imperiyasının tam qanunlar külliyyatı"na tarixşünaslığımızda bir o qədər də diqqət yetirilməməsi bəzi mühüm məqamların gözdən qaçması ilə nəticələnmişdir. Bu məqamlardan ikisi üzərində məqalədə geniş məlumat verdik. Birincisi, Şuşada çapar xidmətinin təşkili məsələsidir. Bu məsələnin tədqiqi bizə sadəcə kimlərinsə vəzifəyə təyin edilməsi və vəzifədən uzaqlaşdırılması barədə məlumat vermir. Bu istiqamətdə mənbədə öz əksini tapan məlumatlar Qarabağın taleyində tərəkəmə türklərinin rolunu, çar Rusiyasının Qarabağda tətbiq etdiyi vergi siyasətinin incəliklərinə də bir daha bələd olmağa imkan verir.

İkinci mühüm məqam Qarabağın xristian əhalisi ilə bağlıdır. Bu topluda öz əksini tapan sənədlərdən bəlli olur ki, Çar Rusiyası sadəcə Qarabağda erməniləri məskunlaşmaq siyasəti yeritməklə, məqsədli şəkildə Qarabağ xristianlarının tarixi keçmişini də saxtalaşdırmağa çalışmışdır. Qarabağın xristian məliklərinin erməni kimi təqdim edilməsi də məhz bu məqsədyönlü siyasətin bir hissəsidir. Bu kimi faktlar mənbədə kifayət qədərdir. Ümumiyyətlə, fikrimizi yekunlaşdıraraq belə qənaətə gələ bilərik ki, "Rusiya imperiyasının tam qanunlar külliyyatı" sadəcə Qarabağın deyil, bütövlükdə Azərbaycan tarixinə dair son dərəcə mühüm problemlərin işıqlandırılmasında, müqayisə və dəqiqləşdirmələr aparılmasında dəyərli mənbə rolunu oynaya bilər və bu mənbənin sistemli şəkildə tədqiqinə böyük ehtiyac duyulur.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

[25] **A.g.s.**, c.194.

[26] **Полное собрание законов Российской Империи**. Собрание Второе. Том III. Санкт-Петербург, 1830, №1794, с.130.

1. Tahir Baxşəliyev, **Rusiya tarixi ən qədim zamanlardan günümüzədək**. Bakı, Təhsil, 2021.
2. Виктория Романенко. Сперанский о системе разделения властей в России // **Международный журнал экспериментального образования**, №10, 2016, с.240-241.
3. **Полное собрание законов Российской Империи (ПСЗРИ)**. Собрание Первое. 1649-1825 гг. https://nlr.ru/e-res/law_r/coll.php?part=1
4. **ПСЗРИ**. Второе собрание (1825-1881). https://nlr.ru/e-res/law_r/coll.php?part=263
5. **ПСЗРИ.** Собрание Второе, т.3, Тип.II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830.
6. **ПСЗРИ**. Собрание Второе, Том V. Отделение 1. 1830 г. СПб. Тип.II Отделения Собственной Его Императорского Величества Канцелярии. 1831.
7. **ПСЗРИ**. Собрание Первое. Т.XLII, Часть 1. Указатель алфавитный. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830.
8. **ПСЗРИ**. Собрание Первое. Том XXV: 1798-1799 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830.
9. **ПСЗРИ**. Собрание Первое. Том XXXII: 1812-1815 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830.
10. **ПСЗРИ.** Собрание Первое. Том XXXIX. 1824 г. Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии. Санкт-Петербург, 1830.
11. **ПСЗРИ.** Третье собрание (1881-1913). https://nlr.ru/e-res/law_r/coll.php?part=1423

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Rəhimova Samirə Bəhram qızı – dissertant AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Rahimova Samira Bahram – candidate for a degree at A.A.Bakikhanov Institute of History of ANAS. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 76-83*

**UOT 94(479.24)**

# XIX YÜZİLLİYİN SONLARI – XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN QUBERNİYASI SÜRMƏLİ QƏZASININ İNZİBATİ-ƏRAZİ İDARƏÇİLİYİ TARİXİNDƏN

©2023
HACI HƏSƏNOV *

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0001-7964-6696; e-mail: hacihasanov@mail.ru
*https://doi.org/10.59849/2523-4765.2023.2.76*

***Xülasə:*** *Məlumdur ki, I Nikolayın 9 iyun 1849-cu il tarixli fərmanı ilə İrəvan quberniyası yaradılarkən onun tərkibində cəmisi 5 qəza var idi: İrəvan, Yenibəyazid, Naxçıvan, Ordubad və Aleksandropol. II Aleksandrın 1867-ci il 9 dekabr tarixli fərmanı ilə edilən dəyişiklikdə də bu say dəyişmədi, sadəcə Ordubad Naxçıvan qəzasına qatıldı və yeni – Eçmiədzin (Üçmüəzzin) qəzası yaradıldı. 1875-ci ildə isə bu quberniyanın tərkibində iki yeni qəza – Şərur-Dərələyəz və Sürməli qəzaları təşkil olundu.*

*XIX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərinə olan məlumatlara görə, Sürməli qəzası İğdır, Daşburun və Qulp polis sahələrinə bölünürdü. Qəzanın 3634 kv. km.-lik ümumi ərazisi bu sahələr arasında müvafiq olaraq belə bölünürdü: 739; 1384; 1510 kv. km. Polis sahələrinin hər birində cəmi 3 kənd cəmiyyəti var idi.*

*Cənubi Qafqazda çar rejiminin süqutu ərəfəsində mərkəzi İğdır kəndi olan Sürməli qəzası, "1917-ci il Qafqaz təqvimi"nin məlumatlarına görə, cəmi üç polis sahəsinə bölünürdü. Mərkəzi İğdır kəndi olan 1-ci polis sahəsində 4 kənd cəmiyyətində (Əliqoçaq, Evcilər, Yaycı və İğdır kənd cəmiyyətləri) 34 kənd birləşmişdi. 2-ci polis sahəsinin mərkəzi Daşburun kəndi idi. Bu sahədə isə 65 kənd cəmisi 3 kənd cəmiyyəti arasında paylanılmışdır: Aralıq, Daşburun və Radik kənd cəmiyyətlərində. Mərkəzi Qulp kəndi olan sonuncu – 3-cü polis sahəsində isə kənd cəmiyyətləri xüsusilə böyük idi. Burada 107 kənd 6 kənd cəmiyyəti arasında paylanılmışdır.*

*Bu da həm inzibati idarələrin qəza və quberniya instansiyalarında, həm də kənd cəmiyyətlərinin özündə baş alıb gedən lənglik, süründürməçilik, korrupsiya və qarşılıqlı iddiaların saysız-hesabsızlığının başlıca səbəblərindən biri idi.*

***Açar sözlər:*** *Quzey Azərbaycan, İrəvan, Sürməli, Rusiya imperiyası, müstəmləkə*

# ON THE HISTORY OF THE ADMINISTRATIVE-TERRITORIAL ADMINISTRATION OF THE SURMALI DISTRICT OF THE IREVAN PROVINCE IN THE LATE XIX – EARLY XX CENTURIES

©2023 HAJI HASANOV*

*A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0001-7964-6696; e-mail: hacihasanov@mail.ru

***Abstract:*** *It is known that when the Irevan governatore was established by the decree of Nicholas I of June 9, 1849, it included only 5 districts: Irevan, Novo-Bayazid, Nakhchivan, Ordubad and Alexandropol. In the change made by the decree of Alexander II of December 9, 1867, this number also did not change, just Ordubad was attached to the Nakhchivan district and a new one was created – the Echmiadzin (Uchmuazzin) district. And in 1875, two new districts were formed as part of this district – Sharur-Daralayaz and Surmali.*

*According to the information of the late 80s - early 90s of the 19th century, the Surmali district was divided into Igdir, Dashburun and Gulp police stations. The total area of 3634 sq. km was divided between these sections as follows: 739; 1384; 1510 sq. km. There were only 3 village societies in each of the police stations.*

*On the eve of the fall of the tsarist regime in the South Caucasus, Surmali district, the center of which was the village of Igdir, according to the information of the "Kavkazskiy kalendar'" for 1917, was divided into three police stations. 34 villages were united in 4 village communities (Aligochag, Evjilyar, Yaichy and Igdir village communities) of the 1st police station, the center of which was the village of Igdir.*

*The center of the 2nd police station was the village of Dashburun. In this station, 65 villages were distributed in total between 3 village communities: Aralig, Dashburun and Radik. And in the last – the 3rd police station, the center of which was the village of Gulp, village communities were especially large. Here, 107 villages were distributed among 6 village communities.*

*This was one of the main reasons for the slowness, red tape, corruption and countless mutual claims that took place both in the county and provincial instances of administrative departments, and in the village communities themselves.*

***Keywords:*** *North Azerbaijan, Irevan, Surmali, Russian empire, colony*

# ИЗ ИСТОРИИ АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОГО УПРАВЛЕНИЯ СУРМАЛИНСКОГО УЕЗДА ИРЕВАНСКОЙ ГУБЕРНИИ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ.

©2023 ГАДЖИ ГАСАНОВ*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0001-7964-6696; e-mail: hacihasanov@mail.ru

***Резюме:*** *Известно, что когда указом Николая I от 9 июня 1849 года была создана Ireванская губерния, в ее состав входили всего 5 уездов: Иреванский, Ново-Баязидский, Нахчыванский, Ордубадский и Александро-*

*польский. В изменении, внесенном указом Александра II от 9 декабря 1867 года, это число также не изменилось, просто Ордубад был присоединен к Нахчыванскому уезду и был создан новый – Эчмиадзинский уезд. А в 1875 году в составе этой губернии были образованы два новых уезда – Шарур-Даралаязский и Сурмалинский.*

*По сведениям конца 80-х – начала 90-х годов XIX века Сурмалийский уезд был разделен на Игдырский, Дашбурунский и Гульпинский полицейские участки. Общая площадь в 3634 км$^2$ была разделена между этими участками следующим образом: 739; 1384; 1510 кв.км. В каждом из полицейских участков было всего 3 сельских общества.*

*Накануне падения царского режима на Южном Кавказе Сурмалинский уезд, центром которого было село Игдыр, согласно сведениям «Кавказского календаря» на 1917 год, был разделен на три полицейских участка. 34 села были объединены в 4 сельских обществах (Алигочаг, Эвджиляр, Яйчы и Игдырское сельские общества) 1-го полицейского участка, центром которого являлось село Игдыр.*

*Центром 2-го полицейского участка было село Дашбурун. В этом участке 65 сел были распределены всего между 3-мя сельскими обществами: Аралыг, Дашбурун и Радик. А в последнем – 3-м полицейском участке, центром которого была деревня Гулп, деревенские общества были особенно крупными. Здесь 107 деревень были распределены между 6 сельскими обществами.*

*Это было одной из основных причин медлительности, волокиты, коррупции и бесчисленных взаимных претензий, имевших место как в уездных и губернских инстанциях административных ведомств, так и в самих сельских обществах.*

***Ключевые слова:*** *Северный Азербайджан, Иреван, Сурмали, российская империя, колония*

***Giriş***

İndi qardaş Türkiyə Cümhuriyyətinin tərkibində olan Sürməli diyarının son üç yüzillik tarixi çox keşməkeşli hadisələrlə zəngindir. XVIII yüzilliyin əvvəllərində bu torpaqlar Səfəvilər imperiyasının Çuxursəəd bəylərbəyliyinin tərkibində idi. Həmin əsrin ilk rübünün sonlarında baş vermiş Osmanlı-Səfəvi müharibələri nəticəsində bir sıra Səfəvi mülkləri kimi Sürməli diyarı da bir müddət Osmanlı imperiyasının tərkibinə qatılmışdır.

Mövcud məqalədə mötəbər məlumatlara söykənilməklə Sürməli torpaqlarımızın XIX əsrin sonu – XX əsrin əvvəlləri tarixinin bəzi məqamlarını nəzərdən keçirmək, obyektiv elmi tədqiqat metodları ilə bu bölgə haqqında həqiqi elmi məlumatları oxuculara çatdırmaq nəzərdə tutulur.

***Rusiya müstəmləkə rejiminin qurulması***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan torpaqlarımızın 1827-ci ilin payızında romanovlar Rusiyasının işğalçı qoşunları tərəfindən qəsb edilməsindən sonra Vətənimizin quzey torpaqlarının digər bölgələrində olduğu kimi burada da romanovlar imperiyasının müstəmləkə rejimi quruldu.

Müstəmləkəçi çar Rusiyasının bu torpaqlarımızda təxminən 90 il davam etmiş müstəmləkəçi ağalığı dövründə keçmiş İrəvan xanlığımızın ərazisində çox tez-tez dəyişdirilən inzibati-ərazi idarəçiliyi sistemi qurulmuşdur.

Məlum olduğu kimi, işğalçı romanovlar sülaləsi bu yeni tutduğu müsəlman-türk torpaqlarında özünə xristian elementlərindən ibarət sosial dayaq yaratmaq üçün 1828-ci il 10 fevral tarixli Türkmənçay və 1829-cu il 2 sentyabr tarixli Ədirnə müqavilələrindən sonra buraya Qacar və Osmanlı imperiyalarının ərazisindən on minlərlə erməni köçürməklə kifayətlənməmiş, ona can-başla, hər vasitə ilə qulluq göstərmiş ermənilərin sanki "könlünü almaq" üçün geniş bir jest göstərərək artıq 1828-ci il martın 21-də təzəcə ələ keçirdiyi sabiq Naxçıvan və İrəvan xanlıqlarının ərazisində yaratdığı vilayətə "Erməni vilayəti" adı verdi. Lakin cəmisi 12 ildən sonra bu ad tarixin zibilliyinə atıldı, 1841-ci ildən bu torpaqlarımız Gürcüstan-İmeretiya quberniyasına qatıldı, 1849-cu ildə isə bu torpaqlarda İrəvan quberniyası yaradıldı və bu quberniya ta Cənubi Qafqazda çar rejiminin iflasınadək mövcud oldu.

Vətənimizin digər bölgələrində olduğu kimi burada da çarizmin yürütdüyü siyasət özünün bütün çalarları ilə məhz imperiyanın müstəmləkəçi maraqlarına xidmət etməyə yönəlmişdi; inzibati-ərazi idarəçiliyi sahəsində yürüdülmüş siyasət də bu baxımdan istisna təşkil etmirdi: bu sistem təsbit edilərkən milli-etnik sərhədlər, çox güman ki, bilərəkdən nəzərə alınmır, əhalinin etnik-konfessional tərkibinin xristian elementinin gücləndirilməsinə yönəli dəyişdirilməsi aparılır, inzibati idarəçiliyin bütün instansiyalarında xristian və Rusiya yönümlü məmurların əyləşdirilməsinə xüsusi diqqət yetirilirdi

Osmanlı hakimiyyət orqanlarının 1728-ci ildə tərtib etdikləri icmal dəftərinin məlumatlarına görə Sürməli nahiyəsi İrəvan əyalətinin İrəvan livasının tərkibinə daxil edilmişdir.[1] Lakin az sonra Nadir xan Əfşar bu torpaqları geri qaytarmağa nail olmuş və bütün Azərbaycan torpaqları tezliklə bu görkəmli Azərbaycan hərbi və siyasi xadiminin yaratdığı Azərbaycan vilayətinə daxil edilmişdir.

Nadir şah Əfşarın qətlindən sonra meydana çıxan xanlıqlardan biri olan və Qərbi Azərbaycan torpaqlarının xeyli hissəsində təxminən 80 il mövcud olmuş İrəvan xanlığının tərkibində Arazdan şimaldakı Şörəyel, Abaran, Dərəçiçək, Göyçə, Talın, Seyid Axsaqlı, Qırxbulaq, Qarpi, Səədli, Sərdarabad, Gərnibasar, Zəngibasar, Vedibasar və Şərur mahalları ilə yanaşı Arazın sağ sahili boyunca, bu çaydan cənubda yerləşən mərkəzi İğdır olan Sürməli və mərkəzi Qulp kəndi olan Dərəkənd-Parçenis mahalları da var idi.[2]

1826-1828-ci illər Rusiya-Qacar və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələrinin gedişində bu torpaqlarımız dəhşətli dağıntılar, qırğın və digər ağrılı hərbi-siyasi proseslərin meydanına çevrilmişdir.

### *Sürməli qəzasının təşəkkülü tarixindən*

Bəzi məlumatlara görə, həmin müharibələr nəticəsində Sürməli mahalında 28 kənd darmadağın edilmişdir. Bəzi qaynaqlarda 1828-ci il Türkmənçay müqavilə-

---

[1] **az.wikipedia.org/wiki/Sürməli nahiyəsi.** 05.01.2023.

[2] **Энциклопедический словарь Брокгауза и Эфрона.** Т.82(86). СПб, Семеновская типография, 1904.

sindən sonra Rusiya işğalı altına keçmiş Sürməli mahalında (bu mahal artıq Arazdan cənubdakı bütün İrəvan torpaqlarını əhatə edirdi) 50 kəndin olduğu haqqında məlumat verilir.[3]

1872-ci ilin məlumatlarına görə, İrəvan quberniyasının 7 qəzasında 5 şəhər, 1283 digər yaşayış məskəni var idi. 1912-ci ildə quberniyadakı yaşayış məskənlərinin sayı 1351-ə bərabər olmuşdu.

Quberniyanın digər 6 qəzasından fərqli olaraq bizi maraqlandıran Sürməli qəzası Arazdan şimalda yox, cənubda – çayın sağ sahilindəki İrəvan torpaqlarında təşkil olunmuşdu.

1886-cı ildə bu sahələrdə qəzanın 71066 nəfərlik əhalisi bu polis sahələri üzrə müvafiq olaraq aşağıdakı kimi bölünürdü:

1) 16452 kişi + 14195 qadın = 30647 nəfər;
2) 11126 kişi + 9394 qadın = 20520 nəfər;
3) 10776 kişi + 9123 qadın = 19899 nəfər;

İğdır polis sahəsində 61 kənd, Daşburun polis sahəsində – 62, Qulp sahəsində isə 105 kənd var idi; qəzadakı kəndlərin ümumi sayı 228-ə bərabər idi. 1886-cı il ailə siyahılarının məlumatlarına görə, Sürməli qəzasının 71,1 min nəfərlik ümumi əhalisi bu sahələr üzrə müvafiq olaraq belə bölünürdü: 30,7 min; 20,5 min; 19,9 min nəfər.

1897-ci ilədək qəza əhalisi təxminən 12% artaraq 88244 nəfərə çatmışdı.

Sürməli qəza əhalisinin 1897-ci il Birinci Ümumrusiya əhali sayının nəticələrinə görə milli tərkibcə aşağıdakı kimi idi:

- azərbaycanlılar – 41417 nəfər (bütün qəza əhalisinin 46,51%-i);
- ermənilər – 27075 nəfər (30,4%);
- kürdlər – 19099 nəfər (21,45%);
- şərqi slavyanlar – 1361 nəfər (1,53%);
- polyaklar – 31 nəfər (0,03%);
- almanlar – 13 nəfər (0,01%);
- gürcülər – 11 nəfər (0,01%);
- yəhudilər, yunanlar, litvalılar – 10 nəfər (<0,01%).[4]

***XX əsrin əvvəlində Sürməli qəzasının demoqrafik durumuna dair.***

1900-cü ilə aid "Qafqaz təqvimi"nin məlumatlarına görə Sürməli qəzası üç polis sahəsinə (İğdır, Daşburun və Qulp) bölünürdü. Bu sahələrin mərkəzləri müvafiq olaraq eyniadlı kəndlər idi. Hər polis sahəsində 3 kənd cəmiyyəti təşkil olunmuşdur. Qəzanın ümumi 3192,75 kv. verstlik (3634,39 kv. km) sahəsi sahələr arasında müvafiq olaraq aşağıdakı kimi bölünürdü:

1) 649,39 kv. verst (739,92 kv.km);
2) 1216,11 kv. verst (1384 kv.km);
3) 1327,28 kv. verst (1510,47 kv.km).

---

[3] **Энциклопедический словарь Брокгауза и Эфрона.** Т.82(86). СПб., Семеновская типография, 1904.

[4] **Первая всеобщая перепись населения Российской империи 15 января 1897 года. Т.LXXI.** Эриванская губерния. Тип. кн. Мещерского, 1905, сс.98-99.

Bu sahələrdə müvafiq olaraq 61 (4317 həyət), 62 (2748) və 105 kənd (2683) qeydə alınmışdı.[5]

**I polis sahəsi - İğdır** (mərkəzi İğdır kəndi) – 3 kənd icması

Ərazi 649,30 kv.verst

67635 des.
13,010 kv. mil
739,92 kv. km
50-dək həyəti olan kəndlərin sayı – 32
50-100-dək həyəti olan kəndlərin sayı – 13
100-200-dək həyəti olan kəndlərin sayı – 14
200-dən çox həyəti olan kəndlərin sayı – 2
Kəndlərin ümumi sayı – 61
Həyətlərin ümumi sayı – 4317
Əhali (1886-cı il ailə siyahılarına görə) 16452 nəfər kişi+14195 nəfər qadın=30647

**II polis sahəsi - Daşburun** (Daşburun) – 3 kənd icması

Ərazi – 1216,13 kv .verst
126,681 des.
25,134 kv. mil
1304,00 kv.km
50-dək həyəti olan kəndlərin sayı – 44
50-100-dək həyəti olan kəndlərin sayı – 12
100-200-dək həyəti olan kəndlərin sayı – 4
200-dən çox həyəti olan kəndlərin sayı – 2
**Cəmi**: – 62 kənd, 2748 həyət
Əhali (1886) 11126+9394=20520

**III polis sahəsi – Qulp** (Qulp kəndi)-3 kənd icması

Ərazi 1327,28 kv.verst
138.257 des.
27,030 kv. mil
1510,47 kv. km
50-dək həyəti olan kəndlərin sayı – 97
50-100-dək həyəti olan kəndlərin sayı – 7
100-200-dək həyəti olan kəndlərin sayı - -
200-dən çox həyəti olan kəndlərin sayı – 1
**Cəmi:** – 105 kənd, 2683 həyət
Əhali (1886) 10776+9123=19899

**Ümumiyyətlə Sürməli qəzası üzrə** – 9 kənd icması

Ərazi – 3192,78 kv.verst
352.573 des.
65,082 kv. mil
3634,39 kv.km

---

[5] **Кавказский календарь на 1900 год, отд.** III. Тифлис, тип. М.Шарадзе и Ко, 1899, сс.34-35.

50-dək həyəti olan kəndlərin sayı – 173
50-100-dək həyəti olan kəndlərin sayı – 32
100-200-dək həyəti olan kəndlərin sayı – 18
200-dən çox həyəti olan kəndlərin sayı – 5
**Cəmi**: 228 kənd, 9748 həyət
Əhali (1886) 38554+32712=71066.[6]

Sürməli qəzası romanovlar rejiminin hakimiyyətinin sonlarına doğru da həmin 3 polis sahəsinə (İğdır, Daşburun, Qulp) bölünürdü. Bu sahələrin ümumi sahəsi 3581,48 kv. km idi, bundan da 825,82 kv. km İğdır sahəsinin payına düşür, qalan ərazi Daşburun (1381,83) və Qulp (1373,80) arasında demək olar ki, bərabər bölüşdürülmüşdü. Bu polis sahələrində, müvafiq olaraq 4,3 və 6 kənd cəmiyyəti təşkil olunmuşdu ki, onlar da müvafiq olaraq 61, 59 və 107 kəndi birləşdirirdilər.

Bütövlükdə qəzanın üç polis sahəsində cəmi 227 kəndi birləşdirən 13 kənd cəmiyyəti yaradılmışdır. Bu kəndlərdə cəmi 91535 nəfər (1908-ci ilin məlumatına görə) yaşayırdı. Bunlardan 48953 nəfəri kişi və 42583 nəfəri qadın idi.

Polis sahələrinin əhalisi isə müvafiq olaraq 40305 (İğdır), 22124 (Daşburun) və 29106 nəfəri (Qulp) çatırdı.[7]

Sürməli qəzasının hər üç polis sahəsində barışıq münsifləri vəzifələrinə qeyri-azərbaycanlılar təyin olunmuşdular.[8]

1913-cü ildə Sürməli qəzasında cəmi 13 kənd ictimai idarəçiliyinin mövcud olması haqqında bəzi qaynaqların iddiaları bir qədər şübhəli görünür. Bu kənd cəmiyyətləri sırasında aşağıdakılar göstərilir:

1. Əliqocaq kənd cəmiyyəti (Mərkəzi Əliqoçaq kəndi idi).
2. Aralıq (Aralıq-Başkənd)
3. Daşburun (Daşburun)
4. Cəlallı Sakaklı (Güllücə)
5. Yezid Həsənli (Dəmirxan)
6. İğdır (İğdır)
7. Qulp (Qulp)
8. Oğruca (Oğruca)
9. Radik (Balaxbaşı)
10. Radik-Sənək (Cikanlı)
11. Evcilər (Evcilər)
12. Yançı (Əliqəmərli)
13. Güllücə (Güllücə) [8].[9]

1914-cü ilin məlumatlarına görə isə Sürməli qəzasının 100324 nəfərlik əhalisinin 44,32 %-ni (44466 nəfər) azərbaycanlılar, 24 %-ni kürdlər (24002),

[6] **Кавказский календарь на 1900 год, отд. III, с**.34-35.

[7] **Кавказский календарь на 1910 год, отд. стат. Тифлис**, Тип. Т-ва Либерман и К, 1909, сс. 458-459.

[8] **Кавказский календарь на 1911 год, адрес-календарь. Тифлис**, Тип. канцелярии наместника е.и.в. на Кавказе, 1910, с.193.

[9] **org.wikipedia/ru.m.wikipedia. 15.01.2023.**

31,24 %-ni ermənilər (31349), 0,39 %-ni slavyanlar (387), 0,13 %-ni isə (110) aysorlar, yəhudilər və b. təşkil edirdilər.[10]

Ümumiyyətlə, bu qəzada hər bir kənd cəmiyyətinin tərkibinə son dərəcə çox kəndin daxil edilməsi diqqəti çəkir. Məsələn, Radik kənd cəmiyyətində 33 kənd, Oğruca kənd cəmiyyətində 24 kənd, Yezidhəsənli kənd cəmiyyətində 17 kənd və s. birləşdirilmişdi. Belə olan halda inzibati-ərazi idarəçiliyinin hansısa səmərəliliyindən söhbət belə gedə bilməzdi.

***Nəticə***

Yuxarıda gətirilən materiallara söykənərək iddia etmək olar ki, burada hər bir kənd cəmiyyətlərinin tərkibinə son dərəcə çox kənd daxil edilmişdir. Məsələn, Radik kənd cəmiyyətində 33 kənd, Oğruca kənd cəmiyyətində 24 kənd, Yezidhəsənli kənd cəmiyyətində 17 kənd və s. birləşdirilmişdi. Belə olan halda inzibati-ərazi idarəçiliyinin hansısa səmərəliliyindən söhbət belə gedə bilməzdi.

Bu da həm inzibati idarələrin qəza və quberniya instansiyalarında, həm də kənd cəmiyyətlərinin özündə baş alıb gedən lənglik, süründürməçilik, korrupsiya və qarşılıqlı iddiaların saysız-hesabsızlığının başlıca səbəblərindən biri idi.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. **Кавказский календарь на 1900 год, отд.III. Тифлис**, тип. М.Шарадзе и Ко, 1899, 1085 с.
2. **Кавказский календарь на 1910 год, отд. стат. Тифлис**, Тип. Т-ва Либерман и К, 1909, 928 с.
3. **Кавказский календарь на 1911 год, адрес-календарь. Тифлис**, Тип. канцелярии наместника е.и.в. на Кавказе, 1910, 859 с.
4. **Кавказский календарь на 1915 год, отд. III. Тифлис**, Тип. канцелярии наместника е.и.в. на Кавказе, 1914, 1013 с.
5. **Первая всеобщая перепись населения Российской империи 15 января 1897 года.** 1905, 187 с.
6. **Энциклопедический словарь Брокгауза и Эфрона.** Т.82(86), СПб. 1904.
7. **az.wikipedia.org/wiki/Sürməli nahiyəsi.** 05.01.2023.
8. **org.wikipedia/ru.m.wikipedia.** 15.01.2023.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Həsənov Hacı Nuru oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Hasanov Haji Nuru – Doctor of Philosophy in history, associate professor, A.A.Bakikhanov Institute of History of ANAS. Azerbaijan, Baku.

[10] **Кавказский календарь на 1915 год, отд. III. Тифлис**, Тип. канцелярии наместника е.и.в. на Кавказе, 1914, сс.42-44.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 84-96*

**UOT 94(479.24)**

# H.Z.TAĞIYEV BAKI ORTA TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN FƏXRİ HİMAYƏÇİSİ KİMİ

©2023
RAMİL NİFTƏLİYEV*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0001-5346-443X; e-mail: ramilniftali@rambler.ru
*https://doi.org/10.59849/2523-4765.2023.2.84*

***Xülasə:*** *Məqalədə tanınmış sahibkar, xeyriyyəçi H.Z.Tağıyevin fəxri himayəçisi olduğu Bakı orta texniki peşə məktəbinin inkişafı üçün gördüyü tədbirlər nəzərdən keçirilir. Göstərilir ki, məktəb onun himayəsinə keçdikdən sonra yeni inşa edilən binaya köçürülmüş və şəraiti yaxşılığa doğru dəyişməyə başlamışdı. Məktəbin maliyyə bazası möhkəmlənmiş, tədris imkanları artmışdı. H.Z.Tağıyev tərəfindən məktəbin xeyrinə gördüyü işlər nəticəsində bu məktəb Cənubi Qafqazın ən tanınmış məktəblərdən birinə çevrilmişdi. Məktəbin ildən-ilə əldə etdiyi uğurlar buraya şagird axınını sürətləndirmişdi. 1897-ci ildə məktəbdə 27 şagird təhsil aldığı halda 15 ildən sonra onların sayı 378-dək artmışdı. H.Z.Tağıyev məktəbin inkişafına xüsusi qayğı ilə yanaşmış, məktəbin inşasına və habelə təhsil alan şagirdlərə təmənnasız maliyyə dəstəyi göstərmişdir.*

*Məqalənin yazılmasında dövriyyəyə yeni daxil edilən arxiv materialları və həmin dövrün mətbuat yazıları ilə yanaşı, habelə bəhs olunan məktəblə bağlı yazılan əsərlərdən istifadə olunmuşdur.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, Bakı şəhəri, orta texniki peşə məktəbi, təhsil, fəxri himayəçi, xeyriyyəçi*

# H.Z.TAGHIYEV AS AN HONORARY SPONSOR OF THE BAKU SECONDARY TECHNICAL SCHOOL

©2023
RAMIL NIFTALIYEV*

*A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0001-5346-443X; e-mail: ramilniftali@rambler.ru

***Abstract:*** *The article discusses the measures taken in the development of the Baku Secondary Technical School by its honorary sponsor, a well-known businessman and philanthropist H.Z.Taghiyev. After the transfer of the school under his care, the school was moved to a new educational building and its situation began to change for the better. The financial base of the school was strengthened, and training opportunities were expanded. As a result of the work done by*

*H.Z.Taghiyev for the benefit of the school, it had become one of the most popular schools in the South Caucasus. Year after year, the success of the school accelerated the influx of students here. In 1897, 27 students studied at this school, and after 15 years their number increased to 378. H.Z.Taghiyev paid special attention to the development of the school and provided gratuitous financial support in its construction, as well as to the students themselves.*

*When writing the article, along with the newly introduced archival documents, press materials of the period under study, as well as works written about the mentioned school, were used.*

***Keywords:*** *Northern Azerbaijan, Baku city, secondary technical school, education, honorary sponsor, philanthropist*

## Г.З.ТАГИЕВ КАК ПОЧЕТНЫЙ ПОПЕЧИТЕЛЬ БАКИНСКОГО СРЕДНЕГО ТЕХНИЧЕСКОГО УЧИЛИЩА

©2023

РАМИЛЬ НИФТАЛИЕВ*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0001-5346-443X; e-mail: ramilniftali@rambler.ru

***Резюме:*** *В статье рассматриваются меры, предпринятые в развитии Бакинского средне-технического училища его почетным попечителем, известным предпринимателем и меценатам Г.З.Тагиевым. После перехода училища под его опеку, училище переехало в новое учебное здание и его положение начало меняться к лучшему. Была укреплена финансовая база училища, расширены возможности обучения. В результате проделанных работ Г.З.Тагиевым на благо училища, оно превратилось в одно из самых популярных училищ на Южном Кавказе. Год за годом успехи училища ускорили приток сюда учеников. В 1897 году в училище обучалось 27 учеников, а через 15 лет их число увеличилось до 378. Г.З.Тагиев уделял особое внимание развитию училища и оказывал безвозмездную финансовую поддержку в его строительстве, а также и самим учащимся.*

*При написании статьи, наряду с вновь введенными архивными документами, были использованы материалы прессы исследуемого периода, а также работы, написанные об упомянутом училище.*

***Ключевые слова:*** *Северный Азербайджан, город Баку, средне-техническое училище, образование, почетный попечитель, меценат*

### *Giriş*

1888-ci il aprelin 26-da Bakı şəhərində sənət məktəbinin açılmasına icazə verilən nizamnaməsi təsdiq olundu. Aleksandrın adını daşıyan sənət məktəbinin noyabrın 8-də təntənəli rəsmi açılışı oldu. Dördillik tədris kursu nəzərdə tutulan bu

məktəbdə xarrat-dülgər, dəmirçi və çilingər peşələri öyrədilirdi. 1896-cı ildə sənət məktəbinin bazasında aşağı texniki peşə məktəbi təşkil edildi. Aşağı texniki peşə məktəbin yaradılması ilə əlaqədar olaraq mövcud sənət məktəbi aşağı sənət məktəbinə çevrildi və həmin məktəbin tabeliyinə keçdi. 1905-ci il yanvarın 1-dən bu məktəb Bakı orta texniki peşə məktəbi kimi fəaliyyətini davam etdirdi. 1914-cü ilin yanvarından bu məktəb Bakı Alekseyev orta texniki peşə məktəbi adlandırıldı. Məktəbin direktorları 1883-1906-cı illərdə M.İ.Mixalevski, 1906-1908-ci illərdə V.F.Danilov, 1908-ci il noyabrın 22-dən D.V.Bryanov olmuşdur. H.Z.Tağıyev 1897-ci ildən 1918-ci ilədək bu məktəbin fəxri himayəçisi olmuşdur.

Dövrünün tanınmış xeyriyyəçisi və mesenat, Qafqaz müsəlmanlarının fəxri, ilk müsəlman xeyriyyə cəmiyyətinin təsisçilərindən olan H.Z.Tağıyev yalnız Şimali Azərbaycanda deyil, habelə Rusiyada da özünün xeyirxah əməlləri ilə məşhur idi. O, hətta Qacar, Osmanlı dövlətlərində və habelə Pakistanda xeyriyyəçi kimi tanınırdı. Vəsaiti hesabına biri-digərindən gözəl binalar inşa etdirmiş, şagird və tələbələrə təhsil vermiş bu şəxsiyyət haqqında çoxlu əsərlər yazılmış və hal-hazırda da yazılır. Həm də böyük himayəçi kimi ondan yardım istəyən məktəbləri himayəyə götürmüş və həmin məktəblərdə təhsil alan imkansız şagirdlərə maliyyə yardımı göstərmişdir. Onun himayəyə götürdüyü məktəblərdən biri də Bakı orta texniki peşə məktəbi olmuşdur.

***Hacı Zeynalabdin Tağıyevin peşə məktəbinin himayəçisi seçilməsi***

Məktəb darısqal binalarda yerləşdiyinə görə, 1893-cü ildə məktəb rəhbərliyi tərəfindən yeni məktəb binasının tikintisi ilə bağlı məsələ qaldırılmasına baxmayaraq, uzun sürən müzakirələrdən sonra 1895-ci ildə məktəbin yeni tədris binasının tikintisinə 60 min rubl verilməsi qərara alınmışdı. 1896-cı ildə məktəb binasının tikintisinə dəmir yolu vağzalı yaxınlığında torpaq sahəsi də ayrılmışdı.[1]

Lakin məktəbin yeni tədris binasının tikintisi gecikirdi. 1897-ci ildə məktəb rəhbərliyi yenidən məktəb binasının tikintisi məsələsini qaldırmalı oldu. Məktəb binasının tikintisini sürətləndirmək məqsədilə yuxarı dairələr H.Z.Tağıyevi bu işə cəlb etmək üçün onu Xalq Maarif Nazirliyinin 1897-ci il 30 aprel tarixli 11 236 saylı qərarı ilə üç illiyə məktəbin fəxri himayəçisi kimi təsdiq etdi.[2]

Qeyd edək ki, hələ 1898-ci ilin martın 26-da Bakı şəhər dumasının təhsil komissiyasının iclasında Tiflisdə politexnikumun açılması məsələsi müzakirəyə çıxarılanda komissiya üzvlərinin böyük əksəriyyəti bunun Bakıda açılmasının qəti tərəfdarı kimi çıxış etmişdilər. İclasda Politexnikumun Bakıda tikiləcəyi təqdirdə H.Z.Tağıyev 100 min, Fərrux bəy Vəzirov isə 1000 rubl ödəyəcəyini bildirmişdilər.[3] Politexnikum məsələsi həlli olmayan bir məsələyə çevrilmişdi. Hökumət öncə ali təhsil ocağını diyarın inzibati mərkəzi olan Tiflisdə açılmasına üstünlük versə də,

---

[1] Иван Демин, **Бакинское средне-техническое училище, исторический очерк, 1888-1913**. Баку, Типография Союз, s.18.

[2] Послужной список почетного попечителя Бакинского технического училища, потомственного почетного гражданина, Бакинского первой гильдии купца Гаджи Зейнал Абдин Тагиева, составлен 25-го декабря 1904 года. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDA), F.311, siy.1, iş 247, v.8**.

[3] К открытию политехникума на Кавказе. **Каспий**, 28 марта 1898 года.

sonralar Cənubi Qafqaz diyarı üçün böyük əhəmiyyət kəsb etdiyini, bu işin əngəlləməsinə çalışmışdı. 1914-cü il mayın 4-də institutun təməlqoyma mərasimi də keçirilmişdi.[4] Lakin Cahan müharibəsinin başlaması politexnikumun tikintisi məsələsini tamamilə gündəmdən çıxartdı. Politexnikumun tikintisi məsələsi ilə bağlı gürcülər və ermənilər dəfələrlə milli mübahisə qaldırmışdılar. Belə ki, gürcülər institutun şəhərin Saburtala (Tiflisin qərb ətrafı), ermənilər isə Novtlun (Tiflisin şərq ətrafı) ərazisində tikilməsini istəyirdilər. Belə vəziyyət institutun inşasını daha da uzadır və çətinləşdirirdi.[5] Azərbaycan Demokratik Respublikası qurulandan sonra hökumətin qarşıya qoyduğu məsələlərdən biri də respublikada ali təhsilin təşkili məsələsi idi. Ona görə də, 1918-ci ildə Azərbaycan hökuməti Tiflis politexnikumun maliyyələşdirilməsi məsələsini müzakirə etdikdən sonra, maarif naziri N.Usubbəyov İnstitutun Azərbaycan ərazisinə keçiriləcəyi təqdirdə onun bütün lazımi xərclərini öz öhdəsinə götürəcəyini bəyan etmişdi.[6]

Politexnikumun Bakıda açılmasının qeyri-mümkünlüyünə əmin olan H.Z.Tağıyev yeni tikiləcək məktəb binasını ali təhsil ocağı standartlarına cavab verən məktəb üslubunda inşa etdirmək niyyətində idi. Ona görə də o, şəhər dumasının növbəti yığıncağında məktəb binasının tikintisinin gecikməsi haqqında məsələni gündəmə gətirdi və 140 min rubl ayrılmasını təklif etdi, əlavə olaraq 60 min rublun verilməsini bildirdi. Şəhər dumasının elə həmin iclasında onun inadkarlığı nəticəsində binanın tikintisi üçün nəzərdə tutulan 2 740 kv. sajen torpaq sahəsi 3 205 kv. sajenə qaldırılmış oldu.[7] Bununla da məktəb binasının tikintisi üçün qəti qərar verildi. 1898-ci ilin avqustun 20-də məktəbin yeni binasının tikintisinə başlanıldı. Məktəb direktoru özünün hesabatında 1899-cu ilin yanvarın 1-də binasının özülünün bütünlüklə hazır vəziyyətə gətirildiyindən, 1900/1901 tədris ilində dərslərin yeni binada keçiriləcəyinə ümid bəslədiyini bildirirdi.[8] "Kaspi" qəzeti Bakı orta texniki peşə məktəbinin tikintisi ilə bağlı yazırdı: "Binanın özülünün qazılması və tikintisi podratçı Mir İsmayıl Seyid oğlu tərəfindən həyata keçirilir və o, öz işinə başlamışdır. Emalatxanalar üçün nəzərdə tutulan birinci mərtəbənin inşası 1899-cu ilin yanvarın 1-də başa çatdırılmalıdır".[9]

Bakı şəhər dumasının 1900-cü ilin mayın 11-də keçirilən növbəti iclasında H.Z.Tağıyev tikinti materiallarının qiyməti artdığına görə məktəbin tikinti üçün ayrıldığı 185 000 rublla işlərin başa çatdırmağın qeyri-mümkünlüyünü dilə gətirərək əlavə olaraq 81 010 rubl 50 qəpik ayrılması təklifi ilə çıxış etdi. Dumanın ən fəal üzvlərindən hesab olunan Həsən bəy Zərdabi məktəbinin kirayə vaxtının iyul ayında başa çatdığından binanın tikintisinin tezliklə öz həllini tapa biləcəyinə ümid etdiyini bildirdi. Nəticədə, H.Z.Tağıyevin təklifi yekdilliklə qəbul edildi.[10]

---

[4] Торжество закладки Кавказского политехникума. **Кавказ**, 6 мая 1914 года.

[5] Николай Бигаев, **Последние наместники Кавказа (В свете личных воспоминаний) (1902-1917)**. Российский архив: История Отечества в свидетельствах и документах XVIII-XX вв.: Альманах Т.XII. Москва: Студия ТРИТЭ: Рос. Архив, 2003, s.417-418.

[6] Bakı Dövlət Universiteti, http://bsu.edu.az/ru/content/istoria bqu17062014045655

[7] İvan Demin. **A.g.ə.,** s.78.

[8] **A.g.ə.,** s.27.

[9] Постройка здания для технического училища. **Каспий**, 29 июля 1898 года.

[10] Думское заседание, 11 мая 1900 года. **Каспий**, 13 мая 1900 года.

Nəhayət ki, 1901/1902-ci tədris ilində məktəb yeni binaya köçə bildi və yeni şəraitdə dərslərin keçirilməsinə başlandı. Lakin məktəbin tikintisi başa çatdırılmasına baxmayaraq, bir sıra işlər yarımçıq qalırdı. Məktəb direktoru M.İ.Mixalevski məktəbin himayəçisi H.Z.Tağıyevə rəsmi ünvanladığı məktubunda 1901-ci ilin sentyabrından məktəbin yeni pəncərəsiz, sobasız, qapısız və damsız, əsasən də vacib avadanlığı və həyətdən girişi olmayan binaya köçdüyünü yazırdı.[11] Məktəb üçün belə bir çətin zamanda həmişə səxavətliliyi ilə tanınan H.Z.Tağıyev məktəbi köməksiz qoymadı. Məktəbin damı vuruldu, divarları suvandı, səkilərlə təmin edildi və sair işlər görüldü. Həmçinin Şəhər Dumasının məktəbin tikintisi üçün ayırmış olduğu bütün pullar xərcləndiyindən H.Z.Tağıyev məktəbə əlavə olaraq 6 600 rubl məbləğində maliyyə yardımı göstərmişdi.[12] H.Z.Tağıyev bu məktəbin himayəçisi təyin edilməzdən əvvəllər də bu məktəbə maliyyə yardımını əsirgəmirdi. Belə ki, o, 1896-cı ildə Bakı şəhər sənət məktəbi aşağı peşə məktəbinə çevrildiyi zaman bu məktəbə 3 500 rubl məbləğində ianə vermişdi.[13] Sonrakı illərdə də onun tərəfindən 1897-ci ilin sentyabrın 5-də məktəbin xeyrinə 100 rubl, 1898-ci ilin martın 4-də 2000 rubl, 1900-cü ilin fevralın 8-də 25 rubl,[14] məktəbin köhnə şagird oturacaqlarının təmirinə 1902-ci ilin 153 rubl, martın 10-da 350 rubl, dekabrın 14-də 6 000 rubl, müxtəlif vaxtlarda məktəbin ehtiyaclarına 4787 rubl 6 qəpik[15] ödənilmişdi.

Məktəbin fəxri himayəçisi H.Z.Tağıyev məktəbin inkişafı naminə göstərdiyi böyük səylərinə və xüsusi zəhmətinə görə, 1902-ci ilin mayın 6-da ikinci dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif olunmuş, həmin ilin mayın 18-də yenidən üç illiyə həmin məktəbin fəxri himayəçisi təsdiq edilmişdi.[16]

1900-cü ildə bu məktəbin altı sinifli orta texniki peşə məktəbinə çevrilməsi ilə bağlı məsələ qaldırıldı. Lakin bu məsələ uzadılırdı. Məktəbin tədris planı və proqramı hazırlanmış və Rusiya Texniki Cəmiyyətinin Bakı bölməsinin texniki təhsil daimi komissiyasında müzakirə olunmuşdu. Müzakirədə Bakının tanınmış mühəndisləri daha vacib, xüsusilə neft texnologiyası və kimyası fənlərin tədrisinə üstünlük verilməsi təklif etmişdilər.[17] Məktəbin orta texniki peşə məktəbinə çevrilməsi məsələsi ilə bağlı Qafqaz Tədris Dairəsinə müraciət göndərildi. Lakin Qafqaz Tədris Dairəsinin Xalq Maarif Nazirliyinə ünvanladığı məktəbin orta texniki peşə

---

[11] İvan Demin. **A.g.k.,** s.32-34.

[12] **A.g.k.,** s.79.

[13] **A.g.k.,** s.78.

[14] Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1891 года до настоящего времени. – **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), F.314, siy.1, iş 329, v.27-33.**

[15] **ARDTA. A.g.a.**, v.33-73.

[16] Послужной список почетного попечителя Бакинского низшего технического училища, потомственного почетного гражданина, Бакинского первой гильдии купца Гаджи Зейнал Абдин Тагиева, составлен 25-го декабря 1904 года. **ARDTA, F.311, siy.1, iş 247, v.9**.

[17] Адольф Гухман. **Обзор работавших при отделении комиссии за истекшие 25 лет (1879-1904)**, s.267.

məktəbinə çevirmək haqqındakı müraciəti təəssüflə qarşılandı. Yaponiya ilə müharibənin getdiyi bir vaxtda Maliyyə Nazirliyi Bakıda orta texniki peşə məktəbin yeni korpusunun tikintisi üçün tələb olunan 35 min rubl vəsaitin ayırması iqtidarında olmadığını bildirərək, maliyyə vəsaiti ayırmasından imtina etdi. Bu zaman həmin məsələ ilə bağlı Bakıya gəlmiş Rusiya sənaye məktəblərinin müfəttişi N.F.Rudolf aşağı məktəbin orta məktəbə çevirməsi haqqında məsələnin həlli üçün lazımi məbləği xahişlə məktəbin himayəçisi H.Z.Tağıyevdən istədi. Səxavətli xeyriyyəçi bunu gözləyirdi və lazımi məbləği verməyə razılaşdı.[18] Rusiyada nəşr olunan "Etnoqrafik təsvir" jurnalı yazırdı: "Belə bir çətin vaxtda varlı Bakı müsəlmanı olan Tağıyev bütün xərcləri (40-50 min rubl) öz boynuna götürdü ki, təki bu məktəb tezliklə və heç nəyə baxmayaraq fəaliyyət göstərsin".[19]

Məktəbin fəxri himayəçisi H.Z.Tağıyev tərəfindən göstərilən səxavətliliyə görə minnətdarlıq hisslərini məktəb direktoru M.İ.Mixalevski belə ifadə edirdi: "Sizin etdiklərinizə görə, dərin minnətdarlıq hisslərimi bildirirəm. Bir şeyi deyə bilərəm ki, Siz çox hörmətli Hacı, böyük bir iş gördünüz, bu əsrimizin axırınadək unudulmayacaqdır və Sizin adınız həmişəlik əbədiləşmişdir. İki-üç il keçməz ki, Sizin sayənizdə tikilən bizim elm və zəhmət məbədimiz (şagirdlərlə – müəl.) o qədər dolacaqdır ki, bu nəhəng binanın heç bir guşəsi boş qalmayacaqdır. ... bunu Siz öz işinizlə bu ilin iyunun 22-də verdiyiniz qərarınızla etdiniz. Böyük işlərə dahilər qadirdirlər və onların gördüyü əməllər heç vaxt itməyəcəkdir. Allah Sizə can sağlığı, güc, ruh yüksəkliyi, enerji dolu həyat və başladığınız bütün işlərinizdə və fəaliyyətinizdə çoxlu müvəffəqiyyətlər versin, ailənizin gələcəyi naminə Sizin sərvətiniz dəfələrlə artsın".[20] Bakı şəhərində baş verən hadisələri yaxından izləyən Kaspi qəzeti bundan xoşhal olmuşdu. Qəzet oxucularını sevindirmək üçün H.Z.Tağıyevin məktəbin təkmilləşdirməsinə razılığın verdiyini onun öz sözləri ilə yazırdı: "... yalnız Bakıda və Bakı quberniyasında deyil, habelə Qafqaz diyarında orta savadlı texniklərə böyük ehtiyac olduğunu nəzərə alaraq, dövlətin düşdüyü belə ağır şəraitdə hazırkı binanın orta texniki məktəbə çevrilməsi üçün bütün xərcləri öz üzərimə götürdüyümü bildirirəm".[21] 1909 və 1910-cu illərdə H.Z.Tağıyev məktəbin orta texniki peşə məktəbə çevrilməsi haqqında 1904-cü il 22 iyun tarixli məktubunda öz vəsaiti hesabına məktəbin ikinci mərtəbəsinin qaldırılacağı, kimya laboratoriyasını lazımi avadanlıqlarla təmin ediləcəyi və məktəbin bu və ya digər ehtiyaclarına maliyyə yardımın göstəriləcəyi ilə bağlı Xalq Təhsil Nazirliyinə verdiyi vədinə əməl edərək məktəbə 50 min rubla qədər pul vermişdi.[22] Beləliklə, əldə etdiyimiz arxiv materialları H.Z.Tağıyev tərəfindən məktəb binasının tikintisinə və məktəblə bağlı digər məsələlərin həllinə 1912-ci ilədək bütövlükdə 52 min 577 rubl məbləğində yardım göstərdiyi məlum olur.[23]

---

[18] İvan Demin. **A.g.k.,** s.47.

[19] Агафангел Крымский, **Школа, образование и литература у российских мусульман**, с.16.

[20] İvan Demin. **A.g.k.,** s.47-48.

[21] Местная летопись. **Каспий**, 24 июля 1904 года.

[22] İvan Demin. **A.g.k.,** s.79.

[23] Конфиденциально его превосходительству господину попечителю Кавказского Учебного округа. **ARDTA, F.314, siy.1, iş 329, 11 arx.**

Bakı şəhər orta texniki peşə məktəbin inkişaf etdirilməsindəki xidmətlərinə görə 1911-ci ilin oktyabrın 7-də Qafqaz canişini İ.İ.Voronsov-Daşkov tərəfindən məktəbin Pedaqoji Şurası qarşısında fəxri himayəçisi H.Z.Tağıyevin portretinin məktəbin akt zalında qoyulması və məktəb üçün əlavə olaraq inşa edilmiş hissəsinə "Həqiqi Dövlət Müşaviri Tağıyev adına kimya laboratoriyası" adının verilməsi haqqında məsələ qaldırıldı.[24] Məktəbin Pedaqoji Şurası canişin İ.İ.Voronsov-Daşkovun təklifini böyük razılıqla həyata keçirdi.

Məktəbin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə yüksək dəyər verən hökumət 1914-cü ildə H.Z.Tağıyevi yenidən, növbəti dəfə məktəbin fəxri himayəçisi təyin edir.[25] Məktəb bütün Qafqazda məşhur olduğuna görə onun i°i ilə maraqlananlar da çox olurdu. Bu təsadüfi deyildi. Məktəb Bakıda fəaliyyət göstərən digər məktəblərdən kəskin fərqlənirdi. Bu məktəb şagirdləri və müəllimlərin xüsusi məktəb forması var idi. H.Z.Tağıyevin himayəçiliyi dövründə ilk dəfə, 1898-ci ildə Peterburqdan məktəbin həm şagirdləri və həm də müəllimləri üçün xüsusi məktəb formaları gətirilmişdi.[26] Yeni binada dərslərin keçirilməsinə başladığı zaman Tiflisdə keçirilən "Qafqaz sənaye və kənd təsərrüfatı yubiley sərgisində" iştirak etmiş və oraya təqdim olunan məktəb şagirdlərinin əl işlərinə görə ekspert komissiyası məktəbi qızıl medala layiq görmüşdü.[27] H.Z.Tağıyev sərgidə iştirak etmək üçün oraya gedən məktəb şagirdlərinə 200 rubl yol xərci vermişdi.[28]

1914-cü ilin yanvarın 16-da bu peşə məktəbin Alekseyev adlandırılması[29] çoxlarının marağına səbəb olmuşdu. Belə ki, həmin ilin oktyabrın əvvəllərində Dövlət dumanın üzvü D.D.Starloçanov və şəhər qırmızı xaçın sədri Q.A.Arzimanov bu məktəbdə olmuş və şagirdlərin əl işlərinə baxış keçirmişdi.[30] 1915-ci ildə knyaginya Anastasiya Nikolayevna Tiflisdə səfərdə olduğu zaman H.Z.Tağıyevin himayəçisi olduğu peşə məktəbində təhsil alan dağıstanlı şagird Kazbek Qazıyevin, Abdulla Şahbazovun tədris etdiyi emalatxanasında 1914-cü ildə hazırladığı qabda duz-çörək təqdim olunmuşdu. Qabın üzərində ərəb dilində "Allah dünyasının bütün

---

[24] İvan Demin. **A.g.k.,** s.79.

[25] Доклад исправляющего должности управляющего делами совета министров И.Лодыженского «Об утверждении действительного статского советника Тагиева почетным попечителем Бакинского среднего технического училища», 16 августа, 1914 года. **Российский Государственный Исторический Архив (РГИА),** Ф.1276, оп. 19, дело 973, л.3. **https://www.prlib.ru/item/407413**

[26] Местная летопись. Новая форма. **Каспий**, 15 апреля 1898 года.

[27] İvan Demin. **A.g.k.,** s.1.

[28] Объявление благодарности. **Циркуляр по управлению Кавказским Учебным Округам за 1901 г.** Тифлис: Типография канцелярии главноначальствуюшего гражданской частью на Кавказе, 1901, с.1280.

[29] Высочайшие повеления. О присвоении Бакинскому среднему механико-техническому строительному училищу наименования «Алексеевское». 16 января 1914 года. **Циркуляр по управлению Кавказским Учебным Округам за 1914 год.** Тифлис: 1914, с.3.

[30] По Кавказу. **Кавказ**, 15 октября 1914 года.

insanları sizi təbrik edir və Allahdan sizi bütün bəlalardan qorumağı arzulayır. Bakı, 1333" yazılmışdı.[31]

***Peşə məktəbdə təhsil alan şagirdlərə maliyyə yardımlarının göstərilməsi***

H.Z.Tağıyev bu məktəbin fəxri himayəçisi təyin olunduğu vaxtdan və hələ ondan öncə də məktəbə böyük qayğı ilə yanaşmış və yeri gələndə burada təhsil alan şagirdlərə təmənnasız maliyyə yardımı göstərmişdir. 1896-cı ildə məktəbdə təhsil alan imkansız şagirdlərə 100 rubl yardım vermişdi.[32] 1897-ci ildə məktəbin nəzdindəki sənət məktəbində təhsil alan 4 şagirdə və Qonaqkənddən gələn şagirdə paltar və s. üçün məktəb direktoruna 234 rubl ianə ödəmişdi.[33] Lakin digər mənbədə 1897-ci ilin oktyabrın 5-də 6 nəfər şagirdin təhsil haqqı olaraq 482 rubl[34] verdiyi məlum olur. 1898-ci ildə təhsil haqqı olaraq 682 rubl[35] ödənilmişdi. 1898-ci ildə o, məktəbə yeni qəbul olunmuş axtılı Əhməd Əfəndiyevə ayrıca 200 rubl təqaüd olaraq məktəb müdiriyyətinə təqdim etmişdi. "Kaspi" qəzetinin yazdığına görə 1898-ci ildə onun təqaüdü hesabına məktəbdə 4 şagird müsəlman uşağı təhsil alırdı.[36] 1899-cu ilin oktyabrın 29-da növbəti ilin sentyabrın 1-dək şagirdlərin təhsil haqqı olaraq 1050 rubl, oktyabrın 3-də isə 825 rubl vermişdi.[37] "Kaspi" qəzeti məktəbin himayəçi H.Z.Tağıyev həmin məktəbin direktoruna məktəbdə təhsil alan şagirdlərdən birinə, sənət məktəbinin 3 şagirdinə və bu məktəbin hazırlığında təhsil alan bir nəfər şagirdə təhsil haqqı olaraq 825 rubl ödədiyini yazırdı.[38] 1900-cü ildə burada təhsil alan M.K.Rizayevə 30 rubl, 1901-ci ildə isə 1900-1901-ci ilin ikinci tədris ilinə 30 rubl, 1902-ci ilin oktyabrın 16-da məktəbdə təhsil alan müsəlman şagirdin 1902-1903-cü tədris ilinin təhsilinə 1 150 rubl, 1903-cü ilin yanvarın 10-da Axundova 15 rubl təhsil haqqı, mayın 25-də məktəbdə gecənin keçirilməsinə 25 rubl, sentyabrın 30-da təqaüd olaraq 275 rubl, 1904-cü ilin martın 16-da məktəbdə gecənin keçirilməsinə 25 rubl, martın 23-də təhsil alan müsəlman şagirdlərinə təqaüd olaraq 622 rubl, 1905-ci ilin fevralın 1-də təhsil alan müsəlman şagirdlərinə təqaüd olaraq 840 rubl, 1906-cı ilin noyabrın 9-da məktəbin şagird yeməkxanasına 300 rubl, 1908-ci

---

[31] Николай Рудольф, **Особые случаи в жизни учебных заведении**. Тифлис: Типо-литография и переплетная т-ва «Либерман и Ко», 1915, s.3.

[32] Местная летопись. **Каспий**, 24 декабря 1896 года.

[33] Местная летопись. **Каспий**, 10 октября 1897 года.

[34] Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1891 года до настоящего времени. **ARDTA, f. 314, siy. 1, iş 329, v.27-33**.

[35] Отчет по пожертвованием, поступившим за 1898 год в пользу недостаточных учеников технического училища, ремесленной при нем школы и курсов практикантов. **Каспий**, 5 марта 1899 года.

[36] Местная летопись. Пожертвования. **Каспий**, 10 октября 1898 года.

[37] Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1891 года до настоящего времени. **ARDTA, f. 314, siy.1, iş 329, v.27-33**.

[38] Местная летопись. **Каспий**, 5 октября 1900 года.

ilin yanvarın 2-də məktəbin xeyriyyə teatrına 25 rubl, noyabrın 12-də bu məktəbdə təhsil alan imkansız şagirdlərə teatr biletlərinə 10 rubl, 1909-cu ilin oktyabrın 13-də məktəbin şagirdləri Ağabəy Şəmşirova və Hacıbaba Əliyevə təhsil haqqı olaraq 50 rubl, 1911-ci ilin fevralın 17-də məktəbdə gecənin keçirilməsinə 100 rubl, noyabrın 10-da tamaşa biletlərinin alınmasına 12 rubl 70 qəpik, fevralın 3-də məktəbdə gecənin keçirilməsinə 25 rubl ödəmişdi.[39]

1908-1911-ci illərdə məktəbdə təhsil alan Əbdülsəməd Məmmədyarova və Mixail Qubiyevə 655 rubl 90 qəpik yardım göstərilmişdi. Yardımın xeyli hissəsi təqaüd olaraq verilmişdi. 1908 üçün dekabrın 31-də Məmmədyarova təqaüd olaraq 86 rubl, 1909-cu ilin dekabrın 31-də Qubiyevə və Məmmədyarova maddi yardım olaraq 104 rubl, 1910-cu ilin dekabrın 28-də Məmmədyarova yardım olaraq 197 rubl 90 qəpik, Qubiyevə təqaüd və yardım olaraq 60 rubl, 1911-ci ilin noyabrın 22-də Məmmədyarova məktəb paltarının və ləvazimatlarının alınmasına 56 rubl noyabrın 26-da isə ayaqqabıların alınmasına 10 rubl, dekabrın 31-də Qubiyevə təqaüd olaraq 60 rubl, martın 31-də təqaüd olaraq Əbdülsəməd Məmmədyarova 67 rubl, Qubiyevə 15 rubl[40] ödənilmişdi.

1897-ci ildə Bakıda yaşlı müsəlmanlar üçün axşam kurslarının təşkili məsələsi gündəmə gəldi. Bu elə ilk gündən müsəlmanların böyük marağına səbəb oldu: “Kursların açılması xəbəri müsəlmanlar arasında ildırım sürəti ilə yayıldı və məktəbin dəftərxanası səhər tezdən axşamadək kursa daxil olmaq həsrətində olanlarla dolu olurdu”.[41] 1897-ci ilin oktyabrın 7-dən başlayaraq məktəbdə yaşlı müsəlmanlar üçün axşam kursların həyata keçirilməsinə başlandı. Məktəbə axşam kursuna gələn 160 nəfər dinləyici şöbələr üzrə bölünmüş və onlara təmənnasız olaraq kitablar və dərs ləvazimatları verilmişdi. H.Z.Tağıyev bu tədbirin həyata keçməsinə 1 000 rubl ödəniş etmişdi.[42] 1898-ci ildə axşam kursların saxlanmasına o, 300 rubl[43] maliyyə yardımı göstərmişdi. Bu kursların davamlı olması üçün bir sıra tədbirlər həyata keçirilməsinə başlanıldı. 1897-1898-ci dərs ilində kursların nəfinə verilən teatr tamaşaları (o cümlədən 2 tamaşa Azərbaycan dilində) müsamirə və ayrı-ayrı ianələrdən 2 530 rubl 90 qəpik pul toplanmışdı.[44] 1899-cu ilin 9 mart Novruz bayramı nümunəsində ictimai yığıncaqlar zalında keçirilən ümumi qurultayda toplanan ianələrin axşam kursların saxlanmasına verilməsi nəzərdə

---

[39] Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1891 года до настоящего времени. **ARDTA, f.314, siy.1, iş 329, v.33-73 arx**.

[40] Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1907 года до настоящего времени. **ARDTA, f. 314, siy. 1, iş 329, v.8-10**.

[41] Hüseyn Əhmədov, **XIX əsr Azərbaycan məktəbi**. Bakı, Beynəlxalq Universitet, 2006, s.203.

[42] Местная летопись. **Каспий**, 9 октября 1897 года.

[43] Местная летопись. Пожертвования. **Каспий**, 10 октября 1898 года.

[44] Hüseyn Əhmədov. **A.g.k.**, s.204.

tutulurdu.[45] Hüseynqulu Sarabski bu kurslarda təhsil almışdı. O, öz xatirələrində yazırdı: “Bir gün məhəllə uşaqlarından biri mənə dedi ki, Hacı Zeynalabdin Tağıyev axşam kursu açıbdır, tanımadığıma görə Məmmədbağır məni aparıb Balaxanski küçəsində olan sovet məktəbi yanındakı axşam kursuna yazdırdı. Kursa 10 yaşından 25 yaşına qədər olanlar qəbul edirdilər. Müəllimlər Mirzə Məhəmmədhəsən Əfəndiyev, Bədəl bəy Bədəlbəyov və Şükür bəy Əfəndiyev idi. Rus dilinə həvəsli olduğuma görə bir dərs belə buraxmazdım. Sinifdə birinci şagird sayılırdım. Müəllimlər mənim xətrimi çox istəyirdilər. İlin axırında bizi imtahan elədilər. İmtahan komissiyası bu adamlardan ibarət idi. Nəriman Nərimanov, Sultanməcid Qəniyev, Həsən bəy Məlikov, məktəb müdiri (himayəçisi) Hacı Zeynalabdin Tağıyev. Ayın axırında axşam saat 8-də bizi müəllimlərimizlə bərabər imtahana apardılar. İki gündən sonra gəlib vəsiqəmi aldım. Mənə dedilər ki, gələn il səni ikinciyə götürəcəyik. 1898-ci ildə axşam kursu açılmış elan olundu. Mən də işləmişdim. Bir qədər pulum vardı. Özümə bir dəst paltar alıb, birçəyimi qırxdıqdan sonra Balaxanski küçəsində yerləşən məktəbə getdim. Müəllimlər dedilər sən ikinciyə keçmisən. Həbib bəyin məktəbinə get. Dərslər başlandı. Əlicabbar İsmayılov və Həbib bəy Mahmudbəyov bizə dərs deyirdi. Bu il o qədər adam var idi ki, sinif tutmayırdı. Lakin ilin yarısında şagirdlər yarıya qədər azaldı. Əlicabbar bizə dərsdən qabaq bir saat mühazirə söyləyərdi. Həbib bəy hərdən bir gəlib dərslərimizə qulaq asardı”.[46] Tanınmış şair Nəcəfqulu bəy Şeyda da H.Z.Tağıyevin açdırdığı axşam kurslarında təhsil almışdır. O, iyirmi beş ilə yaxın Quberniya idarəsində tərcüməçi vəzifəsində çalışmışdı[47] və s.

1898-ci ildən etibarən məktəbin nəzdində çilingər, tornaçı, mexaniki-tornaçı, dəmirçi və çilingər-model emalatxanaları fəaliyyətə başlaması bu ixtisasları tədris edən mütəxəssisə ehtiyac yaratmışdı. Bu səbəbdən məktəb müdiriyyəti məktəbin yetirməsi olan Mahmud Səlimovu Peterburqa ixtisas artırma kurslarına göndərmək qərarına gəldi. Məktəb direktorunun bu qərarını müsbət dəyərləndirən məktəb himayəçisi H.Z.Tağıyev bunun üçün 399 rubl vermişdi.[48]

H.Z.Tağıyevin təşəbbüsü ilə 1898-ci ilin sentyabrın 29-dan oktyabrın 7-dək məktəbinin nəzdindəki sənətkarlıq məktəbində təcrübə kursların həyata keçirilməsinə başlandı. Bunun üçün kurslara gələnlərin xeyrinə ianələr toplanmışdı ki, toplanmış 1 089 rubl ianənin 482 rublunu H.Z.Tağıyev vermi°di.[49] H.Z.Tağıyevin səyləri nəticəsində digər təşkilatlardan da məktəbə ianələr daxil olurdu. Belə ki, “Rus neftinin və maye yanacağın emalı cəmiyyəti”nin Bakı kontoru tərəfindən məktəbin sənətkarlıq şöbəsində təhsil alan °agirdlərə və orada təcrübə keçənlərə yanvar ayı üçün 100 rubl ianə edilmişdi. Bundan əlavə məktəbin yeməkxanasının təşkili fondu təşkil olunmuşdu ki, H.Z.Tağıyev tərəfindən həmin fonda 50 rubl ianə vermişdi. Fonda daxil olmuş ianələrdən toplanan 620 rublun 600 rublu məktəb

---

[45] Местная летопись. **Каспий**, 12 января 1900 года.
[46] Hüseynqulu Sarabski. **Köhnə Bakı**. Bakı, Yazıçı, 1982, s.23-24.
[47] Savalan Fərəcov Ənvər Çingizoğlu. Nəcəfqulu və Əbülfət Vəli qardaşları. **Mədəniyyət**, 1 iyun 2011-ci il.
[48] Местная летопись. Командировка. **Каспий**, 29 мая 1898 года.
[49] Местная летопись. Пожертвования. **Каспий**, 10 октября 1898 года.

müdiriyyəti tərəfindən Dövlət bankının Bakı şöbəsinə verilmiş və 4 faizli dövlət rüsumlu bilet əldə edilmişdi. Qalan 20 rubl məktəbin dəftərxana kassasına verilmişdi.[50]

H.Z.Tağıyevin himayəçisi olduğu dövrdə məktəbdə 1897-ci ildə 27, 1898-ci ildə 38, 1899-cu ildə 87, 1900-cü ildə 83, 1901-ci ildə 95, 1902-ci ildə 150, 1903-cü ildə 124, 1904-cü ildə 117,[51] 1905-ci ildə 116, 1906-cı ildə 91, 1907-ci ildə 168, 1908-ci ildə 224, 1909-cu ildə 206, 1910-cu ildə 253, 1911-ci ildə 284, 1912-ci ildə 349, 1913-cü ildə isə 378 şagird[52] təhsil almışdır.

***Nəticə***

Beləliklə, darısqal sinif otaqlarından ibarət kirayə edilmiş binada yerləşən məktəb H.Z.Tağıyevin fəaliyyəti hesabına daha geniş və yaraşıqlı otaqları və habelə həmin dövr üçün müasir avadanlıqlarla təmin olunmuş yeni tikilən binaya köçürüldü. H.Z.Tağıyev məktəbin nəfinə və eyni zamanda burada təhsil alan imkansız şagirdlərə maliyyə yardımı göstərmişdir. H.Z.Tağıyevin fəxri himayəçisi olduğu, tikintisinə və bir çox şagirdlərin təhsilinə minlərlə rubl ianə ayırdığı bu məktəb nəhayət, 1918-ci ildə politexnik məktəb adlandırıldı. İki ildən sonra onun çoxdan arzuladığı ali məktəbə – Bakı Politexnik İnstitutuna çevrildi.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Bakı Dövlət Universiteti. **http://bsu.edu.az/ru/content/istoria** bqu170620 14045655, son istifadə 12 dekabr 2022-ci il.
2. Hüseyn Əhmədov. **XIX əsr Azərbaycan məktəbi.** Bakı: Beynəlxalq Universitet, 2006, 576.
3. HüseynSarabski. **Köhnə Bakı**. Bakı: Yazıçı, 1982, 253 s.
4. Savalan Fərəcov, Ənvər Çingizoğlu. Nəcəfqulu və Əbülfət Vəli qardaşları. **Mədəniyyət**, 1 iyun 2011-ci il.
5. Агафангел Крымский. Школа, образование и литература у российских мусульман. **Этнографическое обозрение**. 1904, №4, с.1-23.
6. Адолф Гухман. **Обзор работавших при отделении комиссии за истекшие 25 лет (1879-1904)**. Баку: 1905, 311 с.
7. Высочайшие повеления. О присвоении Бакинскому среднему механико-техническому строительному училищу наименования «Алексеевское». 16 января 1914 года. **Циркуляр по управлению Кавказским учебным округам за 1914 год**. Тифлис: Типо-литография и переплетная т-ва «Либерман и Ко», 1914, с.1-12.


[50] Местная летопись. **Каспий**, 12 января 1900 года.
[51] İvan Demin, **A.g.k.**, s.51.
[52] İvan Demin, **A.g.k.**, s.67.

8. Доклад исправляющего должности управляющего делами совета министров И.Лодыженского «Об утверждении действительного статского советника Тагиева почетным попечителем Бакинского среднего технического училища», 16 августа, 1914 года. **Российский Государственный Исторический Архив (РГИА),** Ф.1276, оп.19, дело 973. https://www.prlib.ru/item407413 son istifadə 15 yanvar 2023-cü il.
9. Думское заседание, 11 мая 1900 года. **Каспий**, 13 мая 1900 года.
10. Иван Демин. **Бакинское средне-техническое училище. Исторический очерк. 1888-1913**. Баку: Типография Союз, 83 с.
11. К открытию политехникума на Кавказе. **Каспий**, 28 марта 1898 года
12. Конфиденциально его превосходительству господину попечителю Кавказского Учебного округа. **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi(ARDTA), F. 314, siy.1, iş 329.**
13. Местная летопись. **Каспий**, 10 октября 1897 года.
14. Местная летопись. **Каспий**, 12 января 1900 года.
15. Местная летопись. **Каспий**, 24 декабря 1896 года.
16. Местная летопись. **Каспий**, 24 июля 1904 года.
17. Местная летопись. **Каспий**, 5 октября 1900 года.
18. Местная летопись. **Каспий**, 9 октября 1897 года.
19. Местная летопись. Командировка. **Каспий**, 29 мая 1898 года.
20. Местная летопись. Новая форма. **Каспий**, 15 апреля 1898 года.
21. Местная летопись. Пожертвования. **Каспий**, 10 октября 1898 года.
22. Николай Бигаев. Последние наместники Кавказа (В свете личных воспоминаний) (1902-1917). **Российский архив**: История Отечества в свидетельствах и документах XVIII-XX вв.: Альманах. Т.XII. Москва: Студия **ТРИТЭ:** Рос. Архив, 2003, 402-449, s.417-418.
23. Объявление благодарности. **Циркуляр по управлению Кавказским Учебным Округом за 1901 г.** Тифлис: Типография канцельярии главноначальствуюшего гражданской частью на Кавказе, 1901, с.1279-1280.
24. Отчет по пожертвованием, поступившим за 1898 год в пользу недостаточных учеников технического училища, ремесленной при нем школы и курсов практикантов. **Каспий**, 5 марта 1899 года.
25. По Кавказу. **Кавказ**, 15 октября 1914 года.
26. Послужной список почетного попечителя Бакинского низшего технического училища, потомственного почетного гражданина, Бакинского первой гильдии купца Гаджи Зейнал Абдин Тагиева, составлен 25-го декабря 1904 года. **ARDTA**, **F.311, siy.1, iş 247.**
27. Постройка здания для технического училища. **Каспий**, 29 июля 1898 года.
28. Рудольф Хаметович Нуреев. **Особые случаи в жизни учебных заведении**. Тифлис: Типо-литография и переплетная т-ва «Либерман и Ко», 1915, 12 с.
29. Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу средних учебных заведений Кавказского Учебного Округа за время 1891-го года до настоящего времени. **ARDTA**, **F.314, siy.1, iş 329.**
30. Сведения о пожертвованиях, сделанных почетным попечителем действительным статским советником Гаджи Зейнал Абдин Тагиевым в пользу

средних учебных заведений Кавказского Учебного Округа за время 1907-го года до настоящего времени. **ARDTA**, **F.314, siy.1, iş 329.**

31. Торжество закладки Кавказского политехникума. **Кавказ**, 6 мая 1914 года.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Niftəliyev Ramil Yüzəhməd oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Niftaliyev Ramil Yuzahmed – Doctor of Philosophy in history, associate professor, A.A.Bakikhanov Institute of History of ANAS. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 97-105*

**UOT 94(479.24)**

# ŞİMALİ AZƏRBAYCANIN ŞƏKİ BÖLGƏSİNDƏ İPƏKÇİLİK SƏNAYE SAHƏSİNDƏ KAPİTALİST MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI HAQQINDA

©2023
ANAR MƏMMƏDOV*

*Sumqayıt Dövlət Universiteti
ORCİD: 0009-0002-9513-7706; e-mail: 1983anarmemmedov@gmail.com
https://doi.org/10.59849/2523-4765.2023.2.97

***Xülasə:*** *Şimali Azərbaycan bölgələrində XIX əsrdən başlayaraq ipəkçilikdə kapitalist münasibətlərinin yaranması, sahənin fabrik-zavod sənayesi mərhələsinə keçməsi ilə bağlı məqamların araşdırılmasının mühüm elmi əhəmiyyəti var. Mövzu ilə bağlı tədqiq olunan materiallar göstərir ki, Şimali Azərbaycan qəzaları arasında kapitalist sənayesinin formalaşması prosesinin daha tez başladığı və başa çatdığı istehsal sahələrindən biri ipəkçilik, ərazi isə Şəki bölgəsi olmuşdur. Şəkidə, ümumiyyətlə digər qəzalarda da ipəkçilik fabriklərində mövcud iş şəraitinə aid bəzi məqamların nəzərdən keçirilməsi bölgədə bu dövrdə kapitalist sənayesinin formalaşmasından irəli gələn sosial-iqtisadi nəticələrdən bəhs etməyə imkan verir. Tədqiqatımız göstərdi ki, Şəki bölgəsində ipəkçilik sənayesinin formalaşması prosesi bir sıra məqamlar baxımından nəinki bölgəni, habelə ölkə üzrə müvafiq göstəriciləri qabaqlamışdır.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, Şəki, region, ipəkçilik, kapitalist, sənaye, fabrik*

©2023
ANAR MAMMADOV*

*Sumgait State University
ORCID: 0009-0002-9513-7706; e-mail: 1983anarmemmedov@gmail.com

# THE ROLE OF SERICULTURE IN THE FORMATION OF CAPITALIST RELATIONS IN THE SHEKI REGION AFTER THE RUSSIAN CONQUEST

***Abstract:*** *Of great scientific importance is the consideration of the moments associated with the emergence of capitalist relations in sericulture, the transition of the industry to the stage of a factory industry, starting from the 19th century in the regions of Northern Azerbaijan. The studied materials on this topic show that one of the production regions where the process of formation of the capitalist industry began and ended earlier among the regions of Northern Azerbaijan was sericulture, and the region was Sheki. A review of some points regarding the prevailing working conditions in the silk factories in Sheki allows us to talk about the socio-economic consequences of the formation of capitalist industry in the region during this period. Our study showed that the process of formation of the silk industry in Sheki was*

*ahead of not only the region, but also the corresponding indicators for the region in a number of industries.*

***Keywords:*** *Northern Azerbaijan, Sheki, region, sericulture, capitalist, industry, factory*

## РОЛЬ ШЕЛКОВОДСТВА В СТАНОВЛЕНИИ КАПИТАЛИСТИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ В ШЕКИНСКОМ РЕГИОНЕ ПОСЛЕ РОССИЙСКОГО ЗАВОЕВАНИЯ

©2023

АНАР МАМЕДОВ*

*Сумгаитский Государственный Университет
ORCID:0009-0002-9513-7706;e-mail: 1983anarmemmedov@gmail.com

***Резюме:*** *Большое научное значение имеет рассмотрение моментов, связанных с возникновением капиталистических отношений в шелководстве, переходом отрасли в стадию фабрично-заводской промышленности, начиная с XIX века в районах Северного Азербайджана. Изученные материалы по данной теме показывают, что одним из производственных регионов, где процесс формирования капиталистической промышленности начался и завершился раньше среди регионов Северного Азербайджана, было шелководство, а регионом был Шеки. Обзор некоторых моментов, касающихся сложившихся условий труда на шелковых фабриках в Шеки позволяет говорить о социально-экономических последствиях формирования капиталистической промышленности в регионе в этот период. Наше исследование показало, что процесс становления шелковой промышленности Шеки опережал не только регион, но и соответствующие показатели для края по ряду отраслей.*

***Ключевые слова:*** *Северный Азербайджан, Шеки, регион, шелководство, капиталист, промышленность, фабрика*

### *Giriş*

İpəkçilik ta qədimdən Azərbaycanda gəlirli fəaliyyət sahələrindən biri olmuşdur. Tarixi ipək yolu üzərində yerləşən Azərbaycanda istehsal edilən müxtəlif növ ipək parçaların həm istehsalı, həm də məhsulların yerli və xarici tacirlər tərəfindən alınıb ən çox Avropa ölkələrinə aparılması ipəyimizin də, ərazimizin də şöhrətlənməsində az rol oynamamışdır.

Bu yazıda ipəkçilik istehsal sahəsinin formalaşması, onun keçdiyi tarixi inkişaf yolunda bir-birinin əvəz edən mərhələləri göstərmək, onların nəticələrini söyləmək, müəyyən qədər olsa da belə, təkrarlamaq niyyətindən uzaq olaraq, qarşımıza yalnız Azərbaycan bölgələrində XIX əsrdən başlayaraq yeni, iqtisadi baxımdan daha mütərəqqi kapitalist münasibətlərinin yaranması, tədricən sahənin

fabrik-zavod sənayesi mərhələsinə keçməsi ilə bağlı məqamların araşdırılmasını məqsəd qoymuşuq.

Bu baxımdan bəhs edilən dövrdə Şimali Azərbaycan bölgələrindən bir qədər fərqli vəziyyətdə olan, hələ orta əsrlərdə müxtəlif sənətkarlıq sahələrinin formalaşıb təkmilləşməsi ilə seçilən Şəki bölgəsi ilə bağlı məqamların araşdırılması xüsusi olaraq diqqət mərkəzində saxlanılmışdır.

"Şəki bölgəsi ipəkçilik istehsalının zəngin ənənələri və iqtisadi nəticələrinin daha təsirli olması ilə fərqlənmişdir".[1] Lakin bölgənin təbii-xammal ehtiyatlarının zənginliyi, ayrı-ayrı istehsal sahələrində əvvəlki təcrübə və ənənələrin olması digər sahələrdə də nəzərdən keçirilib təhlil edilməli məqamların mövcudluğunu söyləməyə imkan verir.

Hələ XIX əsrin ortalarında Rusiya imperiyası Cənubi Qafqazdakı müstəmləkə idarə orqanlarının hazırladığı hesabatların, çap edilmiş digər statistik rəqəmlərin verildiyi nəşrlərin nəzərdən keçirilməsi bu fikirlərimizi bir daha təsdiq edir.[2]

"Qafqaz" qəzetinin 1848-ci il 24 sayında çap edilmiş bir yazıda bildirilirdi ki, "Şəkidə bəhs edilən dövrdə 14 peşə üzrə 545 usta, 893 muzdlu işçi fəaliyyət göstərmişdir".[3]

Onu da qeyd edək ki, 14 fəaliyyət sahəsinin əksəriyyəti üzrə istehsal olunan məhsulların bir hissəsi, eyni zamanda digər bölgələrdə də istehsal olunaraq, əsasən daxili istehlak tələbatının təmin olunmasına yönəlmişdi.

Bu baxımdan yeganə istisnalıq təşkil edən sahə ipəkçilik olmuşdur. Doğrudur, indiyədək Azərbaycan sovet və Vətən tarixşünaslığında bir qrup tədqiqatçılarının yazılarında ümumilikdə Şimali Azərbaycanda XIX əsrdə kənd təsərrüfatında, qismən də qəza mərkəzləri olan şəhərlərdə kapitalist münasibətlərinin, eləcə də istehsalın cüzi də olsa, sənaye əsasları üzərində təşkili haqqında, az da olsa, məlumatlar var. Lakin bu yazılarda, ən yaxşı halda quberniyalar, bəzi hallarda isə qəzalar üzrə azsaylı faktlar və rəqəmlər verilir. Lakin bundan irəli gedilmir.

Təəssüflə qeyd etmək istərdik ki, bəhs edilən problem və dövrlə bağlı olan kifayət dərəcədə məlumatlar və hesabatlar ilk mənbə xarakterli digər nəşrlərə də rast gəlinir. Bu baxımdan həmin faktların tədqiq edilməsi, elmi dövriyyəyə gətirilməsi mühüm elmi əhəmiyyət kəsb edir.

Bu həm də Rusiya və müəyyən müddət ərzində isə sovet tarixşünaslığında Şimali Azərbaycanda, neft sənayesindən başqa, digər sahələrdə geriliyin mövcudluğu, xüsusilə də qəzalarda kapitalist münasibətlərinin yaranmasının ardınca istehsalın sənaye formasına keçidin baş verməməsi haqqında yanaşma tərzini aradan qaldırmağa xidmət edən tədqiqatların və onların müəlliflərinin mövqelərini bir daha, həm də daha inamla möhkəmləndirmiş olardı.

---

[1] Николай Николаевич Шавров . **Описание кавказского шелководства,** Типография Канцелярии Главнокомандующего гражданской частью на Кавказе. Тифлис, 1891, с.77.

[2] **Описание Шекинской провинции, составленное в 1819 году по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал майором Ахвердовым и действительным статским советником Могилевский.** Тифлис, 1866, с.324.

[3] «Нуха», **Кавказ**, 1846, №24, s.4.

Digər tərəfdən də, ayrı-ayrı yazılarda tədqiqat məqsədinin müxtəlifliyindən irəli gələrək ötəri rastlaşılan məlumatların burada birlikdə nəzərdən keçirilib təhlil olunmasından sonra, onların bölgənin sosial-iqtisadi vəziyyətində yaratdığı nəticələrin xüsusi olaraq, diqqətlə və yaxından araşdırılaraq, zəruri qənaətlərini əldə edilməsi Şəki bölgəsində bəhs edilən dövrlə bağlı bir sıra məqamları, habelə digər məsələləri müəyyən etmək istəyənlər üçün də faydalı ola bilər.

***Xanabad fabriki***

Təbii olaraq o dövrdə Şimali Azərbaycanın Şamaxı və digər bölgələrində ipəkçilik fabriklərinin açılmasına təşəbbüslər edilmiş, lakin Şəkidəki fabrik tipli manufakturadan fərqli olaraq, onların çoxunun ömrü qısamüddətli olmuşdu.

Hökumət məmurları müəssisənin fəaliyyətinin daha səmərəli olması məqsədi ilə bir sıra tədbirlər görür, o cümlədən xarici ölkələrdən o dövr üçün müasir hesab olunan dəzgahlar alınıb gətirilir, təcrübəli mütəxəssislər işə cəlb olunur, ən yaxşı ipəkqurdu toxumları gətirilirdi.

Xanabad manufakturasının digərlərindən üstünlükləri kifayət idi. Belə ki, yeni alınıb gətirilmiş avadanlıq və maşınlar hesabına burada istehsal edilən ipək saplar digərlərindən həm maya dəyərinin aşağı olması, həm də daha çox keyfiyyətli olması ilə fərqlənirdi.

XIX əsrin ortalarında Cənubi Qafqaza istehsalın təşkili miqyası, barama toxumunun keyfiyyəti və digər səbəblərdən asılı olaraq müxtəlif qəzalarda məhsuldarlıq göstəricisi və məhsulun ümumi miqdarı baxımından qeyri-bərabər olurdu. Əsrin ortalarında Cənubi Qafqazdakı ipəkçilik müəssisələrinin istehsal etdiyi əmtəəlik ipək məhsulu ayrı-ayrı illər üzrə 24 min – 32 min pud arasında dəyişirdi. “Bu məhsulun təxminən 15 min pudu təkcə Nuxa qəzalarının payına düşürdü”.[4] Bu fakt özü burada ipək istehsalının müəyyən dərəcədə mütəşəkkil formada təşkilinin nəticələrindən xəbər verirdi.

***Şəki ipək fabriki***

Cənubi Qafqazda əsrin ortalarından başlayaraq ipək məhsullarına tələbatın artması ayrı-ayrı iş adamlarının Şimali Azərbaycanda fəaliyyət göstərən ipəkçilik müəssisələrinin istehsal güclərinin artırılmasına, yenilərinin açılmasına diqqətin artmasını sürətləndirirdi.

Tələbatın artması ilə əlaqədar belə iş adamlarından biri Moskvadakı ticarət firmalarının birinin sahibi Alekseyev xaricdən tələb olunan qədər ipək parça alınıb gətirilməsinin çətinlikləri səbəbindən Şəkidə yeni, daha müasir avadanlıqlarla təchiz edilmiş ipək fabriki açılması üçün hazırlıq işlərinə başladı.

Bəhs edilən sahibkar Cənubi Qafqazdakı ipək parça istehsalı ilə məşğul olan bölgələrin təbii xammalla təminatı, istehsal imkanları və digər şəraitlə tanış olduqdan sonra üstünlüyü məhz Şəki bölgəsinə verməsi, sonradan bu məqsədlə Qafqazda ipəkçiliyi yayan cəmiyyət rəsmiləri ilə əlaqələr yaratmasını sürətləndirdi. Bu əlaqələr və çox da çəkməyən hazırlıq işlərinin başa çatmasından sonra “1861-ci

---

[4] **Обзор фабрик и заводов Закавказского края**. Сост. Гулишамбаров Степан Иосифович. Тифлис: 1894, с.306.

ildə o dövr üçün Avropada ən böyük sənaye müəssisələrindən biri sayılan Şəki ipək fabriki işə salındı”.[5]

Fəaliyyətinə ən yeni üsullarla və buxar qazanı ilə işləyən 192 dəzgahla başlayan Şəki ipək fabrikinin illik istehsal gücü ilk vaxtlar uzun 1000 puddan çox idi.

Təəssüflə qeyd etməliyik ki, Şimali Azərbaycan bölgələri üzrə Yelizavetpol quberniyasının bir neçə qəzalarında dağ-mədən və şərabçılıq istehsal sahələri ilə eyni vaxtda sənaye əsasları ilə formalaşan ipəkçilikdə ən böyük və aparıcı olan bu müəssisənin ömrü o qədər də uzun olmadı. Səbəbləri nə qədər müxtəlif olsa da, son nəticə kimi bir müddət keçmiş müəssisənin öz fəaliyyətinin dayandırması, özlüyündə sənaye əsasları ilə istehsal olunan ipək parçaların həm kəmiyyət baxımından azalması, həm də Şəki bölgəsində kapitalist sənayesinin formalaşması prosesinin müəyyən dərəcədə ləngiməsi demək idi.

Bununla belə, nəticələri müxtəlif olsa da, lakin ümumilikdə bölgədə yeni ipəkçilik fabriklərinin açılmasının qarşısını ala bilməzdi.

Beləliklə, həm bəhs etdiyimiz, həm də şərhinə o qədər də lüzum görmədiyimiz səbəblərdən tək Şəki bölgəsində deyil, digər Şimali Azərbaycan qəzaları arasında kapitalist sənayesinin formalaşmasını göstərən, eyni zamanda bu istiqamətdə ilk addımlardan biri hesab olunan “Şəki ipək fabriki 3 illik fəaliyyətindən sonra 1865-ci ildə bağlanıldığını elan etdi”.[6]

Şəki ipək fabrikinin bağlanması sözsüz ki, müəyyən nəticələrə səbəb olmalı idi. Əvvəla, fabrikin fəaliyyətinin dayandırması 3 il arada muzdlu işçi kimi çalışan insanların, ən azı yeganə dolanışıq mənbələrindən məhrum olması demək idi. Digər tərəfdən, istehsalın daha mütərəqqi təşkili forması kimi fabriklərin açılması yox, artıq fəaliyyətdə olanların öz fəaliyyətini dayandırmağa məcbur olması, ən azı Şəki bölgəsində ipəkçilikdə kustar istehsal üsuluna qayıdılması, yaxud da kustar sənətkarların hələ bundan sonra bir müddət də üstün mövqeyini qoruyub saxlanması demək idi. Lakin bu hal çox davam edə bilməzdi və müvəqqəti xarakter daşıyırdı.

***Yeni ipək fabriklərinin açılması***

XIX əsrin 60-cı illərinin II yarısı, xüsusi ilə də sonuna yaxın Şəki bölgəsində istehsalın daha kiçik miqyasda təşkil olunduğu kiçik ipəkçilik fabriklərinin fəaliyyəti müəyyən qədər zəifləsə belə, yenə də davam etməkdə, hətta əsrin sonrakı onilliklərində sabitləşməyə və artmağa başladı.

Beləliklə, artıq fabriklər tərəfindən sıxışdırılmadan, zərərlə işləmək hallarının azaldığı şəraitdə ipəkçilik sexləri və kustar ipəkçilik hətta müəyyən qədər fərqlənməyə başladı. Bu vəziyyətin izahının digər səbəbləri arasında iri fabriklərdən fərqli olaraq kustar ipəkçilik müəssisələrində qeyri-istehsal xərclərinin az olması, mütəxəssisin rəhbərliyi, xidməti işçilərə qədər olunan artıq vəsaitin indi birbaşa istehsal prosesinin genişləndirilməsinə, yenilənməsinə imkan yaratması ilk olaraq qeyd edilməlidir.

---

[5] **Указатель фабрик и заводов европейской России.** Тип. Кришбаума, Сост. П.А.Орлов. СПб, 1895, с.82.

[6] **Обзор фабрик и заводов Закавказского края.** Сост. Гулишамбаров С. Тифлис: – 1894, с.308.

Məhz bu deyilənlərin nəzərə alınması ilə Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycanın ənənəvi ipəkçiliklə məşğul olunan qəzalarında Şəki ipək fabrikinin fəaliyyət mexanizmindəki iqtisadi baxımdan əvvəlki təcrübənin nəzərə alındığı yeni orta miqyaslı fabriklər açıldı.

Şimali Azərbaycanda K.Babayev, Q.Cəfərov digərlərinin 1870-ci ildən başlayaraq açdıqları yeni ipəkçilik fabriklərinin artıq rentabelli fəaliyyəti bütövlükdə bu sahədə müəyyən canlanmağa təkan verirdi.

XIX əsrin 70-80-ci illərində və davamı olaraq əsrin sonunda ipəkçiliyin sənaye əsasları üzərində inkişafının sonrakı mərhələsi ilk növbədə Şimali Azərbaycanda bu sahənin inkişafına daha çox imkan yarada biləcək zəruri dərəcədə xam ipəklə təmin edilməsindən çox dərəcədə asılı idi. Bu isə öz növbəsində ipək istehsalı ənənələri və təcrübəsinin daha güclü olduğu Ərəş, Şuşa, Göyçay qəzalarında, Zaqatala dairəsində, ən çox da bu sahədə daha geniş potensial imkanlara malik Şəki bölgəsində bir neçə istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini tələb edirdi.

Bu yerdə üzərində bir qədər ətraflı dayanmağın vacib olduğu, eyni zamanda təkcə ipəkçilikdə deyil, istehsalın digər sahələrində kapitalist sənayesinin inkişaf templərini ləngidən ümumi bir problemdən yan keçmək düzgün olmazdı. Belə ki, bəhs edilən dövrdə milli burjuaziyanın mövqelərinin əcnəbi iş adamları ilə müqayisədə xeyli dərəcədə zəifliyi, hazır məhsulun nəqliyyat vasitələri ilə daşınmasında 1883-cü ildə Bakı-Tiflis dəmir yolu çəkilənə qədər mövcud çətinliklər, yükdaşımaların baha başa gəlməsi səbəbindən yeni ipəkçilik fabriklərinin açılmasında, bu sahənin genişlənməsində seçim zamanı üstünlük, eyni zamanda yuxarıda bəhs edilən səbəblərlə birlikdə, daha əlverişli şəraitin olduğu Gürcüstan, Şimali Qafqaz bölgələrinə verilirdi.

1886-cı ildə Şəkidə buxar qazanlarından istifadə edilməsi ilə işləyən 8 ipək fabriki qeydə alınmışdısa, bir ildən sonra bu rəqəm 12-yə çatmışdı. Burada sadəcə rəqəm artımı bazara çıxarılan hazır ipək parçanın artması ilə məhdudlaşmayaraq, digər sosial yeniliklərdən də xəbər verirdi. Belə ki, “1886-cı ildə 8 ipək fabrikindən yalnız 2-si milli burjuaziyanın təmsilçilərinə, qalanları xristian etiqadlı sahibkarlara aid idisə, bir ildən sonra baş vermiş dəyişikliklərdən sonra milli burjuaziya təmsilçilərinə məxsus olan ipəkçilik fabriklərinin sayı 4 olmuş, ikincilərə məxsus olanların sayı dəyişməz qalmışdı”.[7]

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, müqayisəni təkcə Şəki bölgəsi ilə məhdudlaşdırmayaraq Şimali Azərbaycandakı digər ipəkçiliklə məşğul olunan fabrik sahiblərinin milli mənsubiyyətini nəzərdən keçirsək, onda bir qədər fərqli mənzərənin şahidi oluruq. Müqayisə üçün qeyd edək ki, “1888-ci ildə ipəkçilik fabriklərinin sayı baxımından Şəki bölgəsindən heç də geri qalmayan Qarabağ bölgəsində fəaliyyətdə olan 18 ipəkçilik fabrikinin əksəriyyəti qeyri – müsəlman burjuaziya nümayəndələrinin mülkiyyətində idi”.[8]

---

[7] **Обзор фабрик и заводов Закавказского края.** Сост. Гулишамбаров С. Тифлис: 1894, с.320.

[8] **A.g.k.**, s.320.

Sənaye ipəkçiliyi əsasları üzərində öz işini quran ipək fabriklərinin üstünlükləri də çox idi. Fabrik daxilində baramaaçma, qurutma, təmizləmə, sap əyirmə, sap yığma və digər şöbələrin fəaliyyət göstərməsi istehsal prosesinin ahəngdar davam etməsini, məhsulun optimal şəkildə sortlaşdırılmasını, habelə köhnə, ənənəvi qaydalarla işləyən fabriklərin xaotik formada icra etdiyi prosesləri indi xeyli asanlaşdırırdı.

Şimali Azərbaycanın ipəkçiliklə əməli məşğul olunan bölgələrində ipək fabriklərinin sayı, onlardakı buxar qazanlarının, toxucu dəzgahlarının, fəhlələrin sayı və digər göstəriciləri nəzərdən keçirilməsi bizə Şəki bölgəsində kapitalist sənayesinin əsrin sonuna doğru formalaşması prosesinin başa çatması barədə müəyyən fikirlər söyləməyə, bəzi müqayisələr aparmağa və qənaətlər bildirməyə imkan verir.

Belə ki, bir-birindən fərqli mənbələrin məlumatlarının müqayisə edilməsi və dəqiqləşdirilməsindən sonra aydın olmuşdu ki, bəhs edilən dövrdə ipək istehsalı ilə daha çox Şəki bölgəsi, Şuşa, Cəbrayıl, Naxçıvan, Göyçay qəzalarında məşğul olunmuşdur. “Şəki şəhərində, Vartaşen kəndi və şəhərə bitişik ərazi ilə bir yerdə 26, Şuşa qəzasında şəhərlə birlikdə 16, Cəbrayıl qəzasında 2, Naxçıvan qəzasında 2, Zaqatala dairəsində 2 ipəkçilik fabriki fəaliyyətdə idi”.[9]

Rəqəmlərdən göründüyü kimi, Şəki şəhəri və ətraf ərazisi ilə birlikdə 26 ipəkçilik fabrikinin sayı, Göyçay qəzası istisna olmaqla, yerdə qalan bütün qəzaların birlikdə göstəricisindən çox olmuşdur. Bu məsələnin kəmiyyət tərəfidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, Şəki bölgəsindəki ipəkçilik fabriklərinin istehsal gücü digər bölgələrinin eyni göstəriciləri ilə müqayisədə daha yüksək idi.

Hələlik Şəki bölgəsindəki ipəkçilik fabriklərinin bəzi göstəricilərindən bəhs etməzdən əvvəl qeyd edək ki, bir qədər yuxarıda hesablamalar apardığımız “48 ipəkçilik müəssisəsində 2300-ə yaxın fəhlənin çalışdığı (bunlardan 1038 kişi, 1200-ü qadın olmaqla) da məlum olmuşdur”.[10]

Bu sayın yarıdan çox hissəsinin, bəlkə də 1/3-nün Şəki bölgəsindəki fabriklərə aid olması heç bir şübhə doğurmur. Bir qədər sonra bölgə üzrə konkret adları qeyd edilən iş adamlarına məxsus ipək fabriklərindəki göstəricilərin təhlili bu fikirlərimizi təsdiq edəcək.

Rəqəmlərin təhlilindən göründüyü kimi, fəhlələrin sayının daha çox olduğu ipək fabriklərinin göstəricisi baxımdan Şəki bölgəsi daha üstün olmuşdur. Bölgədəki 26 fabrikdən 5-də fəhlələrin sayı 60-dan çox olmuş, M.Gəncinsevin 1879-cu ildə açmış olduğu fabrikdə isə 200-ə yaxın fəhlənin çalışdığı qeydə alınmışdı.

XIX əsrin 30 ilində “bölgədə ipəkçilik fabriklərinin sayının 115-ə çatması artıq bu istehsal sahəsinin tək bölgədə deyil, həm də kapitalist sənayesinin formalaş-

---

[9] **A.g.k.**, s.320.

[10] **Описание Шекинской провинции, составленное в 1819 году по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал майором Ахвердовым и действительным статским советником Могилевский.** Тифлис, 1866, с.324.

masındakı mühüm rolundan Şimali Azərbaycanın iqtisadiyyatındakı üstün mövqelərindən xəbər verirdi”.[11]

Bu o qədər də kiçik deyil. Belə ki, “Rusiyanın 5 mərkəzi quberniyası üzrə ipəkçilik fabriklərinin sayının cəmi 192, onlardakı dəzgahların sayının 10724 olduğunu nəzərə alsaq, bu qənaətimiz bir daha təsdiqini tapar”.[12]

Bir cəhəti də qeyd edək ki, Şəki bölgəsindəki ipək fabriklərinin təsisçiləri ilk vaxtlar daha çox xristian etiqadlı, yəni qeyri-milli sahibkarlar idisə, onların get-gedə çox milli burjuaziyanın nümayəndələri bu gəlirli sahəyə öz diqqətlərini artırmaqda idilər.

Hacıkərim Baba oğlu, Məhəmməd İbrahim Əkbər oğlu, Qulu Kərbəlayı Məmmədcəfər oğlu, Məşədi Fətulla Niftalı oğlu, Hacı Abdulla Həşim oğlu, Həşim Hacı Abdulla oğlu, İlyas Əzim oğlu və digərləri bəhs etdiyimiz mənbədə göstərilən siyahıda Şəki bölgəsindəki yeni fabriklərinin təsisçilərinin sırasında ilk yerdə idilər. Onlara məxsus ipək fabriklərinin fəhlələri, toxucu dəzgahların sayı, hazır ipək parça məhsullarının miqdarı irəlidə olanlarla müqayisədə o qədər də geri qalmamışdılar.

***Nəticə***

Apardığımız təhlillərdən məlum oldu ki, Şəki bölgəsində ipəkçilik sənaye sahəsinin formalaşması prosesi bir sıra məqamlar baxımından nəinki bölgəni, habelə ümumi ölkə üzrə müvafiq göstəriciləri qabaqlamışdır. Aydın oldu ki, ipəkçilik sahəsi həm bölgələr üzrə, həm də sənayenin müxtəlif sahələrindəki eyni vəziyyət baxımından digər sahələri qabaqlamışdır. Kapitalist sənaye istehsalına xas cəhətlər məhz Şəki bölgəsində, xüsusi ilə ipəkçilikdə istehsalın əvvəlki manufaktura pillələrindəki ənənələrə əsaslanaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

XIX əsrin II yarısında Şimali Azərbaycan qəzalarında kapitalist sənayesinin formalaşması nəticəsində sənaye mərkəzləri sırasında ipək sənayesinin aparıcı rol oynaması Şəki şəhəri və xüsusi ilə də bölgənin simasını tamamilə dəyişmiş oldu.

Məhz ipəkçilik sənaye istehsal sahəsinin nəticəsi olaraq bölgə yeni sosial-iqtisadi münasibətlərin formalaşması baxımından da diyarda ilk sıralarda idi.

Bu məqalədə tədqiq edilmiş məsələlərin, əldə edilmiş qənaət və ümumiləşmələrin bu istiqamətdə gələcək araşdırmalara səbəb olacağı şübhəsizdir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Георгий Павлович Заплетин, Гюльнара Хасай кызы Ширин-заде. **Русские в истории Азербайджана**. Баку, Qanun, 2008, 368 с.
2. «Нуха», **Кавказ,** 1846, №24, s.4.
3. **Описание Шекинской провинции, составленное в 1819 году по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал**


[11] **Обзор фабрик и заводов Закавказского края.** Сост. Гулишамбаров С. Тифлис: 1894, с.309.

[12] Алисохбат Сумбатзаде. **Промышленность Азербайджана в XIX в**. Изд-во АН Азербайджанской ССР, Баку: 1964, 501 с.

**майором Ахвердовым и действительным статским советником Могилевский.** Тифлис, 1866, с.324.
4. **Обзор фабрик и заводов Закавказского края.** Сост. Гулишамбаров С. Тифлис, 1894, 415 с.
5. Алисохбат Сумбатзаде. **Промышленность Азербайджана в XIX в.** Изд-во АН Азербайджанской ССР. Баку, 1964, 501 с.
6. **Указатель фабрик и заводов европейской России. Тип. Кришбаума, Сост. П.А.Орлов.** СПб, 1895, 265 с.
7. Николай Николаевич Шавров. **Описание кавказского шелководства,** Типография Канцелярии Главнокомандующего гражданской частью на Кавказе. Тифлис, 1891, 320 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Məmmədov Anar Amil oğlu – Sumqayıt Dövlət Universitetinin dissertantı. Azərbaycan, Bakı.

Mammadov Anar Amil – candidate for a degree, Sumgait State University. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 106-117*

**UOT 94 (479.24)**

# NAXÇIVAN BÖLGƏSİNİN ETNİK TARİXİNƏ DAİR

©2023

İSMAYIL HACIYEV*

*AMEA Naxçıvan Bölməsi
ORCID: 0000-0001-6217-7619; e-mail: haciyev.i1951@gmail.com
*https://doi.org/10.59849/2523-4765.2023.2.106*

***Xülasə:*** *Məqalədə Naxçıvan bölgəsinin etnik tarixində mühüm rol oynamış çoxsaylı etnosların bu ərazinin yerli əhalisi olması, bir qisminin isə eradan əvvəl və sonrakı ilk əsrlərdə bura gəlmələri, məskunlaşmaları və fəaliyyətləri araşdırılmışdır. Müəyyən edilir ki, bu tayfaların tam əksəriyyəti türkdilli tayfalar olmuş, bölgənin coğrafi adlarında həmin tayfaların izləri bu gün də yaşayır. Tarixi mənbələr, siyahıyaalmalar, rus və türk qaynaqları da tədqiqata cəlb edilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan bölgəsi, etnik tarix, türkdilli xalqlar, rusdilli mənbələr, türkdilli qaynaqlar*

# ON ETHNIC HISTORY OF NAKHCHIVAN REGION

©2023

ISMAYİL HAJİYEV*

*Nakhchivan branch of the ANAS
ORCID: 0000-0001-6217-7619; e-mail: haciyev.i1951@gmail.com

***Abstract:*** *The article discusses that numerous ethnic groups that played an important role in the ethnic history of the Nakhchivan region are the indigenous inhabitants of this territory, and some of them arrived here BC and in the first centuries of AD, their settlements and activities. It has been established that most of these tribes were Turkic-speaking; traces of these tribes in the geographical names of the region have been preserved to this day. Historical sources, censuses, Russian and Turkish sources were also involved in the research.*

**Keywords:** *Nakhchivan region, ethnic history, Turkic-speaking peoples, Russian-language sources, Turkic-language sources*

# ОБ ЭТНИЧЕСКОЙ ИСТОРИИ НАХЧЫВАНСКОГО РЕГИОНА

©2023

ИСМАИЛ ГАДЖИЕВ*

* Нахчыванского отделения НАНА

ORCID: 0000-0001-6217-7619; e-mail: haciyev.i1951@gmail.com

***Резюме:*** *В статье рассматривается, что многочисленные этносы, сыгравшие важную роль в этнической истории Нахчыванского региона, являются коренными жителями этой территории, а некоторые из них прибыли сюда до нашей эры и в первые века нашей эры, их поселения и деятельность. Установлено, что большинство этих племен были тюркоязычными, следы этих племен в географических названиях региона сохранились и по сей день. Были также привлечены к исследованию исторические источники, переписи, русские и турецкие источники.*

***Ключевые слова:*** *Нахчыванская область, этническая история, тюркоязычные народы, русскоязычные источники, тюркоязычные источники*

***Giriş***

Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan diyarının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskunlaşmasına şərait yaratmışdır. ABŞ-Azərbaycan, Fransa-Azərbaycan arxeoloqlarının birgə tədqiqatları Daş dövrünə aid əldə edilmiş maddi-mədəniyyət nümunələri Naxçıvanda qədim insanların 2 milyon il bundan əvvəl məskunlaşdığını təsdiq edir.[1] Qazma mağarasındakı tədqiqatlar Paleolit dövrünün orta və son mərhələsində Naxçıvanda həyatın davam etdiyini göstərir. Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu təsdiq edir.[2]

Naxçıvanda neolit dövrü e.ə. VII-VI minilliyi əhatə edir. Babək rayonunun Kültəpə kəndində yerləşən I Kültəpə abidəsinin araşdırılması onun Neolit dövründə Cənubi Qafqazın ən qədim yaşayış məskəni olduğunu göstərir.[3]

Naxçıvanda eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Cənubi Qafqazda Eneolit dövrünün erkən mərhələsi hələlik Naxçıvan abidələri ilə təmsil olunmuşdur.

E.ə. V-III minilliklərdə – Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti formalaşmışdır. Ən qədim Erkən Tunc dövrü abidələri Naxçıvan ərazisində aşkar olunmuşdur ki, bu da Naxçıvanın Kür-Araz mədəniyyətinin əsas vətəni olduğunu təsdiq edir.[4] Azərbaycanın cənubunda, eləcə də Naxçıvan ərazisində Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, subi və turukki tayfaları olmuşdu.

E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla

---

[1] Vali Bakhshaliyev, Catherine Marro. **The archeology of Nakhchivan ten years of new Discoveries.** Istanbul, 2009, 118 p; Baxşəliyev Vəli, Ristvet Lauren, Qopnik H., Aşurov Səfər. **Naxçıvanda arxeoloji tədqiqatlar**. Naxçıvan, 2010, 119 s.

[2] Азад Зейналов. **Палеолит Нахчывана**. Автореф. дис. на соиск. учен. степ. доктора философ. по истории. Баку, 2004, 24 с.

[3] Zeynəb Quliyeva. **Naxçıvanın neolit mədəniyyəti**. Naxçıvan, 2020, 160 s., s.5, 7, 13-21.

[4] Abbas Seyidov. **Naxçıvan e.ə. VII-II minilliklərdə**. Bakı, 2003, s.8.

xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdı. Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərinin formalaşdığını təsdiq edir.[5]

E.ə. VII minillikdən başlayaraq ilk minilliklərə qədər olan və yaradılan mədəniyyətlərdə Naxçıvan əhalisi ya iştirak etmiş, ya da Naxçıvanı əhatə etmişdir. Vaxtı ilə coğrafi cəhətdən Azərbaycanın mərkəzində yerləşən, geosiyasi mövqeyi ilə seçilən Naxçıvan ən qədim insanların yaşayış yeri, dünya sivilizasiya mərkəzlərindən biri kimi tanınmışdır. Naxçıvan ərazisində Daş dövründən başlayaraq müxtəlif tayfalar yaşamışlar. Bu tayfaların adları və onların etnik tarixi xüsusi tədqiqat predmeti olmamış və lazımi səviyyədə araşdırılmamışdır. Bununla belə, B.Budaqov, Q.Qeybullayev, İ.Kəngərli, Q.Budaqova və başqaları tədqiqat işlərində Naxçıvanın etnik tarixinə də toxunmuşlar.[6] Q.Qeybullayev isə bəhs olunan problemə ayrıca bir məqalə həsr etmişdir.[7] Bütövlükdə götürdükdə isə Naxçıvan diyarının etnik tarixinin və əhalisinin milli tərkibinin öyrənilməsinə böyük ehtiyac vardır. Çünki bəzi araşdırıcılar bu problemlə bağlı saxta və uydurma fikirlər irəli sürür və bununla da ərazinin "Böyük Ermənistan"ın tərkib hissəsi olduğunu əsaslandırmağa, Azərbaycan türklərinin bu ərazilərə gəlmə olduğunu sübut etməyə çalışırlar. Əslində, bu fikir tamamilə yanlışdır, heç bir elmi əsasa söykənmir.[8] Azərbaycan türkləri bu ərazilərin ən qədim sakinləri olmuşlar.

### *Naxçıvanın etnik tarixində türkmənşəli etnoslar*

Naxçıvan diyarında yaşayan tayfalar Urmiya gölünün ətrafında yaşayan tayfalarla çox sıx əlaqədə olmuşlar. Kuti, lullubi, subi, turukki və başqa tayfalar bu ərazilərin ən qədim sakinləri olmuşlar. Naxçıvan bölgəsi tarixən Azərbaycanın cənub ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türkmənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur.

E.ə. I minilliyin əvvəllərində göstərilən tayfalar əsasında Assur mənbələrində adları manna və maday kimi çəkilmiş etnoslar tarix səhnəsinə çıxırlar.[9] Manna (e.ə. IX-VII əsrlərdə) və Midiya (e.ə. 673-550-ci illər) dövlətləri türk xalqlarının tarixində mühüm siyasi qurumlardır. Mannalılar türkmənşəli qəbul edilsə də, midiyalıları tədqiqatçılar belə qəbul etmirlər.[10] Lakin türkoloq A.Sanduç midiyalıları türkmənşəli hesab edir.[11] Naxçıvan bölgəsi müxtəlif vaxtlarda Midiyanın sərhədləri daxilində olmuşdur. E.ə. VI əsrin ortalarında Naxçıvan ərazisinə 10 min nəfərdən ibarət midiyalı ailə köçürülmüşdür.[12] Ərəb sərkərdəsi Həbib ibn Məsləmənin Naxçıvan əhalisi

---

[5] Vəli Əliyev, Rəsul Bağırov. **Naxçıvanın qədim qala şəhərləri**. Bakı, 2018, 192 s., s.34-36, 52-57, 72-75.

[6] Budaq Budaqov, Qiyasəddin Qeybullayev. **Naxçıvan diyarının yer yaddaşı**. Bakı, 2004; İlqar Kəngərli. **Kəngərli elinin soy kitabı**. Bakı, 2005; Budaqova Q. **Naxçıvan Muxtar Respublikasının toponimləri**. Bakı, 1998 və b.

[7] Qiyasəddin Qeybullayev. **A.g.m.,** s.37-44.

[8] Тофик Мамедов. **A.g.m.,** c.58-61.

[9] Budaq Budaqov və **d., A.g.k.**; İlqar Kəngərli. **A.g.k.**; Budaqova Q. **A.g.t.** və b., s.37.

[10] Игорь Дьяконов Михайлович. **A.g.k.,** 572 с. и др.

[11] Sanducci A. Qədim alimlər türk xalqları haqqında. "**Azərbaycan**", 2023, 12 yanvar.

[12] Budaq Budaqov **v.d.**, **A.g.k.**; İlqar Kəngərli. **A.g.k.**; Budaqova Q. **A.g.toponim,** s.14.

ilə bağlı verdiyi fərmanda Naxçıvan əhalisi "maq" (mar) adlandırılır.[13] "Naxçıvan marların ölkəsidir" (F.Buzand). "Qoxtanda marların kəndləri mövcuddur" və s. Bunlar göstərir ki, Naxçıvan bölgəsində madaylar (maqlar, marlar) yaşamışlar və onların türkmənşəli olması qəbul edilir.[14] Bununla əlaqədar Q.Qeybullayev maraqlı ümumiləşdirmələr aparır: "Naxçıvan ərazisi eramızdan xeyli əvvəl başlayaraq Azərbaycanın tərkib hissəsi olmuşdur. Bu ərazinin qədim əhalisi Cənubi Azərbaycan ərazisində yaşamış tayfalarla eyni etnik mühitə malik olmuşdur".[15]

Naxçıvan əhalisinin etnik tərkibi tarixən türkdilli tayfaların üstünlüyü, çoxluğu ilə diqqəti cəlb edir. Çünki bu bölgənin ən qədim yerli əhalisi türkdilli tayfalar olmuşdur. Bu bölgəyə tarixin sonrakı mərhələlərində müxtəlif türkdilli tayfalar da köç etmiş və bu ərazidə yaşayan eynidilli tayfalarla qaynayıb qarışmışdır. Tədqiqatçıların fikrincə, hələ e.ə. VII əsrdə şimal istiqamətindən Cənubi Qafqaza gəlmiş sak tayfaları Naxçıvan ərazisində də məskunlaşmışdır. Bu tayfaların türkdilli olması tədqiqatçılar tərəfindən sübut edilmişdir.[16] Sakların bir qolu olan kol tayfası da (Koltan, Qoxtan) Naxçıvan bölgəsinin Ordubad ərazisində yaşamışlar. Ordubadın Nüsnüs kəndindən qərbdə "Sak dağı" adlanan bir dağ sakların adını yaşatmaqdadır. Sözügedən kəndin ən böyük küçələrindən biri "Sak" adını daşıyır və bu küçə Sak dağının şərqindədir. Mahmud İsmayıl bu toponimlərin, eləcə də Nüsnüs kəndinin şimal-şərq, Naxçıvanın qərb istiqamətində yerləşən Saqqarsu adlı yerin və çayın da saklarla bağlı olduğunu yazmışdır.[17] Herodota görə saka (sak – İ.H.) etnonimi skif anlayışı ilə eynidir, bircə o fərq var ki, bu etnosu ellinlər "skif" çağırırdılar, farslar isə "saka" adından istifadə etmişlər.[18]

E.ə. II əsrdə Naxçıvan bölgəsində qədim türkmənşəli bulqar tayfasına mənsub ailələrin məskunlaşması da elmə məlumdur. Ordubad ərazisindəki Vənənd yaşayış məntəqəsinin onlara məxsus olması bəllidir.[19] Qafqaz dağlarından şimalda yaşayan bulqarlar e.ə. 149-127-ci illərdə Cənubi Qafqaz ərazisinə gəlmişlər. V əsr müəllifi yazır ki, gələnlər öz başçılarının adı ilə məskənlərini Vənənd adlandırdılar.[20] Tədqiqatçıların bir qisminin ehtimalına görə toponim Azərbaycanın məşhur əlvəndi tayfasının adından götürülmüşdür. Oykonim hər iki halda etnotoponimdir və türk mənşəlidir.

***Naxçıvan ərazisinə türk qəbilələrinin gəlişi və məskunlaşması***

İlk orta əsrlərdə Naxçıvan bölgəsinə qarqar, şirak, basin, alban, xəzər, gerus və s. türk qəbilələri gəlmişlər. VII-VIII əsrlərdə baş vermiş ərəb-xəzər müharibə-

---

[13] Qiyasəddin Qeybullayev. **Azərbaycan türklərinin təşəkkülü tarixindən**. Bakı, 1994, 248 s., s.82.

[14] Sanducci A. Qədim alimlər türk xalqları haqqında. "**Azərbaycan**", 2023, 12 yanvar.

[15] Qiyasəddin Qeybullayev. Naxçıvan ərazisində azərbaycanlıların qədim etnik tarixinə dair. **"Tarix və onun problemləri"**. 1999, №2, s. 37-44, s.39.

[16] Qiyasəddin Qeybullayev. **A.g.k.,** 248 s., s.151-170.

[17] Mahmud İsmayil. **Azərbaycan xalqının yaranması**. Bakı, 1955, s.19.

[18] Геродот. История. М., АСТ. 2006, **Книга VII**, с.64; Zaur Həsənov. **Çar skiflər. Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi.** Bakı, 2005, s. 59 (480 s.).

[19] **Naxçıvan sancağının müfəssəl dəftəri.** Bakı, 2001, 376 s., s.133-135.

[20] **Azərbaycan toponimləri. Ensiklopedik lüğə**t. Bakı, 1999, 588 s., s.106-107.

lərinin döyüş meydanı əsasən Azərbaycan ərazisi idi.[21] Mənbələrdə xəzərlərin abas, kulac, tarna, avar, oğuz, bulqar, biral, paçinak, kabar və başqa tayfalardan ibarət olduğu qeyd olunmuşdur.[22] Q.Budaqovanın fikrincə, Naxçıvan bölgəsinə xəzərlərin içərisində peçeneqlər də gəlmişlər.[23] Peçeneqlər Albaniyada, indiki Ermənistan ərazisində və Naxçıvan bölgəsində məskunlaşmışdılar. Mənşəcə onlar antik mənbələrdə qeyd olunan basinelərdir. Peçeneqlər Orta Asiyanın qədim türkdilli tayfalarından biri olmuşdur. Naxçıvan bölgəsində bu etnonim Biçənək adlı bir yaşayış məntəqəsi və aşırım adında əksini tapmışdır. Tədqiqatçılar peçeneqlərin bir sıra ərazilərdə və müxtəlif tayfalardan ibarət olduqlarını yazmışdır. Cənubi Qafqazda mövcud toponimlər əsasında həmin tayfaların əslində Kuerçi, Erdim, Çur, Kuloba, Qarabay, Qarabağ, Kapan və Çoban adlandırdıqları müəyyən edilmişdir.[24] Həmin tayfa adlarının Yardımlı, Çoryurt, Göyərçin, Qarabağ və Qapanlı toponimlərində əks olunduğu aşkar edilmişdir. Bunlar içərisində Qarabağ tayfasının adı xüsusilə diqqəti cəlb edir. Ona görə ki, Azərbaycanda, Şərqi Türkiyə ərazisində və Naxçıvan bölgəsində Qarabağ, Qarabağlar toponimləri geniş yer tutur.

Qarabağ toponimlərinin peçeneqlərin Qarabay tayfasının adı ilə bağlılığı şübhə doğurmur, çünki peçeneq dilində Qarabay etnoniminin sonundakı “y” səsinin başqa türk dillərində “f” səsinə uyğunluğu fikri vardır.[25] Digər tərəfdən, Qarabağ toponimləri çox geniş areala malikdir və əsasən peçeneqlərin yaşadıqları bölgələrdə mövcuddur.

Erkən orta əsrlərdə Naxçıvan bölgəsinin etnik tarixində bulqar və peçeneqlərlə yanaşı, hunlar, kəngərlər və xəzər tayfaları da müəyyən rol oynamışlar. Naxçıvan bölgəsində Xəzəryurd oronimi göstərir ki, burada xəzərlər də yaşamışlar. Şimali Qafqazın Xəzərsahili ərazisi xəzərlərin ana yurdu hesab olunur.[26] Ona görə də xəzərlərin Cənubi Qafqazla münasibətlərinin qədim tarixi vardır. V əsrə aid bir mənbəyə görə xəzərlərin indiki Ermənistan ərazisinə hərbi yürüşləri eramızın II əsrində başlanmışdır.[27] Alban tarixçisi Musa Kalankatlı xəzərlərin Albaniyaya ilk hücumunu 350-ci ilə aid edir. Ərəb tarixçisi Təbəriyə görə Sasani şahı Xosrov Ənuşirəvan Kür-Araz çayları arasında 10 min Xəzər ailəsini yerləşdirmişdi.[28]

В этот же день президент Ильхам Алиев обратился к народу с объявлением о завершении антитеррористической операции, результатом которой стало полное восстановление территориального суверенитета Азербайджана. Он еще раз подчеркнул, что Армения не выполнила свою часть трехстороннего заявления от 10 ноября 2020 года и не вывела вооруженные формирования с территории верхней части Карабаха. Результатом этого стало проведение контртеррористических мероприятий и уничтожение большей части вооруженных формирований. Цели операции были вполне легитимными, гражданская инфраструктура и мирное население не пострадали. Президент особо подчеркнул, что все права карабахских армян на образование, культуру, религию, муниципальные выборы будут обеспечены, так как Азербайджан – это многонациональное и многоконфессиональное государство, в котором никогда не было дискриминации на национальной или религиозной почве.[20]

21 сентября была организована встреча между представителем президента Азербайджана с карабахской общиной в городе Евлах все эти гарантии были доведены до сведения армянской стороны. Тем не менее, после окончания боевых действий началось массовое переселение армянского населения из Карабаха в Армению, которое было использовано армянами и их лоббистами по всему миру как доказательство якобы проводимой Азербайджаном «этнической чистки». Таким образом, политика Еревана по дискредитации

---

[18] Сообщение Министерства обороны Азербайджанской Республики от 19 сентября 2023 года. **https://mod.gov.az/ru/news/soobshenie-ministerstva-oborony-azerbajdz-hanskoj-respubliki-49349.html**

[19] Полковник Анар Эйвазов: «Достигнута договоренность о приостановлении локальных антитеррористических мероприятий». Брифинг Министерства обороны АР для представителей СМИ. **https://mod.gov.az/ru/news/polkovnik-anar-ejvazov-dostig-nuta-dogovorennost-o-priostanovlenii-lokalnyh-antiterroristicheskih-meropriyatij-video-49445.html**

[20] Президент Азербайджана Ильхам Алиев обратился к народу. АЗЕРТАДЖАН https://azertag.az/ru/xeber/prezident_azerbaidzhana_ilham_aliev_obratilsya_k_narodu_obnovleno_2_video-2756053- Баку, 2023, 21 сентября

Азербайджана в мировом сообществе, с применением хорошо уже многим известных методов, которые использовались до этого в обвинении Баку в «блокаде и голоде» в Ханкенди, не изменилась.

28 сентября новоизбранный «президент НКР» Самвел С Шахраманян подписал указ о прекращении существования непризнанной республики, роспуске всех государственных учреждений и организаций до 1 января 2024 года.[21] Населению непризнанной республики предлагалось самостоятельно принимать решение о реинтеграции, предложенной Азербайджанской Республикой и возможности пребывания в Карабахе. Как видим, население приняло решение добровольно или по указу так называемых властей Карабаха покинуть места своего проживания. Официальный Баку еще раз подтвердил свою готовность принять обратно армянское население Карабаха. Представитель президента Азербайджана по особым поручениям Эльчин Амирбеков в интервью вещательной корпорации Би-би-си отметил, что переезд армян Карабаха в Армению не было намерением Азербайджана, который собирался положить конец только нелегитимному сепаратистскому режиму, фактически удерживающему население в заложниках и не допускавшему оказывать ему гуманитарную помощь.[22] По его мнению, армянское население Карабаха может «интегрироваться в азербайджанское общество, улучшить свои жилищные условия, получить преимущества от всех прав, предоставляемых Азербайджаном», а также безопасность.[23]

Другое отношение было к правящему в Карабахе режиму. При попытке выехать из Карабаха азербайджанскими правоохранительными органами был задержан бывший «госминистр» непризнанной республики Рубен Варданян, сдался властям Азербайджана бывший «министр иностранных дел» Карабаха Давид Бабаян и задержан бывший «министр обороны» Лева Мнацаканян. Им предъявлены обвинения в развязывании и ведении агрессивной войны, финансировании и вербовке наемников, организации терроризма и пытках против азербайджанского населения.[24]

Таким образом, можно утверждать, что Карабахский конфликт близок к своему завершению. Подписание мирного договора между Азербайджаном и Арменией может поставить окончательную точку в этом вопросе.

### *Позиция ЕС и США*

Вопрос заключения мирного договора между Азербайджаном и Арменией стал актуализироваться после Пражского саммита ЕС в октябре 2022 года

---

[21]Указом президента Нагорного Карабаха Нагорно-Карабахская Республика перестанет существовать. https://armenpress.am/rus/news/1120704.html, 2023, 28 сентября.

[22] В Баку заявили, что не рады переезду карабахских армян в Армению. **https://tass.ru/obschestvo/18869689, 2023, 28 сентября.**

[23] В Баку заявили, что не рады переезду карабахских армян в Армению. https://tass.ru/obschestvo/18869689, 2023, 28 сентября.

[24] Азербайджанские силовики задержали Давида Бабаяна. **https://1news.az/news/20230930030851782-Azerbaidzhanskie-siloviki-zaderzhali-Davida-Babayana.** Баку, 2023, 30 сентября.

и встречи в его рамках президентов Азербайджана и Армении в присутствии президента Франции Э. Макрона и председателя Совета ЕС Шарля Мишеля, в результате которой было принято заявление. Главным итогом этого заявления было признание территориальной целостности и суверенитета обеих стран друг другом, что означало признание Карабаха неотъемлемой частью Азербайджанской Республики.[25] В настоящее время появляется надежда на подписание мирного соглашения в обозримом будущем: азербайджанская сторона представила Армении свой текст договора из пяти пунктов, армянская сторона сделала свои поправки и отправила текст договора в Баку.[26]

На повестке дня остается вопрос делимитации и демаркации границ между Азербайджаном и Арменией. По итогу Пражской встречи было принято решение о создании мониторинговой миссии Евросоюза на границе двух республик, однако Азербайджан категорически отверг идею размещения ее на своей территории, поэтому миссия будет действовать на армянской территории в согласовании с Азербайджаном.

Хотя сейчас переговоры идут при посредничестве Москвы, Евросоюз и США также выражают свою заинтересованность в скорейшем заключении мира. Усилия последних в этой области, за исключением Франции, о которой особый разговор, кажутся более искренними, чем позиция России, с одной стороны, не желающей уступать свои позиции в миротворчестве, а с другой – откладывание подписания договора на неопределенный срок и тем самым обеспечивая свое дальнейшее присутствие в регионе. Еще одним препятствием, как уже отмечалось, стала позиция Франции, которая в лице президента Э.Макрона однозначно разделяет армянскую точку зрения на завершение конфликта, что ставит под вопрос ее посредническую миссию.

В этой ситуации наиболее уязвимыми выглядят позиции Армении, которая проявляет явное недовольство позицией России и отказом последней в использовании сил ОДКБ, и в то же время пытается заручиться поддержкой Запада, особенно Франции, в получении хоть каких-то преференций в сложившихся обстоятельствах. Франция решила, что может сыграть ключевую роль и в армяно-азербайджанском конфликте, активизировав свои действия. Вклинившись в переговоры между Баку и Ереваном, официальный Париж обвинил Баку в ведении боевых действий на территории Армении, действуя в интересах Армении и сепаратистов. Как видим, подход Франции к Карабахскому вопросу идентичен грузинскому, но в отличие от грузинского сценария он был отвергнут Азербайджаном.

В то же время США не скрывает своей заинтересованности в скорейшем разрешении проблемы и ликвидации конфликтогенных зон на Южном

---

[25] Солтан Мамедов. «Пражская встреча дает основание говорить о том, что сделан важный шаг к миру на Южном Кавказе». 07.10.2022 **https://www.trend.az/azerbaijan /politi**cs/3654294.html

[26] «Баку и Ереван обменялись предложениями по мирному договору». **https://www.rbc.ru/politics** /08/02/2023 /63e39b7 89a7947aef98938a5

Кавказе. Об этом свидетельствуют неоднократные заявления как представителя Госдепартамента Неда Прайса и других официальных лиц, не заинтересованных в усилении здесь роли России.[27]

***Позиция Турции***

Турция в настоящее время является главной союзницей Азербайджана, сыгравшей большую роль как в военной, так и в международной поддержке нашей страны. По мнению многих западных экспертов, турецкая внешнеполитическая стратегия в регионе рассматривается как политика коллективного Запада, который пытается усилить свое участие в решении региональных проблем. После российско-грузинской войны 2008 года произошло небывалое за всю новейшую историю сближение России с Турцией, за короткое время сумевшей значительно повысить свою роль в регионе. В сентябре 2008 года Турция выдвинула идею о Платформе стабильности и безопасности на Кавказе, включающий и Черноморско-Каспийский бассейны.[28] Предлагаемая модель 3+2 (три южнокавказские республики + Россия и Турция) была выдвинута еще 1999 году президентом С.Демирелем, но на этот раз были продемонстрированы уже конкретные шаги по ее реализации. В декабре 2008 года состоялась встреча министров иностранных дел всех пяти стран, 26 января 2009 г. в Стамбуле состоялось заседание заместителей глав внешнеполитических ведомств стран пятерки.[29]

Вскоре после завершения 44-дневной второй Карабахской войны Турцией и Азербайджаном была выдвинута инициатива по созданию нового формата для переговоров «3+3» (Армения, Грузия и Азербайджан плюс Россия, Турция и Иран) для обеспечения коллективной безопасности и сотрудничества в регионе. Россия и Иран одобрили этот формат, премьер Армении Н.Пашинян продолжает возлагать надежды на Минскую группу, хотя и не отверг окончательно новый формат.[30] Единственной страной, которая категорически выступила против, стала Грузия, считавшая, что участие России позволит и дальше подрывать территориальную целостность страны. Так же негативно восприняли данный формат США, которые после начала войны в Украине начали проявлять все возрастающий интерес к Южному Кавказу, опасаясь увеличения здесь влияния России или Ирана. Американцы считают, что предложенный формат усилит позиции России и Ирана в регионе и одновременно с этим, может подорвать турецкое влияние на Южном Кавказе, а также снизить евроатлантическое влияние, что подорвет

---

[27] «США желают делать все возможное для содействия урегулированию нагорно-карабахского конфликта: Нед Прайс». **https://www.armenpress.am/rus/news/1105 961/**

[28] Материалы круглого стола: «**Новая архитектура безопасности на Южном Кавказе**». Анкара, 2008, с.5-8.

[29] **«Миллиет»** газ., 2009, 27 янв.

[30] «МИД РФ надеется на скорое решение вопроса по встрече в формате «3+3» по Закавказью». 26.11.2021. URL**: https://tass.ru/politika/13031867**

суверенитет расположенных здесь трех государств.[31] В частности, американский политолог, директор Центра Аллисона по внешнеполитическим исследованиям в Фонде «The Heritage» Люк Коффей предложил «дорожную карту» для США, предусматривающую усиление своего политического присутствия, поддержку строительства новой региональной транзитной и энергетической инфраструктуры с включением Армении, содействие реализации проекта Транскаспийского трубопровода, что может «проложить путь» для газопровода Туркменистан-Азербайджан-Армения-Нахчыван-Турция (TAANaT). США, по мнению автора, должны расширить свое присутствие и закрепить лидерство в регионе.[32] В свете российско-украинской войны этот трубопровод может иметь стратегическое значение для обеспечения Европы энергоносителями.

Идею Транскаспийского трубопровода поддержал Евросоюз в лице председателя Еврокомиссии Урсулы фон дер Ляйен, совершившей визит в Азербайджан. По словам президента Азербайджана Ильхама Алиева, «сейчас, когда энергетическая политика в мире полностью слилась с общей геополитической обстановкой, отрицать этот фактор нельзя. Конечно, наше экономическое и политическое значение растет, и если мы посмотрим на газопроводы, питающие Европу, то увидим, что их не так уж и много. Поскольку существующие поставщики просто увеличивают добычу газа, потому что в Европе есть большой спрос. Азербайджан – единственный среди новых поставщиков», – сказал глава государства.[33]

Азербайджан выражает готовность также к реализации глобальных транзитных проектов, для чего требует от Армении открытия Зангезурского коридора, соединяющего основную часть Азербайджана с Нахчыванской Автономной республикой, граничащей с Турцией. Это обеспечило бы транзит грузов из Центральной Азии через территорию Южного Кавказа. Армения под предлогом угрозы для своей территориальной целостности всячески отказывается исполнять достигнутые в ноябре 2020 года договоренности об открытии транспортных коридоров, тем самым усугубляя свое и без того тяжелое экономическое положение.

Что касается Грузии, то она продолжает укреплять стратегическое партнерство с Турцией и Азербайджаном, участвуя как в глобальных энергетических проектах (Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Карс), так и в программах НАТО «Партнерство во имя мира» и укрепляя сотрудничество с Евросоюзом. Армения, благодаря своей ориентации на Россию и конфронтации с Азербайджаном, осталась фактически вне региональных трансграничных проектов, которые могли бы существенно изменить как экономическую

---

[31] Алла Борзова, Елена Савичева, Лина Кулумбегова. «Проблемы безопасности на Южном Кавказе в исследованиях зарубежных аналитических центров». «**Постсоветские исследования**». Т.5, №2 (2022), с.144.

[32] Luke Coffey. URL: **https://www.mei.edu/publications/33-format-south-caucasus-doesnt**-add

[33] «Алиев о новом векторе своей геополитики». **https://haqqin.az/news**/271094, 10 января.

ситуацию внутри страны, так и коллективную безопасность всего Южного Кавказа.

***Заключение***

Как известно, коллективная региональная безопасность, принципы которой были разработаны представителями Копенгагенской школы исследований безопасности, включает в себя пять принципов: национальную, политическую, социальную, экономическую и экологическую безопасность.[34] Новые угрозы, с которыми столкнулось мировое сообщество в XXI веке, явилось серьезным испытанием для международной безопасности, которая постепенно смещается с глобального на региональный уровень, способный, как показала война в Украине, оказывать влияние на всю международную архитектуру безопасности.

Таким образом, проблема региональной безопасности на Южном Кавказе, до недавнего времени казавшаяся нереальной, приобретает все более серьезные очертания не только для стран региона, но и для нерегиональных игроков. События последнего времени развиваются настолько стремительно, что все предвоенное устройство мира может претерпеть серьезную трансформацию. И тогда на первый план выйдут не взаимные претензии и территориальные притязания, а трезвое осознание странами региона своих прагматических и стратегических интересов. А для этого необходимо мирное сосуществование и взаимовыгодное партнерство всех без исключения акторов для обеспечения реальной безопасности на Южном Кавказе.

## ИСПОЛЬЗОВАННАЯ ЛИТЕРАТУРА – REFERENCES


1. "Milliyet" qəz., 2009, 27.01.
2. "Russia vetoes extension of UN mission in Georgia". **https://news.un.org/en/story**/2009/06/303512
3. "Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası on üç gündür davam edir". **https://report.az/qarabag/xankendi-lacin-yolunda-kecirilen-etiraz-aksiyasi.** 24 dekabr, 2022
4. «Алиев о новом векторе своей геополитики». **https://haqqin.az/news/271094,** 10 января.
5. «Баку и Ереван обменялись предложениями по мирному договору». **https://www.rbc.ru/politics/** 08/02/2023/63e39b7 89a7947aef98938a5
6. «Грузия–МООННГ. Историческая справка». **https://www.un.org/ru/peace-keeping**/missions /past/unomig/unomigbackgr.htm
7. «Грузия–МООННГ. Мандат». **https://www.un.org/ru/peacekeeping**/missions/past/unomig/ unmigmandat. htm


[34] Barry Buzan and Ole Waever. **Regions and Powers: The Structure of International Security**: Copenhagen School of Security Studies. 2003.

8. «Живущие неопределенностью». Доклад Human Rights Watch, 2011, 15 июня. **https://www. hrw.org /ru/report/** 2011/07/15/256227
9. «МИД Азербайджана разъяснил решение Международного суда ООН» – **Caliber.az**,23.02.2023
10. «МИД РФ надеется на скорое решение вопроса по встрече в формате «3+3» по Закавказью». 26.11.2021. URL: **https://tass.ru/politika**/13031867
11. Barry Buzan and Ole Waever. **Regions and Powers: The Structure of International Security**: Copenhagen School of Security Studies. 2003.
12. Giorgio Cafiero. "Russia Challenges in the South Caucasus/Posted by American Security project on Sept.08. 2022". **https://www.americansecurityproject.org/ russias-challenges-in-the-south-cau**casus-amid-the-war-in-ukraine **https://azertag.az/ru/xeber/prezident_azerbaidzhana_ilham_aliev_obratilsya_k_narodu_obnovleno_2_video-2756053.** Баку, 2 023, 21 сентября.
13. Luke Coffey. **URL: https://www.mei.edu/publications**/33-format-south-caucasus-doesnt-add
14. Алла Юрьевна Борзова, Елена Михайловна Савичева, Лина Темуриевна Кулумбегова. «Проблемы безопасности на Южном Кавказе в исследованиях зарубежных аналитических центров». «**Постсоветские исследования**». Т.5, №2 (2022).
15. В Баку заявили, что не рады переезду карабахских армян в Армению. **https://tass.ru/obschestvo/18869689,** 2023, 28 сентября
16. Галина Викторовна Сляднева «**Грузино-абхазский конфликт: генезис, современное состояние, перспективы урегулирования (политологический анализ)**». Дисс.на соискание степени канд. ист.наук, Москва, 2018.
17. Заявление Президента Азербайджанской Республики, премьер-министра Республики Армения, Президента Российской Федерации. 10 ноября, 2020, 04:45. **https://president.az/ru/articles/ view**
18. Кирил Буланов, Ольга Надыкто. «Соглашения об ассоциации ЕС с Грузией и Молдавией вступят в силу 1 июля». **https://www.rbc.ru/politics**/23/05/ 2016/574357539a79476f19be9151
19. Материалы круглого стола: «**Новая архитектура безопасности на Южном Кавказе»**. Анкара, 2008.
20. Нестан Чарквиани. «Война без победителей: 24 года назад Грузия ушла из Сухуми». **https://www.golosameriki.com**/amp/georgia-marks-24-anniversary-leaving-sukhumi/4046432.html
21. Парламент непризнанной Нагорно-Карабахской республики (НКР) на специальном заседании в субботу избрал нового президента. **https://www.interfax.ru/world/919829**
22. Полковник Анар Эйвазов: «Достигнута договоренность о приостановлении локальных антитеррористических мероприятий». Брифинг Министерства обороны АР для представителей СМИ. **https://mod.gov.az/ru/news/polkovnik-anar-ejvazov-dostignuta-dogovorennost-o-priostanovlenii-lokalnyh-antiterroristicheskih-meropriyatij-video-49445.html**
23. Президент Азербайджана Ильхам Алиев обратился к народу. АЗЕРТАДЖ

24. Солтан Мамедов. «Пражская встреча дает основание говорить о том, что сделан важный шаг к миру на Южном Кавказе». 07.10.2022 **https://www.trend.az/azerbaijan/politics/3654294.html**
25. Сообщение Министерства обороны Азербайджанской Республики от 19 сентября 2023 года. **https://mod.gov.az/ru/news/soobshenie-ministerstva-oborony-azerbajdzhanskoj-respubliki-49349.html**
26. Указом президента Нагорного Карабаха Нагорно-Карабахская Республика перестанет существовать. **https://armenpress.am/rus/news/1120704.html,** 2023, 28 сентября.
27. Шахмар Агабабаев. «Место Азербайджана в приоритетах внешней политики Франции». **https://astna.biz/ext/news**/2023/1/free/geo-europe/ru/2814.htm, 2023, 9 января.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Bağırova İradə Səid qızı – tarix elmləri doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Baghirova Irada Said – Doctor of Historical Sciences, professor, A.A.Bakikhanov Institute of History, ANAS. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* ISSN 2523-4765
*Səhifə 135-151*

**UOT 94(479.24)**

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI VƏ KANADADA AZƏRBAYCAN DİASPORUNUN FƏALİYYƏTİNƏ DAİR

©2023
MAHİR İBRAHİMOV*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID:0000-0002-8249-3456: mahir.ibrahimov1969@gmail.com
https://doi.org/10.59849/2523-4765.2023.2.135

***Xülasə:*** *Azərbaycan gənc və inkişaf etməkdə olan bir dövlətdir. Dünya dövlətləri ilə müqayisədə Azərbaycan bütün sahələrdə hələ ilk addımlarını atmaqdadır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu inkişaf indi də uğurla davam etdirilməkdədir. Bu xarici siyasətin bir hissəsi də diasporumuzla bağlıdır. Məqalədə Azərbaycan diasporasının yaranma və fəaliyyət tarixinə nəzər salınmış, mühacirlərin mövcud problemlərinə toxunulmuşdur. Tövsiyə xarakterli müəyyən fikirlər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *Azərbaycan, lobbi, diaspora, fəaliyyət tarixi, xarici siyasət, mövcud problemlər*

# AN OVERVIEW OF AZERBAIJANI DIASPORA ACTIVITIES IN THE UNITED STATES OF AMERICA AND CANADA

©2023
MAHIR IBRAHIMOV*

*A.A. Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0002-8249-3456; mahir.ibrahimov1969@gmail.com

***Abstract:*** *Azerbaijan is a young country. Compared to other countries of the world, Azerbaijan is taking its first steps in all spheres of life. This evolution, the foundation of which was laid by the national leader Heydar Aliyev, is successfully continuing now. One of the important directions of this policy is work with the Azerbaijani diaspora. The article examines the history of the creation and activities of the Azerbaijani diaspora, touches on the current problems of emigrants, and puts forward some recommendations.*

***Keywords:*** *Azerbaijan, diaspora, lobby, history of activities, foreign policy, contemporary problems*

# К ВОПРОСУ О ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В СОЕДИНЕННЫХ ШТАТАХ АМЕРИКИ И КАНАДЕ

©2023
МАХИР ИБРАГИМОВ*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0002-8249-3456; mahir.ibrahimov1969@gmail.com

***Резюме:*** *Азербайджан – молодая страна. По сравнению с другими странами мира Азербайджан делает свои первые шаги во всех сферах. Эта эволюция, основу которого заложил общенациональный лидер Гейдар Алиев, успешно продолжается и сейчас. Одним из немаловажных направлений этой политики является работа с азербайджанской диаспорой. В статье рассмотрена история создания и деятельности азербайджанской диаспоры, затронуты актуальные проблемы эмигрантов, а также выдвигаются некоторые рекомендации.*

***Ключевые слова:*** *Азербайджан, диаспора, лобби, история деятельности, внешняя политика, современные проблемы*

## *Giriş*

XX əsrin 80-ci illərinin II yarısında dünyada baş verən geosiyasi dəyişikliklər nəticəsində SSRİ və dünya sosializm sistemi süquta uğradı. Müasir tarixdə baş verən bu hadisələr beynəlxalq münasibətlər sistemində də təsirsiz qalmamış, dövlətlərarası münasibətlərə yeni məzmun və forma gətirmişdir. SSRİ-nin süqutu ilə onun tərkibində olan respublikalar o cümlədən, Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etdi. Bu isə yaranmış bir sıra problemlərin həlli ilə yanaşı xaricidə yaşayan azərbaycanlılara diqqət və qayğını artırmağa imkan yaratdı. Beləliklə, “Azərbaycan diasporası” bir anlayış olaraq Azərbaycan tarixşünaslığında da gündəmə gətirildi. Bu istiqamətdə A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan diasporu: tarix və nəzəriyyə” (Bakı-2005) və “Dünya Azərbaycanlıları: tarix və müasirlik” (Bakı-2003) adlı kitabları bu sahənin öyrənilməsinə layiqli töhfədir. Bununla yanaşı V.Həbiboğlunun “Heydər Əliyev və Azərbaycan diasporu” (Bakı-2001) monoqrafiyasında araşdırılan problemin bir sıra aspektlərinə toxunmuşdur. V.Arzumanlının “Azərbaycan diasporu (reallıqlar, qayğılar, problemlər)” (Bakı-2001) adlı kitabında milli diasporun aktual problemləri nəzərdən keçirilmiş, soydaşlarımızın ictimai-siyasi həyatı barədə maraqlı məlumatlar verilmişdi. Tədqiqatçı alim Z.Əliyevin “Beynəlxalq münasibətlərdə diasporların rolu” (Bakı-2001), “Dünya diasporları” (Bakı-2005), “Türkdilli xalqların diasporları” (Bakı-2009), “Diaspor: izahlı sözlük və məlumat kitabı” (Bakı-2007) adlı kitablarında azərbaycanlı mühacirlər haqqında bir sıra prinsipial məsələlər öz əksini tapmışdır. Bütün bunlarla baxmayaraq, ABŞ-da və Kanadada Azərbaycan diasporunun yaranması və fəaliyyət prinsiplərini, onların dövlətlərarası münasibətlərin inkişafında rolunun sistemli şəkildə araşdırılmasına ehtiyac var.

Məlumdur ki, Azərbaycanın dövlətçilik tarixi dərin köklərə malikdir. Ona görə dünyada Azərbaycan diasporunun formalaşması da qədim tarixə söykənir. Bu

sahəni araşdıran bəzi tədqiqatçılar diasporun formalaşma tarixini bir neçə dövrə bölür. Belə ki, onların təbirincə Azərbaycan mühacir hərəkatının ilk dövrü VII əsrin sonu – VIII əsrin əvvəllərinə təsadüf edir. Mühaciratın ikinci dövrü isə X-XIX əsrləri əhatə edir. Diasporamızın formalaşmasının növbəti dövrü ölkəmizin öncə rus, sonradan sovet imperiyası tərəfindən işğal olunaraq onun tərkibinə qatılması, birinci və ikinci dünya müharibələri, SSRİ-nin süqutundan sonra Amerikada və Avropa ölkələrində azərbaycanlıların yeni nəsillərinin məskunlaşması ilə əlaqədardır. 1979-cu ildə İranda İslam İnqilabının baş verməsi nəticəsində də minlərlə cənublu soydaşımız vətənlərini tərk edərək Qərb ölkələrinə sığınmaq məcburiyyətində qalmışlar. Təxminən, 35 milyondan çox oğuz türkünün tarixən yaşadığı müasir İran ərazisindən son onilliklər ərzində mühacirət edənlərin sayı Azərbaycan Respublikasını tərk edənlərin sayından qat-qat çox olub. Diasporumuzun yayılma coğrafiyası bütövlükdə məlum olsa da, onun dəqiq sayı barədə konkret rəqəm söyləmək bu gün əslində mümkün deyildir. Çünki nə bizdə, nə də xaricdə belə bir hesablama işi indiyə qədər aparılmayıb və diasporumuzun statistik-demoqrafik mənzərəsi yaradılmayıb. Bütün bu qeyri-müəyyənlik hallarına baxmayaraq bilavasitə mühacirətdə yaşayan azərbaycanlıların ümumi sayının təxminən 10 milyon nəfərdən çox olmasını söyləmək mümkündür.[1] Qeyd etməliyik ki, bu məlumatlar keçən əsrin 90-cı illərinə aiddir və hal-hazırda bu rəqəmlər xeyli artmışdır.

Bildiyimiz kimi, Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi milli məsələlərdə diasporun əhəmiyyətini həmişə yüksək qiymətləndirmişdi: "Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində – Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illər bu proses sürətlə gedir. Güman edirəm ki, məhz müstəqil Azərbaycanın varlığı bu həmrəyliyin inkişafının əsasını təşkil edir. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər".[2] Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasətin başlıca istiqamətlərindən biri kimi diaspor quruculuğu işinin öyrənilməsi zərurəti də tədqiqatın prioritet olduğunu sübut edir. Bu ilk növbədə dövlətimizin milli strategiyası ilə bağlıdır. Onun dövlət başçısı kimi xarici ölkələrə səfərləri zamanı orada yaşayan soydaşlarımızla görüşlərində onları ölkəmizdə baş verən mütərəqqi hadisələrdə iştiraka dəvət etməsi, eləcə də diaspor təşkilatlarının Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında fəallıq göstərməsinin də öyrənilməsi vacib əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən diaspor siyasəti Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli birlik və həmrəylik prinsiplərinə söykənir. Həm ata, həm də oğul prezidentin Dünya Azərbaycanlılarının birinci, ikinci və üçüncü qurultaylarındakı çıxışlarından irəli

---

[1] **"Azadlıq" qəzeti,** 10 oktyabr 1997, s.4.

[2] **"Azərbaycan diasporuna dövlət qayğısı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi"**; ön sözün müəl. Nazim İbrahimov. II nəşr – Bakı: "Çaşıoğlu", 2006, 243 s.

gələn konseptual yanaşma Azərbaycan dövlətinin diaspor sahəsində siyasətinin əsasını təşkil edir. Bu istiqamətdə dövlət siyasətini inamla aparan Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının II qurultayında demişdir: "Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakı üçün bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir... Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək".[3]

***Amerikada Azərbaycan diasporunun yaranması və fəaliyyət tarixindən***

Araşdırmalar göstərir ki, Azərbaycan mühacirətinin ən geniş məskunlaşdığı və bir sıra qeyri hökumət təşkilatları ilə təmsil olunduğu ölkələrdən biri də ABŞ-dır. Burada yaşayan azərbaycanlıların sayı haqqında dəqiq məlumatlar olmasa da, müxtəlif mənbələrdə onların sayı 400 mindən 1 milyona qədər göstərilir.[4] Azərbaycanlıların Amerikaya mühacirəti barədə dəqiq tarixi məlumat yoxdur. Bəzi mənbələrdə mühacirlərin XVII əsrdə Rusiyadan, Osmanlı imperiyasından və Azərbaycandan getməsi barədə müəyyən fikirlər vardır, lakin bu fikirlər rəsmən təsdiqlənmir. Ona görə də Birləşmiş Ştatlara azərbaycanlıların mühacirət tarixi XIX əsrin sonu, XX əsrin əvvəlindən götürülür. Buraya miqrasiya etmiş həmvətənlərimiz azərbaycanlı kimi qeydiyyata məhz həmin tarixdən düşməyə başlayıblar. ABŞ-a köçən ilk soydaşlarımız əsasən tacirlər və ziyalı təbəqəsi idi. Adətən, tədqiqatçılar Azərbaycanlıların Birləşmiş Ştatlara mühacirətini şərti olaraq 4 mərhələyə bölürlər. Birinci mərhələ XIX əsrin sonu – XX əsrin 20-ci illərini əhatə edir. Həmin illərdə Azərbaycandan ABŞ-a köçən mühacirlərin tərkibi əsasən yəhudilər və Azərbaycan türklərindən ibarət idi. İkinci mühacirət mərhələsi 1920-1940-cı illərdə baş vermişdir. Bu mərhələdə azərbaycanlıların Birləşmiş Ştatlara güclənən axınını və məskunlaşma səbəbini siyasi mühacirət kimi adlandıra bilərik. Son tarixi araşdırmalar göstərir ki, 1920-ci ilin aprel ayında Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasından sonra bolşeviklər onun qurucuları və tərəfdarlarını çox ciddi təqib və təzyiqlərə məruz qoymuşdular. Nəticədə, onlar ölkəni tərk etmək məcburiyyətində qaldılar. Beləliklə, Avropa və Asiya ölkələri ilə yanaşı, ABŞ-a köçən azərbaycanlılar arasında da siyasi fəallıq bir qədər də artmış oldu. Lakin, onların burada nə sosial bazası, nə də formalaşmış icması yox idi. Azərbaycanlılar adətən pərakəndə halda, bir neçə ştatda məskunlaşırdılar. Buna baxmayaraq zaman keçdikcə Azərbaycan icması formalaşmağa başladı ki, bunun da təşkilatçısı və aparıcı qüvvəsi ziyalı təbəqəsi idi. Üçüncü mərhələ 1945-ci ildən 1990-cı ilə qədər olan zamanı əhatə edir. Həmin zaman kəsiyində Birləşmiş Ştatlara köçən azərbaycanlıların əksər hissəsini II Dünya müharibəsində əsir düşən əsgərlər və Cənubi

---

[3] İlham Əliyev. "Dünya Azərbaycanlılarının II qurultayında nitq". "**Azərbaycan" qəzeti,** 2006, 17 mart, №58.

[4] "Azərbaycandan kənarda yaşayan azərbaycanlıların sayı". **https://azerbaijan.az/ related-information/**207. 02.02.2023.

Azərbaycandan miqrasiya edən soydaşlarımız təşkil edirdi. Beləliklə, II Dünya müharibəsindən sonra Birləşmiş Ştatlarda Azərbaycan diasporunun təşkilatlanması ilə yanaşı siyasi fəallıq mərhələsi başlandı. Türkiyədən, Güney və Quzey Azərbaycandan köçənlər pərakəndə halda olsalar da, siyasi fəaliyyətə maraq göstərirdilər. İlk dəfə olaraq, 1947-ci ildə Türkiyədən ABŞ-a köçən soydaşlarımızın "Azərbaycan" cəmiyyətini yaratması mühüm tarixi hadisə idi. Saleh bəy Şeyxzamanovun rəhbərliyi ilə fəaliyyətə başlayan "Azərbaycan" cəmiyyəti Nyu-York şəhərində yerləşirdi. "Zəbt olunmuş millətlər" adlı keçmiş milli respublikaların təşkilatlarının birləşdiyi birliyin üzvü olan "Azərbaycan" cəmiyyəti Amerika hökumətinin yardımı ilə fəaliyyət göstərirdi. 1940-cı ildə yaradılan "Amerika Komitəsi" azərbaycanlıların da hüquqlarını qoruyurdu. Soydaşlarımız öz haqq səslərini dünya birliyinə çatdırmaqla yanaşı, sovet Rusiyasının işğalı altında olan Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində işlərini fəallaşdırdılar. İlk dəfə olaraq, 1954-cü ildə Azərbaycan mühacirətinin tanınmış nümayəndəsi Zahid xan Xoyski Amerikanın ali qanunverici orqanında çıxış etdi. Zahid xan Xoyski Konqresə Sovetlər Birliyinə daxil olan respublikalar haqqında məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan təmsilçisi kimi dəvət olunmuşdu.[5] Bununla yanaşı, 1942-ci ildə açılan "Amerikanın səsi" radiostansiyası vasitəsilə Azərbaycan və azərbaycanlılar barədə informasiyalar verilir, milli kimliyimizin, musiqimizin, ədəbiyyatımızın, dilimizin, mətbəximizin və digər ənənələrimizin qorunub saxlanılması və təbliğinə xidmət edən proqramlar fəaliyyət göstərirdi. 1953-cü ilin martında isə ABŞ dövlətinin maliyyələşdirdiyi "Bolşevizmlə Mücadilə Koordinasiya Mərkəzi" tərəfindən istiqamətləndirilən "Qurtuluş", sonradan "Azadlıq" radiosu ilk verilişlərinə başladı.[6] Azərbaycanlıların həmrəyliyinin güclənməsində sözügedən radiostansiyada "Azərbaycan şöbəsi"nin fəaliyyətə başlaması mühüm rol oynadı. Maraqlı hadisələrdən biri odur ki, 1953-cü ildə M.Rəsulzadə Azərbaycan İstiqlalının 35-ci ildönümü münasibəti ilə "Amerikanın səsi" radiosundan Azərbaycan xalqına müraciət etmişdi. 1954-cü ilin sonlarında "Amerikan Kommunizm ilə Mücadilə Komitəsi"nin yeni Başqanı professor Kuneholt Ankaraya gəlmiş, M.Rəsulzadə ilə görüşmüşdü. O, komitənin Azərbaycanın istiqlal məsələsinə diqqətli olduğunu ifadə etmiş, onun bu mübarizə önündə layiq olduğu yeri almasını istəmişdi. Bu yaxınlaşmanı qəbul edən M.Rəsulzadə Komitə ilə yaxın münasibətlər qurmuşdu.[7] Avropada yaşayan soydaşlarımızın bir qisminin 1990-cı ilə qədər olan dövr ərzində Birləşmiş Ştatlara köçməsi də diasporumuzun daha da güclənməsinə və say tərkibinin genişlənməsinə səbəb oldu. Bu miqrasiyanın məntiqi nəticəsi olaraq, Azərbaycan diaspor təşkilatlarının da sayı artırdı. Həmin illərdə Amerikanın neft, texnika, iqtisadiyyat, kosmik tədqiqatlar, hüquq sahələrində nailiyyətlər əldə edən soydaşlarımız haqqında danışarkən NASA-da tanınmış mütəxəssis Cavad Herti, dünya şöhrətli alim Əli Əsgər Lütfizadə, qazla lazeri kəşf edərək 1993-cü ildə Albert Eynşteyn mükafatına

---

[5] "Azərbaycan diasporunun Amerikada formalaşma tarixi". **"Olaylar" qəz.**, 2014, 28-29, may, s.15.

[6] Zaur Əliyev. **Türkdilli xalqların diasporları**. Bakı, "Adiloğlu", 2009, s.35.

[7] Nəsiman Yaqublu. **Cümhuriyyət qurucuları**. "Nurlar" Nəşriyyat-Poliqrafiya mərkəzi. Bakı, 2018, s.36.

layiq görülən Əli Cavan, neft sənayesi üzrə məşhur alim Bican Fəzullahi, neft biznesmeni və neft sənayesi üzrə mütəxəssis Firudin Əminzadə kimi şəxslərin adlarını çəkmək mümkündür.

Azərbaycan diaspora tarixinin dördüncü dövrü 1990-cı illərdən sonra başlayır. 1991-ci ildə tarixində ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycan dövləti əksər sahələr kimi diaspor sahəsini də özünün əsas prioriteti hesab edərək bu istiqamətə diqqəti artırdı. Çox keçmədən bu istiqamətdə mühüm qərarlar qəbul edildi, dövlət səviyyəsində məqsədyönlü addımlar atıldı. O zamanlar kütləvi olmasa da azərbaycanlıların Qərb ölkələrinə, xüsusən ABŞ-a miqrasiya prosesləri nəzərə çarpırdı. Bu prosesin iştirakçıları ziyalılar, elm və mədəniyyət xadimləri, eyni zamanda, iş tapmaq ümidilə ABŞ-a üz tutanlar idi. Azərbaycanlıların miqrasiyası Birləşmiş Ştatlardakı diasporun fəaliyyətinə də öz təsirini göstərdi. Belə ki, diasporumuz ilk növbədə Bakıda 1990-cı ildə ruslar tərəfindən həyata keçirilən Qanlı Yanvar hadisəsinə etiraz səslərini ucaltmışdı. ABŞ-dakı azərbaycanlıların diaspor təşkilatları ətrafında birləşməsi tendensiyası Heydər Əliyevin 1994-cü ilin payızında bu ölkəyə səfərindən sonra daha da sürətlənmiş, diaspor təşkilatlarımızın fəaliyyəti yeni keyfiyyət qazanmışdı. Bunun ardınca, 1997-ci ildə qəbul edilən ədalətsiz "907-ci" düzəlişə qarşı Amerika azərbaycanlılarının çıxışı başlandı. Dağlıq Qarabağ ətrafında Ermənistanın təcavüzkarlıq siyasəti və BMT-nin 1992-ci ildə qəbul etdiyi qətnamələrə əməl edilməməsi və 1992-ci ilin 26 fevralında əsrin faciəsi – Xocalı soyqırımının baş verməsi, Amerikada Azərbaycan diasporu tərəfindən ciddi etirazla qarşılandı.

Qeyd etməliyik ki, azərbaycanlılar kompakt halda əsasən Nyu-York, Los-Anceles, Batton-Ruc, Miciqan, Nyu-Cersi, Vaşinqton və ABŞ-nin digər bölgələrində məskunlaşıblar. Soydaşlarımızın ən çox çalışdıqları biznes və xidmət sferalarıdır və orada fəaldırlar. Amerikada özlərini Azərbaycan diasporunun nümayəndələri hesab edən bakılı yəhudilərin fəaliyyəti də diqqətə layiqdir. Azərbaycan naminə gördüyü işlərə görə müsbət qiymətləndirilən Azərbaycan yəhudiləri, "Evreyskiy mir", "Vecnıy Nyu-York", "Russkaya reklama", "Newstay", "New Worker" mətbuat orqanlarında Azərbaycanı dəstəkləyirlər. Bu gün Los-Anceles, Pitt Kalambus, Vest-Delfiya şəhərlərində formalaşmış "Tehranseles", "Bakı-Kalam bus", "Təbriz fiya" məhəllələrində xeyli sayda azərbaycanlı yaşayır.[8] San-Fransisko, Los-Anceles və Vaşinqtonda Azərbaycan dilini radio dalğalarda eşitmək olar. Artıq okeanın o tayındakı azərbaycanlıların və türklərin yaxınlaşması prosesi sürətlənməkdədir və türk dilli mediada Azərbaycan müəlliflərinin yazıları və çıxışlarına çox yer verilir. ABŞ-da Türkiyə və Azərbaycana qarşı erməni, yunan diasporlarının fəaliyyətinə layiqli cavablar verilməsi faktı ilə də qarşılaşmaq olar. Uydurma "Erməni soy-qırımı", "907-ci düzəliş", Kipr, "kürd" məsələləri gündəmə gələndə, Azərbaycan diasporu da türk diasporu ilə həmrəy olaraq müraciətlər qəbul edir, etiraz səslərini daima ucaldır. Azərbaycanı təbliğ edən sərgilər, konfranslar və digər tədbirlər Birləşmiş Ştatlarda son zamanlar daha çox keçirilməkdədir. ABŞ-da populyar qəzet-lərin səhifələrində də Azərbaycan və Azərbaycan diasporu barədə müsbət yazılara

---

[8] "Azərbaycan diasporunun Amerikada formalaşma tarixi". "**Olaylar" qəz.**, 2014, 28-29, may, s.15.

rast gəlmək olar. Amerika azərbaycanlıları ABŞ hökumətinə "907-ci düzəliş", Qarabağ problemi, Cənubi Azərbaycanda insan hüquqları və s. mövzularla bağlı bəyanatlar göndərirlər. Son dövrlər Amerikanın ali məktəblərində, diaspor təşkilatlarında Vətənlə əlaqələr qurulması istiqamətində canlanma hiss olunur. 20 Yanvar, Xocalı soyqırımı kimi faciəli günlərimizi anma tədbirləri ilə yanaşı, Novruz bayramı, 28 may İstiqlal Günü, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və digər milli bayramlarımız təntənəli şəkildə keçirilir. 2001-ci il 11 sentyabr hadisələri zamanı azərbaycanlıların amerikalılar ilə birgə olması diasporumuzun mövqeyinin güclənməsinə müsbət təsir göstərmişdir və proses indinin özündə də davam edir. Bu isə öz növbəsində ABŞ dövlətini təmsil edən konqresmenlər arasında azərbaycanpərəst mövqe sərgilənən şəxslərin say artımında mühüm rol oynayır. Artıq Amerika siyasi və rəsmi dairələrində Azərbaycan diasporunun dəstəklənməsi müşahidə olunur. Azərbaycanın haqlı olması barədə müsbət çıxışlar edilir, fikirlər səslənir. Ulu öndər Heydər Əliyevin Amerikaya hər səfərində azərbaycanlılarla tez-tez görüşməsi birləşməyə və həmrəyliyə təkan verirdi. Bu cür görüşlər zamanı ümummilli lider Qarabağ məsələsini önə çəkərək azərbaycanlıların bu istiqamətdə işlərini və qüvvələrini səfərbər etmələrini tövsiyə etmişdir. Söz yox ki, dövlət səviyyəsində diaspora sahəsinə dəstək artdıqca, Amerikadakı Azərbaycan diasporunun fəaliyyətinə də öz təsirini göstərmişdir.

Son dövrlər Birləşmiş Ştatlarda yaşayan soydaşlarımız kütləvi informasiya vasitələri ilə əlaqə və diasporun təşkilatlanması sahəsində bir sıra uğurlar əldə edib. Hazırda Amerika Birləşmiş Ştatlarında Diaspor təşkilatlarının sayı 31-dir. Bu təşkilatlar aşağıdakılardır:

1. ABŞ Azərbaycanlıları şəbəkəsi (US Azeris Network – USAN). Waşington, DC, Adil Bağırov baguirov@gmail.com / +1(202) 413-70-70.
2. Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi. Vaşinqton, DC, Bədir Məmmədli, Yusif Babanlı. yusif@usazeris.org +1(416) 883-13-11.
3. Amerika-Azərbaycan Ticarət Palatası. Vaşinqton, DC, Natiq Baxışov nbakhishov@usacc.org / +1(202)779-83-65.
4. Vaşinqton Universiteti tərkibində Amerika. Azərbaycan Mədəniyyət Assosiasiyası. Vaşington, DC. Ramin Cabbarlı, Aytac Qasımova. Aytac.qasimova@gmail.com +1(206)327-79-50 2.raminj@uw. edu +1(253) 326-75-94.
5. Amerika Azərbaycan Qadınlar Assosiasiyası. Vaşinqton, DC. Lalə Rəhimova, Rəna Məmmədli. Lalaragim@yahoo.com +1(703) 477-05-10.
6. Amerika Azərbaycan Mədəniyyət Cəmiyyəti. Kaliforniya. Vüsal Əzizəliyev, Zərifə Musayeva. vusal.az@gmail.com +1(650) 642-53-31.
7. Kaliforniya Azərbaycan Dostluq Assosiasiyası (KAFA). Kaliforniya. Kimiya Məmmədova, cafa@cafa-us.org kimmammadova@googlemail.com. +1(310) 408-83-87.
8. Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzi. Həmid Əhmədi. secretary@acsnc.org. +1(408) 661-34-10.
9. Cənubi Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyəti. Kaliforniya. Samir Lütfəliyev +1(650) 333-9865.
10. Azərbaycan Mədəniyyət Mərkəzi. Nyu-York. Telman Cəlilov. Telman 333@yahoo.com. +1(917) 378-75-46.

11. Azərbaycan Nyu-York Assosiasiyası. Nyu-York. Ercan Yerdələnli, Zəminə Mirhadıyeva
ercanyd@gmail.com. +1(908) 720-60-09.

12. Azərbaycan-Amerika Qadın Cəmiyyəti. Nyu-York, Azərbaycan Evi.
Minəvvər Vahabova, mina.azeri@yahoo.com. +1(917) 349-66-54.

13. Azərbaycan-Amerika Cəmiyyəti. Nyu-York. Tomris Azəri, tomris@att. net. +1(973) 768-10-69.

14. Qafqaz Yəhudiləri Cəmiyyəti. Nyu-York. Yakov Abramov, orkhan85@a ol.com. +1(917)-803-70-50.

15. My Way Development Center. Nyu-York. Alyona Bədəlova, alyonabaku @yahoo.com. +1(347) 556-42-05.

16. Bruklin Bakı Dostluq Assosiasiyası. Nyu-York. Marietta Rozental, mrozental@yahoo.com +1(212) 365-01-03.

17. Azərbaycan Amerika Mədəniyyət Mərkəzi. Nyu-York. Nadia Şərifi, nad977@gmail.com +1(516) 603-72-79.

18. Milli Musiqi və Qlobal Mədəniyyət Mərkəzi. Nyu-York. Nərgiz Əliyarlı aliyarovanargiz@gmail.com +1(202)-560-01-45.

19. AZZEM Beynəlxalq təşkilatı. Nyu-York. Oleq Mövsümov. omovsumov @yahoo.com +1(212) 537-69-32.

20. Amerika Azərbaycan Mədəniyyət Assosiasiyası. Florida. Töhfə Eminova teminova @yahoo.com +1(783) 380-86-22.

21. Florida Azərbaycan İcması. Florida. Esmira Bayramova, esmirare@gmail. com +1(929) 444-86-30.

22. Hyuston-Bakı Qardaş Şəhər Assosiasiyası. Texas. İradə Axundova, azerbaijancchouston@ gmail.com. +1 (281) 757-54-49.

23. Amerika-Azərbaycan Mədəniyyət Assosiasiyası. Texas. İsmayıl Əhmədov ismayilehmed @yahoo.com +1(713) 383-85-82.

24. Amerika orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzi. Illinois. Mehriban Məmmədova, Mehri16@gmail.com +1(773) 953-39-69. Fərid Məmmədov, Farid-mammadov@hotmail.com +1(773) 699-20-63.

25. Azərbaycan Minnisota Cəmiyyəti. Minnesota. Günel Musəvi, +1 (651)447-02-38 gunmuska@ gmail.com.

26. Bank və Fondun Azərbaycanlı Əməkdaşlar Assosiasiyası (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Maliyyə Korporasiyasının Vaşinqton qərargahları). Vaşinqton, DC. Baxtiyar Karimov, Namiq Nağdəliyev, Hacı Hüsey-nov. bkarimov@worldbank.org, nnaghdaliyev@worldbank.org, hhuseynov@world bank.org. +1(202)891 9026 (Namiq)

27. Men Azərbaycan Cəmiyyəti. Maine. Tərlan Əhmədov tahmadov @ccmai-ne.org/tarlan.ahmadov@gmail.com / 10 Fox Hall Rd, Falmouth, ME 04105 +12075232729, +12072101501, +12078717465.

28. Nyu England Azerbaijani Cultural Centre (qeydiyyatdan keçməyib). Massaçusetts. Rauf İsmayılov, Orxan İsmayılzadə, Vüqar Cəfərov.

29. Portland Azərbaycan İcması (qeydiyyatdan keçməyib). Oregon. Fizuli Maheddinov +19713449876.

30. Siyasi Araşdırmalar Mərkəzi. Vaşinqton, Vüqar Şahbazov shaxbazli@ gmail.com

31. Monterey-Lənkəran Dostluq Assosiasiyası. California. Nensi Selfridge. self48@icloud.com.[9]

***Kanadada Azərbaycan diasporunun yaranması və fəaliyyət tarixindən***

Bu gün Azərbaycan diasporunun fəaliyyət göstərdiyi ölkələrdən biri də Kanadadır. Rəsmi statistikaya görə, Kanadada 250 minə yaxın azərbaycanlı yaşayır.[10] Onların böyük qismi İrandan gələnlərdir, digərləri isə dünyanın müxtəlif ölkələrindən və Azərbaycandan gəlmiş mühacirlərdir. Onların arasında elm adamları, təhsil, səhiyyə və müxtəlif peşə sahibləri, iş adamları da var. Maraqlı cəhət odur ki, cənublu soydaşlarımız güclü maddi və intellektual imkanlara malikdirlər. Azərbaycanlıların Kanadaya mühacirət tarixi əsasən XX əsrin əvvəllərindən etibarən başlayır. Öncə də qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər, bununla paralel olaraq Azərbaycan Demokratik Respublikasının süqutu soydaşlarımızın digər ölkələrə, o cümlədən də Kanadaya mühacirətini intensivləşdirmişdir. Lakin kütləvi mühacirət əsasən 1940-cı illərdən sonra baş vermişdir. Bunun nəticəsində soydaşlarımız Ontario, Ottava, Monreal, Kvebek və digər şəhərlərdə məskunlaşmışlar. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Kanada azərbaycanlılarının fəaliyyətində canlanma yaranmışdır. Belə ki, 1989-1990-cı illərdə Şimali Azərbaycandan Kanadaya mühacirət prosesinin güclənməsi buradakı diasporumuzun daha da təkmilləşməsinə şərait yaratdı. Azərbaycanlıların Kanadada təşkil etdiyi tədbirlər siyahısına etiraz çıxışları, lobbiçilik, kütləvi informasiya vasitələri sahəsində təbliğat, ikitərəfli əlaqələr, Kanada-Azərbaycan münasibətlərinin inkişafı və s. daxildir. İlk zamanlar güclü erməni və yunan icmalarının müqaviməti ilə üzləşən soydaşlarımız birgə fəaliyyət nəticəsində müəyyən qədər onları neytrallaşdırmağa nail olmuşdur. Kanada azərbaycanlılarının kütləvi informasiya vasitələrində fəaliyyətini qismən müsbət qiymətləndirmək olar. Burada 1992-ci ildən etibarən təbliğat işinə diqqət yetirməyə başlayıblar. Hazırda Kanadada azərbaycanlılar tərəfindən təsis olunmuş "Odlar Yurdu" (www.radioodlaryurdu.com) yayımlanır. Bundan başqa, əvvəllər "Qurtuluş" jurnalı yayımlanırdı. Sonradan onu "İldırım" jurnalı əvəz elədi. İlk zamanlar "Azerbaijan Post" qəzeti nəşr edilirdi. Kanada Azərbaycan Dərnəkləri Federasiyasının (KADF) təşəbbüsü ilə Kanadada "AzCan TV" adlı Azərbaycan telekanalı açılıb. Kanada Azərbaycan Dərnəkləri Federasiyası ilə RO GERS TV arasında bağlanan müqaviləyə əsasən, sentyabrın 1-dən efirə çıxan "Az Can TV" ilk mərhələdə həftədə 1 saatlıq proqramla RO GERS TV-nin nəzdində fəaliyyət göstərir.[11] Kanadada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından biri də Alberta Azərbaycan Mədəniyyət Mərkəzidir. Alberta Azərbaycan Mədəniyyət Mərkəzi Kanada [Azərbaycan] Təşkilatları Assambleyasının üzvüdür. Mərkəz 2006-cı ildə təsis edilmişdir. Mərkəzin məqsədi

---

[9] "Diaspor təşkilatları". Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident kitabxanası. **https://files. preslib.az/projects/diaspora/e1.pdf.** 20.03.2023.

[10] "Kanadada Azərbaycan dilində yayımlanan yeganə telekanal fəaliyyətini genişləndirmək niyyətindədir". **https://azertag.az/xeber/VIDEO-1401098**. 31.01.2020 [13:46].

[11] "Azərbaycan Diasporu": 2014. **http://diaspor.gov.az/upload.** 20220623053429, 2014. pdf s.232. 25.03.2023.

Kanada və Azərbaycan icmaları arasında körpü rolunu oynamaq, bu ölkədə Azərbaycan mədəniyyəti, tarixi və ənənələrini yaşadaraq təbliğ etmək, eyni zamanda, Kanada mədəniyyəti, ənənələr və həyat tərzini öyrənməkdir. Bu baxımdan Mərkəz tərəfindən müxtəlif araşdırmalar aparılır və müvafiq layihələr həyata keçirilir. Mərkəz müxtəlif yerli təşkilatlarla, insan haqları, ekoloji təşkilatlarla sıx əməkdaşlıq edir.

Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası 2007-ci ilin yanvarında bir sıra diaspor təşkilatları tərəfindən təsis edilmişdir. Assosiasiyada Kanadanın müxtəlif yerlərində fəaliyyət göstərən 10 diaspor təşkilatı təmsil olunur. Assosiasiya fəaliyyətini Kanadada Azərbaycan həqiqətlərinin yayılması, respublikamız barədə dolğun təsəvvürün formalaşdırılması istiqamətində qurmuşdur. Assosiasiya, həmçinin, Azərbaycan cəmiyyətlərinin fəaliyyətlərini koordinasiya edir. Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyası bundan başqa Kanadada təhsil alan azərbaycanlı tələbələrə də xüsusi diqqət ayırır. Burada isə məqsəd soydaşlarımıza kömək etmək, istedadlı gəncləri üzə çıxarmaq, həmin gənclərin ictimai işlərdə yaxından iştirakını təmin etməkdən ibarətdir. Kanadada Azərbaycan həqiqətlərinin yayılması məqsədilə Assosiasiya tərəfindən bu ölkənin universitetlərində konfranslar keçirilir, tələbə cəmiyyətlərinin təşkilatçılığı ilə aksiyalar təşkil olunur. Dünyanın tanınmış ictimai-siyasi, elm xadimlərinin təşkilatın Kanadada keçirdiyi tədbirlərə qatılması ilə bir sıra uğurlar əldə edilmişdir.

28 Noyabr 2010-cu ildə Azərbaycan Respublikasının Kanadadakı Səfirliyinin, Azərbaycan-Amerika Şurasının və Toronto Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyasının birgə təşkilatçılığı ilə ictimai maraqların müdafiəsinə həsr olunmuş birinci Azərbaycan-Kanada Elmi Konfransı keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Kanadadakı səfiri Azərbaycan diasporunun fəaliyyətinə toxunub və diasporun fəallığının artırılması məqsədilə təşkilatlar arasında əlaqələndirici mexanizminin yaradılmasını vacib sayıb. Xaricdə Azərbaycanın maraqlarının müdafiəsinin hər bir vətəndaşın vacib vəzifəsi olduğunu vurğulayan səfir diaspor nümayəndələri, ələlxüsus bu ölkədə təhsil alan azərbaycanlı tələbələr tərəfindən Kanadanın siyasi və ictimai xadimləri ilə təbliğat-təşviqat sahəsində müvafiq işlərin aparılmasının vacibliyini qeyd edib.[12]

2011-ci ildə Kanadada Azərbaycan Tədqiqatlar İnstitutu (KATİ) təsis edilmişdir. Diasporla İş üzrə Dövlət Komitəsindən "AZƏRTAC"-a bildirmişlər ki, Kanadanın dünya şöhrətli Vaterloo Universitetinin bazasında fəaliyyət göstərən KATİ Azərbaycan üzrə tədqiqatlar sahəsində aparıcı elmi mərkəz olacaqdır.[13] KATİ-nin əsas hədəflərindən biri də Azərbaycan İnternet Ensiklopediyasını (ingilis dilində) yaratmaq və bu yolla ölkəmizin tarixi, coğrafiyası, ədəbiyyatı, cəmiyyəti, iqtisadiyyatı, diasporu və mədəni irsini tanıtmaq, elmi ictimaiyyət, hökumət və mətbuat işçiləri üçün yüksək səviyyəli konfrans, seminar və mühazirələr təşkil etməkdir.

---

[12] Kanadada birinci "Azərbaycan-Kanada" Elmi Konfransı keçirilib. **https://az.trend.az/azerbaijan/society**/1789485.html. 29 noyabr 2010 21:09 (UTC +04:00).12.02.2023.

[13] "Kanadada Azərbaycan Tədqiqatlar İnstitutu təsis edilmişdir". **https://azertag.az/xeber/**536009. 27.08.2011, 10:26. – 22.02.2023.

2020-ci ilin sentyabrında Kanadanın yerli “Omni Television” kanalında Azərbaycan dilində “EL TV təqdim edir” (“EL TV Presents”) proqramının yayımına başlanmışdır. Doğma dilimizdə yayımlanmağa başlayan bu proqrama rəhbərliyi Kanadada yaşayan həmvətənlimiz, tanınmış rejissor Elçin Muxtarov edir. O deyir ki, OMNİ TV-də Kanadadakı bir çox millətlərin dilində verilişlər yayımlanır. Proqramın 30 dəqiqə olmaqla bir neçə aydır yayımlanmağına baxmayaraq, bu ölkədə yaşayan həmvətənlərimiz arasında əlaqələndirici rolunu yaratmağa az da olsa nail ola bilib.[14] Ümumi götürdükdə Kanadada Diaspor təşkilatlarının sayı 19-dur. Onlar aşağıdakılardır.

1. Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyası. Ontario. İlham Axundov ilham.akhundov@uwaterloo.ca. +1 519 498 9735.
2. Kanada Azərbaycan Tədqiqatları İnstitutu. Ontario. (KATI) İlham Axundov ilham.akhundov@uwaterloo.ca +1 519 498 9735.
3. Qarabağ-Azərbaycan Dili Məktəbi. Ontario. Vüsalə Əhmədova karabak hazeriscool@gmail.com +1 613 355 9631
4. Azərbaycan Kanada Şurası. Ontario. Yaşar Muğan yashar3@yahoo.com +1 613 797 09 60
5. Kanada Azərbaycanlıları İncəsənət Cəmiyyəti. Ontario. Yusif Savalan, yusifsav@gmail.com +1 416 883 1311.
6. Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi “Vətən”. Ontario. Lalin Həsənova. lalin_hasanova@yahoo.com +1 416 827 6743.
7. Kanada Azərbaycanlıları Assosiasiyası. Ontario. Yaşar Bozkurt, Barış Bozkurt, info@canaz.ca, yashar.bozkurt1@gmail.com. +1 416 951 3324, barish 90@my.yorku.ca +1 416 951 3324.
8. Azərbaycan-Kanada Dostluq Assosiasiyası. Ontario. Esmira Əsədova, baku94@hotmail.com, +1 647 835 9646
9. HB (Heydərbaba) Media Group. Ontario. Ali Poorali, mediahb@yahoo.com, +1 416 897 7831
10. Toronto Azərbaycan Rəqsi. Ontario, Lalə Cavanşir, Səməd Purmusavi, ljavanshir@gmail.com, +1 647 818 8446.
11. Təbriz Azərbaycan Musiqi və Rəqs Ansamblı. Ontario. Şervin Şadpour, shervinshadpoor@yahoo.com, +1 647 890 4035.
12. Kanada Azərbaycan Türk Assosiasiyası. Ontario. Kəmalə Şiriyeva, k.shiriyeva@gmail.com, +1 519 694 7282
13. Kanadadakı Azərbaycan Qadınlarına Dəstək Mərkəzi. Ontario. Nazilə İsgəndərova azerwomensc@yahoo.ca, +1 647 712 7422.
14. Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti. Alberta. Elnar Məmmədli (Sədr), Səbinə İskəndərova (Təsisçi), elnarcan@gmail.com, +1 587 718 5627, isk_sabina@hotmail.com +1 403 708 2165
15. Edmonton Kanada-Azərbaycan Cəmiyyəti. Alberta. Surxay Musayev (Əvvəlki sədr), case.generalinquiry@gmail.com, +1 780 884 1273.

[14] “Kanadada Azərbaycan dilində yayımlanan yeganə telekanal fəaliyyətini genişləndirmək niyyətindədir”. **https://azertag.az/xeber/VIDEO-1401098** – 31.01.2020 [13:46].

16. Edmonton Azərbaycan Mədəniyyət Cəmiyyəti. Alberta. Fatimə Məmmədova, contact@azcse.com, +1 587 986 1122.

17. Kvebek Azərbaycanlıları Assosiasiyası. Quebec. Məsud Əliyev, alievbaku @hotmail.com, + 1 514 816 5996.

18 Vankuver Azərbaycanlıları Cəmiyyəti. British Columbia. Şücaət Qafarzadə, (Həmtəsisçi, icraçı direktor). Təranə Novruzova (sədr), gafarov2005@yahoo.com, +1 778 814 7017.

19 Azərbaycan Strateji Araşdırmalar Mərkəzi. British Columbia. Aslan Xalidi İsabəyli aslan.khalidi@gmail.com +1 604 396 400.[15]

***ABŞ və Kanadada Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinin bəzi cəhətləri***

Haşiyə olaraq Azərbaycan diasporunda lobbiçilik fəaliyyətini də qeyd etmək yerinə düşər. Ümumiyyətlə, diasporlar öz tarixi vətənlərinin mənafeyi uğrunda geniş təbliğatçılıq işi apararaq dövlətlərinin lobbisinin formalaşmasında “qızıl-açar” rolunu oynamaq və vasitəçi olmaq imkanlarına malikdirlər. Xüsusilə Qərb ölkələrində qanunvericilik tərəfindən təsdiq olunan və qəbul edilən lobbiçilik diasporlar üçün geniş imkanlar açır. Azərbaycan diasporunda lobbi siyasətinin formalaşmasında böyük rolu olan Ulu öndər Heydər Əliyevin neft siyasəti işgüzar adamların və siyasi dairələrin diqqətini Azərbaycana cəlb etmiş və bununla da lobbimizin yaranması istiqamətində böyük xidmət göstərmişdir.[16] Sözügedən istiqamətdə Heydər Əliyevin 2002-ci il iyulun 5-də imzaladığı “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb etməklə yanaşı lobbiçiliyin mütəşəkkil şəkildə təşkil olunmasında da mühüm rol oynamışdı.

Qeyd etməliyik ki, lobbi terminini yeri gəldi-gəlmədi işlətmək məqbul deyil və hətta yanlışdır. Məsələn, bu gün İtaliya, Böyük Britaniya, yaxud Almaniyada lobbi axtarmaq bir çox aspektlərdən məntiqsiz görünə bilər. Çünki, Avropa ölkələrinin dövlətçilik ənənələri, siyasi idarəetmə institutları, ondakı mövcud siyasi əxlaq və mədəniyyət, demokratik dəyərlər sistemi ABŞ-dakı analoji sistemlərdən fərqlidir. Bu da klassik lobbizm ənənələri baxımından məsələyə baxdıqda sözügedən Avropa dövlətlərində lobbizmlə məşğul olmaq həmin mövcud sistemlə əlaqədardır. ABŞ-da və Kanadada isə lobbiçiliklə məşğul olan iqtisadi qruplaşmalar və siyasi dairələr üçün bu cür maneələr sadəcə olaraq yoxdur. Hər şeydən əvvəl bu həmin ölkələrdə dövlətçilik, idarəetmə və siyasi hakimiyyət ənənələrinin təşəkkülü və formalaşması prosesinin spesifik sosial-siyasi və iqtisadi-ictimai şərtlər çərçivəsində baş verməsi ilə bağlıdır.[17] Ona görə də həmin ölkələrdə Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti ilə məşğul olması üçün həm bu ölkələrin qanunvericilik bazası, həm də soydaşlarımızın potensial qüvvəsi imkan verir.

---

[15] “Diaspor təşkilatları”. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident kitabxanası. **https://files.preslib.az/projects/diaspora/e1.pdf**. 12.01.2023.

[16] Zaur Əliyev. **Beynəlxalq münasibətlərdə diasporların rolu**. Bakı, “Nurlan”, 2001, s.5-6.

[17] **“Lexique de geographic humainct economique”**. Paris, 1996, s.134.

Bu gün biz görürük ki, ermənilərin kompakt yaşadıqları dünyanın bir çox ölkələrində, xüsusilə ABŞ və Kanada lobbiçiliyin təşkili məsələsində çox mütəşəkkil və peşəkardırlar. Onlar xaricdə yaşadıqları müddət ərzində həmin ölkənin siyasi sisteminə, siyasi proseslərinə qoşulub normal gücə çevrilə biliblər. Ancaq həqiqəti qeyd etmək lazımdır ki, son 10-15 il ərzində Azərbaycan diasporu da bir sıra mühüm addımlar atıb. Azərbaycan diasporunun inkişafı istiqamətində dövlət proqramı qəbul edilib, lakin diasporumuzun ən zəif tərəfi təşkilatlanmadır. Lazım olan anda siyasi proseslərə müdaxilə edib Azərbaycanın haqlı mövqeyini müdafiə etməkdə zəiflik göstərirlər. Bu da həmin ölkədə erməni lobbisinin güclənməsinə gətirib çıxarır. Erməni lobbisi açıq-aşkar Azərbaycan lobbisinin olmadığı və ya zəif olduğu ölkələrdə gedən prosesləri ələ alır və Azərbaycana qarşı asanlıqla qətnamələr qəbul edir, nümayişlər keçirirlər. Yaxşı olardı ki, xaricdə yaşayan həmvətənlərimiz, diasporumuz təşkilatlanma məsələlərində və siyasi proseslərdə iştirakda fəal olsunlar. Yaşadıqları ölkələrdə siyasi proseslərdə iştirak etməklə yanaşı, aparıcı qüvvələrə çevrilə bilsinlər, bu istiqamətdə israrlı addımlar atsınlar. Bu, Azərbaycanın xaricdə lobbiçiliyinin güclənməsinə gətirib çıxara biləcək.

Onu da qeyd etmək lazımdır ki, II Qarabağ müharibəsindən sonra Qərbin bir sıra ölkələrindəki aparıcı KİV-də Azərbaycana qarşı qara piar kampaniyası həyata keçirilir. Diasporumuzun, lobbimizin əsas funksiyalarından biri bundan ibarət olmalıdır ki, Qarabağla bağlı olan detallar, tarixi faktlar xarici ölkələrdə KİV-də, mədəniyyət tədbirlərində, yerli teleradiolarda ictimaiyyətin diqqətinə çatdırılsın. Broşurların, kitabların nəşr edilməsi ilə həmin ölkədə yaşayan insanlar artıq bilməlidirlər ki, Qarabağ Azərbaycanın hüquqi-tarixi torpağıdır, Azərbaycanın bir hissəsidir. Azərbaycanın bu gün həyata keçirdiyi sülh siyasəti, bölgədə yeni təhlükəsizlik arxitekturasının qurulması ilə bağlı dövlət siyasətinin bütün elementləri lobbimiz tərəfindən beynəlxalq ictimaiyyətə çatdırılmalı, təqlid edilməli, təşviqat işləri aparılmalıdır. Yaxın 5 ildə, ümumiyyətlə, strateji olaraq 10-20 il ərzində bu prosesləri idarə edib, yüksələn xətt üzrə irəliləyiş əldə edə bilsək, Azərbaycanın xarici siyasətində müəyyən məsələlərin müsbət həllinə nail ola bilərik.

Beləliklə, istər ABŞ-da yaradılan, istərsə də Kanadada mövcud olan bu cəmiyyətlərin qarşısında duran əsas vəzifələr ilk növbədə aşağıdakılardan ibarət olmalıdır. Birincisi, Azərbaycanı, onun tarixi və mədəniyyətini yaşadıqları ölkənin ictimai mühitinə tanıtmaq. İkincisi, qəzet, jurnal, kitab nəşr etmək, TV kanalları açaraq onları yayımlamaq və bununla yanaşı müxtəlif mədəni tədbirlər, toplantılar təşkil etmək. Üçüncüsü, Azərbaycanın haqlarını müxtəlif leqal yollarla müdafiə etmək və onu təhdid edən düşmən cərəyanlara qarşı mübarizə aparmaq.

***Diasporanın fəaliyyətində dövlətin rolu***

Bildiyimiz kimi, hələ 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciət ənənəsinin əsasını qoymuşdur. Həmin il dekabrın 28-də Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarına müraciət edərək onları bir daha azərbaycançılıq ideyaları uğrunda birliyə, tarixi Vətənin maraqlarının müdafiəsi işində fəal iştirak etməyə çağırmışdır. Sənəddə Heydər Əliyev soydaşlarımızı Azərbaycan dövlətinin maraqlarını inamla müdafiə etməyə çağırır, müstəqil respublikamızın tarixi maraqlarının qorunması işini bütün dünya azərbaycanlılarının

borcu kimi səciyyələndirirdi. 1996-cı ildən isə xaricdəki diaspor təşkilatının pərakəndəliyinin ortadan götürülməsi istiqamətində uğurlu addım atıldı. 1997-ci il iyunun 27-dən 29-dək ABŞ-da keçirilən Dünya Azərbaycanlılarının Konqresinin təsis toplantısı mühüm tarixi əhəmiyyətə malik idi. Konqresdə Şimali və Cənubi Azərbaycanın problemləri birgə müzakirə olundu. 660-dan çox nümayəndənin iştirakı ilə keçirilən konqres siyasi fəaliyyətin mühüm qolu olan lobbiçilik mexanizminin işlənib hazırlanmasını məqsəd kimi qarşıya qoydu. Konqresdə Əsas müzakirə olunan məsələlər bunlar idi: 1) Azərbaycan lobbisinin yaradılması təxirəsalınmaz vəzifə kimi nəzərə alınsın; 2)Azərbaycan diasporunun ABŞ siyasətinə təsir etmək gücünə malik iqtisadi bazası yaradılsın; 3) İranda – Cənubi Azərbaycanda yaşayan soydaşların haqları qorunsun.[18]

Bunun davamı olaraq Ümummilli lider Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 23 may 2001-ci ildə 724 saylı Sərəncam imzaladı.[19] Sərəncama uyğun olaraq, həmin il noyabrın 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. I Qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Tədbirdə Azərbaycan 130-dan çox dövlət və ictimai qurumdan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur. Qurultay dünya azərbaycanlılarının birliyinin yaranmasında mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisə kimi yaddaşlarda qalmışdır. Dünya Azərbaycanlılarının I Qurultayının qəbul etdiyi qətnamədə deyilirdi: "Azərbaycanlıların Müstəqil Azərbaycan dövləti ilə mədəni, ictimai, siyasi, iqtisadi və s. əlaqələri daha da gücləndirilsin və bu zaman nəzərə alınsın ki, Müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı, milli mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil respublikaya hər hansı formada – daxildən, yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir".[20] Qurultayda xaricdəki soydaşlarımızla sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli lider Heydər Əliyevə məxsus bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətlən-

---

[18] Zaur Əliyev. **Türkdilli xalqların diasporları.** Bakı, "Adiloğlu", 2009, s.47.
[19] "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan respublikası prezidentinin sərəncamı". **https://e-qanun.az/framework/3015.** 20.02.2023.
[20] Zaur Əliyev. **Türkdilli xalqların diasporları**. Bakı, "Adiloğlu", 2009, s.51.

dirməyə xidmət edirdi. Belə bir qurumun yaradılması ideyası ümummilli liderin 2002-ci il iyulun 5-də "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərmanı ilə reallaşmağa başladı.[21] Təbii ki, burada Prezident İlham Əliyevin 6 iyul 2018-ci il tarixli sərəncamı ilə "Azərbaycan Diasporuna Dəstək" Fondunun yaradılması da xüsusi qeyd edilməlidir. Fond diaspor siyasəti sahəsində daha mütəşəkkil və davamlı işlər görməyə imkan yaradır. Hal-hazırda da bu siyasət cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Göründüyü kimi, Azərbaycan diasporunun yaranmasında üç müxtəlif ölkənin vətəndaşı olan azərbaycanlılar – Şimali Azərbaycandan, Cənubi Azərbaycandan (İran) və Türkiyədən olan azərbaycanlı mühacir qrupları iştirak edirlər. Bu elementlər həmin sistemdə müəyyən mənada bərabər şəkildə və yanaşı mövcud olsalar da onların keyfiyyət göstəriciləri, diaspor olaraq təsir etmə gücü, potensialı, sözügedən sistemdəki xüsusi rolu, çəkisi və yeri də fərqli təsir bağışlayır. Azərbaycanlı mühacirlərin əsas miqrasiya mənbəyi olan həmin üç ölkə bir-birindən müəyyən qədər fərqlənən ictimai-siyasi, mədəni-mənəvi inkişaf səviyyəsinə, sosial-mədəni xüsusiyyətlərə malikdir. Bütün bunlar isə azərbaycanlıların nəinki mühacirət prosesinin özünə, eləcə də bugünkü Azərbaycan diasporunun bütün cəhətlərinə, xarakterik xüsusiyyətlərinə, onun keyfiyyətinə, məzmununa öz ciddi və dəyişdirici təsirlərini buraxmışdır.[22]

Bununla yanaşı, erməni diasporu tərəfindən uzun illər idi Qərb xalqları arasında Azərbaycan barəsində mənfi rəy formalaşdırılması istiqamətində planlı fəaliyyət mövcud idi. Ermənilərin Qarabağ münaqişəsi və qondarma "erməni soyqırımı" haqqındakı yalanları Qərb ölkələrində ictimai rəyə nüfuz etmişdi. Belə olan halda Azərbaycan xalqı və dövləti haqqında formalaşdırılmış mənfi rəyi aradan qaldırmaq məqsədi ilə diasporun planlı və əlaqəli şəkildə fəaliyyət göstərməsi zərurəti yaranırdı. Ulu Öndər Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə – 1991-ci ilin 16 dekabrında dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdi.[23] Həmin qərar bu gün bütün dünyada yaşayan soydaşlarımızın birliyi üçün mühüm əhəmiyyətə malik olmuş, birlik ideyasının reallaşması istiqamətində stimula çevrilmişdi.

Hazırda Amerika və Avropa dövlətlərində fəaliyyət göstərən diaspor komitələri geniş olmasa da aktiv mexanizmlərə malikdirlər. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub saxlayıb, tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da məhz bu amillə bağlıdır.

---

[21] Əliqismət Bədəlov. "Heydər Əliyev: Hər bir azərbaycanlı Azərbaycana ata ocağı kimi baxmalıdır". **"Xalq qəzeti".** 2014, 9 avqust. №169, s.6.

[22] **"Dirçəliş XXI əsr" jurnalı**. №8-9, 1999, s.10.

[23] "Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycanın müstəqil dövlətçiliyi baxımından tarixi hadisədir". 15.02.2023.

***Nəticə***

Aydın məsələdir ki, Azərbaycanın xaricdə tanınması, xaricdə yaşayan azərbaycanlıların bir araya gəlməsi, Azərbaycan həqiqətlərinin dünya ölkələrinə çatdırılması məqsədilə böyük işlər görülür. Azərbaycan diasporasının fəaliyyəti öncəki illərlə müqayisədə xeyli güclənib, amma bütün bunlar qaneedici deyil. Pərakəndəlik hələ də var və çalışmalar daha çox taktiki məsələlər və hadisələrə reaksiya formasında davam etdirilir. Ancaq uzun vədəli plan üzrə, şimallı-cənublu bütün azərbaycanlıları öz çətiri altına alan mütəşəkkil və monolit diasporanın yaranması ilə əlaqədar bir sıra problemlər var. Araşdırmalar göstərir ki, diasporamızın mütəşəkkil hala gəlməsini əngəlləyən ən ciddi maneələrdən birincisi İran molla rejimi və bu rejimin birbaşa, yaxud dolayısı ilə təsiri altında olan soydaşlarımızdır. İran molla rejimi həmin insanlara daima müxtəlif metodlarla təsir edir və Azərbaycan diasporunu parçalamağa çalışır. İkinci problem diaspora fəallarının lazımsız siyasiləşməsi, mövcud iqtidar-müxalifət mübahisələrinin diaspora təşkilatları səviyyəsinə çıxarılmasıdır. Aydın məsələdir ki, Azərbaycan demokratikləşmə yolu tutan ölkədir. Ona görə də iqtidar və müxalifətin olması təbiidir. Amma, hesab edirik ki, yaradılan diasporalar siyasiləşməkdən çəkinməli və onlar üçün sadəcə milli maraqlar üstün tutulmalıdır. Üçüncü problem isə lazımi maddi bazanın olmamasıdır. Xüsusilə, Azərbaycan diasporunun gənc diaspor olmasını və milli düşüncəli soydaşlarımızın burada yeni olduqlarına görə tam da oturuşmuş olmaması nəzərə alınarsa, bu problem başa düşüləndir. Bununla yanaşı, Azərbaycan diaspor təşkilatlarının, dərnəklər və cəmiyyətlərinin bir araya toplaşmaq üçün özünə aid bir mərkəzi – toplaşma yeri, televiziya və ya mətbuatı yoxdur. Pərakəndəliyin əsas səbəblərindən biri də diasporaya aid bir əlaqələndirici qərargahın olmamasıdır. Bu qərargah 5 qitədə yaradılmalı və mərkəz Bakı olmaqla idarə edilməlidir. İdarəetmə orqanları isə qarşılıqlı razılıq əsasında yaradılmalıdır. Azərbaycan dövləti isə bütün strukturları ilə birlikdə bu təşkilatlara daima kömək göstərməlidir. Belə olarsa pərakəndəlik halları xeyli aradan qalxmış olar. Digər tərəfdən informasiya kommunikasiya texnologiyalarının (İKT) ictimai həyata təsir imkanlarının yüksələn xətlə inkişafı da diaspor quruculuğu prosesində bu tarixi nailiyyətin daha geniş miqyasda tətbiqini zərurətə çevirir. Həmçinin, son vaxtlar türk dövlətləri arasındakı mövcud birliyin daha da möhkəmlənməsi türkdilli xalqların diaspor təşkilatları ilə əlaqələrin tez bir zamanda qurulmasını, birgə fəaliyyət strategiyasının qəbul edilməsini aktuallaşdırır. Sözsüz, bu sahədə də xeyli işlər görülməlidir.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. **“Azadlıq qəzeti**”, 10 oktyabr 1997.
2. Azərbaycan Diasporu: 2014. **http://diaspor.gov.az/upload** – 20220623053429, 2014. pdf s.232.endirmə tar. 25.03.23.
3. **“Azərbaycan diasporuna dövlət qayğısı”. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi**; ön sözün müəl. Nazim İbrahimov. II nəşr. Bakı: “Çaşıoğlu”, 2006, 304 s.

4. "Azərbaycan diasporunun Amerikada formalaşma tarixi". **"Olaylar" qəz.,** 2014, 28-29, may, s.15.
5. "Azərbaycandan kənarda yaşayan azərbaycanlıların sayı". **https://azerbaijan.az/related-information**/207. 02.02.2023.
6. Əliqismət Bədəlov. "Heydər Əliyev: Hər bir azərbaycanlı Azərbaycana ata ocağı kimi baxmalıdır". **"Xalq qəzeti".** 2014, 9 avqust. №169, s.6.
7. "Diaspor təşkilatları". Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident kitabxanası. **https://files.preslib.az/projects/diaspora/e1.pdf.** 12.01.2023.
8. "**Dirçəliş XXI əsr" jurnalı**. №8-9, 1999.
9. "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı". **https://e-qanun.az/framework/3015.** Endirmə tar. 20.02.23
10. İlham Əliyev. "Dünya Azərbaycanlılarının II qurultayında nitq". **Azərbaycan qəzeti,** 2006, 17 mart, №58.
11. Zaur Əliyev. **Beynəlxalq münasibətlərdə diasporların rolu.** Bakı, "Nurlan". 2001, 150 s.
12. Zaur Əliyev. **Türkdilli xalqların diasporları**. Bakı, "Adiloğlu", 2009, 296 s.
13. "Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycanın müstəqil dövlətçiliyi baxımından tarixi hadisədir". **https://www.azerbaijan-news.az/az/posts/detail**. 15.02.2023.
14. "Kanadada Azərbaycan dilində yayımlanan yeganə telekanal fəaliyyətini genişləndirmək niyyətindədir". **https://azertag.az/xeber/video-1401098**. 31.01.2020 [13:46]
15. "Kanadada Azərbaycan Tədqiqatlar İnstitutu təsis edilmişdir". **https://azertag.az/xeber/**536009, 27.08.2011, 10:26.
16. Kanadada birinci "Azərbaycan-Kanada" Elmi Konfransı keçirilib**. https://az.trend.az/azerbaijan/society/1789485.html.** 29 noyabr 2010 21:09 (UTC+04:00). Endirmə tar. 22.02.23.
17**.** Nəsiman Yaqublu. **Cümhuriyyət qurucuları**. **"**Nurlar" Nəşriyyat-Poliqrafiya mərkəzi. Bakı, 2018, 503 s.
18. **"Lexique de geographic humanists economique"**. Paris, 1996.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

İbrahimov Mahir Nadir oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan, Bakı.

Ibrahimov Mahir Nadir – doctor of Philosophy in history, associate professor. A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 152-167*

**UOT 94**

# MÜASİR ALMANİYANIN TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN VƏ STRATEGİYASININ İNKİŞAFI (1991-2016)

©2023

CAVİD MƏMMƏDLİ*

*Bakı Dövlət Universiteti
ORCİD: 0000-0002-9710-2569; e-mail: mmmdlicavid1@gmail.com
https://doi.org/10.59849/2523-4765.2023.2.152

***Xülasə:*** *Məqalədə 1991-2016-cı illərdə müasir Almaniyanın təhlükəsizlik siyasəti və strategiyasının inkişafı araşdırılır. Almaniyanın təhlükəsizlik siyasətinin inkişafı, onun əsas prioritetləri və istiqamətləri qlobal kontekstdə böyük əhəmiyyət kəsb edir. Almaniya Federativ Respublikasının təhlükəsizlik siyasəti yarım əsrdən çox xüsusi şəraitdə formalaşmışdır. İkinci Dünya müharibəsindən sonra Qərbi Almaniya qalib dövlətlərin – ABŞ, Böyük Britaniya və Fransanın təsiri altına düşdü. Almaniya onlarla müttəfiqlik əlaqələri qurdu, Şimali Atlantika Alyansına üzv oldu və eyni zamanda Avropaya inteqrasiyanın başlanğıcında dayandı. Soyuq müharibə illərində bu qurumlar Almaniyanın və ümumilikdə Avropanın təhlükəsizliyinin təmin edilməsində təsirli olduqlarını sübut etdilər.*

*Soyuq müharibədən sonra Almaniya, NATO və Aİ arasında münasibətlər müəyyən dəyişikliklərə məruz qaldı. Bunlara həm ümumən beynəlxalq münasibətlər sisteminin, həm də xüsusilə Almaniyanın təhlükəsizlik siyasətinin transformasiyası səbəb oldu. Bu transformasiya tamamlanmaqdan çox uzaqdır, lakin bu gün artıq aydındır ki, həm NATO, həm də Avropa İttifaqı Almaniyanın təhlükəsizlik siyasətində mühüm rol oynamaqda davam edir. Mənbə bazası, ilk növbədə, AFR-nin müasir təhlükəsizlik siyasətinin konseptual əsaslarıdır: Müdafiə siyasəti üzrə Direktivlər (1992, 2003 və 2011) və Almaniyanın təhlükəsizlik siyasəti və Bundesverin gələcəyinə dair Ağ kitab (1994, 2006 və 2016).*

***Açar sözlər:*** *Almaniya, Təhlükəsizlik Siyasəti və Konsepsiyası, Aİ, Strategiya, Avro-Atlantika, NATO*

# DEVELOPMENT OF MODERN GERMAN SECURITY POLICY AND STRATEGY (1991-2016)

©2023

JAVİD MAMMADLİ*

*Baku State University
ORCID: 0000-0002-9710-2569; e-mail: mmmdlicavid1@gmail.com

***Abstract:*** *The article examines the development of modern German security policy and strategy in 1991-2016. The development of Germany's security policy, its main priorities and directions are of great importance in the global context. The*

*security policy of the Federal Republic of Germany has been formed in special conditions for more than half a century. After the Second World War, West Germany fell under the influence of the victorious powers – the United States, Great Britain and France. Germany established alliances with them, became a member of the North Atlantic Alliance, and at the same time stood at the beginning of European integration. During the Cold War, these institutions proved to be effective in ensuring the security of Germany and Europe in general.*

*After the Cold War, relations between Germany, NATO and the EU underwent certain changes. These were caused by the transformation of the system of international relations in general and the security policy of Germany in particular. This transformation is far from complete, but today it is already clear that both NATO and the European Union continue to play an important role in Germany's security policy. The source base is primarily the conceptual foundations of the FRG's modern security policy: Directives on defense policy (1992, 2003 and 2011) and the White Paper on German security policy and the future of the Bundeswehr (1994, 2006, 2016).*

***Keywords:*** *Germany, Security Policy, EU, Strategy, Euro-Atlantic, NATO*

## РАЗРАБОТКА ПОЛИТИКИ И СТРАТЕГИИ БЕЗОПАСНОСТИ СОВРЕМЕННОЙ ГЕРМАНИИ (1991-2016)

©2023

ДЖАВИД МАМЕДЛИ*

*Бакинский Государственный Университет
ORCID: 0000-0002-9710-2569; e-mail: mmmdlicavid1@gmail.com

***Резюме:*** *В статье рассматривается развитие современной политики и стратегии безопасности Германии в 1991-2016 гг. Развитие политики безопасности Германии, ее основные приоритеты и направления имеют большое значение в глобальном контексте. Политика безопасности ФРГ формировалась в особых условиях более полувека. После Второй мировой войны Западная Германия попала под влияние держав-победительниц – США, Великобритании и Франции. Германия заключила с ними союзы, стала членом Североатлантического союза и одновременно стояла у истоков европейской интеграции. В годы холодной войны эти институты доказали свою эффективность в обеспечении безопасности Германии и Европы в целом.*

*После «холодной войны» отношения между Германией, НАТО и ЕС претерпели определенные изменения. Они были вызваны трансформацией системы международных отношений в целом и политики безопасности Германии в частности. Эта трансформация далека от завершения, но сегодня уже ясно, что и НАТО, и Европейский союз продолжают играть важную роль в политике безопасности Германии. Источниковой базой являются прежде всего концептуальные основы современной политики безопасности ФРГ: Директивы об оборонной политике (1992, 2003 и 2011 гг.)*

*и Белая книга о политике безопасности Германии и будущем бундесвера (1994, 2006, 2016 гг.).*

***Ключевые слова:*** *Германия, Политика безопасности, ЕС, Стратегия, Евроатлантика, НАТО*

***Giriş***

Soyuq müharibə dövründə Almaniyanın təhlükəsizlik siyasətinin əsas məqsədi Şərq-Qərb bloku arasındakı mübarizədə öz təhlükəsizliyini və qismən də olsa Avropa təhlükəsizliyinin formalaşmasında iştirak etmək və onu qorumaq idi, lakin XX əsrin 90-cı illərindən başlayaraq Soyuq müharibənin başa çatması, Almaniyanın birləşməsi Avropada sosialist düşərgəsinin və SSRİ-nin süqutu Almaniyaya yeni yaranmış dünya nizamında öz yerini tutmağa imkan verdi. Almaniya Avro-Atlantika regionunun təhlükəsizliyinin iştirakında və ya onun sərhədlərindən kənarda, dünyanın ayrı-ayrı regionlarında münaqişələrin həlli və sülhün qorunmasında ABŞ və digər transatlantik tərəfdaşları ilə birlikdə aktiv şəkildə iştirak etməyə başladı. Təbii ki, bu proseslər çərçivəsində Almaniya xarici siyasətində Qərb və Avro-Atlantika istiqamətindən başqa, Şərqi Avropa və xüsusilə Rusiya ilə əlaqələr Almaniya xarici siyasətinin ən önəmli istiqamətlərindən biridir. Məhz bu kontekstdə Almaniya özünün təhlükəsizlik konsepsiyalarını və təhlükəsizlik sənədlərini öz maraqları çərçivəsində müxtəlif illərdə işləyib hazırladı.

***90-cı illərdə təhlükəsizlik strategiyasının inkişafı***

Blok qarşıdurması başa çatdıqdan sonra AFR 665 minlik ordunun sahibi olaraq qaldı. Buna görə də, artıq 1991-ci ildə ölkənin qalib dövlətlərlə birləşməsi zamanı əldə edilmiş razılaşmaların şərtlərinə əsasən, AFR rəhbərliyi silahlı qüvvələrin sayını 1994-cü ildə 370 min nəfərə qədər azaltmaq qərarına gəldi. Bundan əlavə, 10 min ədədə qədər müxtəlif hərbi texnikanın məhv edilməsi nəzərdə tutulurdu. Bundesverin islahatı, onun yeni şəraitə uyğunlaşması Almaniyanın NATO üzvü və "Vahid Avropa" quruculuğunun iştirakçısı kimi roluna zidd olmamalıdır. 1991-ci ilin noyabrında Romada NATO-nun müdafiə nazirləri Soyuq müharibə başa çatdıqdan sonra Alyansın məqsəd və vəzifələrini nəzərdən keçirdilər. 1991-ci il dekabrın sonunda Bundesverin Ali Baş Komandanı Klaus Naumann "***Naumann doktrinası***" adlanan "***Hərbi-siyasi və hərbi-strateji əsaslar və Bundesverin yenidən təşkilinin konseptual əsas istiqaməti***" sənədini Almaniya Federativ Respublikasının müdafiə naziri Gerhard Ştoltenberqə təqdim etdi. Konstitusiya normalarından fərqli olaraq, "Naumann doktrinası" Bundesverin yalnız NATO əməliyyatları çərçivəsində və BMT-nin sülhməramlı əməliyyatlarında hərbi münaqişələrdə iştirakına imkan verirdi.[1] Bu müddəalar həm Almaniyada, həm də xaricdə müzakirələrə səbəb oldu. "Naumann doktrinası"nın tənqidçiləri AFR-nin hərbi rəhbərliyini dövləti hərbiləşdirməkdə ittiham edirdilər.

---

[1] Uwe Schmalz. **Deutschlands europäisierte Außenpolitik. Kontinuität und Wandel deutscher Konzepte zur EPZ und GASP.** Wiesbaden: Verlag für Sozialwissenschaften Springer Fachmedien Wiesbaden GmbH, 2004, 616 s.

Onların fikrincə, doktrina Almaniyanın təkcə Avropanın iqtisadi nəhəngi deyil, həm də "hərbi-iqtisadi canavar" olmağa can atdığı təəssüratını yarada bilər.[2] Bundan əlavə, doktrinanın ilkin formada qəbulu Almaniyanı Fransa ilə münasibətlərin kəskinləşməsi ilə də təhdid edərdi. Buna görə də, 1992-ci ilin noyabrında, Nauman Doktrinasının meydana çıxmasından bir il sonra AFR-nin yeni Müdafiə Naziri Volker Ruye Müdafiə Siyasəti Direktivləri ***(Verteidigungspolitische Richtlinien)*** adlı sənəd təqdim etdi. V.Ruye AFR-nin yeni hərbi strategiyasının zəruriliyini onunla əsaslandırırdı ki:

*- Almaniya artıq "plasdarm ölkə" deyil, əksinə, dost və müttəfiq dövlətlərlə həmsərhəddir*

*- Almaniya artıq nə mümkün strateji hücum zərbəsi zonasındadır, nə də qismən işğal olunmuş dövlətdir;*

*Eyni zamanda, həm Avropada, həm də onun hüdudlarından kənarda yeni münaqişələrin yaranması ilə bağlı təhlükə artır. Bu münaqişələr Almaniyanın təhlükəsizliyinə təhdid yaradır. F.Ruyenin konsepsiyası Almaniya Federativ Respublikasının*

*- Avropada və bütövlükdə dünyada demokratikləşmənin və sosial-iqtisadi transformasiyaların təşviqi*

*- Azad dünya ticarətini dəstəkləmək və qorumaq və qlobal miqyasda bazarlara və xammala maneəsiz çıxışı təşviq etmək kimi problemlərin həllində öz rolunu oynamalı olduğunu nəzərdə tuturdu .*

Transformasiya prosesi təhlükəsizlik sahəsində əsas konseptual sənədlərdə: "Müdafiə Siyasəti üzrə Direktivlər"də və "Təhlükəsizlik Siyasəti və Bundesverin Gələcəyinə dair Ağ Kitab"da birləşdirilmişdir. Məhz onlarda AFR-nin əsas məqsədləri, vəzifələri və maraqları açıqlanır.[3] İlk Direktivlər 1992-ci ildə nəşr edilmişdir. Sənəddə Almaniyanın təhlükəsizlik siyasətində fundamental inqilab – "cəbhə xəttində dövlət" statusunun itirilməsi öz əksini tapdı. Həmin sənəddə həm ilkin (birbaşa), həm də ikinci dərəcəli (dolayı) təhlükələr nəzərə alınmağa başlandı. Birbaşa təhdidlər AFR-nin təhlükəsizlik sahəsində həyati maraqlarına toxundu, dolayı təhdidlər isə təkcə bir dövlətin deyil, bütövlükdə bütün beynəlxalq sistemin sabitliyinə xələl gətirdi. Hətta o zaman böhranların (dolayı təhdidlərin) həlli vəzifəsi qoyulmuşdu və bu, nəhayət, 2000-ci illərin sənədlərində təsbit edildi. Maraqlardan biri də Avropa və Şimali Amerika arasında "Bərabərlərin tərəfdaşlığı" idi ki, bu da ABŞ-ın Avropa proseslərində iştirakında və onların Avropada birbaşa hərbi mövcudluğunu saxlamaqda ifadə olunurdu. Transatlantik əlaqələr Almaniyanın təhlükəsizlik siyasətinin sütunu olaraq qaldı.[4]

---

[2] **Германия. Вызовы XXI века.** Под редакцией В.Б.Белова, Институт Европы РАН, Филиал Фонда им. Ф.Эберта в РФ. Москва: Издательство «Весь мир», 2009, 788 с.

[3] Андрей Русакович, В. Общая внешняя политика и политика безопасности Европейского Союза: становление и особенности. Сборник материалов международной конференции **«Европейский Союз и Республика Беларусь»: перспективы сотрудничества.** Минск: Изд. Центр БГУ, 2014, с.21-27.

[4] Николай Валентинович Павлов. **Внешняя политика ФРГ в постбиполярном мире.** Наука, 2005, 410 с.

Bu "direktivlər" 1985-ci ildən bəri ilk sənəddir ki, məxfiləşdirilməmiş və rəsmi olaraq ictimaiyyətə açıqlanmışdır. O, AFR-nin hərbi siyasətinə dair 1994-cü ilin *"Ağ kitab"ı* və həmin ildə imzalanmış *"Silahlı Qüvvələrin inkişafı üzrə Federal Konsepsiya*" kimi fundamental sənədlərin əsasını qoydu. Yuxarıda göstərilən sənədlərin əsas müddəaları AFR-nin milli müdafiə maraqlarının və prioritetlərinin, o cümlədən Avropanın hərbi-siyasi inteqrasiyası ilə bağlı olanların müəyyən edilməsi kimi qəbul edilməlidir.[5] Bu sənədlərdə:

*- Almaniyanın və onun əhalisinin xarici təhlükələrdən və siyasi şantajdan qorunması;*

*- Almaniya Federativ Respublikasının bütövlüyünə və sabitliyinə təsir edə biləcək böhranların və münaqişələrin qarşısının alınması, qarşısının alınması və aradan qaldırılması;*

*- Almaniya nüvə silahı olmayan, kontinental dövlət olduğu üçün nüvə və dəniz gücləri ilə NATO-nun müttəfiqlik əlaqələrini saxlamaq kimi vəzifələr qeyd olunub.*

V.Ruye təkcə AFR-nin hərbi təhlükəsizliyi probleminə deyil, həm də xarici təhlükələr qarşısında müttəfiqlərin müdafiəsinə xüsusi diqqət yetirirdi. F.Ruyenin direktivlərində silahlı qüvvələr təhlükəsizlik siyasətinin əvəzedilməz aləti kimi baxırdı ki, bu da müttəfiqlərlə birlikdə təcavüzə müqavimət göstərməyə imkan verirdi. AFR-in *"Müdafiə Siyasəti Direktivləri" də* alman silahlı qüvvələrinin AFR hüdudlarından kənarda həyata keçirilən əməliyyatlarda iştiraka hazır olması nəzərdə tutulurdu. Söhbət ilk növbədə BMT və QAİ çərçivəsində sülhməramlı əməliyyatlardan gedirdi, sonradan bu siyahıya NATO çərçivəsində aparılan əməliyyatlar da əlavə olundu. Ruye direktivlərində adı çəkilən AFR üçün təhlükəsizlik təhdidlərinin siyahısı NATO-nun 1991-ci il strateji konsepsiyasına əlavədə təqdim olunan təhdidlərə tam uyğun gəlirdi. Həmin konsepsiyada "Şərq" birmənalı qarşılanmırdı. Bir tərəfdən, Rusiya və postsovet məkanının digər dövlətləri iqtisadi və siyasi qeyri-sabitlik zonası hesab olunurdu. Eyni zamanda, bu dövlətlər Avropada təhlükəsizliyin təmin edilməsində potensial tərəfdaşlar kimi görünürdülər. 1994-cü ildə NATO keçmiş Varşava Müqaviləsi dövlətləri ilə əməkdaşlığı ehtiva edən *"Sülh Naminə Tərəfdaşlıq"* proqramını təqdim etdi. 1994-cü ilin yazında Almaniya Müdafiə Nazirliyi başqa bir sənəd – "*Təhlükəsizlik və Müdafiə üzrə Ağ Kitab"* hazırladı. Orada 1992-ci il "Direktivləri"nin bir sıra müddəaları daha ətraflı işıqlandırılmışdır. 1992-ci il "Direktivləri" də müəyyən olunmuş kollektiv böhran idarəçiliyi prinsipinə əsaslanaraq, "Ağ Kitab"ın tərtibçiləri BMT, ATƏT, NATO, QAİ kimi təşkilatların fəaliyyətləri çərçivəsində Almaniyanın qanuni beynəlxalq hüquqi mandat əsasında digər ölkələrdəki münaqişələrə və böhranlara müdaxiləsinə imkan verdilər.[6] Bundesver münaqişələrin həlli üçün NATO-nun müttəfiq missiyalarına dəstəkdə iştirak edə bilərdi. *"Ağ Kitab"* da Bundesverin *"Almaniyanı və vətəndaşlarını xarici təhlükədən və siyasi şantajdan qorumaq, hərbi sabitliyin və Avropa inteqrasiyanın möhkəmləndirilməsi, Almaniyanın və onun müttəfiqlərinin müdafiəsi, BMT Nizam-*

---

[5] Chiari Bernhard und. Pahl, Magnus. **Auslandseinsätze der Bundeswehr.** Ferdinand Schöningh, 2010, 324 s.

[6] Marco Overhaus. **Die deutsche NATO-Politik**: vom Ende des Kalten Krieges bis zum Kampf gegen den Terrorismus. Marco Overhaus. Baden-Baden: Nomos, 2009, 93 s.

*naməsinə uyğun olaraq sülhün və beynəlxalq təhlükəsizliyin qorunması, fəlakətlərin idarə edilməsi, insanların həyatını xilas etmək və humanitar fəaliyyətə dəstək, zorakılığın və ya müharibənin qarşısını alan, məhdudlaşdıran və ya dayandıran hərbi vasitələrdən istifadə* kimi məsələlər öz əksini tapmışdır. *Həmçinin, Bundesver Avropaya inteqrasiyanı təşviq etməli, Avropanın "yeni" demokratiyaları ilə dialoqu inkişaf etdirməli və silahlı qüvvələrinin hazırlanmasında onlara kömək etməli idi.*[7] Bundesverin yenidən qurulması çərçivəsində 1996-cı ilə qədər 50 min nəfərlik *böhrana cavab qüvvələrinin* yaradılması planlaşdırılırdı. Bu qüvvələrə təkcə quru bölmələri deyil, həm də Müttəfiqlərin əməliyyatlarına havadan dəstək üçün Hərbi Hava Qüvvələrinin hissələri, o cümlədən onların nüvə silahından istifadə halları daxil olmalı idi. Bu, əhəmiyyətli maliyyə subsidiyalarını əhatə edirdi. 1990-cı ilin payızından başlayaraq, 1996-cı ilin payızına qədər Bundesverin islahatına təxminən 128 milyard alman markası xərcləndi. Bu məbləğə Patriot sistemlərinin, dəniz freqatlarının, taktiki hava hücumundan müdafiə sistemlərinin, tankların və özüyeriyən silahların alınması daxildir. Artilleriya, tank, kimyəvi silah detektorları, mina istehsalı, sualtı qayıqlar kimi sənaye sahələrində Bundesver və Almaniya hərbi sənaye kompleksi dünyada aparıcı yerlərdən birini tutmuşdur.[8]

İki il yarım ərzində Bundesverdə islahatların birinci mərhələsi başa çatdı və bundan sonra Bonn Almaniyanın böhrana cavab qüvvələrinin NATO-nun Bosniya və Herseqovinadakı əməliyyatlarında iştirakına yaşıl işıq yandırdı. 90-cı illərin ortalarından etibarən H.Kol hökumətinin xarici siyasət imkanları tədricən hərbi alətlərlə tamamlandı. 1991-ci ildən Bundesver bir sıra humanitar tədbirlərdə iştirak etməyə başladı. Sarayevoya yüklərin daşınması, BMT-nin sülhməramlı qüvvələrinə dəstək, humanitar təşkilatlara yardım, Şərqi Bosniyaya humanitar yardımın havadan çatdırılması həyata keçirildi. 1993-cü ilin martında Karlsruedəki Almaniya Konstitusiya Məhkəməsi Bundesverin Bosniya və Herseqovina üzərində uçuşa qadağan zonasına nəzarət əməliyyatında iştirakının lehinə qərar verdi. Yeni alman təhlükəsizlik konsepsiyasının formalaşdırılması Almaniya Federativ Respublikasının Əsas Qanununa müvafiq dəyişikliklərin edilməsi üçün ilkin şərtlər yaratdı.[9] 1994-cü il iyulun 12-də Almaniya Federativ Respublikasının Konstitusiya Məhkəməsi Əsas Qanunun 24-cü fəslinə Bundesverin xaricdə hərbi əməliyyatlarda iştirakını qadağan edən 1982-ci il düzəlişini ləğv etmək barədə qərar qəbul etdi. Konstitusiya Məhkəməsinin qərarı Almaniyanın BMT-nin icazəsi ilə həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakına dair hər hansı "Konstitusiya etirazlarını" aradan qaldırdı. Məhkəmə qərara aldı ki, Əsas Qanun Bundesverin kollektiv

---

[7] Schmalz Uwe. **Deutschlands europäisierte Außenpolitik. Kontinuität und Wandel deutscher Konzepte zur EPZ und GASP / Uwe Schmalz**. Wiesbaden: Verlag für Sozialwissenschaften Springer Fachmedien Wiesbaden GmbH, 2004.

[8] Олег Юрьевич Семенов. Эволюция оборонной политики ФРГ и проблема безопасности в конце XX – начале XXI века**. Вестник Нижегородского Университета им. Н.И.Лобачевского.** 2008, №1, с.185-189.

[9] Alister Miskimmon. **Germany and the Common Foreign and Security Policy of the European Union: Between Europeanisation and National** Adaptation (New Perspectives in German Studies). Alister Miskimmon. Basingstoke: Palgrave Macmillan, 2007, 265 p.

təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərdə, o cümlədən NATO və AB-nin sülhməramlı missiyalarında iştirakına icazə verir. Konstitusiya Məhkəməsinin hökmü Almaniya hökumətinə, yalnız BMT Təhlükəsizlik Şurasının mandatı əsasında, Bundestaqın sadə səs çoxluğunun təsdiqi ilə, Bundesverin bəzi hissələrini müxtəlif beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak etmək üçün xarici ölkələrə göndərməyə icazə verdi. NATO-nun ənənəvi əməliyyat məsuliyyəti.[10]

Vahid Almaniyanın ilk "*Ağ Kitabı*" 1994-cü ildə nəşr olundu. O dövrdə Almaniyanın xarici və təhlükəsizlik siyasətinin əsas maraqları bunlar idi:

*1. "Almaniya vətəndaşlarının azadlığının, təhlükəsizliyinin və ümumi mənafeyinin və ölkənin ərazi bütövlüyünün qorunması;*

*2. Avropa İttifaqı çərçivəsində Avropa demokratiyaları ilə inteqrasiya, çünki Avropada demokratiya, qanunun aliliyi və rifah Almaniya üçün sülh və təhlükəsizlik deməkdir;*

*3. Amerikanın potensialı beynəlxalq sabitlik üçün əvəzolunmaz olduğu üçün böyük güclə – ABŞ-la ümumi dəyərlərə və maraqlara əsaslanan güclü transatlantik ittifaq;*

*4. Şərq ölkələrinin bərabərlik və tərəfdaşlıq əsasında Qərb strukturlarına daxil edilməsi və bütün Avropa dövlətlərini əhatə edən yeni birgə təhlükəsizlik nizamının formalaşdırılması;*

*5. Beynəlxalq hüquqa, insan hüquqlarına və bazar iqtisadiyyatı qanunlarına əsaslanan ədalətli iqtisadi nizama əməl olunması, çünki ayrı-ayrı dövlətin təhlükəsizliyi yalnız sülhə, qanuna və firavanlığa əsaslanan qlobal təhlükəsizlik sistemində təmin edilir.*

Almaniyanın təhlükəsizlik siyasətinin ayrı bir istiqaməti, eləcə də mərkəzi vəzifələrindən biri Rusiya ilə əməkdaşlıq və tərəfdaşlıq idi. Bundan əlavə, Şərqi Avropa ölkələrinə münasibətdə ayrıca yanaşmanın işlənib hazırlanması lazım idi, çünki keçmiş SSRİ-nin zəmanət verdiyi təhlükəsizlik yerində həm bu ölkələrin, həm də qonşu dövlətlərin maraqlarına cavab verməyən boşluq yaranmışdı. Bundesverə gəlincə, o da dəyişikliklərə məruz qalmalı idi. N.K.Meden qeyd etdi ki, "NATO-nun müdafiəsinin önündə yerləşən ordudan Bundesver beynəlxalq hərbi əməliyyatlarda iştirak etmək üçün yenidən təşkil edilərək yeni hərbi doktrinaların tam hüquqlu və bacarıqlı icraçısına çevrilməli idi". Bu, hökumətin mötədil siyasi kurs tutduğu və artıq mövcud olan təhlükəsizlik strukturlarında fəaliyyətini davam etdirmək əzmində olduğu vahid Almaniyanın xarici siyasətinin formalaşmasının ilk mərhələsi idi.

1998-ci ildə G.Şröderin rəhbərlik etdiyi "qırmızı-yaşıl" koalisiyanın hakimiyyətə gəlməsi ilə R.Şarpinq yeni müdafiə naziri oldu. O, "*Almaniya təhlükəsizlik siyasətinin əsas istiqamətləri*" adlı məruzə hazırladı və bu hesabatda H.Kol hökumətini Bundesverin islahatlarına kifayət qədər diqqət yetirmədiyinə görə tənqid etdi.[11]

---

[10] **Современная Германия. Экономика и политика: [монография].** Под общ. ред. В.Б.Белова; Федеральное гос. Бюдж. Учреждение науки Ин-т Европы Российской акад. наук. Москва: Издательство «Весь мир», ИЕ РАН, 2015, 720 с.

[11] Meier-Walser, Reinhard C. (Hrsg). **Gemeinsam sicher? Vision und Realität europäischer Sicherheitspolitik**. Neuried: Hans Seidel Stiftung, 2004, 280 s.

O, Almaniyanın təhlükəsizlik siyasətinin beş məqsəd və maraqlarını təqdim etdi:

*1. Alman təhlükəsizliyi;*

*2. Transatlantik əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi;*

*3. Avropa inteqrasiyasının dərinləşdirilməsi və genişləndirilməsi;*

*4. Avropa təhlükəsizlik sisteminin yaradılması məqsədilə ATƏT-in gücləndirilməsi;*

*5. BMT-nin rolunun gücləndirilməsi.*

Beləliklə, əsrin əvvəlində Almaniya hökumətinin əsas məqsədi – əsas beynəlxalq qurumlarla bütün istiqamətlərdə əməkdaşlıq etməklə, təhlükəsizlik siyasətini yenidən formalaşdırmaq və ölkənin silahlı qüvvələrini müasirləşdirmək idi.

***XX əsrin əvvəllərində Almaniyanın təhlükəsizlik strategiyasının inkişafı***

Yeni əsrin əvvəlində Almaniyada təhlükəsizlik siyasətinin transformasiyasını birləşdirən bir sıra mühüm sənədlər qeyd etmək lazımdır: 2003-cü il “Müdafiə Siyasəti Direktivləri”, 2004-cü il “Bundesver Konsepsiyası”, 2006-cı il “Alman Təhlükəsizlik Siyasəti və Bundesverin Gələcəyinə dair Ağ Kitab”, 2011-ci il “Müdafiə Siyasəti”, 2013-cü il “Bundesver Konsepsiyası”, 2016-cı il “Alman Təhlükəsizlik Siyasəti və Bundesverin Gələcəyinə dair Ağ Kitab”.

2004-cü il “Bundesver Konsepsiyası” da, 2003-cü ilin “Müdafiə Siyasəti Direktivləri” də olduğu kimi, böhranların həlli vəzifəsi ön plana çəkildi. “Direktivlər”də təhlükəsizlik siyasətinə “hərbi problemlərin həlli üçün müvafiq alətlər və metodların tam spektrini daxil idi”.[12] “Almaniya təhlükəsizlik siyasətinin prinsipləri və maraqları” bölməsində Aİ-nin təhlükəsizlik və müdafiə siyasətini gücləndirməklə Avropada sabitlik zonasını genişləndirmək niyyəti açıqlandı.[13] *“Bundesver Konsepsiyasında”* təhlükəsizlik sahəsində çoxtərəfli əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verilmiş və bu, sonradan 2006-cı il *“Ağ Kitab”a* daxil edilmişdir. Hər üç sənəddə Almaniyanın fəal şəkildə qarşılıqlı əlaqədə olduğu əsas strukturlar: BMT, NATO, Aİ və ATƏT qeyd edilib və “bu institutların gücləndirilməsinin Almaniyanın xarici siyasətinin əsas məqsədi olduğu” vurğulandı. 2004-cü ildə Bundesver Konsepsiyası qəbul edildikdən sonra Alman hərbi qüvvələri çevik reaksiya qüvvələri, sabitləşdirmə qüvvələri və dəstək qüvvələrinə bölündü. Yenidən silahlanma var idi və bu sahədə AFR eyni vaxtda bir neçə funksiyanı yerinə yetirə bilən yüksək texnologiyalı silah növlərinin hazırlanması üçün dövlətlərarası layihələrə arxalanırdı.

2006-cı il üçün Almaniyanın təhlükəsizlik siyasətinin əsas məqsədi ilk növbədə Avropada böhranların qarşısını almaq idi. Almaniya qitənin əsas aktorlarından

---

[12] **Grundzüge der Konzeption der Bundeswehr**, 2004. Bundesministerium der Verteidigung (Hrsg.). Berlin, 2004, s.8.

[13] Annegret Bendiek. **EU Foreign Policy Perspectives.** A.Bendiek. SWP Comments 20. Stiftung Wissenschaft und Politik. October 2008 [Электронный ресурс]. URL: https://www.swp-berlin.org/fileadmin/contents/products/comments/2008C20_bdk_ks.pdf (дата обращения: 14.03.2017).

biri kimi Avropa nizamına mühüm töhfə vermək istəyirdi. Alman maraqlarının siyahısına həmçinin:

• *"Demokratik dəyərlərin və Alman vətəndaşlarının təhlükəsizliyinin və dövlət suverenliyinin qorunması;*

• *Almaniyanın təhlükəsizliyinə təsir edə biləcək regional böhranların və münaqişələrin qarşısının alınması;*

• *Qlobal təhlükələrə qarşı mübarizə (beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılması);*

• *Beynəlxalq hüquqa əsaslanan insan hüquqlarının qorunması və beynəlxalq nizamın möhkəmləndirilməsi;*

• *Azad ticarətin təşviqi, varlılar və kasıblar arasındakı uçurumu aradan qaldırmaq"daxil idi.*[14]

Qlobal təhlükəsizlik məsələsində ən mühüm aspektlər kimi 2006-cı ilin Ağ Kitabında qloballaşmanın nəticələri, terrorizm, regional münaqişələr, qeyri-qanuni silah ticarəti, azad ticarətə təhlükə, enerji təhlükəsizliyi, epidemiyalar və miqrasiya. Bu sənəddə, əvvəlki sənədlərdə olduğu kimi, Almaniyanın təhlükəsizlik siyasətində NATO-nun xüsusi rolu vurğulanırdı: "Transatlantik tərəfdaşlıq Almaniya və Avropanın ümumi təhlükəsizliyinin təməli olaraq qalır. Bu, Şimali Atlantika Alyansının əsasını təşkil edir ki, bu da öz növbəsində Almaniyanın təhlükəsizlik və müdafiə siyasətinin təməl daşıdır. Almaniya üçün onun NATO-dakı siyasi çəkisi nüvə məsələsinə görə həmişə böyük əhəmiyyət kəsb edib. Onun "ağrılı" məqamı hələ də nüvə silahlarına qadağa qoyulmasıdır, ona görə də o, Alyans üzvlərinin nüvə silahlarına nəzarət etməyə çalışır, baxmayaraq ki, eyni zamanda onların ixtisarının təşəbbüskarıdır. Bütün sənədlərdə qeyd olunurdu ki, Almaniyanın təhlükəsizlik siyasətinin məqsədlərinə çatmaq üçün əsas vasitə transatlantik əlaqələrin qurulması və inkişafıdır. Bununla belə, 2006-cı ilin Ağ Kitabında Avropa istiqaməti çərçivəsində təhlükəsizlik siyasətinin formalaşdırılması da əsas məsələ kimi qeyd olunub. Bu sahədə əsas vəzifə "Avropa inteqrasiyasının genişləndirilməsi yolu ilə Avropa ərazisində sabitliyin möhkəmləndirilməsi" idi.[15] Lakin alman tədqiqatçısı S.B.Qaraisin fikrincə, o zaman federal hökumət soyuq müharibədən sonra AFR-nin təhlükəsizlik və müdafiə siyasəti sahəsində strategiyası ilə bağlı konsensus formalaşdırmırdı. "Bunu etmək cəhdləri 1992-ci ilin ilk" Direktivləri idi, lakin iki "Ağ Sənəd"in nəşrindən sonra da "maraqlar qeyri-müəyyən olaraq qaldı".[16] Bunun səbəbi, 2006-cı ilə qədər Almaniyanın təhlükəsizlik siyasətinin transformasiyası hələ də davam edirdi. AFR-nin təhlükəsizliyinin təmin edilməsində Bundesverin rolu tədricən dəyişdi. Əgər 2006-cı il "Ağ Kitab" da Bundesver xarici siyasət alətlərindən biri kimi göstərilirdisə, 2011-ci ilin "Direktivləri" də o əvəzedilməz alət adlandırılırdı. 2013-cü ildə Bundesver Konsepsiyasını təhlil edərkən N.K.Meden qeyd

[14] **Weißbuch zur Sicherheitspolitik Deutschlands und zur Zukunft der Bundeswehr**, 2006, s.24.

[15] Böckenförde, S. Gareis, Sven B. **Deutsche Sicherheitspolitik. Herausforderungen, Akteure und Prozesse**. Opladen, Toronto: Verlag Barbara Budrich, 2014, 444 s.

[16] Gareis, Sven B. Kapitel. **Die Organisation deutscher Sicherheitspolitik. Deutsche Sicherheitspolitik. Herausforderungen, Akteure und Prozesse.** Sven B. Gareis, S.Böckenförde (Hrsg.), s.109.

etdi ki, "NATO və Aİ-nin Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti çərçivəsində çoxtərəfli öhdəliklərin yerinə yetirilməsi Bundesverin əsas məqsədi kimi şərh olunur".

2011-ci il "*Müdafiə Siyasəti Direktivləri*" Alman təhlükəsizlik siyasətinin aşağıdakı məqsədlərini açıqlayır:

• *Almaniya vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi;*

• *Almaniyanın və onun müttəfiqlərinin ərazi bütövlüyü və suverenliyinin qorunması;*

• *Beynəlxalq məsuliyyət götürmək".*[17]

2015-ci ildə K.Adenauer Fondunun tədqiqatçıları 2016-cı ildə yeni "Ağ Kitab"ın məzmununu proqnozlaşdırdılar və onların əvvəlki sənədin əsas müddəalarının ümumilikdə dəyişməz qalacağına dair əsas tezisi təsdiqləndi. Yeni sənəddə Almaniyanın təhlükəsizlik institutlarında iştirakının rolu, eləcə də geniş ikitərəfli və çoxtərəfli əlaqələr şəbəkəsi vurğulanır. Almaniya əvvəlki kimi özünü Avropanın əsas oyunçusu hesab edir. "*Almaniyanın Strateji Prioritetləri*" başlığı altındakı bölmdə bu prioritetlərin əsas dəyər və maraqlara söykəndiyi bildirilir. Bu bölmədə Almaniya dövlətinin bütövlükdə təhlükəsizlik məsələsinə necə baxdığını təsvir edən *boz zonanın* tərifinə rast gəlirik. Buna uyğun olaraq artıq daxili və xarici təhlükəsizliyi kəskin xətlərlə ayırmaq mümkün deyil və adətən bu ikisinin ortasında yerləşən boz sahədə problemlər yaranır. Bu səbəbdən hökumətin təhlükəsizlik məsələsinə konkret olaraq deyil, hərtərəfli yanaşması vacibdir. Bu kompleks yanaşma yalnız Almaniya vətəndaşlarının daxildə təhlükəsizlik problemlərini həll etməklə deyil, həm də xaricdə Almaniya vətəndaşlarının təhlükəsizliyini təmin etməkdən ibarətdir. Bu səbəbdən Almaniyanın genişlənən təhlükə dövriyyəsinin öhdəsindən gəlmək üçün NATO və Aİ ilə əməkdaşlığına xüsusi önəm verilir. Alman Təhlükəsizlik Siyasətinin Əsas Fəaliyyət Sahələri bölməsində fəaliyyət sahələri milli və beynəlxalq sahələrə bölünür. *Milli məşğulluq sahəsində:*

*a) Almaniyanın strateji potensialının inkişaf etdirilməsi;*

*b) Davamlı təhlükəsizlik dövriyyəsinin inkişaf etdirilməsi;*

*c) İnklüziv qabaqcıl yanaşma;*

*d) Təhlükəsizlik və çeviklik;*

*e) Beynəlxalq təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyət daşımaq kimi başlıqlara yer verilib.*

*Almaniyanın beynəlxalq fəaliyyət sahələri isə:*

*a) BMT-lərlə əlaqələr;*

*b) NATO ilə əlaqələr;*

*c) Aİ ilə münasibətlər;*

*d) ATƏT ilə əlaqələr;*

*e) Ad-Hoc məsələlər üzrə əməkdaşlıq;*

*f) Silahlara nəzarət, tərksilah və silahların yayılmaması kimi mövzuları əhatə edir.*

2016-cı ilin "Ağ Kitab"da Almaniyanın strateji imkanlarının inkişaf etdirilməsi məsuliyyəti Federal Təhlükəsizlik Şurasının üzərinə düşür. Həm keyfiyyət,

---

[17] **Die Verteidigungspolitischen Richtlinien,** 2011, s. 4.

həm də say baxımından dayanıqlı təhlükəsizlik dövriyyəsinin inkişafına xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, təhlükəsizliyin təkcə dövlətə aid olan sahə deyil, həm də dövlətlərin öz aralarında, eləcə də sənaye, elm dünyası və cəmiyyətin birgə fəaliyyət göstərdiyi bir təhlükəsizlik dövrünün zəruriliyi ön plana çəkilir. Bu kontekstdə mülki və hərbi sahələrin üst-üstə düşməsinin zəruriliyi vurğulandı və beynəlxalq səviyyədə diplomatik həll yollarının şaxələndirilməsinin vacibliyi vurğulandı.

*2016-cı ilin Ağ Kitabında aşağıdakı maraqlar qeyd olunmuşdur:*

*• Almaniya vətəndaşlarının, eləcə də ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunması;*

*• Müttəfiq ölkələrin ərazi bütövlüyünün, suverenliyinin və vətəndaşlarının müdafiəsi;*

*• Beynəlxalq hüquqi nizamın təmin edilməsi;*

*• Güclü Almaniya iqtisadiyyatı və azad və maneəsiz beynəlxalq ticarət vasitəsilə vətəndaşların rifahının təmin edilməsi;*

*• Bütün dünyada məhdud mallardan və qıt resurslardan rasional istifadənin təşviq edilməsi;*

*• Avropa inteqrasiyasının dərinləşdirilməsi və Transatlantik tərəfdaşlığın konsolidasiyası.*

Sənəddə bildirilir ki, alman kimliyi Avropa kimliyi ilə qırılmaz şəkildə bağlıdır. Bu o deməkdir ki, Almaniya özünü ayrıca bir aktor kimi göstərmir, öz fəaliyyətini yalnız Avropa ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində görür. Bundan əlavə, sənəd Almaniya və Avropa təhlükəsizliyinin ayrılmazlığından danışır. Almaniya siyasətində həm güclü, həm də zəif tərəflərinin mövcudluğunu vurğulayaraq, digər ölkələrlə münasibətlərdə qarşılıqlı asılılığını tanıyır. O, məsuliyyəti öz üzərinə götürməyə və beynəlxalq dialoqun təmin edilməsində aparıcı rol oynamağa hazır olduğunu qeyd edir. Onun təhlükəsizlik siyasətinin əsas prinsipi əməkdaşlıq yanaşmasıdır. Sənədə görə, Almaniya hökuməti Rusiyanın davranışından və onun Avropanın təhlükəsizliyinə xələl gətirmək cəhdlərindən narahatdır: “Rusiya öz maraqlarını həyata keçirmək və zəmanət verilən sərhədləri dəyişdirmək üçün gücdən istifadə etməyə hazır olduğunu nümayiş etdirməklə Krımda və Şərqi Ukraynada olduğu kimi Avropa nizamını birtərəfli qaydada açıq şəkildə şübhə altına alır”. Xarici sərhədlərdə qeyri-sabitlik müasir Avropanın və müvafiq olaraq Almaniyanın təhlükəsizliyinin problemlərindən biridir. Avropanın təhlükəsizliyi də daxili problemlərə görə hücuma məruz qalır. İlk növbədə, bu, Aİ üzvləri arasında parçalanmaya aiddir. Mühüm amil paralel davam edən böhranların təsiridir: iqtisadi və maliyyə, qaçqın böhranı. Bundan əlavə, Aİ-də bəzi üzv dövlətlər arasında milli maraqları üstün tutmaq meylləri mövcuddur. Almaniyanın təhlükəsizlik siyasəti üçün çağırışlara gəlincə, 2006-cı ildən fərqli olaraq, onların siyahısı kibermüharibələr, yoxsul dövlətlər problemi, iqlim dəyişikliyi və nəzarətsiz miqrasiya ilə tamamlanır. Kifayət qədər böyük bir bölmə müasir təhlükələr məsələsinə həsr edilmişdir. Bu,

onu deməyə əsas verir ki, Almaniya hökuməti bu problemlərin həllinə əvvəlkindən də böyük məsuliyyətlə yanaşır.[18]

***Almaniyanın qəbul edilən milli təhlükəsizlik siyasəti mühiti***

Almaniya milli təhlükəsizlik siyasəti mühitini qlobal miqyasda müəyyən edir. Bu kontekstdə beynəlxalq nizamın köklü dəyişikliyə məruz qaldığı vurğulanır, dəyişiklik amilləri, çoxqütblülük və güc bölgüsü, qaydalara əsaslanan Avro-Atlantik sülh və sabitlik nizamının şübhə altına alınması, Avropa layihəsinin təzyiqi və Almaniyanın milli təhlükəsizlik siyasəti üçün bir sıra problemlər qeyd olunur. Çoxqütblülük və gücün bölüşdürülməsi tendensiyaları da Ağ Kitaba daxil edilmişdir. Müvafiq olaraq, Asiya, Afrika və Latın Amerikasının əsas ölkələrinin yüksəlişi gözlənilir. Ehtimal olunur ki, geosiyasi güc dəyişikliyi siyasi, iqtisadi və hərbi inkişaflara təkan verəcək və bu da öz növbəsində yeni ölkə qrupları və institutlarının yaradılmasına təkan verəcək. Güc bölgüsü çərçivəsində Çinin 2030-cu ilə qədər dünya ÜDM-nin beşdə birinə, Hindistanın isə altıda birinə çatacağı, bu iki ölkənin 2050-ci ilə qədər OECD ölkələrinin ümumi iqtisadi gücünə çatacağı qeyd edilir. Bu vəziyyətin hərbi sahədə əks olunmasının qiymətləndirilməsi belədir ki, Çinin hərbi xərcləri bütün Aİ ölkələrinin cəmindən çox olacaq. BRİKS, ASEAN və G20-nin mühüm forumlara çevrildiyi qeyd olunan "Ağ Kitabda" regional inteqrasiyaların rəqabətinin dünya düzənində parçalanma yarada biləcəyi qeyd edilir. Bu kontekstdə Almaniyanın təklifi Birləşmiş Millətlər Təşkilatının institusional çərçivəsində rəqabəti, ABŞ-ın öz effektivliyini qorumağa davam etməsi, Avropa Birliyi ölkələrinin isə daha çox məsuliyyət daşımasıdır. Ağ Kitabda qeyd olunan başqa bir məsələ, qaydalara əsaslanan Avro-Atlantik sülh və sabitlik nizamının şübhə altına alınmağa başlamasıdır. Bu kontekstdə Rusiyanın Ukrayna böhranı ilə Avropa və Almaniyanın təhlükəsizliyini təhdid etdiyi bildirilir və davamlı təhlükəsizlik və rifah üçün Rusiya ilə əməkdaşlığa ehtiyac olduğu vurğulanır. Almaniya Ukrayna böhranı kontekstində ATƏT-in roluna önəm verir. Almaniya Avropa Birliyi layihəsinin bir sıra inkişaflar nəticəsində təzyiqə məruz qaldığını vurğulayır. O, bu təzyiqin səbəblərini bütün dünyaya təsir etməyə başlayan 2008-ci il Maliyyə Böhranı, Suriya mərkəzli Qaçqın Böhranı və sərhədlərdə dövlət strukturlarının zəifləməsi nəticəsində yaranan etibarsızlıqda görür. Almaniya həmçinin bildirir ki, Aİ-yə üzv ölkələrin milli silahlı qüvvələri ixtisar edilərkən, Aİ üzvü olmayan ölkələrin silahlanması milli təhlükəsizlik riski yarada bilər.[19]

Dövlətlərarası münaqişələr Almaniyanın təhlükəsizlik siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Rusiyanın Ukraynaya müdaxiləsi və Asiya-Sakit okean regionunda baş verən hadisələrin geniş miqyaslı münaqişəyə çevriləcəyi ilə bağlı narahatlıq var. Çoxqütblü dünya düzəninin ona çoxlu üstünlüklər verdiyini bilən Almaniya Asiya-Sakit okean regionunda ABŞ-Çin rəqabətinin zamanla çoxqütblülüyün sarsıda biləcəyi ikililik yaradacağından da narahatdır. Dünyada silahlanma

---

[18]Adrian Hyde-Price. **Germany and European Order. Enlarging NATO and EU.** A.Hyde-Price. Manchester: Manchester University Press, 2000, 270 p.

[19] Kristian Glaser. **Die vereinte Deutschland und die Transformation der NATO (1990-2008**). Hamburg: Verlag Dr. Kovac, 2011, 410 s.

və kütləvi qırğın silahlarının yayılması Almaniyanın önəm verdiyi əsas mövzulardan biridir. Kütləvi qırğın silahlarının terrorçu qruplar tərəfindən ələ keçirilməsi, əslində, 11 sentyabr hücumlarından sonra ABŞ-ın terrorizmə qarşı elan etdiyi müharibənin mühüm elementi olmuşdur. Almaniya həmçinin adi silahların regional və qlobal balansları dəyişə biləcəyini bildirir və effektiv silahlara nəzarətin, bu baxımdan şəffaflığın, etimadın yaradılmasının və məhdudlaşdırıcı silah ixracının vacibliyini vurğulayır. Almaniyanın Ağ Kitabda hazırladığı milli təhlükəsizlik strategiyasının miqrasiya yönümlü ayağı Almaniya üçün praktikada həyata keçirilməsi ən çətin siyasətləri ehtiva edir. Çünki Almaniyanın bir tərəfdən sənaye və xidmət sektoru üçün ixtisaslı immiqrasiyaya ehtiyacı var, digər tərəfdən isə antiqloballaşmanın yaratdığı irqçilik və ksenofobiyanın öhdəsindən gəlmək məcburiyyətindədir. Bu çərçivədə Almaniya miqrasiya hərəkətlərinin regional münaqişələrin əhatə dairəsini genişləndirə biləcəyi ehtimalını vurğulayır və bununla bağlı hərtərəfli Avropa strategiyası və təcrübəsinin irəli sürülməsinin vacibliyini qeyd edir.

Beləliklə, Soyuq müharibədən sonra beynəlxalq sistemdə Almaniyanın mövqeyinə təsir edən qlobal dəyişikliklər baş verdi. O, "bufer zona" statusunu itirdi. Asimmetrik xarakterli təhdidlər Almaniya üçün yeni çağırışa çevrildi, bununla əlaqədar olaraq, 1990-cı illərdən etibarən Almaniyanın təhlükəsizlik siyasətinin əsas məqsədinə – özünün və müttəfiq ölkələrin təhlükəsizliyinə nail olmaq üçün böhranın həlli əsas hədəflər sırasında meydana çıxdı. Bu vəzifənin ortaya çıxması ilə təhlükəsizlik siyasətinin və silahlı qüvvələrin transformasiyasına ehtiyac yarandı. Almaniyanın təhlükəsizlik siyasətinə dair bütün sənədlərdə qeyd olunur ki, müasir təhdidlər qlobal xarakter daşıyır. Müvafiq olaraq, müasir Almaniyanın təhlükəsizlik siyasətinin vəzifələri daha qlobal şəkildə formalaşır. Almaniya qlobal məsuliyyəti öz üzərinə götürməyə və təkcə Avropada deyil, bütün dünyada böhranların qarşısını almağa hazır olduğunu bəyan edir. İqtisadi təhlükəsizliyin təmin edilməsi, Şərqi Avropa ölkələri ilə dialoq və onların Avropa təhlükəsizlik sisteminə inteqrasiyası, Rusiya ilə əlaqələrin saxlanılması və inkişafı federal hökumət üçün böyük əhəmiyyət kəsb edir. Almaniyanın təhlükəsizlik siyasəti çoxtərəflilik prinsipinə əsaslanır. Bu, təkcə tarixi şəraitlə deyil, həm də onunla izah olunur ki, Almaniya büdcəsi hərbi xərclər sahəsində çox məhduddur, transformasiya və yenidən silahlanma isə böyük vəsait tələb edir. Almaniya qlobal təhlükələrə qarşı təkbaşına dayana bilməz, buna görə də çoxtərəfli əməkdaşlıq onun üçün çox vacibdir. Almaniyanın əməkdaşlıq etdiyi əsas təhlükəsizlik institutları arasında aşağıdakıları qeyd etmək olar: NATO, Aİ, ATƏT və BMT. Almaniyanın NATO və Aİ ilə xüsusi tarixi əlaqələri olduğuna görə bu formatlarda işləmək onun üçün ATƏT və BMT ilə müqayisədə prioritetdir. Bununla belə, Almaniyanın indiki mərhələdə bu iki təşkilat çərçivəsində hansı sahələrdə və hansı xüsusiyyətlərlə işləməsi vacib sual olaraq qalır. 2005-ci ildə yeni kansler A.Merkelin hakimiyyətə gəlməsi ilə AFR-nin xarici siyasət məsələlərində mövqeyi ümumi konseptual oriyentasiyanı saxlamaqla müəyyən formal dəyişikliklərə məruz qaldı. Almaniyanın xarici siyasəti ölkənin ali rəhbərliyinin yenilənməsindən və partiya mənsubiyyətinin dəyişdirilməsindən sonra xarici siyasətinin əsas istiqamətlərini müəyyən etdi. Bunlar başlıca olaraq Avropa və dünya bazarlarında iqtisadi ekspansiyanı daha da artırmaq, əsas tərəfdaşlarla – ABŞ, Aİ, Yaponiya, Çin ilə əməkdaşlığın genişləndirilməsi, Avropa inteqrasiyasının genişləndirilməsi və dərinləşdirilməsi, Almaniyanın istər Avro-Atlantik məkanında

istərsə də ondan kənarda baş verən münaqişələrin nizamlanmasında fəal rol oynamaq və Almaniyanın xaricdə hərbi mövcudluğunu qoruyub saxlamaqdır.

***Nəticə***

Almaniya və almanlar beynəlxalq aləmdə üstünlük təşkil edən strateji mədəniyyətləri ilə seçilən bir xalqdır. Bu personajlar beynəlxalq arenada reaktiv davranış tərbiyə edərək, almanların tarixdə qeydə alınan ən böyük müharibələr olan hər iki dünya müharibəsində aparıcı rol almasına səbəb oldu. İkinci Dünya müharibəsindən sonra ağır müharibə şəraitinə məruz qalaraq əzilən almanların yenidən dirçələcəkləri və beynəlxalq arenada aktiv rollarına qayıdacaqları ilə bağlı proqnoz ilk dəfə Kennetz Waltz tərəfindən 1993-cü ildə edilən strateji mədəniyyət təhlillərində ifadə olunmuşdu. 1998-ci ildə Tomas Berger tərəfindən. Əslində, 1960-cı illərdə ABŞ-ın elan etdiyi Çevik Cavab Doktrinası çərçivəsində Sovet İttifaqını əhatə edən sərhəd ölkələri və adi müharibənin ən əsas elementi olan quru ordusu əhəmiyyət qazandıqca Almaniya federal ordunu yaratmaqla onu yenidən inkişaf etdirmək imkanı. Bu, 1964-2016-cı illər arasında dərc edilmiş on iki Ağ Sənəddə aydın şəkildə müşahidə olunur. Almaniyanın milli təhlükəsizlik strategiyasını iki terminlə qısa şəkildə ümumiləşdirmək olar. *Birincisi Zivilmacht (vətəndaş hakimiyyəti-sivil Güc), ikincisi Nie Wieder Alleine (təkbaşına heç vaxt).* Almaniyanın milli təhlükəsizlik siyasətinin tendensiyası Westpolitikdir. Bu məqamda Almaniyanın milli təhlükəsizlik strategiyasının iki sütunu var. Bunlar

*a) Beynəlxalq təhlükəsizlik məsələlərində təkbaşına hərəkət etməmək;*

*b) Beynəlxalq aləmdə Almaniya üçün ittifaqın mənası NATO və Aİ ilə məhdudlaşır.*

Bu kontekstdə Avroatlantik konsepsiyası Almaniyanın milli təhlükəsizlik strategiyasını ümumiləşdirir. Almaniyanın "Ağ Kitab"larında Almaniyanın beynəlxalq sistemlə bağlı uzaqgörənliyinin çoxqütblülük və güc balansı olduğu və bu tarazlıqda iqtisadi və hərbi gücün hakim rol oynayacağı başa düşülür. Bu kontekstdə İkinci Dünya müharibəsindən sonra yaradılan Avro-Atlantik Mərkəzli nizamın hazırda şübhə altına alındığını düşünən Almaniya, çoxqütblü beynəlxalq sistem baxımından ortaya çıxan iqtisadi gücləri Açar Dövlətlər olaraq təyin edir. Bunlar BRIC, ASEAN və G20 ölkələridir. Rusiya və onun siyasətini beynəlxalq aləmdə problem kimi görən Almaniya sözügedən təhlükəni aradan qaldırmaq üçün Almaniyanın regional problemlərdə daha fəal rol alması lazım olduğunu düşünür. Almaniyanın hərbi gücə önəm verməsi və regionda aparıcı rolu öz üzərinə götürməyə hazır olması və regional problemlərin həllində münaqişədən daha çox əməkdaşlığa önəm verməsi Almaniyanın mərkəzdə yer aldığı Rusiya üçün mühafizə siyasəti planlaşdırması deməkdir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Adrian Hyde-Price. **Germany and European Order**. **Enlarging NATO and EU.** A.Hyde-Price. Manchester: Manchester University Press, 2000, 270 p.
2. Annegret Bendiek. **EU Foreign Policy Perspectives. A.Bendiek. SWP Comments 20. Stiftung Wissenschaft und Politik**. October 2008 [Электронный

ресурс]. URL: https://www.swpberlin.org/fileadmin/contents/products/comments/2008 C20_bdk_ks.pdf (дата обращения: 14.03.2017).

3. Chiari Bernhard und. Pahl Magnus. **Auslandseinsätze der Bundeswehr.** Padeborn: Ferdinand Schöningh, 2010, 324 s.
4. Dempsey. **Why Defense Matters. A New Narrative for NATO.** Carnegie Endowment for International Peace. June 2014. [Электронный ресурс]. URL: http://carnegieendowment.org/files/why_defense_matters1.pdf (дата обращения: 14.03.2017).
5. **Die Organisation deutscher Sicherheitspolitik.** Deutsche Sicherheitspolitik. Herausforderungen, Akteure und Prozesse.
6. Fritsch Helmut. **ESDP and German Contribution. Back on Earth?** Number 30 in Martello Papers. Centre for International Relations. Queen`s University, Kingston, Ontario, Canada, 2006, 73 p.
7. Glaser Kristian. **Die vereinte Deutschland und die Transformation der NATO** (**1990-2008**). Kristian Glaser. Hamburg: Verlag Dr. Kovac, 2011, 410 s.
8. Grundzüge der Konzeption der Bundeswehr, 2004. **Bundesministerium der Verteidigung** (Hrsg.). Berlin, 2004, s.8.
9. Keller Patrick. **Halbzeit im Weißbuch – Prozess: Wo steht die Debatte über deutsche Sicherheitspolitik zum Ende der "Partizipationsphase"?** Analysen und Argumente. Perspektiven Deutscher Außenpolitik. Konrad Adenauer Stiftung. Ausgabe 192, Oktober 2015, 7 s. [Электронный ресурс]. URL: http://www.kas.de/wf/doc/kas_42989-544-1-30.pdf?151125103516 (дата обращения: 14.03.2017).
10. Meier-Walser Reinhard C. (Hrsg). **Gemeinsam sicher? Vision und Realität europäischer Sicherheitspolitik.** Reinhard C. Meier-Walser. Neuried: Hans Seidel Stiftung, 2004, 280 s.
11. Overhaus Marco. **Die deutsche NATO-Politik: vom Ende des Kalten Krieges bis zum Kampf gegen den Terrorismus**. Marco Overhaus. Baden-Baden: Nomos, 2009, 393 s.
12. Schmalz Uwe. **Deutschlands europäisierte Außenpolitik. Kontinuität und Wandel deutscher Konzepte zur EPZ und GASP.** Wiesbaden: Verlag für Sozialwissenschaften Springer Fachmedien Wiesbaden GmbH, 2004, 616 s.
13. Schreer Ben. **A new "pragmatism". Germany`s NATO policy.** International Journal, Vol. 64, No.2, NATO at 60 (Spring, 2009). P.383-398.
14. Von Krause. **Die Bundeswehr als Instrument deutscher Außenpolitik**. U. von Krause. Wiesbaden: Springer Fachmedien, 2013, 410 s.
15. **Германия. Вызовы XXI века**. Под редакцией В.Б.Белова, Институт Европы РАН, Филиал Фонда им. Ф.Эберта в РФ. Москва: Издательство «Весь мир», 2009, 788 с.
16. Елена Геннадьевна Авдеенко. **От Маастрихта к Амстердаму: стратегия ФРГ в области общей внешней политики, безопасности и обороны в Европе.** Вестник Челябинского университета. Выпуск 46, История. 2011. №22, с.112-121.
17. Николай Валентинович Павлов. **Внешняя политика ФРГ в постбиполярном мире.** Н.В.Павлов. Москва: Наука, 2005, 410 с.

18. Олег Юрьевич Семенов. **Эволюция оборонной политики ФРГ и проблема безопасности в конце XX – начале XXI века**. Вестник Нижегородского университета им. Н.И.Лобачевского. 2008, №1, с.185-189.
19. **Современная Германия. Экономика и политика: [монография].** Под общ. ред. В.Б.Белова; Федеральное гос. Бюдж. Учреждение науки Ин-т Европы Российской акад. наук. Москва: Издательство «Весь мир», ИЕ РАН, 2015, 720 с.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Məmmədli Cavid Pənah oğlu – Bakı Dövlət Universitetinin Tarix fakültəsinin doktorantı. Azərbaycan, Bakı.

Mammadli Javid Panah – Baku State University doctoral student of History faculty. Azerbaijan, Baku.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 168-185*

RESENZİYALAR – REVIEWS

**UOT 94**

# EYNULLA MADATLI. "PAKISTAN: SHORT HISTORICAL AND POLITICAL ESSAYS"

# EYNULLA MƏDƏTLİ. PAKİSTAN: QISA TARİXİ-SİYASİ OÇERKLƏR HAQQINDA MÜFƏSSƏL MƏLUMATIM

RESENZIYA

©2023

ŞAHİN FAZİL*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0009-0008-7655-5244; e-mail: shahinfazil27@gmail.com
*https://doi.org/10.59849/2523-4765.2023.2.168*

Yazı masamın üstündə bir kitab var: “Pakistan: Qısa tarixi-siyasi oçerklər” adlanan olduqca maraqlı oçerklər toplusu. AMEA Qafqazşünaslıq İnstitutunun Elmi şurasının qərarı ilə çapa tövsiyə edilmiş bu maraqlı kitabın elmi redaktoru və ön sözünün müəllifi Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlıdır. Kitabın müəllifi 2002-2010-cu illərdə Pakistanda Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmiş, tarix elmləri doktoru Eynulla Mədətlidir. Qeyd edim ki, mən uzun illər bir sıra Yaxın və Orta Şərq dövlətlərinin tarixi haqqında ixtisasımla bağlı geniş məlumata malik olmuşdumsa da, Asiyanın cənubunda yerləşən Pakistan İslam Respublikası ilə bağlı əhatəli bilgiyə malik deyildim.

Bu kitabın əvvəlindəki bir səhifəlik yazı, əlbəttə, mənə dolğun məlumat verdi: “Ölkənin rəsmi adı: Pakistan İslam Respublikası (1956-cı ildən); Yarandığı tarix: 14 avqust 1947-ci il. Bu tarixdən 1956-cı il Konstitusiyasının qəbulunadək Pakistan rəsmən Qərbi Pakistan (indiki Pakistan ərazisi) və Şərqi Pakistan (indiki Banqladeşin ərazisi) olaraq federativ quruluşa və hakimiyyətə malik olmuşdur. 30 mart 1970-ci ildə prezident Yəhya Xanın fərmanı ilə Qərbi Pakistan adlı ləğv olunmuş, həmin ərazini təşkil edən 4 əyalət Pakistan olaraq qalmışdır: Pəncab, Sind, Bəlucistan və Şimal-Qərb Sərhəd Əyaləti (indiki Xeybər-Paktunkva). 1971-ci ildə Şərqi Pakistan ayrılaraq müstəqil Banqladeş Respublikası təşkil etmişdir. Hazırda Pakistan həmin 4 əyalətdən və 3 ərazi vahidindən ibarətdir: Çilgit-Baltistan, İslamabad Paytaxt Ərazisi və Azal Kəşmir.

Kitabın “Giriş” hissəsində “Pakistan” adının tarixən mövcud olmadığı və bu

ifadənin ilk dəfə 1933-cü ildə Çoudri Rəhmət Əli adlı bir müəllifin "İndi, ya heç vaxt!" adlı pamfletində "pak, təmiz torpaq!" anlamında işlədildiyi göstərilir.[1]

Müəllif dərhal Hindistanla qanlı qarşıdurmalar, Pakistanın qurucusu və ilk rəhbəri Məhəmməd Əli Cinnah, onun rəhbərlik etdiyi Müsəlman Liqası partiyası, Kəraçi şəhərinin paytaxt seçilməsi, general Əyyub Xanın hakimiyyəti, paytaxtın daha münasib meqapolisi sayılan Rəvalpindi şəhərinə və əsas hava limanına yaxın olan ərazidə salınacaq İslamabada köçürülməsi (1960) barədə yığcam məlumat verdikdən sonra oxucuların diqqətini qədim zamanlardan islamın qəbuluna qədər ki, dövrə yönəldir, Pakistan və Hindistanın dünyanın ən qədim sivilizasiyalarından meydana gələn məkanlar olduğunu bildirir.[2]

İdi ki, Pakistan ərazisinin əvvəlcə Midiyanın, sonralar növbə ilə Həxamənşilərin, Parfiyanın, Kuşan dövlətinin, Sasanilərin, Ağ Hunların, ərəblərin, Qəznəvi türk hakimiyyətinin tərkibinə qatıldığını qeyd edən E.Mədətli bu ərazidə islamın qəbulu və yayılması, habelə Qəznəvilərin, daha sonra Quri müsəlman sülalə hakimiyyətinin Şimali Hindistanda bərqərar olduğunu xatırladır,[3] Dehli sultanlığının qurulması, Lahor şəhərinin sultanlığın paytaxtı olması, Əmir Teymurun (1336-1405) Dehlini fəth etməsindən sonra sultanlıqda siyasi qarışıqlıq başlanmasını, nəhayət çox geniş ərazidə Muğal (Moğol – Ş.F.) imperatorluğu qurulmasını, "dünya əhalisinin 20 faizinin, o cümlədən indiki pakistanlı, hindistanlı, banqladeşli kimi əhali kütləsinin həmin ərazi hüdudunda yaşamalarını öz tarixi seyrçi nəzərilə göz önünə gətirir, fikir və mülahizələrini dövrün ilkin mənbələri vasitəsilə əsaslandırır və mənə xoşdur ki, tərəfimdən fars dilindən dilimizə çevirdiyim azərbaycanlı salnaməçi İsgəndər bəy Münşinin üç cildlik "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") kitabındakı faktlara əsaslanmaqla zənginləşdirir.[4]

E.Mədətlinin qələmə aldığı "Pakistan..." kitabında moğol-səfəvi qarşılıqlı münasibətlərinin nisbətən geniş işıqlandırılması onun müxtəlif dilli əsərlərə, o cümlədən Villem Flurand Edmund Herzigin, Oqtay Əfəndiyevin, Tofiq Nəcəflinin, D.L.Rocerin, Amanda Şamprinin, T.Ənsarinin, K.Armstrongun, Peter Frankopanın çoxsaylı əsərlərinə istinad etməsi kitab müəllifinin geniş tarixşünaslıq qabiliyyətini büruzə verir.[5]

Moğol-səfəvi münasibətlərinə aydınlıq gətirən E.Mədətli qələminin gərdişini, təbii ki, moğol-əfşar əlaqələrinin tədqiqində saxlamır və müxtəsər həmin münasibətlərinin tədqiqinə yönəldir. Böyük türk hökmdarı Nadir şah Əfşar (1688-1747) Hindistan yürüşünə hazırlaşanda Moğol taxt-tacının sahibi Məhəmməd şah (1719-1748) idi.

"Onun 19 illik hakimiyyəti Moğol imperatorluğunun çox zəiflədiyi, daxili çəkişmələrin çox genişləndiyi illər idi" – yazan tədqiqatçı Hindistanın Nadir şah tərəfindən işğal olunması üçün əlverişli şəraitin yetişdiyini bildirdikdən sonra "Nadir şah" əsərinin müəllifi L.Lokkarta əsaslanaraq əfşar ordusunun yürüşünün 2 səbəbini

---

[1] Eynulla Mədətli. **Pakistan: qısa tarixi-siyasi oçerklər**. Bakı, "Turxan", 2022, s.24.
[2] **A.g.k.,** s.27.
[3] **A.g.k.,** s.28-31.
[4] **A.g.k.,** s.37-44.
[5] **A.g.k.,** s.47-60.

bildirir. 1) Əfşar şahının təqibindən qaçan əfqanlara Məhəmməd şah tərəfindən sığınacaq verməmək tələbi yerinə yetirilməmiş; 2) Moğol sarayına elçi (səfir – Ş.F.) göndərilən Məhəmməd xan Türkmanın orada bir il saxlanıb hələ də geriyə qaytarılmaması.[6] Əlbəttə, hər iki tələbin icra olunmamağı Nadir kimi ötkəm bir hökmdarın qüruruna toxunmuş və 1738-ci ilin əvvəlində onun moğol torpağına doğru əfşar yürüşü başlanmış, yolüstü Kabul hakiminin qoşunları, Vəzirabad, Yəminabud və Lahor hərbi dəstələri təslim olmuşdular. Dehlidən Nadirə qarşı hərəkətə başlayan moğollar Karnal şəhəri yaxınlığında məğlubiyyətə düçar edildi, sülh bağlandı, şahın əldə etdiyi qənimətlərin ümumi dəyəri o zaman üçün görünməmiş miqdarda böyük məbləğ olan 700 milyon rupi hüdudunda olmuşdu. Bundan sonra Nadir şah Dehliyə gəldi, orada onun adına xütbə oxundu, sikkə kəsildi və sikkə üzərində farsca bu sözlər yazıldı: "Nadir Yer üzünün sultanlar sultanı, uğur hökmdarıdır". E.Mədətli yazır: "Hindistanın fəthi ilə Nadir şah vaxtilə Makedoniyalı İsgəndərin, Sultan Mahmud Qəznəvinin, Əmir Teymurun fəth etdiyi bu zəngin ölkəni ələ keçirməklə özünün fateh bir sərkərdə və şah olduğunu bir daha sübuta yetirdi.[7]

Kitabın sonrakı hissələri əfqan Durranilər dövlətinin yaranması, bu dövlətin ingilislər tərəfindən süquta uğradılması (1747-1819),[8] Pəncabda siqhlər dövlətinin qurulması və onun ingilislər tərəfindən süqutu (1799-1839),[9] Moğol hökmdarları Şah Aləmin (1759-1806), həmçinin Əkbər Şahın (1806-1837) və II Bahadur Şahın (1837-1858) da yenə ingilislərin müdaxiləsi nəticəsində Moğollar sülaləsinin hakimiyyətinə son qoyulmasına həsr olunmuşdur.[10] Müəllif yazır: "Cənubi və Cənub-Şərqi Asiyanın indiki dövlətlərinin əksəriyyəti Britaniya müstəmləkə idarəçiliyindən çıxmış ölkələrdir. Pakistan, Hindistan və digərləri (o cümlədən Əfqanıstan da – Ş.F.) Qərb dövlətçilik və idarəçilik ənənə və təcrübələrinin yerli şəraitə uyğun forması olaraq meydana çıxdılar".[11]

"Yarımadada Britaniya müstəmləkəçiliyi dövrü adlanan", habelə sonrakı "İngilislərə qarşı üsyan" bölmələrində Britaniyanın Şərqi-Hind şirkətinin bölgədəki ekspansionist siyasəti (əsası 1600-cü ildə qoyulmuşdur), ingilislərin Sindi (1843) və Pəncabı (1845-1849) öz koloniyalarına qatmaları, sonrakı on illərdə isə puştu tayfalarının yaşadıqları əraziləri və Bəlucistanı də ələ keçirmələri öz əksini tapmışdır.[12] Ərazidə ingilis Lord Vilyam Bentinskinin (1828-1835) və Lord Dalhoniyenin (1848-1856) general-qubernatorluğu illərində ingilis dilinin məhkəmələrdə və təhsil sistemində fars dilini və sanskripti sıxışdırması və ənənəvi adət-ənənələrin unutdurulması əyyamı başlandı. E.Mədətli sonra "təsir əks təsirə bərabərdir" deyiminə uyğun olaraq "İngilislərə qarşı üsyan" adlı növbəti hissəni qələmə aldı. Orada yazılır ki, 1857-ci ilin 9-10 may tarixində Benqal əsgərləri ingilis zabitlərini, onların xanımlarını və uşaqlarını öldürərək Dehliyə hücuma keçdilər.

[6] **A.g.k.**, s.61.
[7] **A.g.k.**, s. 62-64.
[8] **A.g.k.**, s. 68-69.
[9] **A.g.k.**, s. 69-70.
[10] **A.g.k.**, s. 70-71.
[11] **A.g.k.**, s. 72.
[12] **A.g.k.**, s. 72-73.

Oranı ələ keçirib Moğol sülaləsinin sonuncu hökmdarı II Bahadur şahın hakimiyyətini (1837-1858) bərpa etdilər, amma bu üsyan 1858-ci ilin ortalarında süquta uğradı, ingilislər bir neçə ay ərzində digər üsyançılara da ağır zərbə endirdilər, lakin özlərinə məxsus anklavlar (qapalı ərazi) şəklində yaşamağa məcbur oldular. 1 noyabr 1858-ci ildə kraliça Viktoriyanın (1837-1901) fərmanı ilə Hindistanın idarəçiliyi Şərqi Hind Şirkətindən alınıb birbaşa Britaniya taxt-tacına tabe edildi, krallıq adından vitse-kraliça, eyni zamanda da general-qubernator Hindistanı idarə etməyə başladılar. Çox keçmədi ki, ingilis müstəmləkəçilərinə qarşı yeni etirazlar, silahlı üsyanlar başlanıb, II Dünya müharibəsinədək davam etdi.[13]

İndi kitabdakı "Müstəmləkəçiliyə qarşı mübarizə, milli düşüncə və oyanış" adlı hissə. "Yarımadada tədricən milli düşüncə və oyanışın baş verməsi prosesi gedirdi" yazan müəllif yarımadada siyasi oyanışla yanaşı dini-etnik zəmində ayrı-seçkiliyin də tədricən "körüklənməsini" qeyd edir və yazır: "1858-ci ildən başlanan müsəlman oyanışı yavaş-yavaş vüsət almaqda idi. Yenilikçi müsəlman lideri Seyid Əhməd Xan (1817-1898) və onun 1875-ci ildə təsis etdiyi İngilis Şərq Kolleci oyanışa, maariflənməyə, ingilis təhsili və mədəniyyətinə, elmlərə bələd olmağa xidmət edirdi... Müsəlmanların hindlilərdən asılı olmayan öz müstəqil dövlətlərini yaratmaq ideyası formalaşır, gələcək Pakistan hərəkatının ilk təməl daşları qoyulurdu".[14]

Seyid Əhməd Xanın təşəbbüsü ilə 1888-ci ildə Birləşmiş Hindistan Vətənpərvər Assosiasiyası (United İndian Patriotik Association) quruldu. O təlqin edirdi ki, ingilis qüvvələri Hindistanı tərk edəndən sonra iki icma – hind və müsəlman icması ölkəni birlikdə idarə etməli olacaqlar, ümid edirdi ki, hər iki tərəf ağlasığmaz olanı və imkansız görünəni arzulamaqda bərabər qalarlar. E.Mədətliyə görə Seyid Əhməd Xan müsəlman oyanışına, gələcəkdə müsəlman "millətçiliyinə (Muslim nationalism)" yol açırdı.[15]

Müsəlman oyanışına xidmət edən tanınmış simalardan biri də Mövlana Məhəmməd Əli idi. Onun 1911-ci ildə təsis etdiyi "Comrade" və ardınca urdu dilində nəşr etdiyi "Hamdard" qəzetləri Hindistan müsəlmanları arasında məşhurdu. Aliqarxda Linkoln Kollecində və Oksfordda təhsil almış Məhəmməd Əli Britaniya idarəçiliyinə loyal münasibət bəsləyir və hesab edirdi ki, danışıq və müzakirələrlə ingilisləri bəzi məsələlərdə yola gətirmək mümkün olar. Olduqca savadlı və xeyli sadəlövh olan bu lider Xilafətin (Osmanlı sultanının timsalında) qorunub saxlanmasının bütün müsəlmanlar üçün önəmli olduğunu izah etmək üçün İngiltərəyə səfər etdi, lakin yüksək ingilis rəhbərliyindən heç kim onu qəbul etmədi, 1915-ci ildə Hindistanda həbs edilib göz altına alındı, məhz bundan sonra onun Britaniyaya münasibəti dəyişdi, əgər belə demək mümkünsə, müsəlman oyanış və azadlıq hərəkatının təşəbbüskarlarından biri olmuş Məhəmməd Əli sanki "oyandı" və ingilislərə qarşı mövqeyini tamamilə dəyişdi.[16]

İngilis müstəmləkəçilərinə qarşı mübarizənin önündə gedənlərin başqa bir lideri Mahatma Qandi (1869-1948) olmuşdur. O, bir günlük dinc etiraz tətilinə çağırış etdi,

---

[13] **A.g.k.**, s. 74-75.
[14] **A.g.k.**, s. 77-78.
[15] **A.g.k.,** s. 79.
[16] **A.g.k.**, s. 78-79.

polis həmin tətil çağırışına qoşulanları gülləborana tutdu, ingilis komandanı R.Dyerin əmri nəticəsində Amritsarda 10 min nəfərlik izdiham güllləbaran edildi, 400 nəfər öldürüldü, 2000 nəfər yaralandı, Pəncabda hərbi vəziyyət elan olundu, R.Dyerin özü də bir pəncablı siqx tərəfindən qətlə yetirildi.[17] Cinayət və cəza! Bu hərəkətə başqa ad vermək olmaz! Cinayətkarlıq cəzalanmalıdır!!!

İngilislərə qarşı mübarizə davam etməkdə idi. Görkəmli yazıçı Rabindranat Taqor (1861-1941) o dövrdə benqal xalqının daxili ruhi vəziyyətini əks etdirən əsərlərinə görə Nobel mükafatına layiq görüldü (1913). Ədalət, az da olsa, öz yerini tuturdu.

1912-1913-cü illərin Balkan müharibəsi. Bu müharibənin başlanması Avropadan çox uzaqda yerləşən Hindistan yarımadasında yaşayan xalqlara da fəlakət və məhrumiyyətlər gətirdi. Belə ki, I Dünya müharibəsinin (1914-1918) cəbhələrində müxtəlif etnik və dini mənsubiyyətə malik 800 min hindistanlı əsgər Britaniya ordusunun tərkibində vuruşurdu.[18]

İndiki Pakistan xalqının türk-islam dünyasının ən qüdrətli imperiyası olan Osmanlı dövləti ilə ənənəvi dostluq və həmrəylik münasibətlərinə nümunə kimi 1918-1924-cü illərdə Hindistan müsəlmanlarının osmanlıları himayə etmək üçün başladıqları hərəkat idi. Britaniya və müttəfiqləri Osmanlı dövlətini parçalayıb yox etmək və sultanı hakimiyyətdən salmaq üçün hərəkətə başlayanda Hindistanda Britaniya ağalığına qarşı mübarizə çərçivəsində Türkiyəyə dəstək nümayiş etdirildi, Xilafət Komitəsi yaradıldı (1919), amma bu hərəkat sabiq Osmanlı diyarında Xilafətin sultanlıqdan ayrılması haqqında təşəkkül tapan Türkiyə Parlamentinin qərarından sonra zəiflədi (21 noyabr 1922), Mustafa Kamal Atatürk (1881-1938) Osmanlı nəslinin son nümayəndəsi Xəlifə Əbdül Məcidi (1968-1944) sürgünə göndərdi, Hindistan Xilafət hərəkatı tamam dayandı, Parisdə yaşayan Xəlifə orada da vəfat etdi və gətirilib Mədinədə torpağa tapşırıldı.[19]

Kitabın sonrakı bölməsi (oçerki – Ş.F.) hindus-müsəlman qarşıdurmalarına və cərəyan etməkdə olan milli-dini hərəkatların araşdırılmasına həsr olunmuşdur. Orada göstərilir ki, Məhəmməd Əli hələ sağ idi və ölkədəki hindus çoxluğunun müsəlmanların maraqlarını nəzərə almasını tələb edir, Hindistan çərçivəsində onların hüquq və azadlıqlarının təmin olunmasına israrçı idi. Lakin Motilal Nehrunun (1861-1931) 1928-ci ildə hindus millətçiliyi zəminində "Nehru Konstitusiyası" deyilən sənəd irəli sürməsi Məhəmməd Əlidə bu qənaəti yaratdı ki, Konqresdə müsəlmanlara yer verilməyəcək, elə buna görə də Konqresi baykot etməyə çağırdı.[20] Beləliklə, Hindistan yarımadasında azadlıq və müstəqillik hərəkatlarının yeni dalğası başlandı, həmin vaxtdan sonra öz müstəqil dövlətçiliyinə nail olmaq istəyi müsəlmanlarda daha da güclənməyə başladı.

Xatırlatmalıyıq ki, bu Mövlana Məhəmməd Əli ilə eyni vaxtda başqa bir Məhəmməd Əli də fəaliyyət göstərməkdə idi. İki Məhəmməd Əli – biri Mövlana Məhəmməd Əli, ikincisi Məhəmməd Əli Cinnah. Birincisinin siyasi fəaliyyəti

---

[17] **A.g.k.,** s.81.
[18] **A.g.k**., s. 81-82.
[19] **A.g.k**., s. 82-83.
[20] **A.g.k**., s. 84-85.

Dəkkədə, ikincisininki isə Kəraçidə başlamışdı. 1876-cı ildə şiə-müsəlman ailəsində doğulmuş M.Ə.Cinnah orta əsrlərdə İrandan Hindistana mühacirət edən ismaili xocalarının nəslinə mənsub idi. İxtisasca hüquqşünas olan bu şəxs Bombeydə vəkil işləmiş, Bütün Hindistan Milli Konqresinin Kəlküttə sessiyasında Konqresin prezidenti Dadabhay Naorojinin özəl katibi olaraq iştirak etmişdi.[21]

Uzun illər parlament fəaliyyəti dövründə M.Ə.Cinnah yalnız müsəlmanların deyil, hinduslann da azadlıq və haqq səsi olmuşdur, buna görə də onu "Hindus-Müsəlman Birliyinin səfiri adlandırmışlar" – yazır Eynulla Mədətli.[22]

Qeyd olunmalıdır ki, iki Məhəmməd Əlidən başqa bir xan da siyasi fəaliyyətdə idi: Ağa Xan! İsmaililərin 48-ci imamı Ağa Xan! (1877-1957). O Ağa Xan ki, Bütün Hindistan Müsəlman Liqasını qurmağı qərara alan və onun prezidenti (permanent) seçilən (1907-1913) çox nüfuzlu siyasi xadim idi. O, vaxtı ilə deyirdi: "Britaniya hökuməti tərəfindən müstəqil siyasi tanınmanın (recognition) yeganə ümid yolu millət içində millət olmaqdan keçir".[23]

Ağa Xan 20 il müddətində Millətlər Liqasının Prezidenti seçildi, həyatının son gününədək (1957) sosial-dini fəaliyyətini davam etdirdi. Hələ onun sağlığında Bütün Hindistan Müsəlman Liqasının əsas rəhbərlərindən biri olan M.Ə.Cinnah artıq bütün Hindistan müsəlmanlarının "ən böyük rəhbər"i (Qayd-i Əzəm) titulunu qazanmışdı. E. Mədətlinin fikrincə, xarizmatik lider olaraq Cinnah müsəlmanların bir millət kimi birləşməsində əvəzsiz rol oynamaqla yanaşı, bu millət üçün müstəqil dövlət qurmaq və ona ən böhranlı və mürəkkəb bir zamanda rəhbərlik etmək vəzifəsini də fədakarlıqla yerinə yetirdi, Pakistan dövlətinin ilk rəhbəri – general qubernatoru kimi bir illik rəhbərliyi dövründə dövlətçiliyin və millətin bütövlüyünün təməlini qoydu.[24*]

Müəllif tədqiqatçı M.Soheyl Bhattiyə əsaslanıb yazır: "Qayd-i Əzəm inanırdı ki, Mustafa Kamal Atatürkün dediyi kimi, yurdda sülh, cahanda sülh təmin edilməlidir. Onun "Yaşa və qoy yaşasınlar"("Live and let Live") şüarı aşağıdakı prinsipə dayanırdı: "Qoy yarımadada iki böyük millət – hinduslar və müsəlmanlar öz həyatlarını özlərinə aid ərazilərdə, öz haqq və ənənələrinə uyğun, bir-birinin işinə

---

[21] **A.g.k.,** s. 87.
[22] **A.g.k**., s.87.
[23] **A.g.k**., s.87.
[24] **A.g.k.,** s.88-89.

**Qeyd:** E.Mədətli tədqiqatçı Aişə Cəlalın fikrinə əsaslanaraq "Qayd-i Əzəm" titulunun mənasını "Böyük rəhbər" "The Great Leader" kimi təqdim edir. Mənim yadıma Məhəmməd Füzuli qəzəlinin bir beyti düşdü:

*"Tutuşdu qəm oduna şad gördüyüm könlüm,*
*Müqəyyəd oldu ol azad gördüyüm könlüm"*

Məlumdur ki, "müqəyyəd" ifadəsinin ərəbcə "bağlı" mənası da vardır (Bax: "Ərəb və fars sözləri lüğəti" Bakı, 1967,səh.404). Şairin yuxarıdakı beytinin dilimizə hərfi tərcüməsi belədir:

*"Sənin şad gördüyün azad könlüm,*
*Qəm oduna düşən kimi ona bağlandı"*

Zənnimcə, "Qeyd" (urduca "Qayd") kəlməsinin məna açımına əgər Füziliyanə yanaşsaq "Qayd-i Əzəm" titulunun anlamını "Xalqa bağlı adam" kimi də düşünmək mümkündür.

qarışmadan, iki xalqın sülh xeyirxah və qonşuluq şəraitində yaşamasına yol açan şəkildə qursunlar”.[25]

İndi isə E.Mədətlinin təşbehləri ilə şəxsiyyətinə yüksək qiymət verilən görkəmli şair, maarifçi, filosof, islam mütəfəkkiri, azad fikirli, mütərəqqi təfəkkürlü, zəngin mədəniyyət və dünyagörüşə malik parlaq şəxsiyyət olmuş Əllamə Məhəmməd İqbal (1877-1938) və onun dövlətçilik ideyası haqqında!

Pəncab əyalətinin Sialkot şəhərində doğulan və böyüyən, Lahorda Hökumət Kollecini bitirən, ali təhsilini Almaniya və İngiltərədə alan, Münxendə “Persiyada metafizikanın inkişafı” mövzusunda, Kembricdə isə hüquq üzrə doktorluq dissertasiyalarını müdafiə edən, Londondan aldığı vəkillik sertifikatına uyğun vəkillik edən, vətənə qayıdandan sonra fars və urdu dillərində yazdığı şeirləri ilə könülləri fəth etməyi bacaran, Pəncab Universitetində dərs deyən M.İqbal 1920-ci ilədək fəal siyasətə qarışmırdı. E.Mədətli yazır: “1920-ci ilin ortalarında Xilafət hərəkatının süquta uğraması, Hindistan Milli Konqresində hindusların millətçilik hərəkətləri və müsəlmanlara qarşı təzyiqlərin güclənməsi İqbalı siyasətə gətirdi, 1926-cı ildə Pəncab Əyalət Assambleyasına üzv seçildi, Müsəlman Liqasının üzvü oldu.[26] Belə müsəlman idi Hindistan Müsəlman Liqasının üzvü seçilən və artıq siyasi fəaliyyətini qüvvətləndirən Məhəmməd İqbal! İqbal hər müsəlman xalqının ayrıca öz dövlətinin olmasını arzulayır və deyirdi ki, bir gün biz də türklər kimi (Türkiyə timsalında – E.M.) öz mədəni-zehni irsimizi yenidən dəyərləndirməli, islamda intibahı qəbul etməliyik.[27]

M.İqbal konkret olaraq Şimal-Qərb Hindistan Müsəlman Dövləti yaratmağı təklif edirdi. Onun hələlik xəyalında qurduğu dövlət Pəncabı, Şimal-Qərb Sərhəd Əyalətini, Sindi və Bəlucistanı əhatə etməli idi ki, o zaman həmin əyalətlərdə yaşayan müsəlmanların sayı 80 milyondan çox idi. Məhəmməd Əli Cinnah Hindus-Müsəlman Birliyi ideyasının mümkünsüz olduğuna yəqinlik hasil edəndən sonra İqbalın mövqeyinin doğruluğuna qəti inanmış, onun ideyalarının gerçəkləşdirilməsi üçün tərəddüdsüz olaraq fəaliyyətini daha da genişləndirmişdi.[28]

Bəli, Cinnah və İqbal – iki nüfuzlu müsəlman eyni mövqedən çıxış etməyə və fəaliyyət göstərməyə başladılar. Lakin, tezliklə M.Ə.Cinnah Liqadakı ziddiyyətlər üzündən Hindistanı tərk edib Londona getdi, Liqa bir müddətsiz onsuz qaldı, incikliyə baxmayaraq İqbal və Cinnah dostluğu qalib gəldi, Hindistan Cinnahsız qalmadı. Cinnah qayıtdı, dövləti Britaniya imperiyasından azad, öz idarəçiliyinə malik vahid bir dövlət kimi görmək istəyən iki məşhur şəxsiyyətin fikirləri “əslində gələcək Pakistan dövlətinin genezisindən xəbər verirdi” – yazır E.Mədətli, qeyd edir ki, M.İqbal gələcəkdə yaranacaq Pakstanın memarı və mənəvi atası idi.[29] O, M.Ə.Cinnahı inandırırdı ki, Hindistan yarımadasında ayrıca müsəlman dövləti yaratmaq üçün mübarizə aparılmalıdır.[30]

---

[25] **A.g.k.**, s.89-90.
[26] **A.g.k.**, s. 91-92.
[27]**A.g.k.**, s.92.
[28]**A.g.k.**, s. 93.
[29] **A.g.k.,** s. 94.
[30] **A.g.k.,** s. 94.

M.İqbal 21 aprel 1938-ci il tarixdə vəfat etdi, Kəlkütdə matəm nitqində M.Cinnah M.İqbalı bəşəriyyətin dahi şairi, uzaqgörən filosof kimi xarakterizə edərək demişdi: "O mənim üçün xüsusi dost idi, filosof və yolgöstərən olaraq məni ruhlandıran və mənə mənəvi dəstək verən şəxsiyyət idi".[31]

M.İqbal fars və urdu dillərində poemalar və çoxsaylı kitablar qələmə almış, şəxsiyyət azadlığını, əməyi tərənnüm etmiş, humanizm, vətənpərvərlik, müstəmləkəçilik əleyhinə mübarizə aparan dahi insanlardan biri olmuşdur.[32]

İqbal inanırdı ki, Məhəmməd Əli Cinnahın liderliyi ilə Yarımada müsəlmanları öz hədəflərinə yetişəcəklər. Belə də oldu! 22-24 mart 1940-cı il tarixində Lahorda Müsəlman Liqasının sessiyasında məşhur Lahor Bəyannaməsi qəbul edildi. Bu münasibətlə Məhəmməd Əli Cinnah həmkarı Mətlub Səidə demişdi: "İqbal aramızda yoxdur, amma o sağ olsaydı bunu bilməyə çox şad olardı ki, biz məhz onun istədiyi kimi etdik".[33]

1947-ci il yaxınlaşmaqda idi. Bir il əvvəl Kəlkütdə ingilislər əleyhinə başlanan kütləvi etirazlarda 4 min nəfər öldürülmüş, minlərlə ev, iş yerləri qarət edilmişdi.[34]

Bir ildən sonra – 15 avqust 1947-ci ildə 71 günlük qızğın müzakirələrdən sonra Böyük Britaniya dövləti Hindistana və Pakistana müstəqillik verməyə məcbur oldu, ərazidə sərhəd bərqərar oldu, dünyada müsəlmanların ən çox yaşadıqları ikinci ölkə olan Hindistanda (İndoneziyadan sonra) müsəlmanlarla münasibətdə zaman-zaman davam edən proseslər, təəssüf ki, indi də ayrı-ayrı hallarda mövcuddur"[35] yazan, 2002-2010-cu illərdə Azərbaycanın Pakistanda fövqəladə və səlahiyyətli səfiri olmuş Eynulla Yadulla oğlu Mədətli özünə xas müşahidə və can yanğısı ilə bu növbəti oçerkini bitirir.

Sonrakı oçerk bütünlüklə Pakistanın yaranmasına və yenə də Cinnahın bu yaranışdan sonrakı fəaliyyətinə həsr olunmuşdur.

Artıq 1947-ci ilin əvvəllərində, yuxarıda yazıldığı kimi, Britaniyanın Hindistan siyasətində köklü dəyişikliyin edilməsi zərurət idi. Cəvahirləl Nehru başda olmaqla ölkədə müvəqqəti hökumət yaratmaq qərarı müsəlmanlar tərəfindən narazılıqla qarşılandı. Hinduslar tərəfindən hakimiyyətin mənimsənəcəyindən, müsəlmanların sıxışdırılacağından narahat olan kütlələr çaxnaşmaya düşmüşdü. Hindusların lideri C.Nehru müsəlmanların rəhbəri M.Cinnaha mənfi münasibət, hətta nifrət bəsləyir, kəskin mübarizə davam edirdi. Qarşıda Hindistan yarımadasının bölünməsi dururdu.[36]

Həmin ilin avqust ayının 7-də Cinnah bacısı Fatimə ilə Kəraçiyə gəldi, keçmiş Sind qubernatorunun qərargahı Cinnahın iqamətgahına çevrildi, Pakistanın birinci Təsis yığıncağında sədr seçilən Cinnah bəyan etdi ki, Müəssislər Məclisinin ilk vəzifəsi Pakistanın Konstitusiyasının hazırlanması, yeni yaranacaq dövlətin qanun-qaydalarının işləməsi, vətəndaşların həyatı, əmlakı, dini inanclarının qorunması,

---

[31] **A.g.ə.**, s.97.
[32] **Azərbaycan Sovet Ensiklopediyası**, cild IV. Bakı, 1980, s.369.
[33] Eynulla Mədətli: **A.g.ə.**, s.99-100.
[34] **A.g.ə.**, s.100.
[35] **A.g.ə.**, s.100-101.
[36] **A.g.ə.,** s.102-103.

rüşvət və korrupsiyanın kökünün kəsilməsi, qohumbazlıq və tayfabazlığın aradan qaldırılması, dini icmalar və azlıqlar arasında nifaqa yol verilməməsidir.

Müsəlmanlar sevinc, hinduslar təşviş içindəydilər. 3 gündən sonra Cinnah və Fatimə Müəssislər Məclisində iştirak üçün yola düşəndə onu hər yerdə "Yaşasın Pakistan", "Yaşasın Qayd-i Əzəm" şüarları ilə qarşıladılar, avqustun 14-də Pakistan Britaniya Əməkdaşlığında qalmaqla rəsmən öz müstəqilliyini qazanmış oldu, oxşar proses Dehlidə də həyata keçirildi və Hindistanın da müstəqilliyi elan edildi, Pakistanın ilk general-qubernatoru Məhəmməd Əli Cinnah, Hindistan İttifaqının rəhbəri isə Cəvahirləl Nehru oldu.[37]

Qayd-i Əzəm yaşlı və xəstə olmasına baxmayaraq ardıcıl tədbirlər görməkdə idi. Hindus-müsəlman qarşıdurmaları davam etməkdə, minlərlə insan öldürülməkdə idi. İlin axırında BMT Təhlükəsizlik Şurası tərəflər arasında atəşkəsə nail oldu, lakin döyüşən qoşunları Cammu və Kəşmirdən çıxarmaq üçün tərəflər arasında razılıq əldə olunmadı.

Ölkədə daxili siyasi vəziyyət olduqca kəskin idi. Belə ki, şimalda puştular – Puştunistan, şərqdə bəluclar – Bəlucistan dövləti qurmaq niyyətində idilər. Cinnah buna görə də Pişəvərə səfər edib bütün xalqı vahid Pakistan dövlətində sıx birliyə çağırdı. Sentyabrın 11-də isə Sinnah Kəraçidə vəfat etdi, vəfat etdiyində 32 kq. çəkisi qalmışdı. "Madər-i Millət" ("Millət anası") adlandırılan bacısı Fatimə də 1967-ci il iyunun 9-da Kəraçidə vəfat etdi.

Kitabın sonrakı oçerki Pakistanda M.Ə.Cinnahdan sonra 10 il ərzindəki siyasi vəziyyətə həsr olunmuşdur. Baş Nazir Ləyaqət Əli Xan mərkəzi dövləti gücləndirmək siyasətini həyata keçirir, eyni zamanda Pakistan Müsəlman Liqasını canlandırır, demokratik dəyərlərə yol açırdı, lakin o, Rəvalpindi şəhərində Liqanın mitinqində çıxış edərkən terror qurbanı oldu (1951), onun yerini Xacə Nizaməddin tutdu. O, milliyyətcə Ləyaqət Əli Xan kimi benqal olsa da, benqalların dil tələbini yerinə yetirə bilmədiyi üçün Benqalda onun və mərkəzi hökumətin əleyhinə 1952-ci ilin yanvarında böyük etiraz mitinqi keçirildi, nəticədə Pakistanın Şərqi ilə Qərbi arasında ixtilafın təməli qoyulmuş oldu, tezliklə Xacə Nizaməddin vəzifəsindən azad edildi, əvəzində Məhəmməd Əli Boqra (1900-1963) Baş nazir oldu. Cəmi bir il vəzifəsində qalan M.Ə.Boqranı Çaudri Məhəmməd Əli (1905-1980) əvəz etdi.[38]

29 fevral 1956-cı ildə ölkədə Pakistanın Konstitusiya qanunu qəbul edildi və ölkə Pakistan İslam Respublikası adlandırıldı, Respublika Partiyasının katibi İsgəndər Mirzə prezident seçildi.[39]

Bütün bu proseslərin cərəyan etdiyi 10 il müddətində də ölkənin əyalətlərində mərkəzə zidd və mərkəzdən qaçma meylləri davam etməkdə idi. Pəncabda Mian İftixaruddin və Şövkət Həyatın liderliyi ilə Azad Pakistan Partiyası quruldu, dini partiya olan Məclise-Əhrar (1930) fəallaşdı, Mövlana Əbdül Əla Mandidinin yaratdığı Cəmaəte-İslami seçkilərdə mübarizəyə başladı.

1953-cü ildə Lahorda çıxışlara başlayan Əhmədilər adlı bir hərəkat ölkədə gərginliyi artırırdı. Yuxarıda adları çəkilən Məclise-Əhrar və Cəmaəte-İslami

---

[37]**A.g.ə.,** s.107-108.
[38] **A.g.ə**., s.114-115.
[39] **A.g.ə.,** s.116.

təşkilatları Əhmədilər əleyhinə kütləvi hərəkata başladılar. Bu iki siyasi qurum birləşib tələb edirdi ki, Əhmədilər Həzrət Məhəmmədin sonuncu peyğəmbər olduğunu (Xətamül-Ənbiya) qəbul etmədiklərinə görə müsəlman sayılmasınlar. Bu vəziyyət 1953-cü ilin martında Lahorda talan və qarətlərlə nəticələnən iğtişaşlara səbəb oldu və nəticədə, yuxarıda adı çəkilən X.Nizaməddin hökuməti istefa etməli oldu. Qeyd olunmalıdır ki, müsəlman sektası kimi yaranan Əhmədiyyə təlimi 1889-cu ildə Pəncabda özünü Mehdi elan edən Mirzə Qulam Əhməd (?-1908) tərəfindən yaradılmışdı?.[40]

Ölkədə yaradılan partiyaların sayı çoxalmaqdaydı: “Avamı-Liq” (“Xalq Liqası”), “Krişok Sramik”(“Kəndli-Fəhlə Partiyası”), “Azad Pakistan” və s. 1953-cü ildə müxalifət partiyalarının Birləşmiş Cəbhəsi təsis olundu. 1956-cı ildə Qərbi Pakistanda 6 mütərəqqi partiya birləşərək Milli Partiya təşkil etdi, bir il sonra bu partiya da “Avami Liq”in sol qanadı ilə birləşdi və Milli Xalq Partiyası yarandı.[41]

Partiyaların ölkədəki çoxluğu müəyyən anarxiyaya səbəb olduğu üçün onların fəaliyyəti dayandırıldı, ölkədə hərbi çevriliş baş verdi, prezident vəzifəsini silahlı qüvvələrin baş komandanı Məhəmməd Əyyub Xan (1907-1974) öhdəsinə götürdü.[42]

Sonrakı bölmə əsasən general Əyyub Xanın hakimiyyət illərini əhatə edir. O, ölkənin idarəçiliyində yuxarıdan aşağıya bütün açar vəzifələrə hərbiçiləri təyin etdi (1958), daxili və xarici siyasətdəki əsas vəzifələr, nazirlər, səfirlər və b. əsasən yüksək çinli ordu mənsublarından ibarət oldu, bir il sonra ona feldmarşal rütbəsi verildi, ölkədə hərbi məhkəmələr quruldu, mitinqlər, nümayişlər, tətillər qadağan edildi, kütləvi informasiya vasitələrinə, nəşrlərə senzura tətbiq edildi. Habelə gücləndirilmiş vahid mərkəzi hakimiyyət bir sıra islahatlar keçirdi, ölkənin iqtisadiyyatı, istehsal, ticarət, xüsusilə kənd təsərrüfatı dirçəldi, xarici, iqtisadi və siyasi əlaqələr inkişaf etdi, şaxələndi, Avropa ölkələri və SSRİ ilə əlaqələr genişləndirildi, ölkə əyalətlərə, əyalətlər vilayətlərə, vilayətlər dairələrə, dairələr rayonlara, rayonlar qrup kəndlərə, ya kiçik yaşayış məntəqələrinə bölündülər, 1960-cı ildə M.Əyyub Xanı Pakistan İslam Respublikasının prezidenti seçdilər, 1962-ci ilin martın 1-də ölkənin yeni Konstitusiyası qəbul edildi və əsas qanuna görə ölkə prezident idarəçiliyinə keçirildi.[43] İki il sonra Milli Assambleyanın ilk iclasında M.Əyyub Xan ölkədə hərbi vəziyyəti ləğv etdi, partiyaların fəaliyyəti bərpa olundu, hərbi xidmətdən təqaüdə çıxan prezident M.Əyyub Xan həm də partiyaya başqanlıq etdi.[44]

1969-cu ildə M.Əyyub Xan prezidentlikdən istefa edib hakimiyyəti Pakistan ordusunun baş komandanı general Ağa Məhəmməd Yəhya Xana (1917-1980) təhvil verdi. Hakimiyyətə gələn general 1962-ci il Konstitusiyasını ləğv etdi, 1970-ci ildə keçirilən seçkilərdə Pakistan Xalq Partiyasının sədri Z.Ə.Bhutto hərbi hökuməti dəstəklədi, ölkənin Baş naziri olmaq hüququnu qazanan “Avami-Liq” partiyasının lideri Mucibur-Rəhman (1920-1975) bu yüksək vəzifəni deyil, həmin vaxtadək

---

[40] **A.g.ə.,** s.117.
[41] **A.g.ə.,** s.118-119.
[42] **A.g.ə.,** s.119.
[43] **A.g.ə.,** s.120.
[44] **A.g.ə.,** s.121-122.

"Şərqi Pakistan" adlanan Benqalı ölkədən ayırıb müstəqil dövlət qurmağı üstün tutdu və Hindistan tərəfindən də siyasi-hərbi dəstək aldı. Belə olan halda Prezident Yəhya Xan müharibə əmri verdi, "Avami-Liq" i qeyri-qanuni elan edərək Şeyx Mucibur Rəhmanın həbsinə hökm verdi, benqallar üsyana qalxdılar, Hindistanın iştirakı ilə müharibə qızışdı, Şərqi Pakistan ayrılaraq Banqladeş Respublikası adlandı (7 dekabr 1971) və bundan sonra Qərbi Pakistan anlayışına da ehtiyac qalmadı.[45]

Qeyd olunmalıdır ki, Hindistanla müharibə başlayarkən Yəhya Xan Z.Ə.Bhuttonu Baş nazirin müavini və Xarici İşlər naziri vəzifəsinə təyin etmişdi. Bhuttonun ABŞ-a səfəri zamanı Hindistanın Baş naziri İndira Qandi (1917-1984) birtərəfli qaydada atəşkəs elan etdi, Pakistan bununla razılaşdı və müharibə dayandırıldı. 20 dekabr 1971-ci ildə Z.Ə.Bhutto səfərdən ölkəyə qayıdan kimi Prezident Yəhya Xan onu saraya dəvət etdi, istefa edərək hakimiyyəti Pakistan Xalq Partiyasının lideri Zülfüqar Əli Bhuttoya təhvil verdi.[46]

Növbəti oçerk "Pakistan 1972-1977-ci illərdə" adlanır. Bu oçerkdə Z.Ə.Bhuttonun Pakistanın daxili və xarici siyasətində həyata keçirdiyi bir sıra mütərəqqi və zəruri dəyişikliklərdən, o cümlədən iqtisadiyyatda dövlətin rol və təsirinin güclənməsindən, mühüm sənaye və ticarət sahələrinin milliləşdirilməsindən, aqrar islahat keçirilməsindən, inhisarçılığın qarşısının alınması üçün gördüyü tədbirlərdən bəhs olunur. O, ölkəsini "islam sosializmi" kimi inkişaf etdirmək niyyətində idi. Bhuttonun qüvvəyə mindirdiyi yeni Konstitusiya qanunu federativ quruluşu və parlamentli respublika idarəçiliyini təsbit etdi, dövlət tədris müəssisələrində tədris pulsuz oldu, tibb, sosial sığorta, həmkarlar ittifaqı, sahəsində əhəmiyyətli işlər görüldü. Onun lideri olduğu Pakistan Xalq Partiyasının şüarı "roti, kapra, aur makan" ("çörək, paltar və mənzil"), "zəmin kəstkaron ko" ("torpaq əkinçilərə"), "müsavatı-Muhammadi" ("Məhəmməd peyğəmbərin təlqin etdiyi bərabərlik") idi.[47]

1974-cü ilin mayında Hindistanın "dinc nüvə sınağını" keçirməsi Bhuttonu da nəyin bahasına olur-olsun nüvə silahına malik olmağa təhrik etdi. Onun "Nüvə proqramı" ABŞ-ı narahat edirdi.[48]

1975-1976-cı illərdə ölkədə bəzi qaydalar sərtləşdirildi, Bhutto partiyasına qarşı ölkənin doqquz partiyası birləşərək Pakistan Milli Alyansını yaratdılar. Hökumətin etdiyi həbslər və digər repressiv tədbirlər etirazları daha da qızışdırdı, siyasi sabitlik pozuldu, iqtisadi böhran başlandı. Nəticədə general Ziya ül həqq (1924-1988) hakimiyyəti ələ alıb hərbi idarəçilik qurdu, 1978-ci ilin sentyabrında ölkənin prezidenti seçildi, bir neçə aydan sonra Zülfüqar Əli Bhutto edam olundu.[49]

Sonrakı oçerk Ziya ül həqqin hakimiyyət illərini əhatə edir. Ölkədə sürətlə dövlət siyasətini islamlaşdırmağa başlayan yeni prezident Ali Məhkəmə yanında Federal Şəriət Məhkəməsi yaratdı, İslam prinsiplərinə zidd olan qanunlar daha işləmədi. Sovet İttifaqının Əfqanıstanı işğal etməsi (1979) ilə Sovet işğalına qarşı

---

[45]**A.g.ə.,** s.123-125.
[46] **A.g.ə**., s.125-126.
[47] **A.g.ə.,** s.127.
[48]**A.g.ə.,** s.128-129.
[49] **A.g.ə.,** s.130-132.

Əfqanıstan müqavimət hərəkatının mərkəzi Pakistana keçdi, Pakistan ABŞ-ın müttəfiqinə çevrildi, prezidentin səlahiyyətlərini genişləndirdi. Bundan sonra o, parlamenti, mərkəzi və əyalət hökumətlərini buraxdı, yəni hökumətə rəhbərliyi özü etməyə başladı və 1989-cu il noyabrın 1-nə ümumi seçkilər təyin etdi, lakin seçkilərə bir neçə gün qalmış (17 avqust 1988) bir qrup yüksək çinli hərbi rəislər və diplomatlarla birlikdə təyyarə qəzasında həyatını itirdi.[50]

Sonrakı 10 il Zülfüqar Əli Bhuttonun qızı Benəzir Bhuttonun və Nəvaz Şərif hökumətlərinin hakimiyyət illəri oldu.

Z.Ə.Bhuttonun ölümündən sonra Konstitusiyaya uyğun olaraq Senatın sədri Qulam İshaq Xan Prezident vəzifəsini müvəqqəti icra etməyə başladı, ölkədə fövqəladə vəziyyət elan edildi. Milli Assambleyaya keçirilən seçkilərdə (16 noyabr 1988) Pakistan Xalq Partiyasının lideri Benəzir Bhutto başda olmaqla Koalisiyon hökumət formalaşdırıldı, dekabrın 12-də Seçicilər Kollegiyası yuxarıda adı çəkilən Qulam İshaq Xanı prezident seçdi, ölkədə fövqəladə vəziyyət ləğv edildi, siyasi azadlıqlar və demokratik prinsiplər bərpa edildi. Lakin vəziyyət gərgin idi, müxalifət liderlərindən ibarət təşkil olunan müvəqqəti hökumət formalaşdırıldı və **Q.M.Catoy** hökumətə başçılıq etdi, 24 oktyabr 1990-cı ildə keçirilən Milli Assambleya seçkilərində İslam Demokratik Alyansı qələbə çaldı və lideri Mian Məhəmməd Nəvaz Şərif Baş nazir seçildi.[51]

Çox keçmədi ki, Prezident Qulam İshaq Xan ilə Baş nazir Nəvaz Şərif arasında yaranan narazılıq nəticəsində bir çox görkəmli şəxslər hökuməti və Alyansı tərk etdilər, Milli Assambleya və hökumət buraxıldı, M.Ş.Məzari başda olmaqla Müvəqqəti hökumət quruldu. Bundan sonra Baş nazir N.Şəriflə Prezident arasında ixtilaf daha da dərinləşdi, nəticədə Ordu rəhbərliyi həm Baş nazirin, həm də Prezidentin istefasına nail oldu, Pakistanda “çox istəyən azdan da qalar” zərbüməsəli hələlik reallaşdı, lakin mübarizə davam edirdi.[52]

Növbədənkənar Parlament seçkilərində (6 noyabr 1993) Pakistan Xalq Partiyası B.Bhuttonun başçılıq etdiyi Koalisyon hökumət qurdu, bir aydan sonra hökumət blokunun namizədi olan milliyətcə bəluc Faruk Əhməd Xan Leqari (1940-2010) ölkənin Prezidenti seçildi,[53] lakin B.Bhutto hökuməti maliyyə çətinliyi qarşısında qaldı, bürokratik əngəllər çoxaldı, korrupsiya genişləndi, o cümlədən Benəzir xanımın nazir vəzifəsinə təyin etdiyi əri Asif Zərdarinin adı da bunda hallandırıldı, amma xanım bununla əlaqədar tədbirlər görmədi. Beləliklə, Benəzirin yol verdiyi yanlışlıqlardan nəticə çıxarmaması həm onu, həm də başçılıq etdiyi Pakistan Xalq Partiyasını məğlub vəziyyətə gətirdi, ölkədə təriqətçilik zəminində terror halları çoxaldı, prezident F.Ə.Leqari parlamenti və hökuməti buraxmağa məcbur oldu.[54]

3 fevral 1997-ci ildə keçirilən seçkilərdə Nəvaz Şərifin başçılıq etdiyi Pakistan Müsəlman Liqası qələbə çaldı və o, Baş nazir oldu, korrupsiya və terrora qarşı qətiyyətlə mübarizə başlandı, Bhutto ailəsinin hesabları dondurulda, prezidentin

---

[50] **A.g.ə.,** s.133.
[51] **A.g.ə.,** s.134-135.
[52] **A.g.ə.,** s.135-136.
[53] **A.g.ə.,** s.136.
[54] **A.g.ə.,** s.136-137.

səlahiyyətləri məhdudlaşdırıldı. Prezident daha Parlamenti buraxa, hökuməti istefaya göndərə bilməzdi. Bu və digər məsələlərlə bağlı Prezident F.Ə.Leqari könüllü olaraq istefa verdi, keçirilən Prezident seçkilərində senator Məhəmməd Rafiq Tarar (1929-2001) dövlət başçısı seçildi.[55]

1998-2002-ci illər Pərviz Müşərrəfin ölkənin icra hakimiyyətinin başçısı kimi hakimiyyət dövrü oldu,[56] onun əsas fəaliyyət dövrü isə 2002-2008-ci illəri əhatə edir.[57] E.Mədətlinin nisbətən geniş işıqlandırdığı oçerkdə bu şəxsiyyət haqqında yeni məlumatlar az deyil.

Pərviz Müşərrəf (1943-2023) 1998-2007-ci illərdə Pakistan Ordu Heyətinin Rəisi, 1999-2002-ci illərdə Pakistanın İcra Başçısı, 2002-2008-ci illərdə isə ölkənin Prezidenti olmuşdur. Dehlinin qədim Muğal bölgəsində, urdu dilli ziyalı ailədə doğulan P.Müşərrəfin öz bioqrafiyasına nəzər yetirirəm:

1947 – Kəraçi şəhəri; 1949 – Atası Seyid Müşərrəfidinin Türkiyədə Pakistan səfirliyində baş mühasib vəzifəsinə təyin edilməsi ilə əlaqədar Ankaraya səfər və yeddi illik Türkiyə həyatı, məktəb illəri; 1961-1965 – Pakistan hərbi Akademiya-sının tələbəsi; 1965 – Hindistanla müharibədə iştirak; 1966 – Pakistan xüsusi Xidmət qrupunun Komando hərbi bölümündə xidmət; 1974 – Ordu hərbi Kollecinin mayoru; 1978 – Topçu dəstəsinin polkovnik-leytenantı, 1983-84-cü illər – Hərbi Əməliyyatlar Müdiriyyətində Baş müşavir; 1985 – Bhavalpur piyada qoşun hissəsinin komandiri; 1990 – London Kral Müdafiə Kollecinin kursantı; 1993 – 40 saylı Hərbi əməliyyatlar üzrə Baş direktor, Somalidə və Bosniyada sülhyaratma missiyasında iştirak, 1995 – Pakistan ordusuna elit hücum korpusunun komandiri, general-leytenant; Hərbi əməliyyatlar üzrə Baş direktor; 1998 – Pakistan Ordu başçısı; 1999 – Şri Lankaya rəsmi səfər; Nəvvaz Şəriflə ziddiyyətin yaranması və nəhayət televiziya ilə xalqa müraciəti.[58]

Ölkənin İcra Başçısı və ordu komandanı P.Müşərrəf tərəfindən Milli Hesabat Bürosu və Milli Yenidənqurma Bürosu (1999) yaradıldı, Pakistan Ali Məhkəməsi Pərviz Müşərrəfin Nəvaz Şərif hökumətini ləğv etməsini və hakimiyyəti ələ almasını hüquqi cəhətdən rəsmiləşdirdi, Milli Təhlükəsizlik Şurası yaradıldı, ölkədə ümumi seçkilər keçirildi, P.Müşərrəf Konstitusiyaya uyğun 2007-ci ilədək həm Prezident, həm də Ordu başçısı vəzifələrini tutmaq haqqı qazandı.[59]

2002-2008-ci illər, bildiyimiz kimi, Pakistanın Prezident P.Müşərrəfin ölkə rəhbəri olduğu dövrü əhatə edir. Senat və Milli Assambleyadan ibarət seçki heyəti onu Prezident kimi təsdiqlədi, Mir Zəfərullah Camali Baş nazir seçildi.[60]

Beləliklə, 2002-ci ildən sonrakı 4 il P.Müşərrəfin həyatında ən çətin və məsul illər oldu. 2007-ci il yaxınlaşmaqda idi. ABŞ-ın Miçiqan Universitetinin Şərq tarixi üzrə professoru Roger D.Lonq P.Müşərrəfi ondan əvvəlki prezidentlərlə müqayisə edib yazırdı: "Əgər Əyyub və Ziya kommunizmə qarşı mübarizə aparırdılarsa,

[55] **A.g.ə.,** s.137-138.
[56] **A.g.ə.,** s.139-149.
[57] **A.g.ə.,** s.150-169.
[58] **A.g.ə.,** s.145.
[59] **A.g.ə.,** s.145-149.
[60] **A.g.ə.,** s.155.

Müşərrəf terrorla müharibə edirdi. ABŞ-dan milyardlarla dollar hərbi və maliyyə dəstəyi alır və bunları Pakistan iqtisadiyyatının dirçəldilməsinə yönəldirdi. Buna görə də 11 sentyabrdan sonra Müşərrəfin hakimiyyəti illərində iqtisadiyyat çiçəkləndi".[61]

2007-ci il yaxınlaşmaqdaydı. 2007-ci ilədək terroristlər İslamabad xristian kilsəsində, Maridə xristian məktəbində, Taksilada xristian xəstəxanasında terror aktı törətdilər. Kəraçidə Pakistan hərbi dəniz donanması üçün sualtı qayığın inşasında çalışan fransız hərbi mühəndisləri, ABŞ-ın Kəraçidəki konsulluğu, ABŞ jurnalisti Daniel Perl qaçırılıb öldürüldü.[62]

2007-ci il yaxınlaşmaqda idi. 2004-cü ilin iyununda Kəraçi hərbi korpusunun komandanı general-leytenant Əhsən Səlimə qarşı terror törədildi, tələfat olsa da komandan sağ qurtula bildi. Yenə həmin ildə Pakistanın Maliyyə naziri Şövkət Əziz seçicilərlə görüşdən geri qayıdarkən maşınını saxladıb partlatdılar, sürücü həlak olsa nazir sağ qaldı.[63]

Qısa müddətdə ölkə iqtisadiyyatının dirçəldilməsi üçün zəruri tədbirlər görülməkdə idi. Əgər 1999-cu ildə Pakistanın ixracı cəmi 300 milyon dollar idisə, 2006-cı ildə bu rəqəm 18 milyard dollara çatdı.

2007-ci il yaxınlaşmaqda idi. 8 oktyabr 2005-ci ildə səhər saat 9-a 8 dəqiqə qalmış dəhşətli zəlzələ Pakistanın şimal bölgələrini lərzəyə saldı. Bu zəlzələnin həyəcanını yaşamaq, ağrılı fəsadlarını görmək bu oçerklərin müəllifi – o zaman Azərbaycanın Pakistandakı səfiri olan Eynulla Mədətlinin də payına düşdü. Ertəsi gün Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına görə xüsusi təyyarə ilə 40 nəfər xilasedici dəstə və həkim briqadası oraya göndərildi.[64]

2007-ci il yaxınlaşmaqda idi. P.Müşərrəf ölkədə qadına qarşı zorakılığı aradan qaldırmaq üçün Qadın Məsələləri Milli Komissiyası yaratdı, ölkənin Milli Assambleyası "namus üstündə öldürmə" ("karo-kari") halını qadağan edən qanunu qəbul etdi.[65]

Nəhayət 9 mart 2007-ci il. P.Müşərrəf Ali Məhkəmə sədrinin fəaliyyətini dayandırdı – İftixar Məhəmməd Çaudrini korrupsiya və vəzifəsindən sui-istifadə etməkdə günahlandırdı. Hakimlər uzun müddət davam edən geniş etiraz tətilinə başladılar, bütün müxalifət partiyaları da onları dəstəklədi.

8 mart 2007-ci ildə P.Müşərrəf ölkənin şimalına səfər təşkil etmişdi. Onun helikopterinin ardınca uçan ikinci helikopter Müzəffərabad şəhəri yaxınlığında yerə çırpıldı – biri briqada generalı olmaqla 4 nəfər həlak oldu, 8 nəfər yaralandı. Prezidentin ardınca uçmaqla olan üçüncü helikopterdə bir neçə səfir və media nümayəndəsi ilə birlikdə Türkiyənin səfiri, həmçinin bizim səfirimiz E.Mədətli də var idi. Sonralar məlum oldu ki, bu terrorun hədəfi prezident P.Müşərrəf imiş.

---

[61] **A.g.ə.,** s.156.
[62] **A.g.ə.,** s.156-157.
[63] **A.g.ə.,** s.157.
[64] **A.g.ə.,** s.63.
[65] **Qeyd:** Yeri gəlmişkən, bu sətirlərin müəllifi Şahin Fazil Əfqanıstanda işlədiyi birinci ildə (1953) Əfqanıstanın Səripol şəhərində "namus üstündə öldürmə" halını görmüşdü. Belə ki, meydanda bir qatilin başını, camaatın gözü qarşısında kəsmişdilər.

18 oktyabr 2007-ci ildə 8 illik sürgündən sonra (Dubay və Londonda) Benəzir Bhutto Parlament seçkilərində iştirak etməkdən ötrü Pakistana döndü. Qısa müddət ərzində ona iki dəfə sui-qəsd edildi, özü sağ qalsa da 136 nəfər öldü, 450 nəfər yaralandı.

3 noyabr 2007-ci ildə P.Müşərrəf Ali Məhkəmənin sədri İftixar Çaudrini və 14 hakimi vəzifədən azad etdi və buna görə ölkə dərin böhrana düşdü, Prezident hərbi vəziyyət elan etməli oldu. Belə şəraitdə P.Müşərrəf ikinci dönəm ölkə prezidentliyinə seçildi.

27 dekabr 2007-ci ildə Rəvalpindidə Benəzir Bhuttoya edilən qəsd və onun qətli ölkəni qaynatdı, anti-Müşərrəf əhval-ruhiyyəsi daha da qızğınlaşdı, Pakistan Xalq Partiyası Koalision hökumət qurdu, Yusif Raza Çilani Baş nazir seçildi, Prezident P.Muşərrəfə qarşı impiçment hərəkatına başlanıldı, tezliklə o, 9 illik hakimiyyətdən sonra istefa etdiyini bəyan etdi.[66]

"Pakistan 2008-2012-ci illərdə" növbəti oçerkində Z.Ə.Bhuttonun qızı Benəzir Bhutto ilə evlənmiş Sind əyalətinin iri torpaq sahiblərindən olan Asif Zərdarinin məhz həmin evlilik sayəsində siyasət aləminə varid olmasından əvvəlcə nazir, sonrasa senator kürsüsünə yiyələnib korrupsiya ittihamı ilə 8 il həbs cəzasını da çəkməsi və prezident seçilməsi haqqında əhvalatlar əks etdirilir. Oçerkdə oxuyuram: "Bu sətirlərin müəllifi xidməti vəzifəsi ilə əlaqədar bir neçə dəfə Prezident A.Zərdari ilə görüşmüş və 2010-cu ilin iyununda Pakistandakı diplomatik xidməti başa vurar-kən onunla vida görüşü keçirmişdi".[67] Demək, bizim diplomat Pakistanda işlədiyi 8 il müddətində vəzifəsi çərçivəsində dəfələrlə ölkənin ən yuxarı kürsü rəhbərləri ilə dəfələrlə xidməti görüşlər keçirmiş, onların müəyyən fəaliyyətləri ilə yaxından tanış olmuşdur.

2009-cu il. A.Zərdari ilə N.Şərif arasında ziddiyyətin kəskinləşməsi. 2010-cu il. Pakistanın dağıdıcı sel fəlakəti ilə üzləşməsi, ölkənin dörddə birinin fəlakətə məruz qalması və Azərbaycanın bu qardaş ölkəyə humanitar yardımlar göndərməsi.[68]

Bu oçerkində E.Mədətlinin Pakistandan qayıtdıqdan sonra həmin ölkə ilə yaxından maraqlanmasından, Abbatobad şəhərində Pakistan Hərbi Akademiyasının lap yaxınlığındakı məhəllədə xeyli vaxt gizli yaşayan Üsamə bin Ladenin öldürül-məsi (2 may 2011), Pakistan-ABŞ münasibətlərinin xeyli soyumasından, Prezident A.Zərdarinin zəif fəaliyyəti nəticəsində ölkənin inkişafı üçün lazımınca səylər göstərməməsindən, xüsusilə ölkədə korrupsiyanın çoxalmasından, zəngin siyasət və idarəçilik təcrübəsinə malik və bundan əvvəl iki dəfə hökumət başçısı olmuş Nəvaz Şərifin 2013-cü ildə keçirilən növbəti seçkilərdə qalib gələrək hökuməti forma-laşdırmaq haqqını qazanmasından bəhs olunmuşdur.

Müəllifin sonrakı oçerkində bütünlüklə Nəvaz Şərif hökumətinin (2012-2017) 5 illik fəaliyyəti işıqlandırılır. "2013-cü ilin may ayının 28-də Nəvaz Şərif 3-cü dəfə ölkənin Baş naziri vəzifəsinə seçildi" yazan E.Mədətli bu yeni hökumət başçısının hakimiyyət yolunun hamar olmamasından, siyasətçi İmran Xanın ona etiraz olaraq Milli Assambleyanı tərk etməsindən, Nəvaz Şərifin bir sıra tədbirlər keçirməsindən,

---

[66] **A.g.ə.,** s.164-169.
[67] **A.g.ə.,** s.172-173.
[68] **A.g.ə.,** s.173.

apardığı xarici siyasətdən, ölkə iqtisadiyyatının tədriclə dirçəlməsindən, Atom Elektrik Stansiyasının təməlinin qoyulmasından, İslamabaddakı Qayd-e Əzəm Universitetinin Fizika Mərkəzinə Nobel mükafatı laureatı prof. Əbdus-Salamın adını verməsindən, din alimlərini xalq arasında doğru islamı təbliğ etməyə, onları terrorçuluğa qarşı çıxmağa çağırmasından qısaca danışılır, bunlarla yanaşı ölkədə N.Şərif iqtidarına qarşı 2014-cü ildə başlanan etiraz nümayişlərini, ordu mənsubları ilə münasibətlərinin gərginləşməsini də qeyd etməyi unutmur və yazır: "N.Şərifin avtoritar idarəçiliyi və yol verdiyi korrupsiya halları bu hökumətin həyata keçirdiyi islahatlara kölgə salır, tədricən hökumətin sonunu yaxınlaşdırırdı".[69] Nəticədə 2017-ci ilin iyul ayının 28-də Nəvaz Şərif hökumətinin fəaliyyəti Ali Məhkəmə tərəfindən dayandırıldı, o, tutuqlanıb 10 il həbs cəzasına və ömürlük siyasətlə məşğul olmamağa məhkum edildi.[70]

6 iyul 2018-ci ildə Ali Məhkəmə N.Şərifin qızı Məryəm Nəvaza 7 il, kürəkəni Səftərə 1 il həbs cəzası verdi. Həmin ilin dekabrında N.Şərifin həbs cəzası 7 ilə endirildi.

2019-cu ildə cəzasının 1 ilini çəkəndən sonra N.Şərif müalicə məqsədilə xaricə getmək üçün müraciət etdi, Lahor Ali Məhkəməsinin qərarı ilə onun ölkədən çıxmasını qadağan edən qərar ləğv edildi, 44 milyon ABŞ dolları məbləğində dövlətə vurduğu zərəri ödəmək öhdəliyi ilə azad buraxıldı, Londona uçdu, qızı da həbsdən azad edildi. E.Mədətli qeyd edir ki, N.Şərif sıralama ilə Pakistanın 12-ci, 14-cü və 20-ci Baş naziri olmuşdur.[71] 21-ci Baş nazir vəzifəsinin sahibi isə cəmi bircə il bu vəzifədə işləyən Pakistan Müsəlman Liqasının sədri Şahid Xaqan Abbasi oldu. "Xaqan" istilahı tarix boyu uzun illər "xanlar xanı" mənasında işlənmiş və "bütün xanların xanı" mənasını ifadə etmişdir. Şahid Xaqan Abbasidən başqa Pakistanın qeyri Baş nazirlərinin hər biri bu vəzifədə olduqları vaxt bir neçə il işlədiklərinə baxmayaraq cənab Şahid Xaqan Legarı ona qismət olan "xanlar xanı" ifadəsini öz şəxsində doğrulda bilməmişdir.

18 avqust 2018-ci il tarixində 350 min nəfər hərbçinin və asayiş qüvvələrinin təmin etdiyi yüksək təhlükəsizlik şəraitində Milli Assambleyaya keçirilən seçkilərdə Pakistan Təhrik-e İnsaf partiyasının rəhbəri İmran Xan ölkənin növbəti Baş naziri seçildi.[72]

Pakistanın 22-ci Baş naziri kürsüsünə əyləşən İmran Əhməd Xan Niyazi (5 oktyabr 1952) fəaliyyətə başladı. Lahorda puştu ailəsində doğulan İmran Xan 1975-ci ildə Oksfordda Keble Kollecini bitirmiş, 1996-cı ildə Təhrik – İnsaf Partiyasını yaratmış, Parlamentdə müxalifətçi qismində 2007-ci ilədək təmsil olunmuşdu. Onun dünyagörüşü və ideoloji məfkurəsinin formalaşmasında Məhəmməd İqbalın fəlsəfi-ədəbi görüşlərinin əhəmiyyətli təsiri vardır. O, Kəşmir münaqişəsinin dinc yolla, danışıqlar vasitəsi ilə həllinə çağırır və bəyan edirdi ki, Pakistanın Baş naziri seçiləndə ölkədə yenidən M.Ə.Cinnahın ideologiyasına qayıtmağa çalışacaq.[73]

---

[69] **A.g.ə.,** s.175-177.
[70] **A.g.ə.,** s.177-178.
[71] **A.g.ə.,** s.178-179.
[72] **A.g.ə.,** s.179.
[73] **A.g.ə.,** s.181.

Müxtəlif vaxtlarda general Ziya ül həqqin və Nəvaz Şərifin vəzifə təkliflərini qəbul etməyən İmran Xan 1994-cü ildən ictimai fəaliyyəti ilə yanaşı, siyasi fəaliyyətini də artırmışdır. Əvvəllər Pərviz Müşərrəfin hakimiyyətini dəstəkləyən (2002) İmran Xan P.Müşərrəfin 6 oktyabrda keçirilməsi planlaşdırılan (2007) Parlament seçkilərini boykot etdi, prezident ölkədə fövqəladə vəziyyət elan edəndə (3 noyabr 2007) dustaq edildi, lakin tezliklə azad olundu, amma 11 gün sonra bir neçə günlüyə ev dustağı edildi.

İmran Xan ötən seçkilərdə M.Şərifin saxtakarlığı üzə çıxarılan vaxt Ali Məhkəmədən müvafiq tədbir görməyi, N.Şərifdən isə istefa tələb edərək 14 avqust 2014-cü ildə Lahordan İslamabada etiraz yürüşü təşkil etdi. 28 iyul 2017-ci ildə N.Şərif vəzifədən uzaqlaşdırıldı, İmran Xanın Partiyası Parlamentdə 270 yerdən 116-nı qazandı, az sonra o, Baş nazir seçildi (17 avqust 2018).[74]

Pakistandakı qeyri-sabit təhlükəsizlik şəraiti və başdan-başa korrupsiya içərisində olan iqtisadiyyat, ölkə ucqarlarında isə etnik-məzhəbi mənsubiyyətli radikal partiya və qruplaşmaların yaratdığı separatçılıq hərəkatları ağır miras kimi İmran Xan hökumətinin çiyinlərinə düşmüşdü.[75]

Yeni Baş nazir həm daxili, həm də xarici siyasətdə mühüm işlər gördü və "Taym" ("Time") jurnalı tərəfindən 1919-cu ildə ilin ən nüfuzlu şəxsi elan edildi.[76]

Növbəti oçerk də İmran Xanla bağlıdır. E.Mədətli yazır: "2020-ci ilin oktyabrında İmran Xan bir il əvvəl ölkəni tərk etmiş və Böyük Britaniyada yerləşmiş Nəvaz Şərifi ... kəskin tənqid etmişdi ... Müxalifət isə İmran Xan hökumətini hərbçilərin diktəsi ilə hərəkət etməkdə suçlayır, etiraz yürüşləri keçirirdi".[77]

9 aprel 2022-ci il tarixində Pakistan Ali Məhkəməsinin hökumətə etimadsızlıq layihəsi Parlamentə verildi və Baş nazirin Parlamenti buraxmaq və yeni seçkilər keçirmək təklifinin Konstitusiyaya zidd olduğunu təsbit etməsi ilə yaranmış vəziyyət aradan qaldırıldı, elə həmin gün Milli Assambleyada müxalifət düşərgəsinə mənsub deputatlar 174 səslə İmran Xan hökumətinə etimadsızlıq qərarını qəbul etdilər. Onun rəhbərlik etdiyi partiya deputatlarının iştirak etmədiyi iclasda keçmiş Baş nazir Nəvaz Şərifin qardaşı Mian Məhəmməd Şahbaz Şərif Pakistanın Baş naziri seçildi.[78]

"Pakistan: Qısa tarixi oçerklər" kitabındakı sonrakı oçerklər silsiləsi "Pakistanda etnik mənzərə və dillər", "Pakistanda İslamı hərəkatlar və tədqiqatlar", "Pakistan dövlətçiliyində dinin rolu", "Pakistanın xarici siyasəti", "Pakistan terrorla mübarizədə", "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında siyasi münasibətlərə dair" adlanır və müəllif özünəxas dolğunluqla hər bir oçerkin məzmununa uyğun məsələləri ön plana çəkməklə həmin silsiləni tamamlamasına baxmayaraq yazmaqda olduğu kitabı tamamlamağa tələsmir və "Məqalələr" silsiləsinə başlayır. Çox yaxşı ki, bu kitabda əlavə olaraq yeni silsilə yer tutur və müəllif Hindistanın və Pakistanın "yaralı yeri" olan "Kəşmir məsələsi", "Azərbaycan-Pakistan əlaqələrinin tarixi", "Pakistanda 7 ildən sonra 7 gün" adlı üç

---

[74] **A.g.ə.,** s.182-185.
[75] **A.g.ə.,** s.186.
[76] **A.g.ə.,** s.189.
[77] **A.g.ə.,** s.190.
[78] **A.g.ə.,** s.193.

böyük həcmli qələm nümunəsini oxuculara təqdim edir. Amma, iş bununla da bitmir və kitabda Azərbaycan-Pakistan münasibətləri ilə bağlı bir müsahibə də yer tutur. Hələ bu nədir ki, müəllifin yetərincə bildiyi ingilis dilində bir neçə yazısı da siqlət baxımından maraq kəsb edir, hələ bu da nədir ki, "Əlavələr" hissəsində Pakistanın dövlət və hökumət başçıları, o cümlədən bütün Prezidentləri və Baş nazirləri haqqında statistik məlumat dərc olunub.[79]

Bir də kitabın əvvəlinə qayıdıram: Müəllifi Pakistanın milli şairi olan Məhəmməd Hafiz Cahandarinin (1900-1982) yazdığı Milli Himnin mətni. Urdu dilindən tərcümə edən E.Mədətlidir.[80]

Doğrusunu deyim ki, mən Pakistan tarixini bilmirdim. Əfqanıstanda 13 il işlədim və o ölkəni yaxşı tanıdım. Məhz bu kitabın sayəsindəsə Pakistan tarixini öyrəndim və son sözüm: "Pakistan: qısa tarixi-siyasi oçerklər" kitabı. Təhsinə layiq dəyərli bir kitab! Əhsənə layiq bir kitabın müəllifi!

---

[79] **A.g.ə.,** s.195-276.
[80] **A.g.ə.,** s.277-399.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 186-189*

**UOT 94**

# EDWARD J.ERICKSON. OTTOMANS AND ARMENIANS: A STUDY IN COUNTERINSURGENCY

# ЭДВАРД ЭРИКСОН. ТУРКИ И АРМЯНЕ: ИССЛЕДОВАНИЕ БОРЬБЫ С ПОВСТАНЦАМИ

## Р Е Ц Е Н З И Я

©2023
ЭЛЬДАР АЛИЕВ[*]

[*]Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0009-0002-4332-1798; e-mail: aeldar50@rambler.ru
*https://doi.org/10.59849/2523-4765.2023.2.186*

На книгу первоначально выпущенную издательством ©PALGRAVE MAKMILLAN, 2013, а в 2018 году переведенную и выпущенную издательством РОССПЭН в Москве.

Как следует из аннотации российского издательства, книга написана известным американским военным историком Э.Дж.Эриксоном, где впервые методом сравнительного анализа исследуются антиповстанческие действия правительства многонациональной Османской империи в конце XIX – начале XX в. далее в представленной аннотации отмечено, что среди обширной литературы об антиповстанческих действиях редко встречается научный анализ реакции правительства Высокой Порты на восстание и последующего перехода к антиповстанческим операциям.

Безусловно, это исследование рассчитано на широкий круг читателей, интересующихся драматическими событиями истории Османской империи в конце XIX – начале XX века.

Структурно работа состоит из введения, десяти глав, приложения (антитезы о переселении), примечаний, библиографии и указателя имен. Книга также снабжена соответствующими картами.

Наибольший интерес в данной работе привлекли к себе главы седьмая и девятая, названные соответственно Иррегулярная война на Кавказе и в Леванте и Новый план действий, а также Приложение. Антитезы о переселении.

Необходимо сразу отметить, что исследование выполнено в строго академическом стиле с соответствующим научным аппаратом. Каждую главу предваряет введение, а завершает заключение.

Седьмая глава состоит из следующих разделов: Армянская и российская военная деятельность на Кавказе, Османская военная деятельность на Кавказе, Квазивойна на границе, Операции в долине Чороха, Прочие военные операции

на Кавказе, Сарыкамышская кампания и Французские и британские операции в Киликии и Сирии.

Как отмечает автор во введении к седьмой главе, что армянские комитеты откликнулись на инициативу союзных держав, приведя свою программу в соответствие с интересами союзников, вопреки интересам Османской империи. Осторожная на первых порах поддержка союзников армянскими комитетами резко возросла после поражения империи под Сарыкамышем, Басрой и на Суэцком канале. С осени 1914 г. по весну 1915 г. на имперской территории отмечается все больше случаев насилия с участием хорошо вооруженных армянских комитетов. По оценке имперских чиновников, речь шла о скоординированной деятельности сплоченных отрядов повстанцев.[1]

Далее исследователь отмечает, что средоточием армянского повстанческого движения стал грузинский Тифлис (в составе Российской империи. – Э.А.), где армянские комитеты действовали с 1890-х гг. и сформировали разветвленную инфраструктуру. К лету 1914 г. в ее рамках работал «центральный штаб» по рекрутированию турецких армян-добровольцев в российскую армию. Автор отмечает, что еще 5 августа 1914 г. высшее российское командование обсуждало идею о том, чтобы вооружить армян и сподвигнуть их на восстание против османов. 29 августа генерал Н.Н.Юденич, командующий российской группой войск на Кавказе, издал меморандум «О вооружении турецких армян», в котором призывал вооружать их как своего рода «пятую колонну» (подчеркнуто нами. – Э.А.) (используя современный термин) в Османской империи.[2]

Автор далее приводит конкретные факты о том, что генерал Юденич предлагал организовать вдоль границы тайники с оружием, которое на Османскую территорию будут доставлять контрабандой доверенные армянские курьеры. Два дня спустя в соответствии с этим документом Юденич запросил у Ставки 25 тыс. винтовок и 12 млн патронов для вооружения армян.[3]

Далее Эриксон отмечает, что оценивая настрой и готовность турецких армян поддержать вооруженное восстание, российская сторона отмечала, что у армян достаточно схронов с оружием, но они «вряд ли рискнут поднять восстание, пока русские не окажутся у них на пороге».[4] И далее следует, что аналогичную работу по формированию антиосманских повстанческих отрядов русские вели среди лазов, греков и курдов.[5]

В главе подробно расписаны российские планы по использованию таких «героев» и лидеров армян, как Андраник, Дро, Амазасп, Г. Авшарян на

---

[1]Эдвард Эриксон. **Турки и армяне: Исследование борьбы с повстанцами**. РОССПЭН. Москва, 2018, с.198.
[2] Эдвард Эриксон. **A.g.k.**
[3] **A.g.k.**, с.198-199.
[4] **A.g.k.**, с. 199.
[5] **A.g.k.**, с. 200.

Кавказе и в Османской империи. Автор подчеркивает, что эти маневры отражают план Воронцова-Дашкова, но далее отмечает: «Османской разведке быстро стало известно о том, что происходит в России, а также о формировании и вооружении армянских добровольческих дружин. …7 сентября османский посол в Тегеране сообщил, что русские распространяют оружие среди армян на Кавказе».[6] Уже в середине сентября османский генштаб предупредил командующего Эрзурумской крепостью, что русские организуют армянские подразделения и проводят на Кавказе учения, готовясь к операциям против империи. В конце сентября Энвер известил 3-ю армию о совместной подготовке армянскими комитетами и русскими восстания турецких армян.[7]

Как отмечает Эриксон, 23 октября штаб 3-й армии доложил османскому генштабу, что большое количество вооруженных армян движется к Мушу, Битлису, Ванну и Эривани и делает следующее заключение: «Таким образом, накануне военных действий османское правительство и военное командование были хорошо осведомлены о деятельности армянских комитетов».[8]

Интересные сведения об османском противодействии планам российско-армянских сил в регионе приводит Эриксон в разделе *Османская военная деятельность на Кавказе,* в частности он пишет: «Османская империя не бездействовала на своих границах: осенью 1914 г. Специальная организация (Teşkilat-ı Mahsuse) (СО) вела агрессивную встречную кампанию против наращивания российско-армянских сил.[9] Здесь следует отметить, что данную информацию он приводит по работе С. Шоу (См.: Shaw S.J. The Ottoman Empire in World War I. Vol. 1: Prelude to War/ Ankara: Türk Tarix Kurum Basımevi, 2006, p.353-456). Далее он продолжает, что ответом СО на опасную ситуацию, которая складывалась в октябре вдоль российско-османской границы, стало создание оперативного отдела СО по Восточной Анатолии в Трабзоне под началом Рыза-бея и Наиль-бея.[10]

Согласно данным исследования С.Шоу, приводимых Эриксоном в своей работе, Рыза-бей остался в Трабзоне, а комитет по округу Ван, который возглавляли Джевдет-бей и Кязым-бей, был поставлен во главу организации революционной деятельности в России в городах Карс, Ардаган, Баку и в Грузии.[11]

В работе отмечена наибольшая активность из всех командиров СО, которую проявлял, несомненно Рыз-бей. Под его началом 600 чел. и 5 османских офицеров были распределены по группам и в октябре 1914 г. направлены на Кавказ для проведения рейдов и доставки оружия мусульманам Азербайджана и Грузии. В этих начинаниях Рыза пользовался активной поддержкой

---

[6] Эдвард Эриксон. **A.g.k.** s. 200
[7] **A.g.k.** s. 200
[8] **A.g.k.**, с. 200-201.
[9] **A.g.k.**, с.201.
[10] **A.g.k.** s. 201
[11] **A.g.k.**, с. 202.

флота, предоставившего несколько моторных лодок. К концу октября он уже докладывал, что грузины и мусульмане Кавказа готовы восстать и поддержать вторжение османских войск.[12]

Книга, бесспорно, изобилует интересными материалами и источниками, на основе анализа которых автор приходит к обоснованным выводам и заключениям. Завершить краткий обзор данной работы хотелось бы словами самого Эриксона, сказанных им в *Приложении*: «Точка зрения, которую я отстаиваю в книге «Турки и армяне», наиболее совпадает с мыслями профессора Дональда Блоксхема. Я тоже полагаю, что имела место кумулятивная радикализация османской политики, от регионального уровня к общенациональному, особенно с учетом военной антиповстанческой политики…. Я также соглашусь с профессором Блоксхемом, что каких-либо априорных решений о массовом уничтожении армян не принималось. Выскажусь и в пользу недавней работы Хильмара Кайзера. По мнению ее автора, материалы османского архива свидетельствуют: Джемаль-паша приложил значительные усилия к обеспечению защиты жизней и имущества перемещенных армян, что ставит под сомнение всю концепцию преднамеренного, санкционированного государством истребления армян во время или после переселения.[13]

Как мы объясним тот факт, что так много армянских граждан Османской империи не подверглись переселению? В частности, почему практически 350 тыс. армян в западных районах Османской империи остались в своих домах? Если целью являлось уничтожение, то почему не перемещали армян в западных провинциях? А также почему переселения полностью прекратились, особенно после весны 1916 г., когда, возможно, турки были близки к победе?[14]

Немаловажен (хоть и не касается работы над настоящей книгой) и вопрос, почему турецкие архивы открыты для ученых, тогда как архивы Армении, АРФ в Уолтхеме (Массачусетс) и Армянской патриархии в Иерусалиме – закрыты?

В заключении автор пишет: «Я постарался воздержаться от спекуляций и предположений и предпринял попытку провести анализ, основываясь на полных документах в соответствующем контексте, а не на извлечениях и отдельных отобранных цитатах и информации. Наконец, мои выводы (включая мои собственные переводы турецких и немецких документов) являются продуктом моего личного творчества».[15]

К сказанному можно лишь добавить, что затронутые в книге проблемы как никогда актуальны в свете происходящих в нашем регионе событий.

---

[12] **A.g.k.**, с. 203.
[13] Эдвард Эриксон. **A.g.k.**, с.308.
[14] **A.g.k.**, с. 309.
[15] **A.g.k.**, с.311.

*Azərbaycan tarixşünaslığı 2023 / Cild (84) №2* *ISSN 2523-4765*
*Səhifə 190-196*

**UOT 94(479.24)**

# TO THE BOOK OF "CAUCASIAN ALBANIA: AN INTERNATIONAL HANDBOOK" (DE GRUYTER PUBLISHING HOUSE), EDITED BY JOST GIPPERT AND JASMINE DUM-TRAGUT

REVIEW

©2023
ELLADA BAKİROVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCİD: 0000-0003-1788-1310; email: bekirovaella@gmail.com
https://doi.org/10.59849/2523-4765.2023.2.190

Jost Gippert is considered one of the well-known and world-renowned scholars in studies of Albanian history, especially in the field of Caucasian linguistics. He has repeatedly delivered reports of various content (mainly based on studies on the Albanian language) at conferences and symposia on the history of Albania held in Azerbaijan and other countries of the world, and his materials on the subject have been published in prestigious scientific journals. Jasmine Dum-Tragut is a scholar of Armenian studies of Armenian descent who works in Germany, and until her joint work with Jost Gippert, his scientific portfolio consisted mainly of works related to the Armenian language ("Armenian (London Oriental and African Language Library)", 2009, 758p.; "Cultural, Linguistic and Ethnological Interrelations in and Around Armenia", 2011, 205 p.; "Monastic Life in the Armenian Church", 2020, 224 p...). Although it seems surprising that an influential person like Jost Gippert co-authored a book with Jasmine Dum-Tragut, not with a person dealing with the history of Albania, and published it with the support of the European Union's Horizon 2020 research and innovation program and the support of the German Research Foundation (Deutsche Forschungsgemeinschaft (DFG))., everything becomes clear when you read the first page of the book. When the authors tried to give "background" to the handbook, they questioned the existence of the Albanian state from the very first sentence and considered it appropriate to write the word Albania in quotation marks. [In Late Antiquity and the Early Middle Ages, the Southern Caucasus was divided into three countries, Greater Armenia, Iberia (Eastern Georgia, Kartli) and the so-called Caucasian "Albania", p. V-Introduction]. The fact that a book called an international handbook on the history of Albania begins with such a sentence actually raises more serious questions. Later, the authors noted that Georgians and Armenians have been known for their culture, which they have consistently conveyed in their languages since at least the 4th century, "and the history and culture of Caucasian Albania and the peoples living there have "disappeared" due to the lack of autochthonous sources" [p. V-Introduction]. The use of the words "Caucasian Albania and the peoples living there" instead of "the absence of an autochthonous source" or "Caucasian Albania and the Albanian

ethnos" makes the existence of both the state and the ethnos undecided, and the real goal of the authors, who supposedly aim to prepare a "handbook on the history of Albania" comes out.

In the introduction, the authors tried to talk about the "tripartite agreement" signed after the Second Karabakh war and the results of the agreement. They did not hesitate to falsify the contract parties, which are known by all the principles of international law and are clear to the whole world. Instead of the Russian Federation, which is the third party to the joint agreement with the republics of Azerbaijan and Armenia, the authors indicated the so-called regime as a third party [After the Second Karabakh War in autumn 2020 and the ceasefire agreed between Armenia, Azerbaijan and the (internationally unrecognized) Republic of Artsakh in November 2020, p. V-Introduction], along with denying the historical reality, they also distorted it. It is hard to believe that an influential person like Gippert turned a blind eye to the distortion of the parties to the agreement established by international law in the 21st century, and became a part of the Armenian propaganda machine. When talking about the Albanian monuments existing in the Karabakh territory, the authors added "allegedly" to the beginning, noting that they are supposed to be Albanian monuments, but in fact they are Armenian monuments. They note that "Azerbaijani state and scientists are taking their history to Albanians and using it to create a historical root for themselves like Armenians and Georgians, to demonstrate a millennial presence in the region" [p. V-Introduction]. Although these sentences given in the introduction clearly reveal the purpose of the book, it is important to touch on the structure of the work and the personal considerations of the authors of the article.

